www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

“Çağdaş Azərbaycan poeziyası”: 15 (45 - 2013)

Qabil

“İlahi qismət”

Qabil. "İlahi qismət". Tanınmış xalq şairi, lirik-satirik şeirləri, aforizmləri, "Nəsimi" poeması ilə oxucuların yaddaşına həkk olunmuş Qabilin seçilmiş şeirlərindən ibarət e-kitab.

.

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 15 (35 - 2013)

2013

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

“Çağdaş Azərbaycan poeziyası”: 15 (45 - 2013)

Bu elektron nəşr http://www.kitabxana.net - Milli Virtual Kitabxananın “Çağdaş Azərbaycan poeziyası” kulturoloji-bədii layihəsi çərçivəsində nəşrə hazırlanıb və yayılır.

Elektron Kitab N 15 (45 - 2013)

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

YYSQ və Azərbaycan Yazıçılar Birliyi - http://www.azyb.net

Qabil

“İlahi qismət”

Qabil. "İlahi qismət". Tanınmış xalq şairi, lirik-satirik şeirləri, aforizmləri, "Nəsimi" poeması ilə oxucuların yaddaşına həkk olunmuş Qabilin seçilmiş şeirlərindən ibarət e-kitab.

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.

YYSQ - Milli Virtual Kitabxananın e-nəşri N 15 (45 - 2013)

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq



ŞAİR QABİLİN

ŞEİRLƏRİ

ANAMIN SÖZLƏRİ

Anam Suğraya ithaf edirəm

Gün keçir, zaman keçir, dövran çapır atını,

Geriyə fırlanmayır saatın əqrəbləri.

Lakin insan unutmur uşaqlıq həyatını,

Bu, qanundur dünyada, dostum, əzəldən bəri.

Xeyli vaxt bundan əvvəl, yadıma yaxşı gəlir,

Yad etdikcə o günü bu gün ruhum yüksəlir.

Bəli, gəlir yadıma:

Ağ köynək tikdirmişdi anam mənim adıma,

Geyindirdi o məni,

İndi də unutmuram o əziz hədiyyəni.

İpək köynək əynimdə axım-axım axırdı,

Hər baxana xoş gəlir, dönüb bir də baxırdı.

Bağımızın içində bir tut ağacı vardı,

O, pirani babamdan bizə bir yadigardı.

Mən bir gün səhər erkən

Gəlib ağaca sarı tut dərmək istəyirkən,

Ayrılıb saplağından bir qara tut dənəsi

Düşdü ağ köynəyimə... anamın hədiyyəsi

Ləkələndi... gözümdən tezcə düşərək həmən,

Kövrəldi incə qəlbim, mən ağladım o zaman.

Anam söylədi: - quzum, ağlama için-için,

Ləkəli köynəyini mən yuyaram sənin̂çin!

Göz bəbəyim, can balam, təki qəlbin saf olsun,

Səma kimi buludsuz, su kimi şəffaf olsun!

Gedər paltar ləkəsi, yuyular bircə anda,

Yalnız ürək ləkəsi silinməz bu cahanda.

1947

ANAMIN QANI...

(novella)

Anam Suğranın xatirəsinə

Müharibə... qırx ikinin qara günləri...

Unutdurdu kef-damağı, toy düyünləri.

Yoxa çıxdı süfrələrin nazi-ne'məti,

Üzdü xalqı, camaatı aclıq zilləti.

Xörək ətri, yemək dadı qeybə çəkildi.

Zorba-zorba adamların qəddi büküldü.

Dərman iyi... qan iyinə büründü Bakı,

Tənzifləmiş yaralı tək göründü Bakı.

Yaralının kəsilmirdi ardı-arası

Uzaq cəbhədən.

Onda axı harasıydı - hələ harası -

Gələydi də ümid verən

Soraq cəbhədən.

* * *

Bir gün dərsdən evə gəldim:

Bu nə deməkdir?

Bu nə süfrə, bu nə dəsgah, bu nə yeməkdir?

Lap ağ çörək... qolbas... süzmə... holland pendiri,

Hələm-hələm ələ düşməz dənəvər kürü...

Kərə yağı... şəkər tozu... mürəbbə, filan...

Təsvirsiz bir təbəssümlə

Anam dedi ki:

- Gəl çıx, hardasan?

Keç əyləş, bala!

Süfrəyə baxdım, getdim xəyala.

Kişilik - qeyrət hissim oyandı,

Qəlbimdə şübhə alovu yandı.

Soruşdum:

- Ay ana, hardandı bular,

Axı, hansı evdə bu saat bu var?..

Anam söylədi ki:

- Boyuna qurban

Əyləş, çörəyini ye,

Olma nigaran...

Allah ruzusudu -- pakdı, halaldı.

Bunun boyuna bax, bu nə sualdı?

Könülsüz yedim, uddum... yemədim,

Heç nə demədim...

* * *

Bir az müddət keçənnən

Yenə həmən dəsgahı,

Yenə həmən süfrəni

Gördüm evimizdə mən.

Bu dəfə ayağımı yerə möhkəm dirədim,

Xoruzlanıb anamın lap üstünə yeridim:

- Hardan, kimdən alırsan bu zəqqumu, zəhəri?

Baxdım gördüm anamın yaşla doldu gözləri...

Qucaqladı boynumu, öpdü nəmli gözümü,

Kövrək ana ərkiylə şillələdi üzümü:

Dedi:

- Zəhrimar demə, bu zəhrimara, oğlum,

Gedirəm qan verirəm yaralılara, oğlum.

Tapılmayan bu şeylər taqətimçün verilir.

Yenə də qan verməyə növbətimçin verilir.

Bu süfrə, bu naz-ne'mət qanıma əvəz, oğlum!

Get, ay anası ölmüş, get arxayın gəz, oğlum!

* * *

Düşdüm ayaqlarına məs'um anamın bu dəm:

- Ay anam, belə çıxır mən qanını yeyirəm?

Qan bahası süfrəni bir də açsan əgər sən,

Axtarma, baş götürüb qaçacağam bu evdən.

2 sentyabr 2000

ANA

Anam Suğranın əziz xatirəsinə

Məzarının başından

Kəsilmədi ayağım.

Keçdi günlər, həftələr

İslandı kipriklərim,

Qurumadı yanağım.

Keçdi günlər, həftələr

Əbədi həsrətinlə

Alışıb yana-yana.

Sənsiz bir ovuc külə

Dönmək istədim

Ana, ay ana!

Dedilər səbirli ol...

Çoxdur yetim sənintək

Axı, kimin anası

Dünyadan getməyəcək?

Eşitmək istəmədim

Təsəlli verənləri,

Təsəlli unutdurar

Bəlkə ayrı kədəri.

Vaxt ötdü, il dolandı.

Heç bilmədim, gözümün

Yaşı necə dayandı.

Mən necə sakit oldum?

Mən necə aram oldum?

Dedim, güldüm, danışdım,

Dərdsiz bir adam oldum.

Üstündəki təpəni

Yağış yudu, apardı.

Dövrəndəki gülləri

Külək yoldu, qopardı.

Sən gecələr gözünü

Zilləyirdin yorğana.

Birdən bir az sürüşər.

Birdən üstümdən düşər

Ana, ay ana!

Sən məni tərk edəli,

Bu işıqlı cahana

Yüz dəfə günəş doğub,

Yüz dəfə axşam düşüb,

Mənim dərdimi boğub,

Mənim gözümü silib

Təbiətin öz əli,

Həyatın öz axarı.

Mənim üçün çırpınan

O müqəddəs qəlbinin

Sahilsiz arzuları.

Axı, sən özün mənə

Demişdin dönə-dönə,

“Gedən quru bədəndir”,

Ana, ay ana?

Ruhun əbədi köçüb

Qəlbimdəki cahana.

1963

MƏNİM XALAM

Xalam Rübabəyə

Xalamgilin həyətində bircə ağac var,

Neçə ömür yola salmış püstə ağacı.

Xalam ona hər baxanda oğlunu anar,

Köks ötürər, səbr eləyər, nədir əlacı?!

Yazda ağac bəzənəndə təzə gəlintək

Oğul toyu gəlib durar gözündə onun.

- Balam hanı? Çərxin dönsün,- deyər, ay fələk!

Bir cavabsız sual gəzər üzündə onun.

Sinəsində çarpazlaşar sevinc ilə qəm,

O baxanda bir cavanın uca boyuna...

Oğlunun toy axşamını anarsa, bu dəm

Təsəlliylə qanadlanar nəvə toyuna.

Yayda püstə salxım-salxım gətirəndə bar,

Dərər, onu qonşulara paylayar xalam.

Balasının sovqatını torbada saxlar

İnam ilə yol gözləyən ixtiyar xalam.

Mənim xalam həsəd çəkər, qibtə eləyər,

Meyvəsiylə fərəhlənən bu xilqətə də.

Ürəyində oğul dərdi hər axşam-səhər

Gileylənər allaha da, təbiətə də.

Hamı örtər qapısını girincə payız,

Bir qəriblik, bir sakitlik çökər hər yerə.

Külək əsər... xalam gəzər həyətdə yalqız.

Səpələnər qızıl-qızıl xəzəllər yerə.

Xalam baxar üryan qalmış ağaca bu dəm.

Baxar, baxar, özünü də oxşadar ona.

Xatırladar o günü ki, çaxnaşdı aləm,

Səmum yeli həsrət qoydu onu oğluna...

Qışda püstə başdan-başa bürünər qara,

Budaqlardan buz sallanar almaz sırğatək.

Onda xalam ümidini bağlar bahara,

Deyər: - Oğlum harda olsa, yazda gələcək.

Axı yazda həyat gülür, təbiət gülür,

Köçüb gedən quşlar belə, qayıdır geri.

Arzu dolu hər ürəyə səadət gülür,

Cana gəlir püstənin də düyməcikləri.

Deyirlər ki, atılanda novruzun topu

Hasil olur neçə mətləb, neçə arzu-kam.

Səbrim dönüb ümman olar həqiqətsə bu,

Təki bayram axşamına qayıtsın balam!

O, haçandır yol gözləyir bu minval ilə,

Bir il deyil, beş il deyil, illərdən bəri.

Qorxusundan xəyalına gətirmir belə

Ümidini puç edəcək bəd fikirləri.

Oğlu gəlib göz önündə canlanır müdam,

İynə ucu şübhə belə ondan kənardır.

Püstə ilə bir sürəcək ömrünü xalam,

Onun barı, bunun isə balası vardır.

1958

ANASIZ

Sən yaşda anasız qalmasın heç kim,

Ey ağlı kəsməyən körpə namikim!

Axı hara yazım bu dərdi, hara?

Ananı tapşırdıq bu gün məzara.

Torpağa əmanət verdik onu biz,

Yandı ürəyimiz, doldu gözümüz.

Sən də oradaydın, sən də, ay tifil!

Gəzməyə gəlmişdin ora elə bil.

Heyrətlə baxırdın baş daşlarına,

Sel kimi tökülən göz yaşlarına.

Gördüm ki, ananı axtarırdın sən,

Ondan soruşasan, ondan biləsən.

Əmilər, xalalar, niyə ağlayır,

Hamı “Ceyran, Ceyran” - deyə ağlayır...

...Anamın adını niyə çəkirlər?

Söyləyin, anama nə olub məgər?

Yox, yox, sən körpəsən, uşaqsan hələ,

Belə suallardan uzaqsan hələ.

Bəlkə heç bilmirsən nə yerdir, bu yer,

Bəlkə heç bilmirsən nə sözdür "qəbir".

Əlində qırmızı "aftomobil" var,

Əynin təptəzə çəməni paltar...

Anan geyindirən son paltardı bu,

Geyindirməyəcək səni bir daha...

Anasız yetimin işi, ay quzu,

Bilənlər bilir ki, qalıb allaha...

Ana əllərinin istisi hələ,

Üzündə dolanır, saçında gəzir,

Yetimlik dərdinin tüstüsü hələ,

Bilmirsən, görmürsən, duymursan nədir...

Qorxuram ögeylər əlində qalsın,

Səhərlər qulağın... axşamlar saçın...

Sirrin ürəyində rəngin saralsın.

Evdən qaçmaq olsun axır əlacın.

Camaat qarışıb biri-birinə,

Sənsə maddım-maddım baxıb durursan.

Özün soruşursan, deyirlər sənə:

Bu saat, bu saat gələcək anan...

Hamının gözünü nəmli görürsən,

Səni öpənləri qəmli görürsən.

Atan sənindir, doğmadır, sağdır,

Bu gündən anan da o olacaqdır.

Hamı dəstə-dəstə qayıdır geri,

Ananın məzarı orda tək qalır.

Külək yırğalayır təzə gülləri,

Zərif yarpaqları qoparıb salır.

Zaman dövrə vurub dolanacaqdır.

Sular durulacaq, bulanacaqdır.

Sən də yaxşı-yaman böyüyəcəksən,

Əcəl versə aman, böyüyəcəksən.

Ana həsrətilə qəlbin yanacaq,

Ana məzarına qanadlanacaq.

1965

KƏDƏRİM - SEVİNCİM

Mənim bircə balam, mənim tək qızım!

Odur, böyüyürsən sən yavaş-yavaş,

Həm baxıb oluram sevincək, qızım!

Həm də kipriyimdə gilələnir yaş.

Sən hələ uşaqsan - qayğıdan uzaq,

Hələ çox razısan özün-özündən.

İşin dəcəl-dəcəl qaçmaq, oynamaq,

Mənsə... sabahını düşünürəm mən.

Sənin bircə görən gözün var, qızım,

Bir gözün soyuqdur şüşədən, buzdan.

Qəlbinə dəymir ki, uşaqlar, qızım?

Nə qədər ardınca qalım nigaran?..

Sağ gözün kipriyə, qaşa yaraşır,

Kaş ki, sağ görəydim bütün gözləri.

Qızım, göz insana qoşa yaraşır.

Bəs necə gəzdirim mən bu kədəri?

Ay qızım, necə də yaraşıqlısan,

Sənə əvəz verib sanki təbiət.

O baxır üzünə, olur peşiman,

O baxır gözünə, çəkir xəcalət.

Saçında günəşin qızıl boyası,

Çiyələyin rəngi yanaqlarında.

Körpə nəfəsində bahar havası,

Səhər təbəssümü dodaqlarında.

Rəssama şəklini çəkdirmişəm mən,

Şəkildə bilinmir... qüsurun, qızım.

Bilinsə nə olar... xiffət etmə sən,

Sınmasın vüqarın, qürurun, qızım.

Bəxtin puç olmasın, arzuların zay,

Ötsün hər axşamın, hər səhərin şən.

Qızıl telli günəş, gümüş telli ay,

Qızım, əsirgəməz nurunu səndən.

Anayam... baxıram, dözmür ürəyim...

Gizlində boşalır, dolur gözlərim.

Gənclik yadigarım, ömür çiçəyim,

Gizlində qövr edir dərdim-kədərim.

Ulduzlar gözüdür sonsuz göylərin,

Ulduzlar deyir ki, biz sənə qurban.

Gəlir pilləkəndən ayaq səslərin,

Silir gözlərinin yaşını anan.

1963

İSKƏNDƏRİN ANASI

Oğlunun dəfn günü lap fəğan etdi ana,

Gözündən göz yaşı yox, od tökdü qəbristana.

Saçını çəngə-çəngə yoldu, yellərə qatdı.

Qəzəbli fəryadilə yeri-göyü ağlatdı.

Üsyan etdi allahın məsləhətsiz işinə,

Üsyan etdi oğlunun əlində tir-tir əsən,

Böyük məmləkətləri

Yarpaqtək bir-bir əsən

Dünyanın gərdişinə!

İskəndəri kəbirin anasıydı bu ana.

Elə gəldi ki, ona -

Oğlu zarafat edir yer-göylə, kainatla,

Qılıncıyla “sahmana saldığı” bu həyatla.

Peyğəmbər alimlərin ağlını çaşdırır o.

Yuxuyla həqiqəti qəsdən dolaşdırır o.

İskəndərsiz yaşamaq fikrindədirmi bəşər?

Sözsüz zarafat edir bu bəşərlə iskəndər.

Min il bundan qabaq da,

Min il bundan sonra da

İkinci İskəndərin zühuruna nə güman?

Uşağım yeganədir - kor deyil, görür cahan.

Yox, mənim yeganəmi basdırmayın torpağa.

İndicə silkələnib o qalxacaq ayağa.

Fəqət adicə bir dəfn... adi torpaq, adi daş.

İskəndərin anası toxtadı yavaş-yavaş,

Başa düşdü ki, ölüm gədaya, şaha baxmır.

Göz yaşına, fəryada, amana-aha baxmır.

Ana naləsi sonsuz, ana qüssəsi dərin.

Ana layla çalsa da qəbrinə İskəndərin,

Oğlunun ölümüylə yenə də barışmadı.

Üsyan etdi, heç yerdə büzüşüb qırışmadı.

Qaranlıq qanadını gərən kimi hər yana.

İskəndərin anası gələrmiş qəbristana,

Ağ, pərişan saçları dağılarmış zülmətə.

Qışqırığı sükutu gətirərmiş dəhşətə.

Qəbirlərdə sümüklər şıqqıldarmış səsindən,

Sərdabələr uçarmış səsin vahiməsindən.

Yerin-göyün qulağı tutularmış az qala:

Qy İskəndər, hey...

Ay İskəndər, huyy...

Əks-səda verərmiş lap qəbirlər, huyy!

Gün nədir, həftə nədir, sən danış ildən, aydan.

Ulduzlar hərasanmış sübhəcən bu haraydan.

Otlar, güllər, çiçəklər, quşlar gəlmişdi zara.

Bu fəryad qoşulmuşdu dəryada dalğalara.

Bayquşlar, yarasalar qorxub yerə sinirdi.

Qocalar köks ötürür, körpələr diksinirdi.

Az qalmışdı anadan allah eyləsin giley...

Ay İskəndər, ay İskəndər, ay İskəndər, hey!

Gündüz bilən yox idi ana necə olurdu.

Ana harda qalırdı,

O, gecədən gecəyə dəli şivən salırdı.

Gecələrin birində öz adətiylə ana

Yenə də gəlib çıxdı lal-dinməz qəbristana.

Ay İskəndər, ay İskəndər, huyy!

Ay İskəndər, heyy!

Bircə göz qırpımında yarıldı min bir qəbir.

-Ana, nədir?

Hər qəbirdən bir igid qalxıb dedi:

- Anacan!

Hərasan edəcəksən bizləri haçanacan?

Ömrümüzə vəfasız çıxdı ana qucağın,

Dincələk qucağında barı ana torpağın.

Fəda olardıq sənə, sağ olsaydıq əgər, sağ.

Ruhumuz sənə qurban, bizləri rahat burax!

Girib insan şəklinə qəbir daşları bir-bir

Ananın ayağına yıxılmaqçın yeridi.

Ana bu vahimədən sanma donub dayandı.

Gördüyünü ikrahla adi həqiqət sandı.

- Karsınız? Eşitmirsiz, burda haçandan bəri.

Çağırır, çağırıram mən ancaq İskəndəri.

Teyiflər lap dövrəyə aldı ananı bu dəm.

Teyiflər bir-bir dedi:

- Mən,

- Mən,

- Mən,

-- Mən İskəndərəm.

Ana qəhqəhə çəkir:

- Siz! İskəndər

Bilsəydim ki, İskəndər

Miqdarsızmış bu qədər

Bətnimin zülmətində

Boğardım İskəndəri.

Heç doğardım İskəndəri?!

Teyiflər gülmsəyir, anaya ibrətamiz;

- Bəli, İskəndərik biz.

- Gəl, yaxşı bax bu ucsuz-bucaqsız qəbristana.

Neçə-neçə İskəndər gəlib-gedib cahana.

Neçə-neçə İskəndər hələ gəlib-gedəcək

Hər iskəndər özü də əvəzsiz, yeganə, tək...

Fikir ver ulduzlara hesabı yox, sayı yox,

Ancaq hər ulduzun da bərabəri, tayı yox.

Həsrətdən çox, qürrədən od tutan dili qafil,

Toxta ki, burda yatan tək sənin oğlun deyil.

Ey fateh İskəndərin iddialı anası!

Sözüm yox, analar balasıyçın yanası.

Ancaq sənin övladın demə ki, yeganədir.

Yeganəlik söhbəti nağıldır, əfsanədir.

Yeganəlik söhbəti bu yerdə lap hədədir,

Bir bax, sərdabələrə - İskəndər nə qədərdir.

Ana, möhtərəm ana!

Ana, möhtəşəm ana!

Rahat ol, innən belə.

Qəbristan çevrəsində

Dolanma gennən belə!

Yoxa çıxdı teyiflər sükut sardı hər yanı.

İskəndərin anası tərk etdi qəbristanı.

Aprel, 1976

AĞ LİBASDA

Fransız rəvayəti

Üzündə buludlanan kədəri qovdu ana,

Gözündə tüğyan edən selləri boğdu ana,

Boğazında ilişən qəhəri uddu ana

Dodağını yandıran zəhəri uddu ana

Ana gəlin anaydı.

Ana cavandı hələ.

Yaralanmış sonaydı

Düşmüşdü qanlı gölə.

Oğlu dar ağacından asılacaqdı səhər.

Neynirsən ki, günahı nə idi, nə deyildi.

Hökmü möhürlənmişdi biryolluq yerlər-göylər...

Vurnuxub çırpınmağın xeyri yox... yaxşı bildi.

Yaxşı bildi ki, ana

Ümid yoxdur ümidə...

Güman yoxdur gümana.

Tanışlar sorağında... ünvanlar sorağında,

Bu zülmü rəva bilməz vicdanlar sorağında.

Ana dolandı dör-dör, ana fırlandı fır-fır,

Gördü yox - bağlanıbdır, hər yol, hər iz, hər cığır.

Qapılar döydü ana,

Olmadı açılanı...

Neylədi onda ana? Özünü öldürdümü?

Dəli olub üstünə aləmi güldürdümü?

Yox!

Ağıl dəryasına çevrildi o bu ara,

Pıçıldadı astaca, söylədi öz-özünə;

- Balama tapdım nicat, nicata tapdım çara.

Ana

Üz qoydu balasının atıldığı zindana.

Ana başdan-ayağa geyinərək zil qara

Üstəlik də bürünüb sonsuz qaranlıqlara

Yerlə-göy arasında uçurdu mələkətək,

- Şükür olsun ki, balama nicat tapdım - deyərək.

Ulduzlar göz qırpmayıb baxırdı maddım-maddım,

Ay nur saçırdı onun yoluna addım-addım.

Bir çılğın, bir pərişan, bir qorxunc, bir gənc ana

Can atırdı oğlunun atıldığı zindana.

Açarlar cingildədi, ana girdi məhbəsə:

- Ana!

- Can ana!

- Ümid varmı?

- Susss... heç nə demə heç kəsə!

- Məni asmayacaqlar səhər tezdən, deməli?!

Yol tapıb görüşmüsən hakimlə sən, deməli?!

Oğul sevindiyindən az qaldı ki, bağıra,

Ana pıçıltı ilə - sus! - söylədi fağıra,

Qüvvətli qollarıyla oğlunu qucaqladı,

Ürəyində ağladı.

Dedi:

- Görüş qurtarır, qulaq as, mənim balam,

Səhər səni gözləyir yalanbaşdan bir e’dam.

- Ay ana, e’damın da yalanı olur məgər?

Ana qəsdən qeyz ilə:

- Bəsdi, - dedi, - ağciyər!

Meydan da, izdiham da necə var, qaydasınca,

İpi sabunlayacaq cəlladlar qaydasınca,

Kətil də tərpənəcək ayağının altında...

Keşiş də vird edəcək dodağının altında...

Bu təsvirin önündə oğul titrədi tir-tir:

- Daha bunun harası, bunun nəyi ümiddir?

- Körpəm, sən axıracan kişi kimi dayan, dur

Axırda görəcəksən: bu həngamə yalandır...

İxtiyar sahibləri mənə qəti söz verib,

- “Göz üstündə oğlunun bəraəti!” - söz verib.

- Qorxma, - söylədi ana

Hövl etdi, bağrı yandı.

- Yalana bax, yalana,

Allah bu nə yalandı?!

Açarlar cingildədi, görüş yetişdi sona.

- Ana!

- Can ana!

- Qorxuram, mən qorxuram,

Mən ölümdən qorxuram,

Yox, yox, səhərə qoyma

Bu saat qurtar məni,

Özünlə apar məni!

- Qulaq as, mənim balam,

Zarafat olacaqdır sabah səhərki e'dam.

- Bəs nədən biləcəyəm bu zarafatdır, ana?

- Mən ki, düm ağ libasda varid oldum meydana -

Qalx e'dam kürsüsünə, addımlarında inam,

Qoy çaşsın heyrətindən, qoy sarsılsın izdiham.

Açılan kimi səhər

Şeypurlar zilə çəkdi, toppuzlandı təbillər...

Meydana axdı şəhər

Ölüm hökmü oxundu, izdiham dalğalandı.

Görüb cavan uşağı meydan alışdı-yandı.

Ölüm hökmü oxundu... məhəl qoymadı uşaq,

Anasını axtardı, çaşqın gözləri ancaq...

Ölüm hökmü oxundu "nə dəxli, nə mə'nası",

İndicə ağ libasda görünəcək anası...

Ölüm hökmü oxundu, oxunsun, ona nə var,

Bəs neçin başdan-başa qara geyib adamlar?

E'dam günü bu şəhər

Böyükdən-kiçiyəcən, adətdi qara geyər.

Ölüm hökmü oxundu, cəllad yanaşdı ona...

Ana düm ağ libasda bu dəm gəldi meydana.

Ananın gəlişiylə bir vaxta düşdü e'dam...

Barmağını dişləyib köks ötürdü izdiham.

İzdiham uşaq deyil, başa düşdü o saat,

Vahiməsi olmasa, nə var ölümdən rahat.

Elə bil təzə bir şey kəşf elədi bu meydana,

Əzrayıl görünməsə, nə var ölümdən asan...

Gözünü yaxşı-yaxşı açdı xalq, açdı inan,

Bu bəyaz mələkənin əzminə qaldı heyran.

Bağrına öz əliylə daş bağladı bir ana,

Və bütün anaları çağırdı bu meydana.

Dedi:

- Saldıra bilməsəniz balanızı ölümdən

Eybi yox, heç olmasa xilas edin zülmdən...

Qoruyun - tir-tir əsib, titrəməkdən qoruyun!

Qoruyun - səndələyib, büdrəməkdən qoruyun!

Qoruyun - miskin, zəlil görünməkdən qoruyun!

Qoruyun - dizin-dizin sürünməkdən qoruyun!

Qoruyun - göz yaşından yanağını qoruyun!

Cəllad çəkmələrindən dodağını qoruyun!

Saldıra bilməzsəniz balanızı ölümdən,

Eybi yox, heç olmasa xilas edin zülmdən.

1978

AĞRI

“Nə üçün çox istəyirəm mən öz anamı” -

Bu barədə yazı yazır sinifdə hamı.

Xışıldayır kağız-qələm,

Yol çəkir gözlər,

Ehtiyatla sıralanır sadəcə sözlər...

Hamı gərgin, hamı məşğul,

Başlar aşağı,

Bütün sinif yazı yazır, göz qoyuram mən

Bütün sinif... bütün sinif... bəs o uşağı

Lap küncdəki o uşağı görmürəm nədən?

Əllərini niyə vurmur ağdan-qaraya?

Kimi çatır lap axıra, kimi yarıya.

Qəzəbimi, hiddətimi boğub güc-bəla,

İstehzalı təbəssümlə söylədim: - bala!

Görünür ki, öz ananı çox sevdiyindən

Bu söhbətdən bir kənara çəkilmisən sən?

Uşaq baxdı gözlərimə mə’lul, mülayim,

Pıçıltıyla: - anam yoxdur, -

Dedi, - müəllim!..

1975

MƏNİM NATƏVAN QIZIM

Məzar-heykəldə yazı

Ata-ana

Yana-yana

Balasını

Basdı yanıq bağrına,

Tapşırdı nəm torpağa,

Camaatın gözündən

Qüssə yağdı, töküldü,

Töküldü nəm torpağa.

Göz yaşının oduna

Kiprik yandı, qaş yandı,

Məzara daş düzdülər...

Daş alışdı, daş yandı.

Qəbr üstündə mərmərdən

Bir abidə ucaldı.

Baxanın gözü doldu,

Baxanın gözü qaldı.

Canlı bir surət oldu -

Məhzun dayandı mərmər,

Görünməz bir alovla

Alışdı-yandı mərmər.

Heykəlin sinəsində

Üç kəlmə söz yanırdı:

“Mənim Natəvan qızım”

Üç parça köz yanırdı:

“Mənim Natəvan qızım”

Yandığından ayrı söz

Tapmadı ata-ana,

Bu qəbri, bu heykəli

Yadigar bağışladı

Göyərçin Natəvana.

1981

ANAMIN RUHU

İtmisən içində otun-alağın

Çoxdandı gəlmirəm ziyarətinə

Qaralıb baş daşın, qopub suvağın

Nə deyə bilərəm şikayətinə.

Xəcalət içində, xiffət içində

Qəbrini səliqə-səhmana saldım.

Xəyali görüşə həsrət içində

Yumub gözlərimi xəyala daldım.

Baxımsız, mükəddər məzarın abad

O gecə yuxuma gəldin aşikar.

Ruha inanıram - ruhun olsun şad

Yaxşı ki, ruhani təsəllimiz var.

2 sentyabr 2000

VƏTƏN

Mən gözümü bu torpaqda açmışam,

Mənim dilim bu torpaqda söz tutub,

İməkləmiş, yerimişəm, qaçmışam -

Dizlərimi qanadanda daş-kəsək

İlk yaram da bu torpaqda köz tutub.

Tarixində adım-sanım yox onun

Hardan olsun, neynəmişəm axı mən?

Ancaq vətən mənim kimi çoxunun

Zəhmətini çox çəkmişdir əzəldən.

Əllərimdən tuta-tuta aparmış,

Məni həyat yolarına çıxarmış.

Bu yerdədir rişələrim, köklərim -

Ulu babam bu torpaqda uyuyur.

Vətən - mənim al şəfəqli səhərim,

Onsuz günəş gözlərimdə soyuyur

Vətənsizin nə günəşi, nə ayı?..

Vətən yoxsa - hər şey hədər, havayı.

Qarış-qarış dolansam da cahanı,

Gözəlsə də yad ellərə səyahət,

Heyran-heyran seyr etsəm də hər yanı,

Səyahətim burda bitər, nəhayət.

Ağuşuna çəkər məni torpağım,

Harda olsam, harda gəzib dolansam

Burda tapar əks-səda sorağım.

Bir-birindən hər şey qopar, ayrılar -

Ayrılmayan bəs nə var?

Mən,

Vətən!

1963

AZƏRBAYCAN TORPAĞI

Harda ümman görürəm,

Sən yadıma düşürsən,

Mənim mavi Xəzərim!

Harda liman görürəm --

Sən yadıma düşürsən,

Mənim doğma şəhərim!

Harda sahil görürəm -

Qumlu-qayalı sahil

--Buzovnadır, -- deyirəm, --

Bura başqa yer deyil.

Bir qəşəng göl görürəm.

Sanmıram ögey gölü.

Çünki xatırladır o,

Mənə bizim göy gölü!

Qarşıma dağ çıxırsa

Başı qarlı, dumanlı,

Ətəkləri yamyaşıl,

Döşü qalın ormanlı -

Şah dağı tək, kəpəz tək

Əziz bilirəm onu.

Mən Talış dağlarıyla

Əkiz bilirəm onu!

Torpaqları çörəkli,

Bağları barlı edən,

Kəndləri, şəhərləri

Axar-baxarlı edən

Bir çayın sahilindən

Yolum düşürsə haçan

Deyirəm ki, o, Kürdür,

Axıb gedir yanımdan.

Nə dildə qanad açsa

Şirin bir nəğmə əgər:

Onunla şadlanarsa

Qəmlənərsə ürəklər,

Oxşayarsa insanın

Xəyalını, ruhunu,

Azərbaycan nəğməsi

Zənn edərəm mən onu!

Azərbaycan torpağı,

Öpüm, öpüm səni gəl!

Axı, səndə görmüşəm

Hər şeyi əvvəl-əvvəl.

Axı, səndə bilmişəm

Nə var, nə yox dünyada,

Axı, səndə görmüşəm

Hər şeyin qəşəngini --

Bağçaların barını,

Çayların axarını

Üfüqlərin rəngini;

Dostluğu, sədaqəti,

Sevgini, məhəbbəti

Səndən ayırsa belə

Dənizlər, dağlar məni,

Nə xoş gəlsə gözümə

Qoynuna bağlar məni.

Dünya mənə xoş gələr

Həyatın hər bir çağı? --

Sən bir dünyasan demək,

Azərbaycan torpağı

GÖYGÖl

Qocaman Kəpəzin ətəyində sən

Necə narın-narın cilvələnirsən.

Sahillər ətrindən xumar, göy gölüm!

Gah qırçın, gah da ki, hamar göy gölüm!

Bir anda neçə cür görkəm alırsan,

Bir anda neçə cür rəngə çalırsan.

Hər zərrən, hər gilən dürdanədirmi?

Nağılmı, xəyalmı, əfsanədirmi -

Qarşımda açılan mənzərən sənin?

Bayaqdan önündə durub mən sənin

Hüsnünə baxıram səssiz-səmirsiz.

Birinci dəfədir görüşürük biz.

Bunu xəcalətlə deyirəm, inan,

Bəlkə də keçərsən bu günahımdan,

Dağlar arasıyla burulan göy göl.

Bə’zən güzgü kimi qırılan göy göl!

Qırılma, meşələr, dağlar kövrələr...

Marallar ağlayar, qırılsan əgər...

Gəlinlik aynası bu təbiətin,

Sənsiz üzə gülər bu yerlər çətin.

Rəssamı köməyə çağırmıram mən,

Zərər yox, utanmaz varını verən.

Budaqlar əks edir səthində sənin,

Yarpaqlar rəqs edir səthində sənin.

Onlar öz rəngiylə boyamış səni,

Onlar gömgöy etmiş bahar, qış səni,

Yoxsa sən şəffafsan adi sular tək,

Safsan, ləkəsizsən pak duyğular tək.

Dibin gör necə də görünür aşkar,

Köklər, ilanvari qıvrım budaqlar

Saçaq-saçaq otlar, əlvan balıqlar,

Xırda şappıltıdan qorxan balıqlar;

Qayıqla seyrinə çıxıram bu dəm.

Avar çəkənlərin qolları möhkəm,

Çəkirlər, axırıq sularında biz,

Ətrafa baxırıq sularında biz.

Sən göy, asiman göy, dağ göy, meşə göy,

Hər bir guşə dilbər, hər bir guşə göy.

Əks edir quşların cəh-cəhi səndə.

Əks edir min qəlbin fərəhi səndə.

Rahat nəfəs alır ciyərlərimiz,

Bir anda on beş il gəncləşirik biz.

Göy Gölün qoynunda qayıq yellənir,

Qayığın içində qarmon dillənir.

Nəğmə oxuyuruq ürəyimiz şad.

Fikrimiz, duyğumuz açdıqca qanad -

Biz gölə sığmırıq, göl yatağına,

Alqış ömrümüzün bahar çağına!

Buludlar ötüşür qatarbaqatar,

Sularda tərsinə əks edir onlar:

Üzür bir sal buzun parçaları tək

Kiçilir, əriyir gözdən itərək.

Göy Göl, gözəlliyin gəlməsin gözə,

Min il bəzəmisən, min il də bəzə

Bizim Azərbaycan torpağını sən.

Sənin sahilinə kim gəlmir qonaq

Odur qatar-qatar çadırlara bax!

Göy Göl, keşiyində durmalıyıq biz.

Bizim səliqəmiz, bizim zövqümüz,

Burda başqa aləm yaratsın gərək.

Gərək görünəsən min dəfə qəşəng,

Sorağı ellərə yayılan Göy göl!

İncilər incisi sayılan Göy göl!

Mən sənin seyrinə dalsam da min il

Gözüm tamaşadan yorulan deyil.

Mən səni öpərəm, içərəm, Göy göl!

Qətrənçin canımdam keçərəm, Göy göl!

Axı, bircə ovuc su deyilsən sən

Anasan, torpaqsan, vətənsən, vətən!

1960

BAKILI

Dünyaya tanıtdı Azərbaycanı

Bakının şöhrəti, Bakının şanı.

Odlar diyarının ürəyidir o,

Arxası, dayağı, köməyidir o.

Hasarsız, çəpərsiz bağlar şəhəri

Qışın özündə də bahar şəhəri!

Küləyi, tufanı, çılğın nərəsi...

Qartal qanadları bəxş edir bizə,

Mətanət gətirir iradəmizə.

Bakı qonaqsevər, üzügülərdir;

Səyyahlar ayrılmaq istəmir ondan,

Sərvəti, dövləti dünya qədərdir.

Burda tel-tel olur qızıl zə'fəran.

Xəzər sahilində mirvari qumlar,

Kəhrəba salxımlar, şəvə salxımlar

Mənim şəhərimin naz-ne'mətidir,

Öz təbiətidir, öz ne'mətidir.

Qədim qız qalası - qədim töhfəsi.

Xəzər qalxıb-enən geniş sinəsi,

Əlvan çilçıraqlar gözünün nuru,

Vurğunun heykəli sonsuz qüruru.

Nəbzində arazın, kürün ahəngi.

Başında dəlidağ yaylaqlarının

Şehi cilvələnən əlvan çələngi.

Ruhunda Göy gölün şe'riyyəti var,

Qəlbində Sumqayıt hərarəti var.

Uzaq dağlardakı kəndimiz belə

Bakısız yaşamır bircə anını,

Onunla tanıdır öz ünvanını.

Qürurla üz tutub bütün cahana

Bakılı deyirəm Azərbaycana

1960

PİRŞAĞI

Qulağımda dənizinin laylası,

Ciyərimdə bağlarının havası.

Şanısının kəhrəbası, şəvəsi,

Dimdiklənmiş əncirinin şirəsi.

Nəfəsimdə gilavarı, xəzrisi,

Xəyalımda tozlu yolun əyrisi.

Narın qumda naxış-naxış izlərim,

Anam üçün doluxsunan gözlərim...

1968

GÜL BAĞI

lənkəranın Gül bağında gəzirəm.

Mən behiştin qucağında gəzirəm.

Dəniz qaş-daş, günəş qızıl, göy əlvan.

Yaşıl meşə təzə qalxıb yuxudan.

Bülbül xoru himn oxuyur cəh-cəhlə,

Gül bağında dinləyirəm fərəhlə.

Inanım, ya inanmayım gözümə,

Heyranam bu yaraşığa, düzümə.

Çiçəklərin səltənəti burdadır,

Ətrin, rəngin şe'riyyəti burdadır.

Ahəngi var burda zövqün, zəhmətin.

Nişanı var iradənin, qüdrətin.

İş güllərdə, çiçəklərdə deyil, yox...

Təbiətdə çiçək nə çox, gül nə çox.

Səpələnmiş yüz elə, yüz diyara,

Çəmənlərə, meşələrə, dağlara.

Adam var ki, gəlib çatar yüz yaşa

Min bir gülün əllisinə, inanın,

Bir baxışda edə bilməz tamaşa.

Beləsinə söyləyirəm, di tələs,

Coşsun sənin damarında qoy həvəs.

lənkəranın gül bağına çat görək.

Rayihələr dəryasında bat görək!

Bütün dünya çiçəkləri burdadır,

Çiçəklərin göyçəkləri burdadır.

Ölkələrə burdan gedir şitillər.

lənkəranım bəxtəvərdir, bəxtəvər.

Qız-gəlinlə dolu olur gül bağı.

Qız-gəlinin telində gül yarpağı.

Oynayırlar, çiçəklərin nazıyla,

Oxşayırlar şirin-şirin söz ilə.

Qara torpaq nə yetirmiş, baxın bir,

Torpaq deyil, o ki, canlı xəlidir.

Hər naxışı çırpıntılı bir ürək

Qarşısında fırça aciz, dil gödək.

Təbiətdə yeddi rəng var - bəs nədən

Bu çiçəklər sərgisinin içində

Rast gəlirəm dürlü-dürlü rəngə mən?!

Körpələrin nəfəsi tək tər-təmiz,

Körpələrin çöhrəsi tək ləkəsiz,

Qəlbimizin çeşməsindən su içən,

Xəzan görməz ömrümüz tək gözəl, şən

Gül bağı!

Kaş olaydı əfsanəvi qüdrətim

Qaldıraydım səni uca bir yerə.

İftixarla göstərəydim bəşərə.

Bu lənkəran buketidir deyəydim.

Gül bağı?

Azərbaycan buketidir deyəydim,

Gül bağı.

1965

YANAR DAĞ

həmin yer Bakının Digah və

Məhəmmədi kəndlərinin arasındadır

(lirik poema)

Deyirlər ki, bir çobanın çaxmaq daşından

Çınqı düşdü, o gündən də oldun Yanardağ.

Bəli, qoca dünyamızın körpə yaşından

Çox zərurət təsadüfdən doğulur ancaq...

Çoxdan, çoxdan atəş vardı köksündə sənin

Görünməyən gərək deyil fəqət heç kimə.

Bir əjdaha uyuyardı köksündə sənin

Oyanıb od püskürməkçin bənd imiş himə...

Məcnun kimi, Kərəm kimi elə hey yanır,

Şö'lələrin vecə almır nə yağış, nə qar.

Bu gün sənə gəlib baxan bir də inanır

Bu torpağın allahıymış odlar, alovlar.

Sanki elin toy şamları, bayram şamları

Yandırılıb xınalanmış əllərlə burda.

Neçə-neçə cavan gəlin, ağbirçək qarı

Bu odlara ürək açıb illərlə burda.

Bu gün mən də elə bura sözlü gəlmişəm.

Ruhum, canım Yanardağda od tutub yanır.

Yanardağa yaraları közlü gəlmişəm

Köz... xatirə... zaman -- əqrəb geri fırlanır.

Yel üfürür Yanardağı, odlar qıvrılır,

Tək-tənhayam hənirtilər əhatəsində.

Qırıq əhd-peymanlardan qəlbim qırılıb,

Sıxılıram qüssə-kədər əhatəsində.

Yanardağı hər fəsildə görmüşəm mətin

Bu tufanlar, vıyıltılar səltənətində.

Qol qoyuram təsdiqinə bir həqiqətin -

Dağ-daşın da bütövlük var xasiyyətində.

Bir sinədə neçə məş'əl - neçə alov gül.

Bir ananın qucağında neçə od-uşaq.

Bu alovlar qoruğundan müşküldü, müşkül,

Bircə yanar qönçə dərmək, od oğurlamaq.

Bir az əvvəl burda mənə “qardaş” deyənin

Xəyalıma gətirirəm dönük üzünü.

Bir gün məni görməyəndə bərk inciyənin

Külək sildi ləpirini, sildi izini.

Hanı burda şairləşib, o “ilhamlanan”

“Od gəlini”, “Odlu diyar”, “Zevs, Prometey?!”

Nəni bax bu Yanardağın Kolumbu sanan

Yoldaşları səsləyirəm: eheheyy... eheyy...

Yanardağdan bir az gendə, maili düzdə

İbrətamiz, vahiməli qəbir daşları.

Daşlar deyir: “Axtarırıq, gəzirik biz də

Yoldaşlığın daşın atan bu yoldaşları”.

Günəş batıb, qaş qaralıb, düşdükcə axşam

Bir səhnəyə, tamaşaya dönür Yanardağ.

Bu büsatı gün-günorta görmür hər adam

Nuru zülmət səltənəti tanıdır ancaq.

Su yandırmaz, od söndürməz biri-birini,

Təzadların çarpazında tutmuşuq qərar.

Təzə deyil, kəşf deyil bu söhbət yə’ni.

Ancaq elə köhnədə də bir təzəlik var.

Bir söhbət də cəlb eylədi fikrimi bu dəm,

Mə’lum şeyi xatırladım qoy bir də sizə.

Bir çıxanda, bir batanda fikir vermişəm:

Günəş özgə təntənəylə görünür gözə.

Heç günəşi sevməmişəm mən günortada,

Sanki bu dəm o boğulur öz işığında.

Qıy gözünü, bax günəşə tən günortada,

O aləmdir səhər-axşam yaraşığında.

Günortalar nə mə’nası bax Yanardağa,

Olsa belə atəş həmən, mahiyyət həmən.

Fikri bir az ayrı cürə dolandırmağa,

Bir az qeyri-adilik də istəyirəm mən.

Axırıq boz axınında adiliklərin

Adilikdə özgə bir şey çətindi görmək.

Neçə odun, neçə əzmin, neçə hünərin

Təsdiqinə qeyri-adi bir məqam görək.

Qaranlıqda baxır sərraf brilyanta da,

Qaranlıqla üzləşdirir onun bərqini.

Günəş dolu, işıq dolu açıq havada

Hər parıltı solğun olur, gəzmə fərqini.

Yanardağın qabağında dayanmışam tək,

Bürünmüşəm qaranlığa - yapıncım gecə,

Yanardağın ocağında mən isinərək

İsindikcə, qızındıqca əsirəm necə.

Min doqquz yüz yetmiş altı... yetkin bir zaman.

Kürreyi-ərz düymələrlə dönür, dolanır.

Kamalıyla xarüqələr yaradan insan

Hansı hissə, təlqinəsə bə'zən inanır.

İnanmağın nisbəti var, bu başqa söhbət

Təsəvvür də, təxəyyül də əqlin qanadı.

Ən heyrətli mö'cüzəni yaradır əlbət

Böyük şair təxəyyülü, alim inadı.

Aman, aman bu nə işdir, bu nə qəziyyə,

Od içindən əl eyləyir bir xanım mənə.

Gör vüsalı nə şəkildə verir hədiyyə

Yanğınıma tab etməyən hicranım mənə.

O, dayanıb tonqalların gur çevrəsində,

Od sarılır əndamına xışıltılarla.

Sanki çimir qızıl-qızıl nur çeşməsində.

- Gəl, mənəm də, qorxma - deyir pıçıltılarla.

- Gəl, yanası, odlanası nəyin qalır ki,

Elə yanıb getməmisən bir də yanasan.

Köksün altda bircə ovuc köz qaralır ki,

İşıldamaz üzərindən əssə də tufan.

Bu asudə bir yerdi ki, dedi-qodusuz...

Hicranın yox, gəl vüsalın odunda yanaq.

Tilsimləyək, ram eyləyək qorxunc odu biz,

Bir yanıqlı laylay çalsın bizə Yanardağ.

Başım üstə ulduzların gümüş şabaşı,

Qənşərimdə Yanardağın min zəbanəsi.

Beş addımda mən görürəm tanış göz-qaşı,

Eşidirəm od içindən o tanış səsi:

- Mən odda od, mən suda su pərisiyəm, bil,

Meşələrdə meşələrin ilahəsiyəm.

İstəyirsən isa kimi göylərə çəkil,

Dörd dövrəndə ay-ulduzam, gün haləsiyəm.

Bu torpağın hər boşluğu odla dolan tək

Mən də sənin qəlbindəki boşluğa doldum.

Bir qığılcım bu ətrafı oda salan tək

Mən də sənin yanmağına bəhanə oldum.

Gəl, açmışam qollarımı, atıl odlara,

Dönür külə, doğur küldən səməndər hər an.

Qorxma, odu od yandırmaz qatıl odlara

Od içində çırpınmırmı bu odlu cahan?!

Yoxsa sən də inandın ki, yanan bu dağdır,

Yanan sənin ürəyindir, mənim qürurum.

Qəlb odunda bu qürurum gül açacaqdır

Mənə qənim kəsilmişdir, qənim, qürurum.

Gözdən itir od pərisi, qapanır pərdə...

Yanardağın tonqalları yanır çata-çat...

Qoca nənəm deyərmiş ki, bu həndəvərdə

Cin-şəyatin dəf-dumbulla qurarmış büsat.

Gözüm açıq, fikrim aydın, düşüncəm sərrast,

Həqiqətin əksi deyil xəyal, bəs nədir?

Həqiqətdə gördüyünə adam gələr rast,

Əsli yoxsa, şəkil, surət bir əfsanədir.

Novxanıdan, Pirşağıdan aşikar gəlir,

Gəlir dəniz hənirtisi, dəniz nəfəsi, -

Yanardağın üzərinə dalğalar gəlir

Xəyalımda odla suyun qaynar həmləsi.

Sübhə yaxın xəzri qopur, üşüyür gecə,

İsinməkçin Yanardağa sinir asiman.

Yerin-göyün damarına düşür vicvicə,

Ətraf odun ətrafında sıxlaşır bu an.

Əllərini Yanardağa tutur Abşeron,

Həm qızınır, həm diləyir xəzridən imdad.

Qırmaclanır bağ-bağçalar, batır abşeron,

Abşeron gül üstündədir, axı bu saat.

Əncir-üzüm, püstə, badam, heyva, nar yanır,

Tumurcuqlar vıyıltıda qovrulub gedir.

Doğulmamış ölənlərçin Yanardağ yanır,

Qol-budaqlar şırıltıyla qırılıb gedir.

Gözüm qalır alovların çaxnaşmasında,

Ayaq tutur, qanad taxır, dil açır atəş.

Gözüm qalır odun oda sarmaşmasında,

Şaxələnir, mavi-mavi gül açır atəş.

Qızıl odlar yallı gedir verib əl-ələ,

Qızmar zəncir həlqəsi tək bir-birinə bənd.

Sən onların birliyinə fikir ver hələ

Soldu nədir, söndü nədir, od oda peyvənd.

Xəzri coşur, od törəyir oddan daha da,

Yerdən çıxır bir alovun min bir pöhrəsi,

Sanki bir him lazım imiş Yanardağa da,

Bağrı yansın lalələnsin onun çöhrəsi.

Güclü şö’lə qanadının altına alır

Zəif, körpə quşcuğaz tək titrək şö’ləni.

Adam ata-anasını yadına salır

Bax, onlar da yana-yana qorumuş səni.

Sən bir ora, o tərəfə fikir ver hələ,

İki şö’lə bir xırdaca şö’ləyə həyan.

Külək odlar cəbhəsini yarsa da belə,

İki şö’lə seçilməyir ata-anadan.

İki şö’lə yaxşı bilir, yaxşı qanır ki,

O körpəcə şö’lədədir nuru onların.

İki şö’lə bir inamda havalanır ki,

Sönüb külə dönməyəcək, qoru onların.

Ata-ana! Elə biz də qoşa şö’ləyik.

Balamızın başı üstə hər göz qırpımı.

Biz şö’ləyik, biz məş’əlik, şamıq hər nəyik -

İki ruhun, iki canın yanar çırpımı.

Qoruyuruq yana-yana gül balamızı,

Keşikçiyik - ürəyimiz fanarımızdır.

Ömrümüzün xəzanında gül butamızı

Şehləndirən bizim sevinc yaşlarımızdır.

Fanar dedim, bir də baxdım mən Yanardağa

Sanki onu göydə gördüm heyrət içində.

Valeh oldum min qəndilli bu fanar dağa,

İşıq salır abşerona zülmət içində.

Töksün yağış, ələnsin qar, tərpənsin külək.

Duman gəlsin, dolu vursun, yanar biaram.

Aləm bilir sönən deyil bir yanar ürək,

Aləm bilir sönən deyil haqdan yanan şam.

Vay halına ağ neftə möhtac fitilin,

Vay halına üfürülən manqal közünün.

Vay halına şüşəlikdə bitən şitilin,

Vay halına qum üstündə ayaq izinin.

Vay halına geci-tezi tükənənlərin,

Vay halına bu dəhşəti qanmayanların.

Vay halına fitil gözü tükənənlərin

Vay halına yelləməsən... yanmayanların...

Xoş halına öz içindən bağrı yananın,

Yanar qəlbə yaxın gəlməz ilan, qurbağa.

Xoş halına odlar doğan azərbaycanın,

Bu Yanardağ bir qardaşdır min Yanardağa.

Xoş halına igidlərin, qəhrəmanların,

Xoş halına şanlı, şəhid müqəddəslərin.

Bu torpaqda yatanların, yatmayanların,

Xoş halına yad eldə də doğma kəslərin.

Babəklərin mö'cüzəyə dönmüş vüqarı,

Mehdilərin gül-çiçəkli qərib məzarı.

Qürurundan kədərindən səni yandırır,

Səni alov - heykəl kimi mə'nalandırır.

Nəsimilər inadının rəmzi Yanardağ!

Füzulilər fəryadının əksi Yanardağ!

Vətəninə həsrətlərin həsrətiylə sən

Uzaqların zülmətinə nur çiləyirsən.

Ərənlərin ürəyidir Yanardağlarım,

Oğulların şərəfinə əbədi məş’əl.

Azərbaycan, ana yurdum, odlar diyarım.

Atəş dolu ürəyinlə min dəfə yüksəl!

Sübh açılır, xəzri gedir sübh yuxusuna,

Çırpınmaqdan əldən düşüb yatır alovlar.

Al fəcrdən bayraq sancıb öz yaxasına,

Göy qızarır, qızartıda itir alovlar.

Böyük olur çılğınların təvazösü də...

Boy göstərən al günəşdən utanır odlar.

Yaxşı görür yerin üzü, göyün üzü də,

Təvazödən qızartıya boylanır odlar.

Təvazö də fitrətdədir, cövhərdədir, bil!

Qondarmaya dəxli yoxdur bu xasiyyətin.

Qondarma öz təsdiqiyçin soxar gözə mil,

Həyasızlıq təvazöyə bürünər çətin.

Azərbaycan - çınqısından vulkanınacan,

Azərbaycan - çeşməsindən ümmanınacan,

Azərbaycan - dahisindən adisinədək,

Azərbaycan - fəhləsindən aliminədək,

Azərbaycan - babəkindən əsgərinədək,

Azərbaycan - Şahdağından, düzlərinədək,

Tarixlərin yarpağında təvazölüdür,

Hər anında, hər çağında, təvazölüdür.

Körpə, yaşıl çəmənlikdə nəhəng lalə tək,

Mən baxıram bağrı yanıq Yanardağıma.

Qürur ilə baş əyirəm səcdə edərək

Bu elimə, bu obama, bu torpağıma.

1976

QOY DANIŞSIN TƏBİƏT

İsmayıllı lövhələri

Günəş gah görünür, gah görünməyir,

Duman gah sürünür, gah sürünməyir.

Dərələrdən axan suların səsi,

Yalqız bulaqların kövrək nəğməsi,

Gah batır, gah da ki, çıxır aşkara.

Ürəyim bürünür xoş duyğulara,

Susmaq istəmirəm, susuram fəqət.

Qoy danışsın təbiət!

Başımın üstündə çətirli meşə,

Yuyunmuş, daranmış ətirli meşə.

O yazda yaşıldı, payızda əlvan.

Bir ağac kəhraba, bir ağac mərcan.

Bir yarpaq günəşin şö'ləsində zər,

Bir yarpaq buludun gözünü silər.

Dinim, ya dinməyim, dinləyim əlbət,

Qoy danışsın təbiət!

Dağdan göz ağardır əvvəlinci qar,

Qorxudan saralır çiçəklər, otlar.

Üfüq qıpqırmızı, zirvə bəmbəyaz.

Bəhsəbəhs eyləyir yaqutla almaz

Rəng verir, rəng alır göylərin tağı.

Rənglər ovsunlayır ana torpağı.

Şe'rdə, rəsmdə hanı bu cür'ət?

Qoy danışsın təbiət!

Qalxır talalarda ot qarış-qarış.

Qalxır, dizə çıxır yağdıqca yağış.

Yağışdan yaranan xırdaca göllər

Mürgülü, yuxulu gözlərə bənzər.

O gözlər gah dolur, gah da boşalır.

Pərişan-pərişan xəyala dalır.

Dindirmək istəyir məni bu möhnət.

Qoy danışsın təbiət!

Yolum çalın-çarpaz tuneldən keçir.

Yolum həm kədərli, həm də şən keçir.

Ağac var bəzəyir budağını bar.

Ağac var təzəcə baltalayıblar.

Ağac var yıxılıb imdad diləyir,

Ağac var sorağı fələkdən gəlir.

“Dillənsənə!” deyir fərəhlə hiddət,

Qoy danışsın təbiət!

Kolların üstündə böyürtkən qalıb,

Dəyib... dərilməyib... qalıb... qaralıb...

Dadını, aparıb yağış, qar, külək.

Hər şey məqamında, vaxtında gərək

Başqadır payızın sovqatı bu gün,

Quş da sinov gedir nar, armud üçün.

Hardan bu xilqətdə bu zövq, bu ləzzət?

Qoy danışsın təbiət!

Odur, kənd görünür, balaca bir kənd.

İtir yaşıllıqda həyət, aynabənd.

Damların qırmızı kirəmidləri

Başqa cür cəlb edir fikri, nəzəri.

Qızıl kərpiclərə çevrilir hamı,

Nağılmı başlayır payız axşamı?

Eh, hansı nağılda yoxdur həqiqət?

qoy danışsın təbiət!

Hələ qurulurdu neçə toyxana.

Bu mövsüm çal-çağır gəlməmiş sana.

Bu xırda guşədə böyük məhəbbət.

Yazıb talelərə sevgi, səadət.

Sabahın eşqiylə çırpınır ürək.

İnsan nəfəsilə açır gül, çiçək.

Hansı canlıda var, axı, bu qüdrət?

Qoy danışsın təbiət!

“Ormanlar içində durur Talıstan”.

Yada Səməd Vurğun düşür bir zaman.

Burda nəfəsi var, burda sözü var.

Məxmər yamaclarda ayaq izi var.

Günəşli göylərdə gözünün nuru,

Qayalı dağlarda qartal qüruru,

Ellər nə tez qaldı şairə həsrət,

Qoy danışsın təbiət!

Budaqdan ayrılan hər sarı yarpaq

Elə bil uşaqdır, yetim bir uşaq.

Üşüyür, büzüşür saplağında nəm.

Vüsalla-hicranla doludur aləm.

Xoşdur o ilk bahar, bu son bahar da.

Ürək mə’na gəzir bu duyğularda.

Hansı məxluqda var belə şe’riyyət?

Qoy danışsın təbiət!

Bir gəlin bir buzov qovub aparır

Yerişi can alır, ürək qoparır.

Yanır yanağında qürub şö’ləsi.

Saçında bərq vurur yağış giləsi.

Dağlar vüqarıdır, göylər isməti.

Odur bu dünyanın zəri, zinəti.

İnsansız nə gərək bu zər, bu zinət?

Qoy danışsın təbiət!

Yolum uzandıqca gedir, gedirəm.

Təzə tüstüləri mən seyr edirəm.

Hər tüstü bir ocaq, bir ev deməkdir.

Hər tüstü atəşi sönməz ürəkdir.

Ürək olan yerdə qış da bahardır.

Ürəksiz anların qorxusu vardır.

Ürəkdir gətirən insana şöhrət.

Qoy danışsın təbiət!

Axşamın pərdəsi enir astaca.

Günün son şəfəqi sönür astaca.

Meşə qalınlaşır, cığır daralır.

Zirvələr əriyir, göylər qaralır.

Əriyən zirvələr, qaralan göylər

Mənim ürəyimdən nur alsa əgər

Heç onu boğarmı, boğarmı zülmət?

Qoy danışsın təbiət!

Doğma Azərbaycan, vətən torpağı!

Bərli-bəzəklidir ilin hər çağı.

İlhama gəlirəm gözəlliyindən.

Kim deyir payızda olmur ürək şən?

Qızıl meşələrin nəğməsi xoşdur.

Meyvəli bağların töhfəsi xoşdur.

Hansı torpaqda belə bərəkət?

Qoy danışsın təbiət!

1965

GÖYÇAY NARI

Payızın nəfəsi bağlara dəyəndə,

Çəmənlər öz sarı donunu geyəndə,

Bar dolu ağaclar başını əyəndə,

Alışıb yananda sənin də yanağın,

Əlimi cızanda tikanlı budağın,

Uf! - deyib, mən səni dərəndə sevmişəm,

Alagöz bir qıza verəndə sevmişəm.

Bu ana yurdumun ən zərif ne’məti,

Çinarlı Göyçayın əbədi şöhrəti,

Süfrələr bəzəyi, ağızlar ləzzəti,

Min azar-bezarın ey şəfa dərmanı,

Torpaqdan, günəşdən yaranmış loğmanı,

Mən səni bu sağlam canım tək sevmişəm,

Bir dolu piyalə qanım tək sevmişəm.

Bir zaman oda da “nar” demiş babalar,

Burda bir oxşayış var demiş babalar.

Adına müqəddəs bar demiş babalar.

Gülöyşəm, nə bilim, nə bilim, axı sən

Alovlar yurdunda nə zaman bitmisən?

Mən səni bu cənnət diyarda sevmişəm,

Babalar görməyən rüzgarda sevmişəm.

Son bahar... Şirvanın düzləri ağ olur,

Pambığın tayası böyüyür, dağ olur,

Hamının kefi kök, damağı çağ olur.

Arabir tarlada yananda dil-dodaq

Dirəkdən asılmış şaxədən alaraq,

Səni bir iştahla böləndə sevmişəm,

Ləkəni əlimdən siləndə sevmişəm.

Möhtəşəm ölkəmin bir yanı uraldır,

Hələlik orada nar bağı xəyaldır.

Eybi yox, sibirə sovqatım halaldır,

Bəlkə də sarısaç bir gözəl bir zaman

Heç səni ayıra bilməyib almadan

Qabıqlı-qabıqlı yeyəndə sevmişəm,

- Bu ki, lap acıymış! - deyəndə sevmişəm.

Gülöyşəm, ömrünün əvvəli, sonu yox,

Dünyada sənə tay bir meyvə hanı? Yox!

Kim sənə deyərsə qanı var, canı yox,

Səhv edər, belə söz yaraşmır nar, sənə,

Diridir, pərdənə bürünmüş hər dənə -

Mən səni bir həyat rəmzi tək sevmişəm,

Yüz barın içindən seçərək sevmişəm.

1958

ADSIZ BULAQLAR

Mən bulaqlar tanıyıram suyu buz kimi,

Axıb gedir nəhayətsiz arzumuz kimi.

Mən bulaqlar tanıyıram daşlardan süzür,

Göy otlara mirvarilər, incilər düzür.

Bulaq var ki, bir mahalın şan-şöhrətidir,

Əfsanəsi, hekayəti dillərdə dastan.

Azərbaycan torpağının şe'riyyətidir,

Neçə şair, neçə aşıq söz açıb ondan.

Qalın-qalın meşələrin dərinliyində,

Xəzəl altda dustaq olan bulaqlar da var,

Sıldırımlı quzeylərin sərinliyində,

Tənhalıqdan doluxsunan bulaqlar da var.

Onlar insan dodağına həsrətlə axır,

Eşitməyir nə tar səsi, nə kaman səsi.

Göz yaşları qayalarda bir iz buraxır,

Yüz illərlə teşnələrin olur teşnəsi.

Nə adı var, nə sanı var, nə də ünvanı,

Kənarından bir cığır da düşməmiş hələ.

Bircə qurtum, bircə ovuc yoxdur dadanı,

Qışda qara qarışırlar, baharda selə.

Şan-şöhrətli bulaqlarla dursa yanaşı,

Sərinlikdə, şirinlikdə kölgədə qoyar.

Şəfa verər min xəstəyə, əridər daşı,

Tanınmayan, bilinməyən adsız bulaqlar.

Əyər onlar üzə çıxsa qiyamət olar!

Təzə-təzə guşələrlə görüşərik biz.

Hər bulaqda ürək açan şe’riyyət olar,

Cilvələnər qarşımızda təbiətimiz.

Öz adını özü deyər adsız bulaqlar,

Öpər bizi, oxşar bizi, əzizlər bizi.

İftixarla gələcəyə saxlar yadigar

Bulaqlara gedən yollar ilk izimizi.

Surətimiz aynasında qalar əbədi,

Gülüşümüz axarında səslənər müdam.

Eşqimizlə bir musiqi çalar əbədi,

- Gözləyirik, gəlin - deyər hər səhər-axşam.

Qarış-qarış müqəddəsdir vətən torpağı,

Daşını da lə'l-cəvahir qiymətli edək.

Bu günədək gözdən uzaq neçə bulağı,

Adlı edək, sanlı edək, şöhrətli edək.

1965

VƏTƏN HAQQINDA

Doğma anam - diyarımdır o mənim,

Səadətim, baharımdır o mənim,

Xəzan görməz gülzarımdır o mənim.

İlk məskənim, son məskənim vətəndir.

Beşiyimdir, məzarımdır o mənim.

Qucağında boy atdığım bu yeri,

Milyon kərə dolaşmışam azı mən.

Şe’rə düzüb ən səmimi sözləri,

Eşqi ilə dindirmişəm, a dostlar,

Sinəmdəki bir sədəfli sazı mən

Mən hər dəfə onu seyrə dalanda

Məhəbbətim soyumamış zərrəcə.

Dan güləndə, ya da qaş qaralanda,

Fərqi yoxdur: ya sübh çağı, ya gecə,

Ona sonsuz bir maraqla baxmışam.

Fərəhimdən, qürurumdan coşaraq,

Göylərində şimşək kimi çaxmışam.

Müqəddəsdir vətənimin torpağı,

Damağımda şor suyu da bal dadır.

Kainatın hər bəzəyi, növrağı,

İftixarla deyirəm ki, ondadır.

DUZ

Duz!

Hər yerdə dolu,

Hər yerdə ucuz.

Ucuzdur iynədən-sancaqdan.

Düymədən, daraqdan,

Acı siqaretdən,

Şit qaletdən.

Duz!

Qışda-qarda

Duzdan baha olur.

Bir parça

Buz...

Qonşudan duz istəyəndə

Adam utanmır heç,

Rişğənd ediləcəyinə

İnanmır heç.

Duz üstündə heç kimin

Tamahı sürüşməyib.

Duz üstündə bir kişi

Bərkə-boşa düşməyib.

Duz

Duz

Duz!

Hər yerdə dolu,

Hər şeydən ucuz...

* * *

Naxçıvanda bir gün,

Guya vaxtı öldürmək üçün

Məni duz mə’dəninə apardılar.

Elə bil qar yağmışdı

Narın qar...

Duz

Taptalanır,

Xırçıldayırdı

Ucuz-ucuz...

Torpağın böyük ne’məti,

Həyatın əbədi ehtiyacı,

Zərurəti -

Çörəyin duzu,

Sözün duzu -

Bu - məcazi mə’nasıdır hələ

Duzun -

Hər şeydən ucuzun

Brilyanta bərabər

Kristal, ağ dənələr!..

Duz --

Başa gəlmirdi rahət,

Asudə, ucuz!..

İnsanlar tər tökürdü, tər,

Nə’rə çəkirdi maşınlar - nəhənglər.

Ciyərlərə toz yatırdı.

Ciyər,

Nəfəs,

Ömür - insan baha...

Duz - ucuz!

Uzanırdı uzaqlara

Kanatlar.

Vaqonetkalar axırdı

Qatar-qatar,

Toqquşurdu bə’zən.

Qəfil göy gurultusundan

Diksinən kimi olurdum mən.

Nə çətin iş, nə ağır zəhmət!

Nə böyük sərvət.

Duz!

Bir stəkan qazlı sudan

Ucuz!..

Yerin altına endik,

Ora döndük, bura döndük.

Şaxtalar şaxələndi,

Başımıza duz ələndi.

Ətraf lə’l-cəvahirdi,

Daş-qaşdı.

Dörd dövrəmiz işıq saçan

Sehirli daşdı.

Duz,

Duz,

Duz,

Dərinlərə getdi yolumuz.

İnsanlar layları yarırdı,

Külçələr qoparırdı.

Üst qatlar

Onların üstündə tutmuşdu qərar.

Parıltıdan göz qamaşırdı.

Təzyiqdən

Nəfəs daralır,

Hava sıxlaşırdı.

Kompressorlar axın verirdi

Hər an.

Durulur, coşurdu qan.

İnsanlar mərd, yorulmaz, qoçaq,

Yerin üstü də ağ,

Yerin altı da ağ.

Duz,

Duz,

Duz.

Bahadır, qiymətlidir

İnsanın zəhməti kimi,

Boldur -

Geniş ürəklərin

Səxavəti kimi.

Hər şeydən baha,

Hər şeydən

Ucuz!

Duz!

1966

ÇIXDIM ƏLİNCƏYƏ

Şair İslam Səfərliyə,

bu gün ruhu şad olsun.

Çıxdım Əlincəyə

Cövrü-cəfa ilə.

Çıxdım əlincəyə

Zeynal Vəfa ilə.

Çıxdım Əlincəyə -

Dümdüz divara mən!

Çıxdım, bu cahana

Gəldim dübarə mən!

Öldüm və dirildim,

Çıxdım əlincəyə...

Son zirvədə güldüm

Daşlar və kəsəklər

Çıxdım Əlincəyə

Nəqş açdı əlimdə...

Alnımdan axan tər

Duzlaşdı dilimdə.

Sən söylədin İslam!

“Müşküldü bu iş bil”

Bu müşkülü, şadam

Dəf eylədi qabil.

Çıxdım Əlincəyə,

Yoldaş Səfərli!

Yanımda olaydın

Ey kaş, Səfərli!

Dəhşətli sıldırım,

Heybətdi bir qala,

Tarixən olubdur

Teymur üçün bəla.

Səngərdir o sənətkar

Şiş-şiş haça dilli.

On dörd dəfə cumdu

Qəhr oldu yad elli.

İstehkam olubdur

Qüdrətli Əlincə.

Teymurləngdən

Qanlı bac alıbdır

Şöhrətli Əlincə.

Baxsan ona yerdən,

- Alçaqdı, - deyərsən.

Adi və çox adi

Bir dağdı - deyərsən.

Adi deyil ancaq,

Adi deyil İslam!

Qalxdım göyə gündüz,

Endim yerə axşam.

Sən şəkk eyləyirdin

Şəkkin hədər oldu.

Çıxdım Əlincəyə

Nəqşi-cahan əhli

Tez baxəbər oldu.

Məndən, bilirəm ki,

Sən qismən ağırsan -

Sən cismən ağırsan,

Əlbəttə çətindir

Dağ-daş sənin çin.

Zillətli yoxuşlar,

Uçqunlu enişlər,

Qardaş, sənin çin!

Adət eyləyibsən

Vadidə kababa,

Əntiqə şəraba.

Onsuz da Əlincə

Aydın görünürsə,

Neyçün dözəsən bəs

Bihudə əzaba?

Qoy qarə cəmaat

Çəksin bu cəfanı,

Şahinlərə həsrət

Hər qəlbdə hanı?

Lap kəllədə şair,

Billur kimi bir su,

Mazğallar, hasarlar,

Sair və sair...

Könlümdəki yanğı

Qeyb oldu içərkən.

Fəxr ilə deyim mən.

Adi sumudur bu?

Can atdı bir ordu

Cəhd eylədi teymur,

Ləb - teşnə qayıtdı,

Oldu buna məcbur.

Qismət bizə gəldi

Yüksəklərə qalxmaq,

Qartal baxışıyla

Bu torpağa baxmaq.

Övladlarıyıq biz

Bu Odlu diyarın,

Rəmzi deyilmi bəs

Bu şanlı Əlincə

Əzmin və vüqarın?!

1965

BİR BÜLBÜL OXUYUR

Qədim Qobustanın daş səltənəti,

Sanki daşa dönüb dalğalı ümman.

Bu lal ehtişamı... lal əzəməti

Xofla seyr edirik sübh o başdan.

Qorxunc qayaların arasında biz

Gəzir, görünürük qarışqalar tək.

Burda zəriflikdən görünməyir iz

Qobustan heybətli, Qobustan nəhəng.

Ulu babaların qədim məkanı

Bəlkə cənnət olub haçansa cənnət.

İndi, bu saatsa dolan hər yanı

Burda yaşıllıqdan yox bir əlamət.

Fəqət, bu daş aləm, bu sakit aləm

Bülbül cəhcəhindən diskinir qəfil.

Əcaib-qəraib qayalar bu dəm

Kövrəlir, titrəyir əsir elə bil.

Bülbül nalə çəkir... zəngülələri

Dağılır Qobustan cah-cəlalına.

Bəs bülbül də atıb al göncələri

Qonarmı daşların çil-çil xalına?

Bəs bağsız, baxçasız, gülsüz, çiçəksiz

Niyə deyiblər ki, oxumaz bülbül? -

Səslənir qobustan, eşidirik biz

O deyir “qanuna sığışmaz könül!”

Bülbül fəğan edir, nalə qoparır

Çilik-çilik olur daşlarda sükut.

Bülbül qan eyləyir, gözüm yaşarır,

Ürəyə qanun yox! buyurun, sübut!

Oyuqlar, yarıqlar dolub, daşarmış

Bir dəli bülbülün çılğınlığıyla.

Bəli, Qobustan da vidalaşarmış

Qanuni sükutu, dalğınlığıyla.

Bir bülbül daşlara çırpır özünü,

Min bülbül güllərin oduna yanır.

“Adət” söhbətini, “qanun” sözünü

Bülbül də, könül də dananda danır.

Qupquru Qobustan qayalarında

Bir bülbül oxuyur bir dəli bülbül,

Bütün bülbüllərə, bütün güllərə

Gəldi ya gəlmədi gülməli, bülbül...

GÜZGÜ VƏ GÜZGÜ QIRIQLARI

Eh, günlərin bir günü

Sındırdılar güzgünü.

Parçalar xırda-xırda,

Parçalar iri-iri.

Səpələndi aləmə

Güzgünün qəlpələri.

Qəlpə yaxına düşdü,

Qəlpə uzağa düşdü.

Əl çatan, əl çatmayan

Neçə torpağa düşdü...

Boş çərçivə elə bil

İnildədi, ağladı,

Yoxa çıxmış güzgünü

Ümidsiz soraqladı.

Səs gəldi qəlpələrdən:

Hər qəlpə söylədi mən,

Güzgüyəm! Güzgülüyüm!

Dəyişib getməz mənim,

Bütövlüyüm itsə də

Şəfəqim itməz mənim.

QIZ QALASI

Qız qalası, Qız qalası, mübarəkdir!

Sənin təzə cəh-cəlalın nə qəşəngdir.

Ey tarixim, ey əfsanəm, rəvayətim,

Ey vüqarım, ey şöhrətim, şe’riyyətim.

Qeyrətimin bəkarəti

Qeyrətimin şərafəti,

Tariximin şərafəti,

Vüqarımın ülviyyəti,

Sənətimin əzəməti

Qız qalası!

Elə bil ki, səni təzə görürəm mən,

Xilas oldun o min illik daş qəfəsdən.

Yastı damlar ayağına dolaşırdı,

Məgər onlar görkəminə yaraşırdı?!

Ey xalqımın,

Tariximin

Ən qocaman abidəsi!

Dalğaqıran ey qəhrəman abidəsi!

Yer üzünə tanıtdın bu torpağı sən.

Sahilində Xəzərimin mayakısan.

Heyranam ki, tərpənməyib bir daşın da

Neçə dövran,

Neçə-neçə keşməkeşlər

Həkk olunub yaddaşında.

Göy Xəzərin qucağında sən ucaldın,

Sonra ondan kənar düşdün, ayrı qaldın.

Bu “sonra”nın əfsanəvi yaşı vardır,

Təqvim-təqvim yazı vardır, qışı vardır.

Su çəkildi, vidalaşdın ləpələrlə,

Baxdın ona bir həsrətlə, bir kədərlə.

Dar döngələr aldı səni əhatəyə,

Elə bil ki, barmaqlıqdan baxdın göyə.

Kölgələndin, görünmədin, Qız qalası!

Şəfəqlərə bürünmədin qız qalası!

Darıxsan da bilirdin ki, belə qalmaz,

Dağ vüqarı dar dalanda dustaq olmaz.

Ey müstəqil diyarımın daş bayrağı,

Novruz - Bahar bayramının daş növrağı!

Nəsil-nəsil igidlərin,

Şəhidlərin

Əmanəti.

Azərbaycan torpağının əzəməti

Qız qalası!

Görürdün ki, gözlərinin qabağında,

Bu alovlar, bu küləklər qucağında

Gözəlləşir anam bakı qarış-qarış,

Abidələr alnından da itir qırış.

Bu pillələr, bu gül-çiçək, bu bağça-bağ,

Sənə əlvan don geydirən bu çilçıraq.

Elə bil ki, yerdən üzə çıxmısan sən,

Səni təzə kəşf eləyib ana vətən.

Yüksəlirsən indi boyun bərabəri,

Salamlayır Xəzər səni, sən Xəzəri!

Açdıq sənin gözlərini, açdıq bu gün,

Bu büsata, cah-cəlala baxmaq üçün.

Həm də bu gün:

Bu qanlara,

Qurbanlara

Nakam gedən cavanlara,

Bu bəlaya, bu məlala baxmaq üçün.

Genişliyi, ucalığı sevirik biz,

Belə görür indi səni gözlərimiz.

Görüşlərçin təzə ünvan - qız qalası!

Çal-çağırçın böyük meydan qız qalası!

Kim zənn edər bu gün səni bir yığın daş,

Sən yadigar, sən müasir, sən vətəndaş!

Bakılısan, Xəzərisən,

Azərisən,

Qız qalası!

Uzaq... ulu əcdadımın

Bizə baxan gözlərisən, Qız qalası!

MƏRDƏKAN

Çarhovuzlar ağzınadək dopdolu,

Dövrəsində qönçə-qönçə gül kolu.

Təravətdi yeri-göyü, sağ-solu.

Qışın oğlan çağında da həmişə

Əsl cənnət qucağıdır Mərdəkan,

Qədim qəsri tarixlərdən nişanə,

Dayanıbdır yenə mərdi-mərdanə.

Baxır-baxır dövrəsində qaynayan

Bu gəncliyə, bu bəxtəvər dövrana,

Günü-gündən cavanlaşır Mərdəkan.

Yaşıl seltək aşıb-daşır Mərdəkan.

Meyvələri qanad gərib talvara,

Kölgəsində bürkü hara, tər hara.

Hər dalanı, hər döngəsi çevrilib,

Çevrilibdi bir ətirli gülzara.

Abşeronda növrağımız Mərdəkan,

Beş addımda yaylağımız Mərdəkan.

Uşağı da, qocanı da, gənci də

O qoymaz ki, azar-bezar incidə.

Düşərgəli sahilləri incidi...

Göy Xəzərdə aləm alır dincini.

Təbibimiz, loğmanımız Mərdəkan,

Bağ-bağatlı ünvanımız Mərdəkan.

Bu yer yalnız şəfa deyil dərdlərə

Ana olub məkan olub mərdlərə.

Oğulları qurban verib canını

Şanlı-şanlı döyüşlərdə min kərə...

Sinəsində məş’əl yanan Mərdəkan

Yaşıl nəğmə, yaşıl dastan Mərdəkan!

BAKI

Əsir sərin küləklər,

Ləpələnir göy Xəzər.

Gah qalxır, gah alçalır,

Bakıya laylay çalır.

Azərbaycan - Vətənim

Bakı - doğma məskənim

Səhərlər yaraşıqlı.

Axşamlar gur işıqlı.

Bağlarında üzüm var,

Dənizində buruqlar.

Ey bizim şən Bakımız,

Gözəlləşən Bakımız.

YARDIMLIYA QONAQ GƏLİN

Yardımlıya qonaq gəlin

O, nağıldı, rəvayətdi.

Zənn etməyin uzaq, gəlin!

Dağlar yurdu qiyamətdi.

Meşələri dərin-dərin,

Yaylaqları sərin-sərin,

Bulaqları şirin-şirin

Yardımlının.

Uca dağlar qucağında,

İlin, ayın hər çağında,

Gözüm qaldı növrağında

Yardımlının.

Qocaları təpərlidir,

Cavanları hünərlidir,

Gözəlləri zəfərlidir

Yardımlının.

Dolayları dolam-dolam,

Maşın qalxır aram-aram,

Yollarında yorulmaram

Yardımlının.

Tək damın gur şəlaləsi

Gümüş büllur şəlaləsi

Əlində nur piyaləsi

Yardımlının.

Yun yumaqlar əlvan-əlvan,

Ətir gəlir xanalardan

Xalçasından yoxdur, inan

Yardımlının.

Üzümlüklər düzüm-düzüm,

Gülür qəlbim, gülür üzüm.

Nəğməsini qoşdum özüm

Yardımlının.

Dağın döşü, çölün düzü

Qumral-qumral qoyun-quzu,

Çobanları səslər bizi

Yardımlının.

Vətənimin qızıl quşu,

Alqışlarıq bu uçuşu,

Qarşıdadır yüksəlişi

Yardımlının.

Yardımlıya qonaq gəlin,

O, nağıldı, rəvayətdi.

Zənn etməyin uzaq, gəlin!

Dağlar yurdu qiyamətdi.

AY MEŞƏ

Hansı meşə olar sənə tay, meşə?

Bu yerlərin yaraşığı, ay meşə!

Yolum səndən düşməmişdir haçandı.

Düz deyiblər: hicran dərdi yamandı.

Eybi yoxdur, qoynundayam yenə mən,

Bir qanadlı quş olmuşam sevincdən.

Nə böyüksən, yoxdur ucun-bucağın!

Nə doğmasan, mehribandır qucağın.

Necə salım bəs boynuna qol, meşə?

Bir anlığa nazlı gəlin ol, meşə!

Sən onsuz da bir bəzəkli gözəlsən,

Hər gözəldən əbədisən, əzəlsən!

Sənə bahar özü verib təravət,

Sənə yaşıl paltar biçib təbiət!

Örpəyindir yüngül duman, ay meşə!

Dağlar olmuş sənə heyran, ay meşə!

Gur bulaqlar, gur çeşmələr gözündür,

Tükənməyən söhbətindir, sözündür,

Yarpaqların xışıltısı, ay meşə!

Sənə həzin laylay çalır çay, meşə!

O, viləşdir dərələrdən burulur,

Çəmənlərdən axa-axa durulur.

Nə gözəldir quşlarının cəh-cəhi;

Aşır-daşır ürəyimin fərəhi.

Dinlədikcə, dinlədikcə, mən, meşə,

Min nəğməli, min avazlı şən meşə!

Qismət oldu, biz gül vaxtı görüşdük,

Təbiətin sütül vaxtı görüşdük,

Sən bu yerdən, bu torpaqdan güc aldın,

Dərinlərə rişə atıb ucaldın.

Qıra bilməz külək səni, ay meşə!

Vura bilməz şimşək səni, ay meşə!

Əvvəlindən xəbər verən yox, deyim,

Bəli, yaşın bu dünyadan çox, deyim.

Yaz gəlincə gəncləşirsən, yenə sən

Vəfa görür, yarıyırsan ömürdən.

Qocalmaram, ruhum olar sevincək,

Şe'rim, nəğməm səslənərsə sənin tək.

GÖZÜN AYDIN

Mərhum jurnalist-yazıçı, kövrək qəlbli, istəkli ziyalımız hacağa Cümşüdlü bu günlərimizi - azərbaycanın istiqlalını, müstəqilliyini yana-yana arzulayan nadir şəxsiyyətlərdən biri idi.

O, yazmışdı:

Uzaq deyil o sabah ki,

Mənim xalqım güləcəkdir.

Onun səsi, onun sözü

BMT-dən gələcəkdir.

O günləri görmək üçün

Sonra rahat ölmək üçün

Mən yaşamaq istəyirəm.

* * *

Gözün aydın, ay həcağa,

Sabahın xeyir, qardaşım!

Müjdə gəldi bu torpağa,

Axır qəbrinə göz yaşım.

Yurdum çıxıb azadlığa,

Su yerinə axsa da qan.

Sən də qoşul bu şadlığa,

Oyan! - deyir Azərbaycan!

BMT-dən gəldi səsim,

Gəldim sənə verim xəbər.

Ey ruhu şad müqəddəsim.

Arzuların çaldı zəfər.

Çeşməyində şəfəq-büllur.

Cüssəndə dağ əzəməti.

Sən həm sadə, həm də məğrur,

Ruhun uşaq qüdsiyyəti.

Qəlbi kövrək, ruhu yüksək,

Ey xiffətli qardaşımız!

Bu gün Şərqdən əsir külək.

Ey möhnətli qardaşımız.

BMT-nin sırasında

Biz də çiyin-çiyinəyik.

Millətlərin arasında

Biz də çiyin-çiyinəyik.

Məzarının sağında mən,

Solundadır ağasəfa.

Sənin o haqq yolunda mən,

Yolundadır ağasəfa.

Mərd sələfin ədalətdir,

Xələfindir şair Eyvaz.

Bu səhər lap qiyamətdir,

Uçur ruhun, edir pərvaz.

Demə biz yox, uzaqgörən

Sən idin ki... ay həcağa!

Bu günlərdən soraq verən

Sən idin ki... ay həcağa!

Qərənfillər gətirmişik

Əlvan-əlvan, ay həcağa!

Qanlı güllər gətirmişik

Sənə qurban, ay həcağa!

Sən yaşamaq istəyirdin

Bu günləri görmək üçün.

Bu günləri görmək üçün

Görüb sonra ölmək üçün.

Doğulmasın bir uşaq da

İnnən belə ölmək üçün.

Gəlsin... amma qoy gəlməsin

Hədər yerə gəlmək üçün.

Dalğalanır öz bayrağım,

O bir daha enməyəcək.

Yeddi milyon çilçırağım,

Gorun haqqı sönməyəcək!

Yurdun nakam vətəndaşı,

Bu gün kama yetişdin sən!

Dur, sevindir yar-yoldaşı,

Xoş mərama yetişdin sən!

1992

VƏTƏN

Huşu başdan edən bir yaraşıqdan,

Gözü qamaşdıran çılğın işıqdan,

Düzlərin ən zərif çiçəklərindən,

Dünyanın ən ləziz yeməklərindən,

Günlərin bir günü bezərəm də mən,

Bir xoş mənzərədən, bir xoş lövhədən

Səhv edib aralı gəzərəm də mən.

Torpaqdan, havadan, atəşdən, sudan,

Bir də ki, çörəkdən bezəni göstər!

Bir də ki, anadan, ana dilindən,

Vətəndən aralı gəzəni göstər!

Kimlərsə kimləri dinlər könülsüz,

Kimlərsə kimlərdən döndərər də üz,

Qardaş da qardaşdan gendə dayanar,

Dostlar da arabir soyuq dolanar,

Vətəndən vətənin övladı ancaq

Nə incik görünər, nə gen dayanar,

Əgər gen dayansa od tutub yanar.

Biz “vətən” demişik Azərbaycana,

Dünyanın kiçicik bir torpağına

Bizə laylay çalıb qucağında o.

Bizim yolumuzda boyanıb qana,

Qundağımız dönüb al bayrağına.

Vətən, Odlar yurdu, Odlar diyarı!

Yox! təkrar saymıram bu nidaları.

Nəbzin vurğuları təkrarmı məgər?

Bir ahənglə vurur əsl ürəklər,

Əsl ürəklərin sevdası - vətən!

Arzu - diləklərin mə’nası - vətən!

Vətən - vətənidir vətəndaşların,

Mənim vətəndaşım qartal qanadlı...

Gəlsin igidləri ana diyarın

Fərhad sədaqətli, fərhad inadlı.

Gəlsin gəlinləri, gəlsin qızları,

Gəlsin ağ biləkli zəhmətkeş əllər...

Bayraqdarımızdır həcər gözəllər,

Ruhumu oxşamaz hər nəğmə bəlkə.

Bir nəğmə əbədi laylamdı mənim.

Dünyada nə çoxdur qiyamət ölkə,

Bir ölkə müqəddəs dünyamdı mənim.

Biz “vətən” demişik Azərbaycana,

Biz bayraq etmişik bu şanlı adı,

Vətəni tanıdan kimdir cahana,

Namuslu-qeyrətli vətən övladı.

1981

HƏM ADİ, HƏM ALİ

Torpağın adi torpaqdır

Mirvarisi - gövhəri yox

Bayrağın adi bayraqdır

Saçaqlarında zəri yox.

Oğulların adi övlad

Nə koroğlu, nə babəkdir

Qızların çalmır qol-qanad

Nə huridir, nə mələkdir.

Çaylarından süd axmayır

Heç bir çaydan axmayan tək.

Şimşəklərin lap çaxmayır

Heç bir şimşək çaxmayan tək.

Sən ana - sən adi ana.

Müqəddəsdir adiliyin.

Sığmaz ölçüyə-mizana

Adiliyin-aliliyin.

Analar durar yanaşı

Olmaz yaxşısı-yamanı.

Anaya fərq qoyar naşı

Yox-yox belə naşı hanı?!

Vətən ana, ana vətən

Ananın yoxdur qiyməti.

Qaç ət tökən mədhiyyədən

Sübut etmə məhəbbəti!

Vətən sözü saqqız deyil

Gəzmə çeynəyə-çeynəyə

Vətən düzü yarpız deyil

Gəzmə iynəyə-iynəyə

Qol gücünə sözüm yoxdur.

Ruhun vüs’əti başqadır.

Pəhləvan, güləşçi çoxdur,

Oğul qeyrəti başqadır.

Yaxa yırtma, sinə döymə,

Ürəyini qopar, göstər!

Düşməni qarğıyıb söymə,

Söyüşlə and içmir əsgər.

Ol, ya olma vətən daşı,

Daş hər yerdə elə daşdır.

Ol, vətənin vətəndaşı,

Vətənçin vətəndaş başdı.

Quşun da yuvası isti,

Saman çöpündən cəh-cəlal...

Zurna-qaval çalma, bəsdi!

Ana yurdun qeydinə qal!

Balaların ürəkləri

Qurban ana torpağına.

Qanlı şəhid köynəkləri

Dönsün vətən bayrağına.

1 aprel 2000

ÇALSIN AZƏRBAYCAN

HARAY ZƏNGİNİ

Kəsib qabağımı camaat mənim.

-- Vəziyyət necədir? - xəbər alırlar.

İsti yay günündə bu saat mənim,

Elə bil başıma qar ələnir, qar.

Qəzəb və məhəbbət, giley-güzar, ərk,

Suallar-sorğular tufana dönür.

Xalq yaxa axtarır bərk yapışsın, bərk,

Coşur ehtiraslar vulkana dönür.

Hələlik əl saxla, ey heykəltəraş!

Bu saat igidlər canlı gərəkdir.

Ruhunda sarsıntı, qəlbində tələş,

Qeyzdən gözləri qanlı gərəkdir.

Hər sadə e’tiraz, hər sadə tələb,

Hər vulkan bir çınqı, bir him möhtacı.

Gözümə dikilən gözlərdə qəzəb,

- Şair, bəs bu dərdin nədir əlacı?

- Təmkin! - söyləyirəm, - Vəhdət! - deyirəm,

Hərəyə bir cürə verirəm cavab.

- Gah - Cür’ət - ah da ki, - Qeyrət! - deyirəm

Deyib öz-özümə verirəm əzab...

Axı, mən bilirəm bu - nə qəzadır...

Bəs mənə təsəlli kim verməlidir?

Bu nə müsibətdir, bu nə bəladır,

Bəs mən görmürəmsə kim görməlidir?!

Adamlar üstümə gəldikcə inan,

Mən həm fəxr edirəm, həm də yanıram.

Şairin yapışır xalq yaxasından

Çırpına-çırpına qanadlanıram.

- Əlimiz-qolumuz bağlandı, bəsdir!

Səbrə çağırışdan dəng olmuşuq, dəng.

Sağımız-solumuz bağlandı, bəsdir!

Ləngiyə-ləngiyə ləng olmuşuq, ləng.

Bu, elin-obanın sözüdür sözü,

Bu sözün üstündən nə olsun sözüm?

Neçə ağlar qalmış didərgin gözü...

Döz, bu göz yaşına dözüm, ay dözüm!

Qur’ana əl bassın işi haqq olan,

Din də bir əqidə, bir e’tiqaddır.

Bəsdir yalan yeyib, qusduq da yalan...

Bu nə boyaxana, bu nə həyatdır?!

- Altımdan xalçamı dartan əllərə,

Səbirli-səbirli kor olum, şair?!

Qarabağ harayı çəkən ellərə,

Səbirli-səbirli kar olum, şair?!

Bazardan-dükandan ötə bilmirəm,

İstehza da görür, lağ da görürəm.

Gözlərdən yayınıb itə bilmirəm,

Gözdə od, sinədə dağ da görürəm.

Görürəm qızanı, qızışdıranı,

Ağlına heç bir şey batmayanı da.

Tonqala yağ töküb alışdıranı,

Heç cür ipə-sapa yatmayanı da.

Neçə bığıburma, neçə yekəpər,

- Məsələ aydındır, qurtardı, - deyir.

Hır-hır hırıldayır neçə xətakar,

- Saranı da sellər apardı, - deyir.

Kəsir qabağımı camaat hər an,

- Şair, bu işlərə necə baxırsan?

- Mən də sənin kimi, ay sənə qurban,

Niyə yandırırsan, niyə yaxırsan?!

Mənim, öz çəkdiyim özümə yetər,

Bizi tilsimləyib böyük bir əngəl.

Gəl, əl-ələ verək ellər, ay ellər,

Düşmənlərə baxıb həmrə'y olaq gəl!

Sarsılmaz qaladır xalqın birliyi,

Birliyimiz olsun rəhbərimiz qoy!

Düşmənə bəladır xalqın birliyi -

Bir olsun cəbhəmiz, səngərimiz qoy!

Çalsın Azərbaycan haray zəngini,

Harayla hay-küyü qarışdırmayaq!

Boğulmuş görməyək xalqın rəngini,

Onu itaətlə barışdırmayaq!

Bir olsun əzmimiz, iradəmiz qoy,

Yuxarı-aşağı söhbəti bitsin.

Bir olsun fikrimiz-ifadəmiz qoy,

Bu birlik xalqımın dadına yetsin.

Yaxın eşitmirsə uzaq eşitsin,

Bizim səsimiz gur, işimiz haqdır.

Beşiyim-məzarım torpaq eşitsin,

O, heç vaxt özgənin olmayacaqdır!

Qatarda, maşında, meşədə, çöldə,

Kəsir qabağımı xalqım, millətim.

Kəsdikcə çoxalır obada-eldə,

Həm dərdim-kədərim, həm şan-şöhrətim.

Həlbi yanan xalqa bircə qurtum su,

Lap bircə gilə də, qətrə də bəsdir.

Bütün sualların cavabıdır bu:

- Xalq var, xalqdan başqa hər şey əbəsdir.

TƏNDİR

Sovet İttifaqı Qəhrəmanı, akademik

Ziya Bünyadova ithaf edirəm.

Otuz yeddidən qalıb

Bu köhnə, uçuq təndir.

Qəbir daşları kimi

Daşları soyuq təndir.

Sifət qırışları tək

Suvağı çat-çat təndir.

Hörgü yarıqlarında

Tikan, qarağat təndir.

Yatıb-çıxanlar kimi

Əyri, batabat təndir...

Əlində bəraəti...

Beli ikiqat təndir

Ömür... tale... heç nədən

Kül olmuş həyat təndir.

Küllüyü də qalmayıb,

Barı, salamat təndir.

Külündən tanıyaydıq,

Kül olub gedənləri,

Şil olub gedənləri...

Otuz yeddidə təndir,

Odunla qalanmadı,

Çır-çırpıyla yanmadı,

Tariximin təbərrik

Varaqlarıyla yandı.

Dəsti-xətlə yazılmış

Yarpaqlarıyla yandı...

Soraqlarıyla yandı.

Əqlin, fikrin, zəkanın

Barıyla yandı təndir.

Neçə-neçə dühanın,

Nəsillərə hədiyyə

Xəzinəsi, dövləti -

Varıyla yandı təndir.

Əski əlifba ilə

Nə gördük: - ilan! - dedik,

-Əski inqilab - dedik,

- Amandır, düşman - dedik

- Xətası bizdən uzaq,

- Tez ol, dedik - yan! dedik

- Can şirindir, neynəyək...

Yan, qurtarsın, can - dedik

Kağız qırığı gördük, -

təndirə fırlan dedik.

Otuz yeddidə təndir,

Demə, çörək bişirdi...

Qorxudan, vahimədən

Tir-tir ürək bişirdi...

Qur’anı yandıranda

Allahın qəzəbindən,

Qorxmadı qoca-qarı.

Xəyalına gətirdi,

Qanlı istintaqları...

- Allah günahımızdan

Keçər - söylədi millət

- Cəllad Allah tanıyır,

Məyər? - söylədi millət.

Otuz yeddidə təndir

Yandı can yanğımızla,

Vicdan əzabımızla

Neçə nadir nüsxəmiz,

Nadir kitabımızla...

Üzümüzü qarsıyır

İstisi indi belə,

Gözümüzü yaşardır

Tüstüsü indi belə.

Dolanır çərxi-fələk,

Uçuq təndir qaralır.

Günahsız qurbanlar tək,

Otuz yeddidən qalır.

TÜRKÜN QƏBRİ

Türkün qəbri

Qədim Şirvan yollarının

Üstündədir.

Azərbaycan torpağının

altında yox,

sinəsində,

köksündədir,

Qollarının üstündədir.

Mən bu qəbrin dövrəsində

Yetmiş bir il

Lal olmuşam.

Kar olmuşam

Yetmiş bir il!

Bu adicə müddət deyil

Bu qəbirin,

Müztəribin

Bu əsgərin,

Bu yavərin

Şəhid ruhu,

Şanlı ruhu hüzurunda

Xəcalətdən xar olmuşam.

Dolu çırpdı,

Qar ələdi,

Leysan tökdü neçə kərə,

Neçə kərə

Sellə-suyla dolub daşdı

Acıdərə.

Gün yandırdı,

Qovurğa tək

Qovruldu,

Daş-kəsək, torpaq

ancaq...

Türkün qəbri yenə qaldı,

naxələflik, yaramazlıq

gözü kimi -

Bağrımızın başındaca

O qaraldı.

Öz başının hayındaydı

Azərbaycan.

Cavidlərin, müşfiqlərin

Hayındaydı Azərbaycan...

Türk sözünü,

Türk adını

Dilimizə gətirmək də

Cinayətdi.

Acıdərə çevrəsində

Lap uzaqdan uzağa da

tənha qəbrə

Gözucu da... nəzər salıb

Xəlvəti köks ötürmək də

Cinayətdi...

Xain qonşu

Çəpərləri qırdı, sökdü

Öz xıltını, illətini

Açıb tökdü.

Gözlərini qan örtdü

Bu nadürüstün.

Silahlıydı,

Kəmfürsətdi,

Orda-burda

Millətimə gəldi üstün.

Od saldılar

Kürəklərdə samovar da

Qaynatdılar

Əl çaldılar...

Sinələrdə

“Dasni çors” da

Oynatdılar...

Eşidincə bu dəhşəti,

Bu zülmü, bu zilləti,

Bu təhqiri, qəbahəti

Ağlasığmaz rəzaləti

Qonşuluqda xəyanəti,

Tərgidilməz,

Tərk edilməz,

Bu şakəri, bu adəti -

Ay-ulduzlu bir diyarın

Bu dağlara o dağlardan

Əhməd gəldi, -

Dilimiz bir.

Məhməd gəldi, -

Dinimiz bir.

Orxan gəldi, -

Çölümüz bir.

Sərxan gəldi, -

Gülümüz bir.

Tural gəldi, -

Sazımız bir.

Cəlal gəldi, -

Sözümüz bir.

Hər şey yerlə yeksan oldu,

Nişanələr viran oldu.

Tək bu məzar qanlı vahid,

Şəhidlərdən qaldı şahid.

Türkün qəbri

Həsrət qaldı

Anaların-bacıların

İsti-isti göz yaşına,

Göz yaşını bulud sıxdı

Yağış tökdü baş daşına...

Gürkün qəbri

Həsrət qaldı

Anaların-bacıların

Ağısına.

Bunu rəva görmürəm heç

Yağımın da yağısına.

Türkün qəbri

Həsrət qaldı

Bir dəstə gül təmasına.

Göylər bizə:

- Nankor deyib,

Qorxaq! - deyib,

Özü geydi yas paltarı.

Çöllər bizə:

- Nankor deyib,

Qorxaq! -- deyib.

Əlvan-əlvan,

Şehli-şehli gül-çiçəklə

Əzizlədi bu məzarı.

El yolunun üstündəcə,

Görün necə,

Bir sahibsiz xəstə kimi

Gözü yolda qaldı qəbrin...

Naxışları qopdu düşdü,

Yazıları soldu qəbrin.

Çayxanalar,

Aşxanalar,

Quşxanalar,

Xaşxanalar

Abad oldu.

Boynumuzda haqq-sayı

Bu torpaqda qurban gedən

Türkün qəbri

Bərbad oldu.

Şəhid ruhu

Naşad oldu.

Bir sonsuz bəy,

Sonsuz gəlin

Nəzir-niyaz eylədilər,

Asimana üz tutdular

Haqdan muraz eylədilər.

Diz çökdülər

Bu məzarın qabağında, -

Qədim Şirvan torpağında,

Söylədilər:

- Allah təki övlad versin,

Oğul, ya qız,

Bu məzarı

Bünövrədən

Abad edib qaldıraq biz.

* * *

Çatdı Allah dərgahına

Qəlbin səsi.

İnsan sənə baş əyməzmi,

Ey inamın mö’cüzəsi?!

Bu müztərib

Qərib məzar

Əndazəyə, şəklə düşdü;

Gözüqıpıq müsafirlər

Qorxusundan şəkə düşdü;

Naxış-naxış şəbəkələr,

Məhəccərli pilləkanlar -

Acıdərə qucağında

Abidəyə döndü məzar.

* * *

Ancaq bir gün...

Gənc atanı

Vurub işdən

Çıxartdılar;

Vurub heçdən çıxartdılar,

Partiyadan çıxartdılar.

Cavan ana

Yaş kağızı alammadı

Körpəsinə.

Nə var... nə var...

Rövnəq verib

Türkün qərib türbəsinə.

Bu nə yalan,

Nə şişirtmə,

Nə rəvayətdir.

Bu həm gülünc,

Həm dəhşətli

Bir həqiqətdir.

Siyasətin

Rəyasətin

Gərdişinə bax!

Bu gərdişlə

Ağlımızın

Vərdişinə bax!

Cəlladıma heykəl yapdım

Hər addım başı.

- Niyə yapdın? - xəbər alır

Türkün başdaşı.

Ey kökü bir, budağı bir

Övladlarım,

Doğma ana qucağı bir

Övladlarım!

Ey qanı bir, ey canı bir

Övladlarım!

Ey dili bir, lisanı bir

Övladlarım!

Aman, hansı məmləkətdə

Yaşamızız siz?

Nə şəkildə, nə halətdə

Yaşamısız siz?

* * *

Baxıram riqqətlə

Türkün qəbrinə.

Dərələr yamyaşıl,

Göylər bəmbəyaz.

Dövrün gərdişinə,

Vaxtın səbrinə

Əyyub peyğəmbərin

Səbri də çatmaz.

Baxıram qəbrinə türkün bayaqdan,

Sükuta bürünüb yerlər və göylər.

Dözməyib gəlmişdi bir yol uzaqdan,

Deyən yenə dözmür igid cəngavər.

MƏRSİYƏ

Gecəni atəşi ilə qırmızı dan eylədilər,

Xalqımı-millətimi güllə-baran eylədilər!

Tutulub vahimədən nitq bu gün, dil bu səhər,

Bəzəyib abşeronu qanlı qərənfil bu səhər,

Bakı fəryad eyləyir, gözdən axır sel bu səhər.

Gəmilər nalə çəkir, ərşə çıxır zil bu səhər,

Gecəni atəş ilə qırmızı dan eylədilər,

Xalqımı-millətimi güllə-baran eylədilər!

Öz qızıl ordumuzun Yurdumuza qəsdinə bax,

Üstümə tank yeridən fitnəkarın şəstinə bax,

Gözü qanımla xumar düşmənimin məstinə bax,

Qara bayraqlarımın cərgəsinə, dəstinə bax,

Gecəni atəş ilə qırmızı dan eylədilər,

Xalqımı-millətimi güllə-baran eylədilər!

Öldü gənc, öldü uşaq, öldü gəlin-qızlarımız;

Ölmədi! Şanlı şəhid oldu neçə yüzlərimiz,

Bu saat kərbübəla düzləridir düzlərimiz;

Necə qan ağlamasın üzlərimiz-gözlərimiz?!

Gecəni atəş ilə qırmızı dan eylədilər,

Xalqımı-millətimi güllə-baran eylədilər!

Kim görüb böylə, mərasim ola milyonlar ilə?

Bakı insan axınıyla dola milyonlar ilə,

Salına şanlı şəhidlər yola milyonlar ilə,

Analarla bacılar saç yola milyonlar ilə,

Gecəni atəş ilə qırmızı dan eylədilər,

Xalqımı-millətimi güllə-baran eylədilər!

Qəbrin üstündə də heç kukla olar çanta ilə,

Ağ gəlinlik fatası... qırmızı al lenta ilə,

Bəs kremlin görəsən fərqi nədir Xunta ilə?!

Açınız tarixi, həm indi elə, onda elə...

Gecəni atəş ilə qırmızı dan eylədilər,

Xalqımı-millətimi güllə-baran eylədilər!

Düşdü dildən-dilə bu qətl, bu matəmgahımız,

Çatdı hər ölkəyə bu şərhi-bəyani ahımız,

Gördü aləm ki aman... cəlladımızmış şahımız...

Yoxsa da bir kəsimiz, vardı fəqət, allahımız,

Gecəni atəş ilə qırmızı dan eylədilər,

Xalqımı-millətimi güllə-baran eylədilər!

Hər qızıl gülü məzar - sinəmizin dağı, məzar!

Əyilir üstünə göy qübbəsinin tağı, məzar!

Hər məzar qanlı beşik - laylaları ağı, məzar!

Dayanıb kam alacaq bizdən hələ yağı, məzar!

Gecəni atəş ilə qırmızı dan eylədilər,

Xalqımı-millətimi güllə-baran eylədilər!

Ey vətən oğlu, vətən övladı, sil göz yaşını!

Qan haçan yerdə qalıb, tazələ öz yaddaşını!

Çox görüb, qabil, azərbaycanım işğal qoşunu,

Görməyib ancaq hələ böylə cinayət işini...

Yazmışıq təqvimə qan ilə bu yanvar qışını,

Gecəni atəş ilə qırmızı dan eylədilər,

Xalqımı-millətimi güllə-baran eylədilər!

QEYRƏT,

A VƏTƏNDAŞLAR

Mən düşməni söymürəm, -

Düşmənlə söyüşəcəksən?

Özümkünü döymürəm, -

Öz-özünlə döyüşəcəksən?

Ya düşməni məhv edər,

Ya da təslim olarlar.

Üçüncü şey bilmirəm,

Siz biləni, bəlkə var?..

Özümkünün əlindən

Yanıram-tökülürəm.

Hap-gop dolu dilindən,

Tərsə-məssəb fe’lindən,

Yanıram-tökülürəm!..

Ay dönüm başınıza,

Gəlsə də, gəlməsə də

Bu söhbət xoşunuza,

Deyəcəyəm, yanıram,

Deməyin ki, xalqımı,

Millətimi danıram...

Bu dükanım-bazarım, -

Yox insaf, yox mürüvvət.

O da deputatlarım, -

Tamaşalı xəcalət.

Bu zənən hamamını

Axı görür erməni...

Yer yarılsa götürməz,

Allah haqqı, yer məni.

Azımız cəbhələrdə,

Çoxumuz veyil-veyil,

Sabirə qurban olum -

Vallah, bu qeyrət deyil:

“Kim nə deyər bizdə olan qeyrətə,

Qeyrətimiz bəllidir hər millətə”

Canlı-canlı qəbirlər,

Qanlı-qanlı qəbirlər,

Al duvağlı qəbirlər,

Köksü dağlı qəbirlər

Düzüldükcə yan-yana, -

Qansız biganəlikdən,

Cansız biganəlikdən

Şəhidlər gəlir cana...

Neçə kəndim, qəsəbəm

Əldən gedib dalbadal,

Bilet alverçisiylə

Qaynaşır neçə vağzal.

Qarabağım, qazağım

Köməyə çağırdıqca,

Qoç igidim nə’rəylə,

Cəbhədə bağırdıqca,

Maşın soyur, ev yarır

Öz quldur başkəsənim.

Açılmış hesabların

Bəs hanı haqq-hesabı?

Hanı dəftər-kitabı?

Bə neyləyim, qatmayım

Millətimin ovqatını,

Kişi bazara çəkər

Yaralı sovqatını?!

“Niyə bəs böylə bərəldirsən

A qare gözünü?

Yoxsa bu ayinədə

Əyri görürsən özünü!”.

Barmağını yum görüm,

Nəyi yalan deyirəm?

Mumla görüm, mum görüm, -

Sənə filan, filan,

Filan... deyirəm!

Əlil arabasından,

Zəlil arabasından,

Qoltuq ağaclarından

Mənfəət güdən oğul!

Ermənidən yamansan

Vicdan haqqı, sən, oğul!

“Fitnə göyərir

Torpağımızdan

Daşımızdan -

Tarac edirik, bac alırıq

Qardaşımızdan.

Çıxmaz, çıxa bilməz də

Bu adət başımızdan”

Cinayət özümüzün,

Xəyanət özümüzün,

Nə “Xocalı, Xocalı” -

Salmısan, dayan görüm.

Orda olmamalıykən

Olub iş-işdən keçən,

Fəlakət özümüzün.

Rəzalət özümüzün.

Xəcalət özümüzün

Axı kim zəhərləyir

Bir-bir hüceyrəmizi?

Elə hey, hey tərsinə

Durub hərləyir bizi?!

Dayanacaqda adam

Saatlarla dayanır.

Yanıb-tökülür, əsir,

Əsir, çərləyir, donur.

Söylənməkdən, söyməkdən

Qalmır özgə əlacı:

Vətənə də yağdırır,

Millətə də yağdırır

Lə'nəti acı-acı...

Niyə incik salırıq

Bu qara gündə xalqı,

Bu gün od tutub yanan

Bətən mülkündə xalqı?!

Ey xalq, millət, tez gətir,

Qur, mizan-tərəzini!

İşləri tez sahmanla,

Hərc-mərci tez bitir,

Qur, mizan-tərəzini!

Heç yel dəyirmanıyla

Belə döyüşmək olmaz,

Belə durub-oturmaq,

Belə danışmaq olmaz.

Müharibə qanunlu

Hökm çıxar, qərar yaz! -

“Ağlar bizə torpaqlar,

Dağlar-dərələr, daşlar,

Qeyrət, a vətəndaşlar!

Hümmət, a vətəndaşlar!”.

7 aprel, 1992.

İNANMAQ

ÖZ YERİNDƏ...

Mən də vətəndaş kimi,

Alışıb-yanmıram bəs?!

Buna inanmıram bəs:

Bir qarış torpağım da,

Bir salxım üzümüm də,

Bir atlas yarpağım da,

Dərədəki moruğum,

Zirvədəki qarım da,

Xırda obalarım da

Özgənin olmayacaq,

Düşmənə qalmayacaq.

Fəqət, inanmaq azdır,

Alışıb-yanmaq azdır,

Deyingən qarılar tək

Gəzib-dolanmaq azdır...

OLDU

Xalq yazıçısı Sabir Əhmədlinin şəhid oğlu Məhəmmədin əziz xatirəsinə

Kəlbəcər dağlarında

Bir uşaq həlak oldu.

Bəmbəyaz qar içində,

Büllur buzlar içində,

Şəhid ruhu pak oldu.

Az qalınca bahara,

Açıq alnında yara

Qurban getdi vətənə.

Meydannan qaçanlara

Görk oldu, idrak oldu.

Adı peyğəmbər adı,

Gözlərində muradı.

Dünyadan kam almadı,

Toy-nişanı olmadı,

Bəy otağı xak oldu.

Kəfən geydi asiman,

Bakı büründü ağa...

Bir quzu... bir gül oğlan

Gömüləndə torpağa

Məxluq hövlnak oldu.

Gün çıxdı, əridi qar,

Ötdü çovğun xatası.

Məhəmmədin qarıymış

Bu qar... - dedi atası.

Dili ülgüc tək oldu.

Nə söz var, nə təsəlli,

Bu bəla ərzə bəlli.

Məzarlar allı-güllü...

Nə sayı... nə hesabı.

Bu nə səmum yelidir,

Bu nə xəzandı yarəbb!

Nə yaman külək oldu.

18 fevral, 1994

ÇALMA, QABOY

Heç vaxt boyanmamış qana

Qarabağ bugünkü kimi.

Bir baxın dağa-arana -

Tanınmaz olmayıb heç vaxt

Aran-dağ bugünkü kimi,

Heç kim görməmişdi yana

Bu torpaq bugünkü kimi.

Bəsdi inlədin, qaboy!

Bəsdi sızıldadın, dayan!

Ah-naləni kənara qoy,

Nə yasin - fatihə, filan?!

Bu, bir deyil, bu, beş deyil,

Bu, baş deyil, bu, leş deyil,

Vətəni qoyaq tabuta?

Sonra da ayaq üstündə

Dalaq bir anlıq sükuta?..

Bəsdir inildədin, qaboy,

Qulaqlarım döyənəkdir,

Şıdırğıdır bu qanlı toy

Düşmən əlində avtomat...

Səninkində dəyənəkdir...

Xəyanətin barını dər.

Xocalıya qəzəb göndər.

Mən igidəm, əlim boşdur,

Hara gedim bəs boş əllə?

Yağıların qəlbi daşdır,

Daş yumşalmaz bəmlə, zillə.

Bizə silah gərək, qaboy,

Çalma, bir iş görək, qaboy!

Hanı xalqın sərkərdəsi,

Hanı yurdun başbiləni?

Sərkərdənin gəlsin səsi!

Öldük eşitməkdən səni...

Ərkim sənə çatır, qaboy,

Çalma, nə'rəm batır, qaboy!

Üç gündən bir, beş gündən bir

Bu nə matəm havasıdır?

Bmt-dən səsim gəlir -

Yox, bu millət işi deyil:

Dava sərhəd davasıdır,

Dava torpaq davasıdır,

Namus, qeyrət davasıdır.

Qüdsi qur’an davasıdır

Qara xaçla.

Qədim turan davasıdır

Qara xaçla,

Dayan, qaboy, asta fülə,

Körükləmə, döndük külə...

Dörd dövrəmdə min bir qorxaq,

Xalq ki, birdir, xalq vahiddir!

İsti yerdə əsir qorxaq,

Əsrarəngiz yollarında

Buz heykəli qundaq-qundaq...

Cahan şahid - xalq şahiddir.

Nə qəddarmış yağım, qaboy,

Dağ üstündən dağım qaboy!

Çalma, çalma göz yaşlarım

Boğur məni,

İlk çərşənbəm, ilk baharım

Boğur məni.

Çalma, qaboy,

Biz çalmamış

Şanlı zəfər havasını...

Düşmənimdən bac almamış,

Qələbəylə bitirməmiş, -

Oğul kimi bitirməmiş

Ana vətən davasını.

Çalma, çalma almayınca

Bəkarətin qisasını.

Papağımı yerə soxan

Xəcalətin qisasını.

Tarixlərdə törənməmiş

Cinayətin qisasını.

Çalma, qaboy,

Çalma, qaboy!

Qisas dolu ürəyimdən

Sən də qisas alma, qaboy

26 mart, 1992.

NİSBİ SAKİTLİK NƏDİR

Mən tufandan əvvəlin

Sükutundan qorxuram.

Təbiətin bu təslim

Süqutundan qorxuram.

Nisbi sakitliyin də

Sonrakı dəhşəti var.

Toxtaq tapmış düşmənin

Amansız vəhşəti var.

Qəfil həmlə-hücumun

Həsrətindəsən məyər?

Mö'cüzəli yardımın

Möhlətindəsən məyər?

Haray-həşir salasan

İş işdən keçən kimi.

Təbil-şeypur çalasan

İş işdən keçən kimi?

Nisbi sakitlik nədir? -

Yə’ni düşmən dəm alır...

Səni yatırtmaq üçün

Şirin layla da çalır.

Torpaq gedir, var gedir,

Namus gedir, ar gedir.

Nisbi sakitlik - deyə

Suya vermişik gönü.

Hər şeyin öz təhri var,

Döyüşün də öz yönü...

Nə koroğlu, nə nəbi?..

Bu müqəddəs adlara

Bu saat, allah haqqı,

Coşur xalqın nifrəti,

Coşur xalqın qəzəbi.

Arvad-uşağa söz yox!

Bakıya axın gəlir.

Partizan olmalılar -

Dağlardan uzaqlaşıb

Bulvara yaxın gəlir...

Nisbi sakitlik nədir?

Şimşəklər çaxsın gərək.

Suyumuz da düşməni

Yandırıb-yaxsın gərək.

Nisbi sakitlik nədir?

Məəttəldir camaat.

Düşməni göz açmağa

Qoyma bir an, bir saat!

Nisbi sakitlik nədir?

Məni fikir aparır.

Düşmən azərbaycanı

Tikə-tikə qoparır.

Varımı-dövlətimi

Fasiləylə aparır.

Nisbi sakitlik nədir?

Əldən fürsət verirsən.

Öz əlinlə düşmənə

Özün möhlət verirsən.

Nisbi sakitlik nədir?

Kabab oldu ciyərim.

Qəti hücum gərəkdir,

Mətin ordu gərəkdir,

Ey körpə igidlərim,

Ey şanlı igidlərim!

Bu - döyüş meydanıdır,

Ölüm-dirim anıdır.

Bu - alış-veriş deyil

Peşman pulu ödəyib

Qaytarasan malını -

Laçını, kəlbəcəri,

Şuşanı, Xocalını.

Döyüşlərdə döyüşlə

Qaytararlar torpağı

Əsarətdən silahla

Qurtararlar torpağı.

Gəl nisbi sakitliyin

Üstündən qələm çəkək.

Ürəklərdə intiqam,

Qətiyyət, cür’ət əkək.

Qeyrət, qeyrət yenə də,

Yenə də qeyrət əkək!

1993

ÖZGƏDƏN

ÇƏK GÖZÜNÜ

Qədim şairlər demiş

Can evi virandı ki...

Şəhidlər xiyabanı

Adi qəbristandı ki...

Bığ yeri tərləməmiş

Qoltuq ağaclı cavan,

Sahibini itirmiş

İyirmi yaşlı ceyran!

Yetim körpələriylə

Naçar qalan gəlinlər.

Namərd sədəqəsinə...

Təslim olan gəlinlər...

Hanı qanun, intizam!

Şimşəklərə dönüb çax!

Ya cilovu möhkəm çək,

Ya da bir yolluq burax!

Ya məhv elə!

Ya məhv ol!

Özgədən çək gözünü,

Silkələ öz-özünü!

1992

ÇIXMA QABAGIMA...

Çıxma qabağıma, ey ər şikəstim!

Qoltuq ağacların sinə dağımdır.

Sizləri görəndə mən hər, şikəstim,

Elə bilirəm ki, axır çağımdır.

Çıxma qabağıma, baxa bilmirəm:

Yerişin şahanə, qanadın təkdir.

Nə deyim, nə yazım, daha bilmirəm,

Ona yazdıqlarım çoxmu gərəkdir!

Çıxma qabağıma... dözə bilmirəm,

Necə rəvan keçim yanınnan, oğul!

Əzab-əziyyətsiz gəzə bilmirəm,

Mənimçin keçmisən canınnan, oğul!

Çıxma qabağıma... qorxuram birdən

Sənə bir çeynənmiş təsəlli verrəm.

Həm qoç koroğludan, həm Cavanşirdən,

Babəkdən, nəbidən salam göndərrəm.

Minməyib sükuta bürünək barı,

Üstündə yarpağı budaqlar gedir.

Uçur tək qanadlı durna qatarı,

Qoltuq ağacıyla uşaqlar gedir.

14 yanvar, 1993.

BU GÜN

İDMAN VAXTI DEYİL

Uşaqlıq dostum, məktəb yoldaşım

Məşhur idman ustası miri vahabova

Bu gün rəqib qapısına

Top ötürmək vaxtı deyil.

Bu gün futbol hünərində

Xal götürmək vaxtı deyil.

O - sonranın söhbətidir,

İdman - dinclik ləzzətidir.

Od içində yanır torpaq,

Vətən ayrı hünər istər.

Haydı, cəbhələrdə qoşaq,

Hər idmançı şanlı əsgər.

Hər idmançı bir düşməni

Bəbəyindən nişan alsın.

Hər idmançı bir düşməni

Ürəyindən nişan alsın.

Yarışda yox,

Döyüşdə qoy zəfər çalsın.

Bu gün düşmən həmləsinə

Sinə gərmək məqamıdır.

Ana-bacı harayına

Cavab vermək məqamıdır,

Bükülməz qol,

Enli kürək məqamıdır.

Qorxaqlara, sısqalara, zəiflərə,

Öndə örnək məqamıdır.

Tirdə nişan vaxtı deyil,

Bu gün idman vaxtı deyil.

Bu gün idman sarayına

Axıb gəlmək vaxtı deyil.

Xalça üstdə

Qalibə də, məğluba da

Nə rişğəndlə, nə fərəhlə

Baxıb gülmək vaxtı deyil.

Bu gün qurşaq vaxtı deyil,

Fit... dəm-dəsgah vaxtı deyil.

Bu gün döyüş meydanında

Qanlı zəfər çalmaq gərək!

Qundaqdakı şəhidlərin

Zülmlərə mə'ruzların,

Zillətlərə şahidlərin

Qisasını almaq gərək.

Bu gün yarış vaxtı deyil,

Bu gün görüş vaxtı deyil.

Bu gün cıdır vaxtı deyil,

Cıdır düzü gülər sənə.

Çək atının cilovunu

Acı tənə gələr sənə.

Bir ağacçın

Dözməyirdik topxanaya.

Bu gün idman vaxtı deyil,

Şuşam dönüb viranaya.

Evlər yanır xana-xana.

Tamaşa qıl bu idmana.

Uclarında işıq yanan

Qılıncları qoyun qına!

O cür qılınc oynatmağın

Vaxtı deyil - idman deyə.

Gəlin, əsil qılınc çəkin

Yurdumuza qan salana.

Bir meşinə kaman çəkib

Ox atmayın - idman deyə.

Bu gün şahmat taxtasından

Götür şahı, götür matı!

Döyüşlərdə uduzmayaq

Biz bu saat bu şahmatı!

Bu gün beynim qələbələr

Fəndi üçün yansın gərək.

Yerlə-yeksan

Hər şəhərim kəndim üçün

Yansın gərək!

Qından çıxan qılınc kimi

Avarlar da çıxsın sudan.

Avarçı da xilas etsin

Yurdu qanlı bu qurğudan.

Yelkənlərin qanadında

Süzüb axmaq vaxtı deyil

Azarkeşlik yeri deyil,

Keyfə baxmaq vaxtı deyil.

Ağırlığı qaldıranlar

Gücənməsin bu gün nahaq.

Bu gün mənə lazım deyil

Yeddi batman daş oynatmaq.

Bu gün namus-qeyrət yükü

Yükdü qardaş!

Bu ağır yük

Belimizi bükdü, qardaş!

Bu gün qaçmaq vaxtı deyil,

Bu gün uçmaq vaxtı deyil.

Bu gün finiş ayrı finiş -

Bu gün gərək ayrı yarış -

Azərbaycan əsgərinə

Ayrı yeriş, ayrı yürüş.

Bu gün bilyard ağacları

Raket olsun, qrad olsun.

Düşmənləri şar-şar vurub

Tora salan qoy şad olsun.

Yurd-yuvamı dağıdanın

Yurd-yuvası bərbad olsun!

Qarabağın dağı-düzü

Dığalardan azad olsun!

Bulaqların büllur gözü

Qoy durulsun, şəffaf olsun.

Tunc bədənli övladlarım

Zər qədirli sərraf olsun!

Onda idman halal bizə!

Hər xal bizə, halal bizə.

17 iyun, 1992.

XƏCALƏT

Toy da mənimkidir, yas da mənimki,

Ölən də mənimdir, qalan da mənim.

Zil də mənimkidir, pəs də mənimki

Qanmaz da mənimdir, qanan da mənim.

Bu bərli-bəzəkli gəlin otağı,

O yanıb kül olmuş otaq da mənim,

O kömürə dönmüş körpə qundağı,

Bu kukla - gəlincik uşaq da mənim.

Bir maşın rəngbərəng lent ilə əlvan,

Bir maşın güllədən deşmə-deşmədir.

Birində fışqırır qırmızı şampan...

Birində qızıl qan çeşmə-çeşmədir.

Ərənlərim gedir, ərlərim ötür.

Qara xəbər gəlir hər axşam çağı.

Zurna-qavalına millətlər gülür,

Bəs necə götürüm mən bu danlağı?!

Nə olar, eybi yox, toyun mübarək!

Qırx bir qırx beşdə də toylar çalıblar.

Ancaq xısın-xısın qan-yaş tökərək

Nakam uşaqları yada salıblar.

Toyu ləngitmək də günahdır, bəli,

Bu da el sözüdür, el məsləhəti.

Bəs sən şəhər boyu siqnal verəli -

Bəs mən hara yazım bu xəcaləti?!

Haranın külünü töküm başıma?

Sən də mənimkisən, ay başa bəla!

Yalan xeyir-dua gəlmir xoşuma

Əllərim gicişir vallah, az qala...

Axı necə yatsın canıma bu toy?

Arsız hay-həşirin çəkir mənə dağ.

Yə'ni heç yadına düşmür goranboy?

Yə'ni heç vecinə gəlmir qarabağ?!

Qeyrətə çağırır Şuşa ceyranı,

Çağırır yaralı-yaralı səni.

Çağırır axdıqca gözünün qanı,

Bu gün qarabağın maralı səni.

Bir maşın rəngbərəng lent ilə əlvan...

Bir maşın güllədən deşmə-deşmədir...

Birində fışqırır qırmızı şampan...

Birində qızıl qan çeşmə-çeşmədir.

1 oktyabr, 1991.

QƏRƏNFİLLƏRDƏN

UZAQ

Görüşə tələsənlər

Qərənfil almasınlar,

Əliboş getsələr də

Xəcalət qalmasınlar.

Qanlı yanvar gecəsi,

O qırğınlar gecəsi,

O ahu-zar gecəsi

Qanlı yağışa dönüb

Göydən yağdı qərənfil.

Yox, yox göydən yağmadı,

Gözdən yağdı qərənfil.

Şəhid qanıyla birgə

Şəhid qanına dönüb

aAxdı-getdi qərənfil.

Çiçəklərin içində

Öz başını götrüb

Çıxdı getdi qərənfil.

Qərənfil göz dağıdır

Qərənfil çiçək deyil,

O gecədən bu yana

Heç kimə gərək deyil.

Qurban olum allaha,

Məsləhətinə bir bax!

Qərənfilə ətir yox,

Yaraşıq verdi ancaq.

Yaraşıq da bir görün

Görün nəyə yaraşdı,

Qanlı tamaşa gedən

Bir səhnəyə yaraşdı.

Ay toy-nişan edənlər,

Ay görüşə gedənlər

Qərənfillərdən uzaq!

Şəhid qəbirlərinin

Bəzəyidir o ancaq.

1992

KÖNÜLLÜ

GÖRÜŞÜNƏ

Məni könüllülərlə

Görüşə aparmayın.

Getmirəm, - söyləyəndə

Hay-həşir qoparmayın.

Nə qədər demək olar

Vətən yandı, qoymayın,

Yurd talandı, qoymayın,

Namus getdi, ar getdi,

Ellər-obalar getdi.

Mən də gedim deyimmi:

Koroğluyuq, babəkik?!

Qazan xanıq, beyrəkik?

Mən də gedim deyimmi:

İgid, silaha sarıl,

Fərariyçin yer yarıl!

Həcər xanım anamdır,

Burla xatun bacımdır?!

Şah ismayıl, Cavad xan

Şanlı şöhrət tacımdır?!

Könüllü görüşünə

İşbiləni çağırın,

Başbiləni çağırın.

Düşməni göydə vuran

snayperi çağırın,

Fənd bilən, qurğu bilən

Bir yaveri çağırın!

Könüllü görüşünə

Oddan-alovdan çıxan

Veteranı çağırın,

Partizanı çağırın.

Könüllü görüşünə

General də’vət elə.

Admiral də’vət elə.

Təyyarəçini çağır,

Topçuya minnət elə,

Tankçıya minnət elə.

Minnət elə çağır ki...

Başına od yağır ki.

Sənə bir yol göstərsin,

Sənə bir iş öyrətsin.

Bu şahmat taxtasında,

Bir fənd, gediş öyrətsin.

Sənə bir şey öyrətsin.

Məni könüllülərlə

Görüşə çağırmayın.

Şair nə gündə gərək!

Çığırıb-bağırmayın!

Könüllü görüşünə

Mina axtaran çağır.

Əfqan döyüşlərindən

Böyük dərs alan çağır!

Bir şey öyrətsin sənə.

Könüllü görüşünə

Hərbin - bugünkü hərbin

Alim - ustadın çağır!

Külüng fərhadını yox,

Raket fərhadın çağır!

Məni könüllərlə

Görüşə göndərməyin.

İnsaf edin, rəddimi

Fitvaya döndərməyin!

Könüllü görüşünə

Çağırın qız-gəlini,

Qocanı, uşaqları.

Onlar öz gözləriylə

Görsün namusu-arı.

Könüllü görüşünə

Sürüyün fərarini,

Xəcalət tə’nəsinə

Bürüyün fərarini!

Könüllü görüşünə

Gətirin möhtəkiri,

Göstərin tay-tuşuna,

Basdırın diri-diri.

Könülsüzü gətirin

Könüllü hüzuruna!

Körükçü lazım deyil

Körüksüz alovlanan

Könüllü qürurunа.

15 noyabr, 1993

BAKINI TƏRK ET

Bakı yerliçilik bilməyib

Heç vaxt.

Açıb qucağını öz millətinə

Yaraşdırmayıbdır o boyda paytaxt

Bu cılız söhbəti xasiyyətinə.

Əzəldən olmayıb bir ehtiyacı

Haralısan - deyə sorğu-suala.

Tapan burda tapıb burda əlacı,

Yetən burda yetib əqlə-kamala.

Burda babəklərin ayaq izi var,

Nəsimi Bakıdan ötüb Hələbə.

Bakıda ərsəyə çatıb çobanlar...

Burda alim olub kasıb tələbə.

“Bakı”... azərbaycan... işığa bir bax!”

Bu ki söz sənəti, bu ki şe’rdi.

“Şərqin ilk günəşi burdan doğacaq”

Şair səməd vurğun doğru deyirdi.

Vətən torpağının iki daşını

Çalsam bir-birinə çaxmaq daşı tək

Onda itirəcək millət başını,

İtən başımıza od töküləcək.

Bakı küçələri qana batanda...

Bakılı, şəkili qanı qarışdı...

Tanklar əzib töküb, qırıb çatanda

Bir-bir xalqımızdan pasport soruşdu?!

Qərənfil yağışı!.. nə qiyamət söz,

Bu söz tarixlərdə yaşayacaqdır.

Qərənfil bu gün də közərir köz-köz...

Bu köz tarixlərdə yaşayacaqdır.

İnsan ümmanında tabutlar üzdü,

Bakıda qovuşdu ümmana ümman.

Azadlıq bayrağı əllərdə gəzdi,

Bayraq qan... tabut qan... qərənfilim qan.

Qəzəbli-qəzəbli süzürəm ancaq

Bakıda dolaşan veyilləri də.

Ay allah, əl açıb dilənir uşaq,

Süzürəm pəhləvan veyilləri də.

El-elə sığışar. nə olar, sığsın!

El gücü-sel gücü ayrı nağıldı.

Fərari ağlını başına yığsın!

Bu nə kişilikdi, bu nə ağıldı?!

Cəbhədən qaçanı ev dəftərinə

Yazmayın! - qışqırar əsil bakılı.

Kim dolub bakının küçələrinə

Tanımır belə bir nəsil bakılı.

Döyüşçü libaslı dələduz cavan,

Bir yol heç olmasa qospitala get.

Get, hal-əhval soruş, bir yaralıdan,

Elə qospitaldan bakını tərk et.

Elə qospitaldan cəbhələrə get!

Ey meydannan qaçan, hanı qeyrətin?

Qoltuq ayrı şeydir, yaxın ayrı şey.

Bakı pənahıdır bütün millətin,

Pənah ayrı şeydir... axın ayrı şey...

2 noyabr, 1992.

AXI NİYƏ

Bəzi jurnalistlər qospitalda yaralı əsgərlərə -- döyüşçülərə yersiz, lüzumsuz suallar verirlər.

Qızarır sarğısında

Hələ qan ləkələri.

O yaralı əsgəri

Niyə üzə salırsan?

Niyə xəbər alırsan:

Yəqin qayıdacaqsan

Cəbhəyə sağalan tək?

O da: - əlbəttə, - deyir.

Bəs başqa nə deyəcək?

Bəs sən necə qıyırsan?

Ürəyin daşdı yoxsa,

Niyə mikrafonunla

Lap minnət qoya-qoya

Danışırsan onunla?

Divara dirəyirsən

Sən bu halsız uşağı?

Özünü şux göstərən

Bu əhvalsız uşağı?

Qospitaldan çıxan tək

İnanıram ki, hökmən

Cəbhəyə dönəcəksən!

Allah qoysa,

Əlbəttə...

Yarası göynədikcə

Sızıldayır xəlvətdə...

Ərlərin,

Ərənlərin,

Ana yurda,

Vətənə

Canını verənlərin,

Qanını verənlərin,

Borcunu verənlərin

Gəncliyin, sağlamlığın

Zəlzələ,

Top dağıtmaz

Möhtəşəm qalasını,

Bürcünü verənlərin

Xoş təsadüf üzündən -

Allahın rəhmi ilə

Salamat qalanların,

Yarımcan olanların,

Çıxa-çıx qalanların,

Bata-bat qalanların,

Niyə cırmaqlayırsan

Üzünü bu məqamda?!

Bir duyğu, bir hissiyyat

Olmaz imiş adamda?

Getməyənlərdən yapış,

Getməyənlərdən soruş

Namus nə,

Qeyrət nədir,

Yurda məhəbbət nədir,

Xalqa sədaqət nədir.

Yaralı döyüşçüyə

Ana südündən halal

İnnən belə

Ən xoşbəxt

Ömür-gün arzu elə,

Çal-çağır arzu elə!

Toy-düyün arzu elə!

Onlar yadigar qalıb.

Onlar əmanət qalıb,

Onlar qənimət qalıb

Şanlı döyüşçülərə -

Sarğıları hələ də

Qanlı döyüşçülərə -

Arzu-kam arzu elə!

Həyatın şərbətilə

Dolu cam arzu elə!

Desən də, deməsən də

Bilsən də, bilməsən də

İgidlər dinc oturmaz,

Çətində-darda bəli!

Müdrik ol, incə tərpən,

Mikrafonlarda bəli.

4 yanvar, 1994

ÇADIRLAR

Səksənib oyandım gecə tən yarı,

Dağıdıb tökürdü aləmi külək.

Şaxta çatdadırdı daşı-divarı,

Ağaclar əsirdi nalə çəkərək.

Çadırlar dayandı gözüm önündə,

Yanıq yarası tək göynək çadırlar.

İpdə sıralandı gözüm önündə

Lap suyu süzülən köynək çadırlar.

Yatağıma dolan közmü, qardımı?

Yanıram, donuram, bilə bilmirəm.

Mən bu humanitar gələn yardımı

Vur öldür... sədəqə ala bilmirəm...

Çadır şəhərciyin nəvə sakini

Qonur qucağında yumaq nənənin.

Bu gün qar ağartmır xalqın saçını,

Ağardır düşmənə qəzəbi, kini.

Ağardır tərsinə silləyə gələn

Qeyrətsiz cavanın yanağı bu gün.

Tribunal hökmüylə gülləyə gələn

Fərarisi bu gün, qorxağı bu gün.

Biz hoydu deyirik, birləşin, daha,

Külək cövlan edir çadır içində.

Millətin ümidi qalıb allaha,

Ümid də it-batdır çamır içində.

Yox, yox, səhv elədim, nə desən itər,

Ümid itə bilməz dumanlarda da.

Ayın-günün nuru hər axşam-səhər,

İşarar qaranlıq zindanlarda da.

Soyuq çadırlarda gəlin-analar,

Basıb körpəsini bağrına, yanır.

Fikrim pərakəndə, ruhum tarimar,

Şerimin tüstüsü ərşə dayanır.

Soyuq çadırlarda bir stəkan süd

Rəvayətli olub, nağıllı olub.

Qəzetlər dop-dolu nəsihət, öyüd,

Hamı alim olub, ağıllı olub.

Odur tüstülənir tək-tək samovar...

Çadır məskənlərin qapılarında,

Tərk edilmiş yurddan təkcə yadigar

Yurdun sızıldayır intizarında.

Yaylaq söhbətidir çadır, alaçıq...

Mən onu neynirəm qarda-boranda.

Yazda yamaca çıx, yayda yola çıx,

Çadırda xoşhallan dolu yağanda...

Min-min yardım əli uzanır bizə,

Görməsə kor olsun nankorun gözü,

Ancaq, dağ çəkmirmi ürəyimizə

Çadıra bürünmüş hərami düzü?

Çadıra bürünüb milim-muğanım,

Əlvan qutularda naz-ne’mət gəlir.

Qana qan! - deməkçin, azərbaycanım!

Yeşikdə de kimə rəşadət gəlir?!

Yağır çəpəki qar, doğrayır sazaq,

Sətəlcəm sinələr xırhaxırdadır.

Çadırda dünyaya göz açır uşaq

Qoy millət çoxalsın, vətən dardadır.

Çadır mühitinə vərdiş etmə dur!

Sən ki, dərd əlindən çıxmısan dağa.

Özün bir nöqtə qoy, bir nöqtə qoydur,

Bu gün - bu güzaran, bu yaşamağa.

Uyuma, uyusan qarda donarsan!

Müdhiş rahatlığın ləzzətindən qaç!

Axı bu torpağın çoxunda varsan,

Azı çoxnan qaytar, çoxuna yol aç!

Yardım ayağıyla, yardım əliylə

Bu yol bir qarış da açılan deyil.

Bu yol açılacaq xalqın əliylə,

Bu badə yad əllə içilən deyil.

Fəqət həqiqətdir bu gün çadırlar,

Başımın altında balış yox, daşdır.

O üzgün qaçqınlar, süzgün çadırlar,

Tariximdə yaddaş, gözümdə yaşdır.

14 dekabr, 1993

ÇADIRLARA

ALIŞMAYIN

Cərgə-cərgə, düzüm-düzüm,

Görüb qan ağlayır gözüm...

Millətimə budur sözüm:

Çadırlara alışmayın!

Nə gen-bolu, nə də darı,

Nə qırışı, nə hamarı...

Yığışdırın bu bazarı,

Çadırlara alışmayın!

Vurun, deşin dolu kimi,

Qırın tikan kolu kimi,

Uzaqlaşan dəli kimi...

Çadırlara alışmayın!

Əski-üskü dam-daşımız?!

Burda xeyir-şər aşımız?!

Qaraçı da yoldaşımız?!

Çadırlara alışmayın!

Burda tapmayın rahatlıq,

Bir dəqiqə, bir saatlıq,

Aman günü! El-elatlıq...

Çadırlara alışmayın!

İmarətə tən olsa da,

Pəncərəsi gen olsa da,

Dövrəsi gülşən olsa da,

Çadırlara alışmayın!

Tayfa deyil, millətik biz,

Bir evik, bir külfətik biz,

Saraylara şöhrətik biz

Çadırlara alışmayın!

Burum-burum qalxır tüstü,

Deməyiniz bu da bəsdi.

Məst etməsin sizi isti,

Çadırlara alışmayın!

Sən ey xalqım, ey diyarım,

Ey cavanım, ixtiyarım,

Ey didərgin balalarım,

Çadırlara alışmayın!

Barışqanlıq cinayətdir,

Lap bir anlıq - cinayətdir,

Alışqanlıq - cinayətdir,

Çadırlara alışmayın!

3 dekabr, 1993

BELƏ OLMAZ

Cəbhə xəbərlərinə

Mən daha inanmıram.

Bu nə müharibədir?

Allah haqqı qanmıram.

Nisbi sakitlik nədir?

Belə məqam da var ki?

Düşmənə də bircə an

Aman vermək olar ki?

Gözləyirsən erməni

Azacıq nəfəs dərsin

Sonra yerdən və göydən

Başına od əndərsin?

Bu nə müharibədir

Allah haqqı qanmıram.

Həmzə həmzəliyində

Eyvaza inanmıram.

Həmzələşib Eyvaz da

Qardaş, belə olmaz da!

Yanıq

Kərəmi

Ağla, ya ağlama,

Yanıq Kərəmi!

Sinəmi

Dağla, ya dağlama,

Yanıq kərəmi!

İşlər belə getsə

Belə qalacaq.

Naləylə azalmaz

Millətin qəmi,

İşlər belə getsə.

Elə getməsə

Dünya belə qalıb,

Belə qalacaq.

Alıb qucağına

Qara baxtını,

Sazla səsləyirsən

Qarabağını.

Gönü suya verən

Ey dili qafil,

Bu iş bilirsən ki,

Saz işi deyil,

Yanıq kərəmi!

Qorası sıxılan

Göz işi deyil

Yanıq kərəmi!

Sazı köynəyə sal,

Apar küncə qoy.

Qılınca əl apar

Sazı dincə qoy.

Yanıq kərəmi!

Döyüş səhnəsində

Meydana atıl,

Səhnə meydanından

Hələlik çəkil!

Silkələ beynini,

Qafa tasını.

Bəsdi qarabağın

Qurdun yasını!

Hədər ümidlərin

Kəndirini kəs.

Xoşluqla qaytarmaz

Torpağı heç kəs!

Ağla, ya ağlama,

Yanıq kərəmi!

Düşmən qarabağda

Göyərdib zəmi...

Taxıl biçib-döyür.

Büllur sularımdan

Ovucla içir,

Oxx-ay da deyir.

Sən də, sən də ki,

Ağlamağında ol,

Çalmağında ol,

Baxıb yana-yana

Qalmağında ol!

Ay əsliyçin yanan

Yanıq kərəmi!

Qeyrət xəcaləti,

Namus sitəmi

Bəs niyə öldürmür?

Get qisas al da,

Get qan al,

Qisas al,

Gəl, sonra çal da.

İçin də özünü

Yandırır bu gün,

Çölün da özünü

Yandırır bu gün.

Odun da özünü

Yandırır bu gün,

Külün də özünü

Yandırır bu gün

Yanıq kərəmi!

Vallah, qara keşiş

Yaman geydirib

Ovsunlu köynəyi

Əyninə, yaman:

Açılır bağlanır

Qızıl düymələr,

Tilsimli düymələr

Gör bir haçandan.

Ağla, ya ağlama,

Demirəm daha...

Ağlama, deyirəm

Yanıq Kərəmi!

Səni and verirəm,

Qadir Allaha,

Tilsimli köynəyə,

Cırma çəkib cır.

Tilsim düymələri

Qoparıban qır,

Qır, inamla qır!

İntiqamla qır!

Qır ki, qara baxtın

Boyansın ağa...

Yoxsa ki, yoxsa ki,

Əlində sazın...

Həsrət qalacaqsan

Sən qarabağa

Həsrət qalacaqsan

Sən qarabağa...

Qara baxtım

Deyə-deyə,

Qarabağım,

Deyə-deyə,

Yanıq Kərəmi!

7 iyul, 1995

YADDAŞIM

Unutmayaq 1905-ci ili...

18-in... yanğınına

Su səpməyək ha!..

Daha bəsdir... eşitməyək

“Dili qafili...”

Barışığa qol açmayaq.

Uçmayaq daha!

Qardaşlığın sağlığına

Arsız-arsız

Dibinəcən

İçməyək daha!

Olan-oldu,

Keçən-keçdi

Deməyək daha!

Qonşuluqda

Olan işdi,

Deməyək daha.

Yediyimiz

Xirtdəyəcən

Bəsimizdi, ah!...

Axmaq olub,

Maymaq olub,

Uşaq olub,

Yeməyək daha!

Yaddan çıxa bu qan-qada

Yaman qorxuram.

Körpələrim yandı oda

Yaman qorxuram.

Namusumun ləkəsini

Sellər də yumaz.

Namusumda ləkə qala,

Yaman qorxuram.

18-də Lənkəranım

Boyandı qana,

Qırğın düşdü

Şamaxıda - əngəxərana.

Neçə obam, neçə elim,

Qaldı virana.

Qorxuram ki,

Acıdərə qucağındakı

Türkün qəbri yandığından

Qalxa üsyana.

Qan yaddaşım itəcəksə

İtəcəksə ah...

Xocalının

Ağlasığmaz müsibətləri

Ermənin ağlasığılmaz

Cinayətləri

Belə asan, belə sakit...

Bitəcəksə ah...

Sülh ayrıdır...

Təslim ayrı.

Kin ayrıdır,

Zalım ayrı.

Tükü tükdən demirəm ey!..

Tükü tirdən ayır,

Bəsdi.

Əsrlərin qəsdidi bu.

Sən bu qəsdə qarışdırma

Bir ötəri sui-qəsdi.

bəsdi, bizi

Yapışqanla yapışdırdılar

Bir ötəri yığıncaqda,

Bir mərasimdə

İtələyə-itələyə

Öpüşdürdülər.

Öpüşəndə yadına sal

Murov dağını.

Əsirlərin xaç damğalı

Sinə dağını.

Öpüşəndə yadına sal

Şəhid qanını.

Viran olmuş

Azərbaycan xanimanını.

Bu söhbətdə heç kim

Mənim qahmarım deyil.

Unutqanlıq mərhəmətim,

Vüqarım deyil.

Məst etməsin

Danışıqlar badəsi bizi!

Çox sayıblar sadələrin

Sadəsi bizi.

Qan yaddaşım,

Can yaddaşım,

Vicdan yaddaşım,

Əcdadımın uyuduğu,

Övladımın böyüdüyü

Məkan yaddaşım,

Hüceyrəsi

Hüceyrəmin

Düşmənində

Nifrət yaddaşım

Korşalmasın

Qisas-hiddət

Yaddaşım

Korşalmasın

Hünər-qeyrət yaddaşım

Korşalmasın!

Allah, Allah...

Qətiyyət yaddaşım

Korşalmasın!

6 aprel, 1995

NƏSİMİ

BAZARINDA

Çeçen aullarında

Xalq torpaq vayındadır,

Sinəsində avtomat.

Nəsimi bazarında

Xalq qarın hayındadır

Əlində ölü manat.

Bomba yağmurlarından

Çeçen xərabələri

Xalqın şöhrət tacıdır.

Bir daşı laxlamayan.

Gəlməylə dolub daşan,

Qaçqınla dolub daşan,

Köçkünlə dolub daşan.

Veyillə dolub daşan,

Möhtəkirlə, qatillə,

Düşgünlə dolub-daşan

Bu adlı-sanlı bakı,

Tarixi şanlı bakı

Sədəqə möhtacıdır.

Nəsimi bazarında

Vur çattasındı, vallah!

Babək də, koroğlu da

Nağıl as-ındı, vallah!

Azərbaycan torpağı

Doludur generalla.

Bir general ay çeçen,

Sənin bəsindi vallah...

Bir ovuc millətə bax,

Millətdə qeyrətə bax,

Sən bir qaşıq qana bax,

Bir qaşıq ümmana bax.

Yeddi başlı əjdaha

Başında tufana bax!

Nəsimi bazarında

Böyük Mirzə Ələkbər

Deyir ki:

Tərsinə yox,

Düzünə dövran edir

Elə çərxi fələklər.

Nəsimi bazarına

Çevrilib başdan-başa

Azərbaycan torpağı.

Hər eli, hər oymağı.

Əbəs yerə çəkmirəm

Nəsiminin adını

Əbəs yerə salmıram

İnamın, kişiliyin

Fərhadlar Fərhadını!

Nəsimi dönməzliyi

Axtarıram, camaat!

Nəsimi sönməzliyi

Xalqa lazım bu saat.

Hədər misal çəkmirəm

Nəsimi bazarını

Nəsimi bazarında

Görüb qan ağlayıram

Millətin rüzgarını.

Çeçen küçələrində

Körpə kamikadzelər

Dağ boyda tank üstünə

Fəda olmağa gəlir...

Nəsimi bazarında

Bizim də ki, uşaqlar

Cındır əski əlində

Maşınlara şığıyır,

Şüşə silməyə gəlir.

Nəsimi bazarına

Niyə Çeçenistannan

Əsmir odlu küləklər?

Atəşkəslə nə sayaq,

Sakit olsun ürəklər,

Bu qədər şəhid qanı,

Bu qədər şəhid canı

Hədərmi getdi, hədər?

Yad əllərdə mahallar

Yad əllərdə namuslar...

Küləkdən şappıldayan

Çadırların sırası

Ana-bacı saçında

Bəlalar sırsırası

Şəhid deyil, nədir bəs?

Nəsimi bazarına

Əs, ey odlu külək, əs!

Əs, çeçen diyarından!

Bəlkə tərpəniş görə

Xalq öz oğullarından...

Ay nə bilim, nə bilim

Sındırdılar milləti,

Dondurdular milləti,

Yandırdılar milləti,

Keçməz bu bəhanələr!

Lap Cövhər dudayevi

Doğrasalar da əgər

Nədir çeçenin həddi,

Nə həddi sına qəddi?!

Nəsimi bazarında

Dəyirman daşı kimi

Vallah hərlənir başım.

Yanıram-yaxılıram

Vallah, atam-qardaşım?

Nə qədər satmaq olar.

Nəsimi bazarında

Humanitar damğalı

Sədəqə - yardımları?

Nə qədər batmaq olar

Yuxarıdan aşağı,

Aşağıdan yuxarı?!

Bəlkə çeçen qanınnan

Qan vuraq qanımıza?

Ya çeçen vicdanından

Vicdan calaq eyləyək

Sabirlərə dağ çəkən

Bu gor vicdanımıza?!

Qınama vətən məni,

Nahaqqamsa qəbrə qoy,

Diri-diri sən məni.

Qınama millət, məni,

Neyləyim, dilləndirir

Aşkar həqiqət məni.

Ağlar həqiqət məni.

Xalqın bu rüzgarında

Nəsimi bazarında,

Nəsimi bazarında...

4 fevral, 1995

RƏQS

Televiziyada “əsgər poçtu”

Verilişinə baxarkən.

Rəqs eləyir arsız-arsız,

Bığlarını eşən mayor.

Əllərini belinə vurub

Döşəməni deşən mayor.

Rəqs... rəqs... rəqs...

Hərbçilər geyimində

Rəqs eləyir telli qızlar.

Bellərini qayış sıxan,

Qəşəng, incəbelli qızlar.

Küçələrdə körpə-körpə,

Uşaq-uşaq dilənçilər,

Gəlinlərin qucağında

Qundaq-qundaq dilənçilər,

Rəqs... rəqs... rəqs...

Toz qoparır cavan çavuş,

Gizir çırpır nağaranı.

Cərgələrdən qopur alqış,

Allah haqqı şillələrdim

Neçə dişi ağaranı.

Rəqs... rəqs... rəqs...

Əl çalır zal,

Şəhidlərin məzarına,

Qonur xəyal,

Məzarların gülzarına

Qonur xəyal.

Rəqs eləyir sütül əsgər

Dırnağına daş dəyməyi

Kim istəyir?

Fəqət onu,

Axı kişi sanır şəhid,

Axı qisas həsrətiylə,

Yanır şəhid.

Axı hələ rəqsin vaxtı,

Yetişməyib,

Uşaqların yaraları

Bitişməyib...

Rəqs... rəqs... rəqs...

Müqavilə,

Müşavirə,

Buyur, -- deyib

Torpaq vermir.

Zurna-qaval

Nə laçından, nə Şuşadan

Soraq vermir.

Xocalının qisasını

Almaq üçün

Yaraq vermir,

Qara namus ləkəsini

Yumaq üçün

Bulaq vermir,

Gedən getdi, qalanların

Ürəyinə

Dayaq vermir.

“Əsgər poçtu” konsert verir

Çeçen dərsi nahaq vermir.

Rəqs... rəqs... rəqs...

Əsgər klarnet füləyir,

Ovurdları şişə-şişə.

Zurnaçılıq ayrı peşə,

Döyüşçülük ayrı peşə.

Bax yaralı torpağıma

Nə yaraşır bu çağıma?

Rəqs... rəqs... rəqs...

Mən qətiyyət axtarıram

Zər ulduzlu paqonlarda.

Ağsaqqallar, ağbirçəklər

Can tapşırır

Daş üstündə daşa dönmüş,

Vaqonlarda.

Yığışdır, əl-ayağını!

Bəri gətir qulağını,

Sən döyüşlə almalısan,

Torpağını!

Sədəqə tək qaytarsalar onu əgər,

Tarix səni lə’nətləyər...

Qarmonunu bəsdir zilə çəkmə görək,

Ətimizi tökmə görək,

Qızışdıqca yan-yörəni

Sökmə görək!

Gözlərini bir nəfərə

Dikmə görək!

Qələbə xalq işi olsun,

Olsun gərək.

Millət gərək kişi olsun,

Olsun gərək.

Rəqs... rəqs... rəqs...

11 fevral, 1996

DƏNİZDƏ ADAM BATIB...

Gecənin bir aləmi

Tir-tir titrədi şəhər,

Qopdu çərçivəsindən

Qapılar, pəncərələr.

Sovruldu asimana

Yerin tozu-torpağı.

Şaqqıltıyla qırıldı

Ağacların budağı.

Xəyalım uçdu bu dəm

Uşaqlıq çağlarına

Əlçatmaz illərdəki,

Qumlu sahillərdəki

Pirşağı bağlarına...

O vaxt, o zaman haçan -

Haçan qopsaydı tufan,

Haçan, haçan ki, Xəzər

Nərildəsəydi nər-nər,

Rişəsindən qopsaydı

Yaşıl-yaşıl tənəklər,

Səma burulğanında

Çaşbaş olsaydı quşlar,

Yaylım atəşlərinə

Dönsəydi xırda daşlar,

Məsmə nənəm deyərdi,

Suğra anam deyərdi,

Fatma xalam deyərdi:

Xəzri qopmayıb hədər

Qurban aparıb yenə

Qan-qan deyən ləpələr.

Dənizdə adam batıb,

Onunçun bir-birinə

Xəzri aləmi qatıb.

Ya da nahaq qan düşüb,

Bu bağlar arasında.

Qız üstündə cayıllar...

Uşaqlar arasında.

Ya hansı yekəbaşın

Ağız-burnu əyilib.

Allaha xoş getməyən

Artıq-əskik deyilib.

Xəzri allah cahadı

Xəzri allah inadı.

Xəzri allah üsyanı

Çərxi fələk fəğanı.

Bəs niyə bu gün qopmur

Azərbaycanda xəzri?!

Təkcə pirşağıda yox

Hər yer, hər yanda xəzri?!

Dağ-daş ahu-fəğandır,

Qurularım bir yana,

Yaşlarım yanhayandır...

Dolu zindanlarımız

Düşmənə ərməğandır!..

Gediş-gəlişlər hədər,

Danışıqlar gümandır.

Dənizdə cür’ət batır

Qəti qətiyyət batır.

Kişilik axtalanır,

Qan dəryası daşmayır.

Neçin ki, laxtalanır...

Yerə, yurda dağılıb

Tökülmüş dəndi birlik,

Pərən-pərəndi birlik.

Lüzum varkən yumruğa,

Lüzum yoxdur buyruğa.

Çıxır suyun üzünə

Cinayətlə, xəyanət.

Batır suyun dibinə

Abır-həya, ləyaqət.

Dənizdə suya gəlməz

Dilənçi uşaq batır.

Gələcək nəsil batır,

Günəşli sabah batır.

Didişmə güdazına

Verilmiş torpaq batır.

Dənizdə adam batmır,

Dənizdə millət batır.

Şan batır, şöhrət batır,

Kim-kimi bəyənməyir,

Əli tətikdə hazır.

Kim-kimi bəyənməyir

Qətlinə fərman yazır.

Batmış qanlar bürüyüb

Bu gün dağı-dərəni.

Ay Allahın cahadı,

Əs, ey dəli tufanım,

Dəyiş bu mənzərəni!

Təyyarədən satqınım

Enir qolları bağlı.

Cəza cəza yerində

Baxıb xəcalət çəkir

Vətən sinəsi dağlı.

Məscid məscid dibində,

Məscid işbaz cibində.

Yox, Allah evi deyil

Bu Allah evcikləri.

Xəzri, yerlə-yeksan et

Bu haram evcikləri.

Bu günah evcikləri,

Bu tamah evcikləri.

Bu bəladan hamını

Xilas et, qopar, Xəzri!

Xalqı qat qabağına

Cəbhəyə apar, Xəzri!

Dənizdə adam batıb,

Yenə də bir-birinə

Xəzri aləmi qatıb.

Pirşağı bağlarında,

Uşaqlıq çağlarında

Rəhmətliklər deyərdi...

Rəhmətliklər nə yaxşı

Görmədilər bu dərdi.

22 aprel, 1996

ÜMİD

SƏNƏDİR ANCAQ...

Uzanır danışıqlar,

İmzalanır sənədlər.

Xəritədə aləmə

Göstərilir sərhədlər....

Səsimizə səs verir

Dünya başbilənləri;

Ümid sənədir ancaq,

Azərbaycan əsgəri!

Dəyirmi masalarda

İzi var dirsəklərin...

Ağla sığan söhbəti,

Sözü var dəstəklərin,

Yardım bağlamasında

Özü var dəstəklərin

Lap lə’l-cavahir olsun

Hər yardımın dəyəri...

Ümid sənədir ancaq,

Azərbaycan əsgəri!

Diplomat cənabların

Hər biri hörmətlidir.

Bu məqamda ölkəmə

Təşrifi qiymətlidir.

Rə'yi təqdirə layiq,

Rə'yi ədalətlidir.

Gözdən-nəzərdən salan

Kimdir ki, bu işləri?

Ümid sənədir ancaq,

Azərbaycan əsgəri!

İşğal altında qalır

Torpağımız-daşımız,

Nələr görmür gözümüz,

Nələr çəkmir başımız.

Qarışıb bir-birinə

Baharımız-qışımız.

Çadır göstərmək olub

Hər çatana peşəmiz...

Sərgi olmasın deyə

Bu mil-muğan düzləri

Ümid sənədir ancaq,

Azərbaycan əsgəri!

Ali qonaqlar gəlir

Dünyanın hər yerindən.

Ürək yanır, göz dolur

Şəhid qəbirlərindən...

Düşünüb daşınıram

Özlüyümdə dərindən:

İntiqam ala bilməz,

Qana qan ola bilməz

Məzarları bəzəyən

Ehtiram çiçəkləri...

Ümid sənədir ancaq,

Azərbaycan əsgəri!

Söhbətlər çözələnir,

Bir şey görünmür hələ,

Heyətlər təzələnir,

Bir şey görünmür hələ.

Müddətlər təzələnir,

Bir şey görünmür hələ.

Açılmır ki, açılmır

Düyünü bu torpağın.

Qov alışa bilərmi,

Od saçmasa çaxmağın?

İldırımlardan belə

Umma bu zərrələri,

Ümid sənədir ancaq,

Azərbaycan əsgəri!

Sülhə qurban kəsərəm,

Mən də qan istəmirəm.

Təzə-tər qərənfilli

Xiyaban istəmirəm.

Tükənir səbrim fəqət,

Sazişlər,

Qətnamələr,

Bəyanətlər

Kifayət!

Kiyafətlər

Kifayət!

Ziyafət dumanında

Nəzakətlər kifayət!

Yurdsuzlara yurd olan

Biyaban istəmirəm!

Yellənsin sülh bayrağı,

Bu bayrağa kəm baxan,

Həm baxmayan,

Həm baxan

Bədgüman istəmirəm,

Sevindirsin milləti

Qoy sülhün şad xəbəri,

Ümid sənədir ancaq,

Azərbaycan əsgəri!

1996

HAVA NECƏ OLACAQ

Hava necə olacaq

Laçında - Kəlbəcərdə?! -

Nalma təzədən məni

Bu xəbərinlə dərdə.

Seyr et dərdli vətənin

Sən abi-havasını.

Satılmış qarabağın

Kim çəkir səfasını?!

Get, ey odu söndürüb

Küllə oynayanlarım.

Toyda-vayda pıqqapıq

Daşıb-qaynayanlarım!

Qoruduzmu havanı,

Qoruduzmu iqlimi?

Niyə azdırırsınız

Düşüncəmi-əqlimi.

Şelliyə, gülablıya

Qırov düşəcək, ya qar?

Səlamət çıxacaqmı

Yaza bağçalar-bağlar?

Səhər iyirmi-otuz

Axşam on beş dərəcə.

Lap olsun qırx beş-əlli,

Göydən od yağsın gecə.

Bu gün, bu saat, bu dəm

Bunun sənə nə dəxli?

Əsarətdə inləyən

Çöl-çəmənə nə dəxli?

Bu hava mə'lumatın

Yox, tavakabab deyil.

Havakababdır qardaş!

Öz-özünü aldatmaq

Yaman əzabdı, qardaş!

Tutulub-açılacaq

Bu gün Şuşada hava.

Sənə nə var tutulub

Açılacaq, binəva?!

Ağ yağış çimdirəcək

Cəbrayıl çinarını,

Sabir Süleymanovun

O yetim məzarını,

O dustaq məzarını,

Dayan görüm, ey, dayan!

Mənə ayrı xəbər ver.

Zəngilan-Qubadlıdan.

Söyləmə ki, Ağdamda

Hava necə olacaq?

Söylə ağdam uğrunda

Dava nə vaxt olacaq?

Dava necə olacaq?

Füzulinin adını

Daşıyan torpağı ver!

Hava sorağı vermə

Qələbə sorağı ver!

Get, haqq-hesabı çürüt

Satqın nəfərlərinlə.

Bəsdi, xalqı hərrədin

Hava xəbərlərinlə.

Yad əllərdəsə torpaq

İstiliyi isitməz,

Soyuqluğu soyutmaz.

Bu saat ancaq, ancaq

Qətiyyətdən ver soraq!

Ayrı söhbət, ayrı söz

Qəlbimizi ovutmaz

1996

HARAY, TƏLƏSİN,

GƏLİN!

Hamı - Cıdır düzü -

Deyib dayanır.

Hamı - Şuşa - deyib

Alışır-yanır.

Ancaq ki, qanan da,

Qanmaz da qanır;

Sən get ha sinə vur,

Ha mərsiyə de:

Vətən talanır! -

Çoxu bu harayı

Vızıltılı sanır -

Milçək vızıltısı,

Vətən naləsi -

Adam xəcalətdən

Ölür... utanır...

Əşşi, nankor deyil,

Düşmandı qonşu.

Səmumdan beşbetər

Tufandı qonşu.

Sən gül yarpağında

Əlvan kəpənək...

Zirehdi, qılıncdı,

Qalxandı qonşu.

Dağımda qapqara

Dumandı qonşu,

Bağımda sapsarı

Xəzandı qonşu,

Qanıma-canıma

Susandı qonşu.

Yerimə, yurduma

Dadandı qonşu.

Əfidən də əfi

İlandı qonşu.

Sən də deyirsən ki:

Bəlkə sülh ola

Usandı, utandı,

Dayandı qonşu?

Arzu yaxşı şeydir,

Dilək gözəldir.

Arzuyla döyünən

Ürək gözəldir.

“Gün o gün olsun ki...”

Demək gözəldir.

Xəyalplovdansa -

Bir dağ aşıran

Vallah, bircə tikə

Çörək gözəldir.

Duayla qələbə

İstəməkdənsə

Qələbə naminə

Ölmək gözəldir.

Ağ bayrağa dönüb

Bayrağı sülhün,

Həm də cidarlanıb

Ayağı sülhün.

Boş şeydi - yoxdusa

Yarağı sülhün.

Yalnız qol gücüdür

Dayağı sülhün.

Sonsuz gəlin kimi

Bəs nə vaxtacan

Qundaqsız qalacaq

Qucağı sülhün?!

Böyüklü-kiçikli

Rəqs edir hamı.

Durub gözləyən yox

Heç bir bayramı

“Çal-oyna” çaşdırıb

Bütün adamı...

Üzlərdə-gözlərdə

Yoxdu zərrəcə

Qəzəb qığılcımı,

Qisas eyhamı

Bu dərddən-bəladan

Xilas eyhamı.

Vətən əldən getsə

Nə şah, nə vəzir?!..

Namusa-qeyrətə

Duraq müntəzir!

Nə dua, nə səna

Nə niyaz-gəzir?!

Soyuq biganəlik

Milləti pozur...

Söz cəng-cidalında

Ağızlar qızır...

Deyinə-deyinə

Camaat gəzir:

Kremlə sadəlövh

Məktublar yazır...

Başının altınnan

Tulla balıncı,

Dillə yox,

Dur əllə

Götür qılıncı!

Bütöv bir millətə

Ötür qılıncı!

Son qisas həddinə

Yetir qılıncı!

Kafərlər qanına

Batır qılıncı

Ya da itkin düşən

Qız-gəlinim tək

Əlinnən salıb da

İtir qılıncı...

Bu qədər çal-çağır,

Bu qədər vur-hay

Efirdə, ekranda

Axı nə gəzir?

Düşmən Xocalıya

Raketlər düzür...

Yansın baxışlarda

Döyüş atəşi.

Səfərbər etməli

Eli-mahalı,

Dəyişsin millətin

Halı-əhvalı.

Yığıb-yığışdıraq

Hırıltıları,

Yığıb-yığışdıraq

Zırıltıları,

Gileyi-güzarı,

Qırıltıları.

Cəbhəyə açılsın

Neft kəməri...

Bütün üzükləri,

Bilərzikləri

Satıb topa verək,

Tüfəngə verək.

Bəsdi də nə qədər

Biz əngə verək?!

Biz də raket alaq,

Biz də tank alaq.

Düşmənlə döyüşdə

Barı tən qalaq.

Halalı-harama

Qataq, razıyam.

Təki bir məqsədə.

Çataq, razıyam.

Bakıya tuşlanır

Raketlər, gəlin!

Şirkətlər, tələsin!

Marketlər, gəlin!

22 mart, 1997

SÜMÜKLƏR

Kəfənsiz,

Dəfnsiz

Adsız sümüklər.

Ünvansız, ocaqsız

Odsuz sümüklər.

Səpilib dünyanın

Hər bucağına,

Doğma torpağına,

Yad torpağına,

Qumlara, sulara

Səpilib gedib,

Əlli cür diyara

Səpilib gedib.

Nə məş’əl,

Nə məzar,

Nə xaç, nə dua.

Eh... tələm-tələsik

Üstü örtülən

İnsan sümüyüylə

Doludu dünya...

Vəhşi kalımadan

Xocalıyadək

Yerə sümük-sümük

Sancılıb insan

Şirmayıya dönüb

İncəlib insan.

Məzarsız şəhidlər,

Hardasınız siz?

Harda sürmə olub

Sümükləriniz?

Torpağa asta bas

Ayağını, dost!

Torpağa yaxın tut

Qulağını, dost!

Tayqadan, sibirdən

Narginə qədər

Dinlə gör nə deyir

Adsız sümüklər.

Əbədi məş’əlsiz,

Odsuz sümüklər

Uraldan, pamirdən

Murova qədər

Kəfənsiz, dəfnsiz

Məchul sümüklər,

Ağlayanları yox

Mə’lul sümüklər.

Çox şükür, bir Cavid

Qayıtdı yurda...

Minlərcə cavidlər

Düzlərdə qalır.

Kövrək bir təsəlli

Tapsam da burda

Gözüm izi itmiş

İzlərdə qalır.

Dünya sularında

Narginlər nə çox

Hər nargin bir zindan

Şəkki-şübhəm yox.

Mən öz narginimin

Dövrəsindəyəm,

Mən öz nisgilimin

Çevrəsindəyəm.

Əhməd Cavadımı

Axtarıram mən.

Sınıq qanadımı

Axtarıram mən.

Almas ildırımı

Axtarıram mən.

Baxtı uçurumu

Axtarıram mən.

Mikayıl müşfiqi

Axtarıram mən.

Sümükləri pünhan,

İşığı aşkar

Əbədi şəfəqi

Axtarıram mən.

Şəhid məzarları

Şıra-sıradır

Hər məzar köksümdə

Qanlı yaradır.

Məzarsız şəhidlər,

Dərd sizsiniz, siz!

Sümükləriniz

Şö'lə çəkir şam tək,

Əriyir şam tək

Əriyə-əriyə əriməyəcək!

Kəfənsiz,

Dəfnsiz

Adsız sümüklər

Məş’əlsiz, alovsuz

Odsuz sümüklər.

Doğmasız sümüklər,

Yadsız sümüklər.

10 may, 1997

OTUZ YEDDİDƏ

Yazıçı seyid hüseyn

Satmadı bir nəfəri

Otuz yeddidə.

Ədibi sındırmadı

Cəllad işgəncələri

Otuz yeddidə.

Biri birini çoxu

Satdı otuz yeddidə.

Satan da, satmayan da

Batdı otuz yeddidə.

Otuz yeddidə satdı.

Biri birini hamı.

Yazıçı seyid hüseyn

Satmadı bir adamı.

Qorxudan bir-birinin

Çoxu üzünə durdu.

Ruhullasa dişiylə

Tac damarını qırdı...

Çoxu nakişi oldu,

Çoxu çıxdı naxələf,

Satqınları hamıdan

Əvvəl etdilər tələf.

Satqınlar canlarını

Satın almaq istədi.

Can şirindir, neyləsin

Diri qalmaq istədi.

Diri qalmaq bir ayrı,

Yaşamaq ayrı söhbət

Bir var dipdiri ləkə,

Bir də var əbədiyyət.

Müşfiqin işgəncəyə

Nə qədər çatdı tabı?

Götürdümü üstünə

Atılan o çirkabı?

Bu kəmfürsət

O cəlladdan

Daha da beşbetərdi.

Görən otuz yeddidə

Kəmfürsətim nə qədər

Cəlladım nə qədərdi?!

23.02.1999.

ÇAXMAGI ÇƏK

Sabir Rüstəmxanlıya

Çaxmağı çək,

Çırağı yandırmamışam.

Qaranlıq vicdanları,

Zülmətsevər insanları

Nura boyandırmamışam.

Çaxmağı çək,

Yansın ürəklərin qurdu,

Qaradan-quradan təmizləyək

Ana yurdu

Bu çaxmaq ayrı çaxmaqdır,

Bunu kim bilməz - axmaqdır.

Çaxmağı çək,

Qığılcımlarından

Dan sökülsün,

Səhər gülsün,

Dünyadan

Əli üzülənlər gülsün.

Çaxmağı çək,

Oynamaq istəyirəm,

Damarlarımın

Donu açılıb,

Qaynamaq istəyirəm.

Çaxmağı çək,

Oynasın qızlar-oğlanlar.

Qaranlıq xəlvətlərdə

Bıçaqlaşmasın

Ağılsız dəliqanlılar.

Çaxmağı çək,

Qığılcımlar səpilsin

Ulu sabirin məzarına,

Vətənin-xalqın

İşıqsız rüzgarına.

Əlacsız yürüşlərə,

Piketlərə

Yerlə yeksan daxmaların

Xərabəsinə,

Təzə məscidlərin

Minarəsinə.

Çaxmağı çək,

Toy şamları yansın.

Əhd-peyman

Beş günlük yox,

Ömürlük qaynaqlansın.

Çaxmağı çək,

Yansın

Yalançılar,

Böhtançılar,

Talançılar.

Hörümçək toru

Zirzəmi divarında.

Gəmi anbarında

Yoxdu bu gün.

Haram imarətlərin,

Haram əzəmətlərin

Tavanındadır.

Haram yeyənlərin

Vicdanındadır.

Çaxmağı çək,

Bünövrəsindən

Yansın haram.

Hörümçək torunu

Özüm də

Süpürüb salaram.

Çaxmağı çək, sabir!

Oynasın iki şair.

Biri cavan,

Biri qoca,

Biri yüksək,

Bir uca.

Bəlkə

Arsızlığa

Qoymuşam özümü?

Çaxmağı çək,

Qamaşdır

Bu işlərdən

Su içməyən gözümü.

Düyün açılmayanda

Kəsilər

Kəsilməyəndə

Oda tutular.

Çaxmağı çək,

Odla açaq düyünləri.

Nə yaxşı ki,

Allah bizə çox görməyib

Bu toyları, düyünləri...

Çaxmağı çək,

Çırağı yandırmamışam,

Çək, sabir,

Çaxmağı çək!

25.07.1999.

.

..LAZIM GƏLSƏ...

...LAZIMSAN DƏ!

Deyirsən ki: - lazım gəlsə hazıram

Qəsb edilmiş bu torpağı almağa.

Vallah-billah eşitməkdən bezirəm,

Hapla-gopla qarabağı almağa.

Qənşərimdə lay divarsan, lay divar.

Şir kimisən od saçılır gözündən.

Lazımsan də... bu lazımın vaxtı var?!

Düz demirəm? nə çıxırsan özündən!

Bəbəyinin içinəcən yalansan.

Keyf-damağın, ticarətin mə'rəkə.

Sən Bakıdan çıxıb torpaq alansan?

Badamlarda imarətin mə'rəkə.

Şan-şərəflə: "mən qaçqınam" deyirsən,

Əsl qaçqın ilanmələr çöldədir.

Min boynuma, çox sinənə döyürsən.

Tifil qaçqın muğandadır, mildədir..

Restoranın "Şuşa" qoyub adını,

Söylə, bumu təəssübün, həsrətin?

Get görüklə manqalının odunu,

Lazım gəlib... ancaq yoxdu qeyrətin.

Qurban olum kəlbəcərə, laçına,

Lazım gəlsə qan uddurram yağıya.

Get bir yol gir çadırların içinə,

Gir, qulaq as oxşamaya, ağıya.

Bir gör nədən çıxardırsan pulunu.

“Şuşa”, “Laçın” qiyamətdir reklamın...

Unut girov gəlinini, dulunu,

Tez-tez de ki: - lazım gəlsə, inanın!

Əsl qaçqın dağ üstündən dağımdır.

Xəcalətlə baxır sənin boyuna.

Fərarilər yağıdan pis yağımdır.

Yox, gəlmərəm fərarinin toyuna,

Əsl qaçqın nənə, baba, körpədir,

Körpələrin yox nənnisi, beşiyi.

Lazımsan də... bəs görmürsən bu nədir?

Bir qaçqının varmı evi-eşiyi?

Yolda, izdə qabağımı kəsirsən,

Soruşursan: - nə olacaq axırı?

Cavabımda qəzəbindən əsirsən.

Üzə çıxır mis qazanın paxırı.

Lazımsan də!.. nə gəzirsən bazarda?

“Qaçdı-tutdu” oynasınlar sənlə?

Torpaqları tapdaq olan diyarda,

Qaçqın - deyib neyləsinlər sənlə?

Barmaq sayı Çeçen xalqı qəhrəman,

Dağı-daşı partizandı davada.

Qaçqınsansa sən bu saat, sən bu an,

Qeyrətə gəl, boş-boş gəzmə havada.

Xoruz kimi kəkələnmə o saat,

Bir doğru söz toxunanda şəstinə.

Lazımsan də... düz deyil, ay camaat?

Düşmən durub vətənimin qəsdinə.

Mən Ağdamdan gül fəslində çıxanda,

Dedim: “Arif, segah üstə qəzəl de”.

Ayrılığın buludunu sıxanda,

Familin də göz yaşları süzüldü.

İstəyirsən orda hazır olasan,

Qoşun-ləşkər qaytaranda torpağı?!

Qarabağda sənə lüzum olmadan,

Yellənəndə azərbaycan bayrağı?!.

Deyirsən ki: - lazım gəlsə hazıram,

Qəsb edilmiş bu torpağı almağa.

Vallah-billah eşitməkdən bezirəm

Hapla-gopla Qarabağı almağa.

12.09.1998.

SAGALMADI YARAN,

BALAM

Qəbrin üstündə bir ana

Ağı deyir yana-yana:

Sağalmadı yaran, balam,

Həkimlərə yalvaran balam.

Görəsən sağalmadı?

Ya sağaltmağa

Can atmaq istəmədilər?

Görəsən yaşaya bilərdi ki...

Yaşatmaq istəmədilər?!

Sağalmadı yaran, balam,

Həkimlərə yalvaran balam.

Görəsən əcəli çatdı,

Ömrü qurtardı, sağaltmadılar?

Ya təmənnaları vardı -

Sağaltmadılar?!

Sağalmadı yaran, balam,

Həkimlərə yalvaran balam.

Ananın gözlərindən

Yağış tökürdü... yağış.

Görəsən

Gərəkliydi-gərəksizdi

Bu yalvarış?

İş-işdən keçmiş -

Bu yalvarış?

Görəsən həkimlər

Acizdi...

Ya nacinsdi?!

Qəbrin üstündə bir ana

Ağı deyir yana-yana:

Sağalmadı yaran, balam,

Həkimlərə yalvaran balam.

15.07.1999.

ODA DÜŞƏRLƏR,

YADA DÜŞƏRLƏR

Buruq saçlı, gülər üzlü,

Sinəsi qızıl ulduzlu,

Gözləri mavi,

Əzrayılı səmavi

Kosmonavt Komarov

Fikrimə hardan düşdü,

Hansı axardan düşdü

Bu dəqiqə, bu saat?!

Kainatda xəyalın,

Xəyalın kainatda.

Raket büləndodlu

Yana-yana, içində

Kosmonavt Komarov.

O getdi

İkinci ulduzu dərməyə,

Allahı bir də görməyə.

Nə ulduzu dərə bildi,

Nə allahı görə bildi.

Hər gülü

Bir ulduza döndü,

Ulduzlar içində

Qaldı Komarov.

Əbədiyyətin, sonsuzluğun

Qanadlarında

Ucaldı Komarov.

Odlar diyarına

Gəlmişdi Komarov.

Gəlmişdi,

Şıxəlinin qonağı olmuşdu.

Odlu iqbalını

Bildi Komarov...

Bu odlu, atəşli,

Alovlu torpaq.

Səməndər ömrünün,

Səma ömrünün

Müdhiş falı olmuşdu,

Sınağı olmuşdu.

Birinin məzarı

Xiyabandadır,

Birinin məzarı

Asimandadır.

Yerlə-göy birlikdə

Kainatımız.

Elə Şıxəli də

Kosmonavtımız.

Göyərçinlər qonur

Qız qalasına.

Bütün quşlarınsa

Ruhdur bir adı,

Dualar oxuyur öz balasına.

Yerdə də, göydə də,

Bəşər övladı.

Qorxudan-ürküdən

Azad olanlar,

Amalı yolunda

Fərhad olanlar.

Vətənə-millətə

Övlad olanlar

Yerdə də, göydə də oda düşərlər,

Oda düşərlər...

Yada düşərlər...

14.07.1999.

BAGLI QAPILAR

Söylə, nə deməkdir

Bağlı qapılar?

Bağlı qapıların

Dalında nə var?

Bir açar yeri də.

Yoxdur ki, baxım.

Haradan boylanım,

Haraya çıxım?!

Qəribə söhbətdir,

Qəribə işdir.

Bu da dəbə düşmüş

Təzə gedişdir.

Kim hansı ölkəyə

Gətirdi təşrif -

Dərhal bağlı qapı

Edilir təklif.

Çox saya alınmır

Səviyyə filan:

Hə... təki söz getsin

Bağlı qapıdan.

Tikanlı məftillər

Gözə girəndə,

Sərhədçi sərhəddə

Sinə gərəndə.

Berlini ikiyə

Bölənda hasar,

Nəhəng bir ölkənin

Qapılarından

Eyzən sallananda

Batman qıfıllar.

Təbii fəlakət

Gizlədiləndə,

Dövləti cinayət

Gizlədiləndə.

Bir gəmi dəryada

Batanda - pünhan,

Katib xəstələnib

Yatanda - pünhan...

Dəmir pərdələrin

Kor kəsafəti

Ört-basdır edəndə

Çox həqiqəti.

Qulaq pıçıltıya

Adət edəndə,

Xalq qadağalara

Nifrət edəndə...

Nəydi bağlı qapı?

Bilən deyildik.

Qapı güdmək üçün

Ölən deyildik.

Sadəcə - hər sirrin

Öz dağarcığı,

Bəli, senzor da ki

Söz dağarcığı.

Sual verirdin ki,

Cavab alasan?

Gedib orda-burda

Zurna çalasan?

İndi hər şey açıq,

Hər şey aşikar.

Aşikar içində

Bağlı qapılar?!

Vallah çox əmmalı

görünür mənə.

Yaman müəmmalı

Görünür mənə.

Bağlı qapıların

Dalında nədən -

Nədən söhbət gedir

Baş tapmıram mən.

Əgər xeyirdisə

Xeyrini görək,

Təki belə olsun -

Öz-özümüzə

Qoy lap aldadıcı

Təsəlli verək.

Bəlkə xəyanətin

Hörülür toru?

Bağlı qapıların

Arxasında bəs?

Bəşərin küt deyil

Zehni-şüuru.

Yaxşı əməlləri

Gizlətməz heç kəs.

Qaynar nöqtələrdə

Qan tökülür, qan.

Səs-səmir gəlməyir

Qapı dalından

Bağlı qapıları

Açaq taybatay.

Təklənmiş millətlər

Qoparsın haray!

Bağlı qapıları

Vurun - sındırın!

Xəyanət imzalı,

Namərd möhürlü

Yazını-pozunu

Yığın, yandırın!

Bir milyon qaçqının

Zillət içində.

İntizar içində,

Möhnət içində.

Qurulan şey yoxdu

Qapı dalında,

Qırılan şey çoxdu

Qapı dalında.

Nə inam qalıbdır,

Nə də e’tibar.

Biryolluq bağlansın

Bağlı qapılar!

Düşmən tapdağında

Torpağın əsir.

Bağlı qapıların

Dalındakılar

Beh verir, beh alır,

Məzəndə kəsir.

Suallar cavabsız

Qapılar bağlı

Canilər cəzasız,

Yarlı-yaraqlı.

Bağlı qapıların

Dalında, vallah,

Cırmaq yerinə də

Məlhəm qoyulmur.

Bağlı qapıların

Dalında, vallah,

Haqqın-ədalətin

Sözü deyilmir.

Haqlı şikayətin

Sözü deyilmir.

Heç bir cinayətin

Sözü deyilmir.

Qanlı kazinodur

Bağlı qapılar.

Bağlı qapıların

Dalında qumar.

Bağlı qapıların

Arxası dəhşət.

Elə orda köpdü

O boyda dövlət.

Nüvəyə güvənən

Möhtəşəm diyar.

Qapı dalındaca

Oldu tarimar.

Pozuldu bəzəyi,

Söndü növrağı.

Xəyala gəlmədən

Endi bayrağı...

Bağlı qapıların

Arxası duman,

Dumanlar içində

Görünmür güman.

01.02.1999.

BU KÖKDƏ,

BU PƏRDƏDƏ...

Şairciklər yetişdirib

Faciəsi qarabağın;

Bax bu da bir faciəsi

Bu millətin, bu torpağın..

Nə əyri, nə düz bilənlər,

Nə çox, nə də az bilənlər;

Nə saz bilib aşıq olan,

Nə söz bilib şair olan

Çalmağında, yazmağında

Ekran-ekran,

Efir-efir,

Qəzet-qəzet,

İclas-iclas gəzməyəndə,

İmlasında əlli qüsur,

Cümləsində əlli qələt,

Bax budur ha gülünc, dəhşət...

Şeir yazır ağıllısı-dəlisi də,

Şair olub əlisi də, vəlisi də.

Doğrudur ki,

Dərd adamı dilləndirər,

Hansı sözü hədər deyib

Müdrik ellər?!

Dərd adamı düşündürər

Daha dərin...

Dərd başından aşmayıbmı

Dağdan ağır kişilərin?!

Dərd adamı alim edər,

Dərdə çarə yol axtarar;

Dərd adamı düşməninə

Zalim edər,

Həzrət Abbas qolları tək

Qılınc vuran qol axtarar!

Şairciklər!

Qarabağın partizanı

Gərək mənə!

Bəsdi, sürtük nəzmə çəkdiz

Qarabağın rüzgarını!

Yığışdırın

Cızma-qara bazarını!

Rahat qoyun şəhidlərin məzarını!

Anaların göz yaşına

Su qatmayın,

Yaraları

Naşılıqla qanatmayın!..

Şair olmaq olmaz - olmaz,

Yox! bu kökdə, bu pərdədə

Heç bir hava çalmaq olmaz,

Yox! bu kökdə, bu pərdədə

İlham başqa... fürsət başqa;

Məqam başqa... sənət başqa.

EhEY!

Hələbdə Nəsimiylə xəyalən görüş

Sənin dastanını qoyub yarıda,

Sənin görüşünə gəlmişəm ustad!

Qəbrini hifz edən bu diyarı da

Yurdum tək müqəddəs bilmişəm,

Yağır göz yaşlarım ağ yağış kimi,

Tarix tilsimini qırdı hicranın.

Gətirib gəlmişəm sənə, nəsimi,

Kövrək salamını azərbaycanın!

Kövrəklər ağlayar... daşlar ağlamaz

Ağlamaq özü də mərdanəlikdir.

Ağılsız, fikirsiz başlar ağrımaz,

İgidlik - ən zəif pərvanəlikdir.

Qədim Şamaxıdan qədim hələbə

Qanlı-qadalıydı, ağırdı yollar.

Mən bu gün asudə gəldim hələbə

Gör necə sakitdi, fağırdı yollar...

Çatdım bu şəhərə qaş qaralanda

Hanı aşıq qərib, əsli və kərəm?

Vitrinlər, reklamlar elə bu anda

Mənə göz vurdular... başqadır aləm...

Vitrin soyuqqanlı, reklam də sərin...

Əsli, kərəmlərin barəsində hə...

Onda nəsimidən bir soraq verin,

Üzünün nurunu göstərin mənə.

Nə vitrin? təyyarə səsləndi, eheyy,

Nə reklam? mersedes qıjhaqıj axdı.

Yer-göy dilə gəldi: - dəyişib hər şey,

Səyyah! keçmiş ola nəsimi vaxtı!

İncidim hələbdən, təzə hələbdən,

Əgər incidimsə... barışam çətin.

Dəb yox, əbədiyyət axtarıram mən,

Yox vaxtı, saatı əbədiyyətin.

Qaranlıq göylərə diqqətlə baxdım

Dünənin, bu günün çırağıyla mən.

Dönüb ildırıma gurladım, çaxdım

Müzəffər şairin sorağıyla mən.

Bələdçim eyləyib mən öz qəlbimi

Girirəm qaranlıq məhəllələrə.

Bax, bu cür nabələd gəldi nəsimi

Amalı naminə həmin şəhərə.

Eheyy! - dilə gəldi qaranlıq, Hələb:

Yəni bir belə çoxdur cürətin?!

Yanır zahidlərin gözündə qəzəb:

Məni qorxutmayır odu dəhşətin.

Eheyy! əks-sədam haray qoparır:

Zahidlər indi də qalırlar yəni?

Hələbi müdhiş bir qəhqəhə sarır,

Zahidlər dövrəyə alırlar məni.

Solğun günbəzlərin yarıqlarından,

Qədim qapıların əndazəsindən,

Uçuq hasarların qırıqlarından,

Köhnə məscidlərin darvazasından.

Susuz quyuların kalafasından.

Kirli bazarların kif havasından,

Paslı qıfılların açar yerindən

Qara qarğaların uçar yerindən.

Hələbin hörümçək dalanlarından,

Dirəyi çürümüş eyvanlarından,

Çökmüş qəbirlərin baş daşlarından,

Pünhan mücrülərin qaş-daşlarından -

Zahidlər güdürmüş məni sən demə

Zahidlər üstümə tökülür qəfil.

Par-par parıldayır əllərdə qəmə,

Bu zaman qaranlıq sökülür qəfil.

Babam Nəsiminin nurani üzü

Zülməti səhərə döndərir bu dəm.

Zahidlər guruhu tərk edir bizi,

Çaşqın gözlərimdə dəyişir aləm.

Mən köhnə hələbdə qəribəm, təkəm,

Demə təkliyimi bilib Nəsimi.

Çoxdan həsrətiylə qəlbi kövrəyəm

Eşidib, öyrənib gəlib nəsimi.

Yenə də zahiddir səslənir bu dəm:

Eheyy! Qorxmayırsan, bura Hələbdir!

Bizim fitvamızla ömrün olar kəm,

Görmürsən cəlladlar nə dotələbdir?!

Eheyy! Xoş gəlmisən - deyir Nəsimi, -

Qorxma zahidlərdən, mabədə oğlum!

Mən çoxdan bilirəm zahidlər kimi

Qorxaq görünməmiş dünyada oğlum!

Qanlı yaralarım çoxdan sağaldı,

Gəl canım-ciyərim gəl qucaqlaşaq!

Yenə zahidlərin rəngi saraldı,

Qaranlıq gizlədi onları ancaq.

Qəbrim də onlara kəsildi düşman,

Silə bilmədilər izimi, oğlum!

Məni yada salıb vətənim, cahan,

Bəxtəvər bilirəm özümü, oğlum!..

Biz köhnə Hələblə təzə Hələbin

Durduq hüdudunda söküləndə dan.

Dişini qıcıdı gözlərində kin

Zahidlər guruhu yenə uzaqdan...

Açdı təzə hələb öz qollarını

Təzə meydanları... insanlarıyla.

Yurdumun uzanan dost yollarını

Bəzədi ətirli reyhanlarıyla.

Hələb! Məkkəm mənim. Mədinəm mənim!

Səndə Azərbaycan əmanəti var.

Çağlayır gözümdə sevinc, qəm mənim

Görüşdə ağlayar, gülər adamlar...

Nəsimi şöhrətdir bəşəriyyətə

Şöhrət zirvəsinin qaşındayam mən.

Onunla qovuşdum əbədiyyətə

Bu saat altı yüz yaşındayam mən.

Suriya, Hələb şəhəri

1973

ÇALMASINDA QIZIL ULDUZ

GƏLDİ NİZAMİ

1941-ci il oktyabrın 10-da Leninqradın elm və yazıçı ictimaiyyəti böyük Azərbaycan şairi Nizaminin 800 illiyini qeyd etmişdir. Nizaminin yubileyini keçirməyə Elmlər Akademiyasının, Ermitajın, universitetin, Yazıçılar ittifaqının, rus muzeyinin nümayəndələri toplaşmışdılar.

“Mühasirə günləri” xronikasından.

Bir aləmdir Ermitajın hər zalı,

Hər zalında yeddi iqlim cəlalı.

Tarixlərə çəkilir fikri-xəyalı,

Baxışlarda heyrət dolu çeşmələr

Əzəmətli, qanlı keşməkeşlər,

Dahilərin fırçasının qüdrəti,

İnsanların, allahının surəti,

Kətan üstə yerlər, göylər, təbiət,

Neçə adi, qeyri-adi həqiqət...

Ermitajın hər otağı tamaşa

Nəzər yetir bu mərmərə, bu daşa!

Bu lal daşda bir gözəllik cilvəsi,

Bu sal daşda bir təfəkkür zirvəsi...

Mərmər qızda kipriyə bax, qaşa bax,

Mərmər gözdə gildir-gildir yaşa bax!

Nə əvəzi, nə təkrarı, nə tayı...

Dalda qalıb əsrlərin dolayı...

Ermitajda bir tilsimli günəş var:

Burda nizə, qılınc-qalxan, tişə var.

Əyri qılınc qan-qan deyir inan ki,

Xəncərə bax, tük qapacaq o sanki.

Kəsib-töküb namərdi də, mərdi də,

Bəxş eləyir sevinci də, dərdi də...

Hər qəzəbdə bir ölkədən bac-xərac,

Bu qılınclar başa qoyub neçə tac,

Bu qılınclar başdan salıb neçə tac.

Ermitajda bir xəzinə qorunur,

Xəzinənin tavanı nur, yeri nur...

Qızıl bərqi dalğalanır sirr ilə...

Şüşə rəflər qürrələnir dürr ilə...

Çardan şaha... şahdan çara hədiyyə,

Qətlü-qarət hardan-hara hədiyyə...

Bu sehrli kövhər kanı misilsiz...

Ləl-cəvahir kəhkəşanı misilsiz...

Ermitajda - bu kaşanə içində,

Bu həqiqət, bu əfsanə içində

Üzümüzə bir qapı da açıldı,

Gözümüzə ilahi nur saçıldı.

Ulu şair Nizaminin xəyalı

Batil etdi min dürlü cah-cəlalı.

Düha bərqi kölgələri qaş-daşı

Varaqlandı sahilində nevanın

Ölüm-dirim günlərinin yaddaşı.

Leninqrad... blokada... Nizami!

Top səsləri...kanonada.. Nizami!

Çalmasında qızıl ulduz gəldi o.

Vətən ağır ayaqdadır bildi o,

Vətən ana, o, Vətənin balası,

Leninqrad - inqilabın qalası

Çatdı o gün düyünlənmiş qaşını,

Bayram etdi Nizaminin yaşını.

Tarix oldu Ermitajın hünəri,

Əldən düşmüş Leninqrad şəhəri...

Ədalətin çırağına yığıldı,

Fəzilətin sorağına yığıldı.

Səsləndikcə Nizaminin kəlamı

Möhürləyir qələbəyə inamı.

Şair deyir: boğa bilməz xeyri şər!

Bomba yağır... cingildəyir şüşələr..

Kövrəlmişik - göz incisi bu zalda...

Nizaminin söz incisi bu zalda

Rəssam, me'mar, bəstəkarlar silahlı,

Akademik saçları qar... silahlı,

Neçə şair qızıl əsgər şinelli,

Neçə alim qızıl əsgər şinelli...

Öz pərişan surətiylə canlanır,

Qəhrəmanlıq şöhrətiylə canlanır.

Nizamiyə hörmətiylə canlanır,

Öz xalqıyla, millətiylə canlanır

Gözümüzün qabağında bu zalda,

Tunc atlının torpağında bu zalda.

1982

İTALİYA

1977-ci ilin noyabr ayında İtaliyada keçirilmiş Azərbaycan günlərindən xatirələr

İtaliya! başdan-başa sənət məbədi,

Yer üzündə intibahın solmaz baharı.

Burda bəşər inciləri parlar əbədi,

İtaliya! dünyamızın muzey diyarı,

Boğulduqca avtomobil dənizlərində

Keçmişindən yapışır o, saman çöpütək.

Canlı, mərmər heykəllərin bənizlərində

Bir təsəlli axtararaq, ümid gəzərək

İtaliya! dahilərin zərli beşiyi,

Beşik bomboş yırğalanır... qopub düşür zər.

İtaliya boş beşiyə çəkir keşiyi...

Bəs dünyaya niyə gəlmir təzə dahilər?

Necə vardı elə qalıb Florensiya,

Necə vardı altı yüz il, beş yüz il əvvəl.

Necə dardı elə qalıb Florensiya,

Necə dardı altı yüz il, beş yüz il əvvəl.

Qədimliyin mücrüsündə -- Florensiya,

Yaraşmayır köhnə dəbə yenilik - filan.

Əsrlərin mürgüsündə -- Florensiya,

Söküntülər, tikintilər tamam qadağan...

Beş-on təzə məhəllə var xeyli kənarda,

Uzaqdadır köhnə şəhər dairəsindən.

Heyran-heyran kimsə gəzib dolanmır orda,

Kimsə qopmur abidələr dairəsindən...

Həndəvərdə nə bir qurğu, nə də bir zavod,

Kəlisalar, panteonlar durur möhtəşəm.

Qarsalamır asimanı isti, tüstü, od,

Köhnə hava eşqindədir bugünkü aləm...

Dünəninin üzərindən qələm çəkilsə,

Çox ölkə tək elə adi olar bu ölkə.

Lap üstünə min günəşin nuru tökülsə,

İşıqlanmaz, qaranlıqda qalar bu ölkə..

Neçə rəssam, neçə şair, neçə bəstəkar!..

Bu torpağın neçə dahi bəxtəvərləri.

Rafaeli neçin bir də doğmur analar?

Bu gün bomboş karuseli zaman hərləyir.

Hara baxsan, hara dönsən - Mikelancelo,

Leonardo da Vinçidir sənət allahı.

İtaliya! keçmişiylə fəxr etsə də o,

Bu gününə, sabahına yoxmu pənahı?

İtaliya! heç kəs məni etməyib vəkil -

Bu gününə qiymət qoyum on gün içində.

Bir də axı şair gözü o gözdən deyil

Heyrətini boğa bilsin minnət içində...

Nə haqq ilə ağız büzüm mən, İtaliya!

Bu zövqünə, səliqənə, bu sahmanına,

Ancaq yenə görürəm ki, sən, İtaliya!

Söykənmisən öz dünənki ehtişamına.

Yollarında zərrəbinlə qırış tapılmaz,

Mən nə bilim havayıdı, pulludu yollar.

Çöllərində əkilməmiş qarış tapılmaz,

Mən nə bilim xüsusidi, ellikdi çöllər.

Yaxşı deyil burda gözün dörd ola sənin,

Axtarasan harda kağız qırıntısı var,

Biz ki, sərraf elçisiyik ana vətənin,

Sərraf gözü dürr içində inci axtarar.

İtaliya anasıdır petrarkilərin,

Qədim sonet gülüstanı cahi-cəlallı,

Dünən ərsə rafaellər verən diyarın

Bu gün küçə rəssamları necə zavallı.

Biz ən böyük bir təyyarə limanındayıq.

Leonardo da Vinçinin adınadır o,

Bu diyarın harasında, hayanındayıq,

Görürük ki, bir dahinin adınadır o,

Uşaqlarla rastlaşırıq addım başında,

Uşaqları muzey-muzey dolandırırlar.

Uşaqları lap indidən körpə yaşında

Tarixin cah-cəlalıyla ruhlandırırlar.

İtaliya uşaqlara pıçıldayır ki:

Taleyimiz, şöhrətimiz - dünənimizdir.

Körpələrim, yer üzünün sənət Məkkəsi

Vətənimiz, vətənimiz, vətənimizdir!

Zaman! sənsə çağlayırsan öz axarınla,

Muzey durğun, vulkanlaşır çöldəsə həyat.

İtaliya, muzeydəki allahlarınla

Bacarırsan həyatda gəl möcüzə yarat!

Bu gün burda işsizlərlə gəldim üz-üzə,

Bu gün burda nümayiş də, tə'til də gördüm.

Bir piyalə pivə içdim ətirli, təzə,

Bu gün burda dilənçi də, zəlil də gördüm.

Gördüm burda at belində Haribaldini,

Əzəmətlə dayanıbdır adi bir insan.

Öz yurdunda, öz elində Haribaldini,

İftixarla əzizləyir hər bir italyan.

Solda tarix! sağda tarix! arxada tarix!

Sabah üçün bəs bu günün tarixi varmı?

Möhür basıb çarmıxa da, çarxa da tarix,

Eksponat ümidinə qalmaq olarmı?

Tarix qalır öz yerində - əmanətdi bu,

Sabahını düşünürəm mən bu diyarın.

Axı, donub qalmaq olmaz, - həqiqətdi bu

Soyuq-soyuq kölgəsində məbədgahların.

Qulağımda işsizlərin coşur tufanı...

Qulağımda tətillərin uğultusu İtaliya!

Bu gün sənin bu “operanı”

Mən biləni, yazmalıdır ayrı “bəstəkar”.

QIZIL QƏRƏNFİLLƏR

Kapri bir mələkədir gömgöy ümman içində,

Camalını gizlədib bəyaz duman içində.

Sorrentodan ayrılıb gəmi yarır suları,

Fikrimdə lenin... qorki.. kapri balıqçıları.

“Nağıl” sözü yaxşıdır, çox deyilibdir ancaq,

Sorrentoyla kaprini

Gəl sırğaya oxşadaq.

Bir cüt büllur sırğaya -

Yaraşığı təbiət, cilvəsi nur sırğaya.

Kapri suyun üzündə bir məcməyi xonçadır,

Yaşıllıqlar içində evlər qonça-qonçadır...

Evlər oyuncaqlara bənzəyir əlvan-əlvan,

Yuyub, silib, qurudub bu evləri bir zaman.

Sanki gətirib yığıb bir-birinin üstünə,

Havada bir zərrə toz, bircə həlqə tüstü nə?

Hotellər, restoranlar sərgisidir bu ada,

Büllur ümman içində ada xumarlanmada.

Burda dilənçilər də,

Burda milyonçular da...

Bir təmkində görünür, bir zahiri ədada...

Bir mavi tül içində hamı gəzir adada.

Mavi ümman içində zümrüddü, lə’ldi kapri.

Adamın allahı var, yaman gözəldi kapri.

Xiyabanlarda ancaq addım səsi, nal səsi,

Bir yarpağa dəyməyib burda maşın nəfəsi.

İyirmi beş nəfərik biz bu səhər kapridə,

Alovlar diyarından elçilərik kapridə.

Az qala kapri boyda çələng var əlimizdə,

Şehli-şehli, təzə-tər çiçək var əlimizdə.

Qızıl qərənfilləri...

Bakıdan gətirmişik qızıl əmanət kimi.

Leninin qürbət eldə nurlu xatirəsinə

Doğma bir hörmət kimi...

Kənardan - yad baxışlar, yad gözlər, yad nəzərlər,

Bu gözlərdə təəccüb, maraq, rişxənd nə qədər.

Gedirik, əlimizdə nəhəng, qızıl bir çələng,

Bu yaşıl səltənətdə aləmdir qırmızı rəng.

Lenin burda inqilab dahisitək yaşadı,

Oxşadı çiçəkləri, gülləri burda lenin.

Baxdı mavi suların yaşıl dərinliyinə,

Düşündü, dərin-dərin elləri burda lenin.

Uşaqlıqda doğrudan elə bilirdim ki, mən

Leninin adı ancaq fabrik-zavodla bağlı,

Domna sobalarında zəhimli odla bağlı;

Lenin fəhlə şəhəri

Qaynar həyat deməkdir.

Döyüş nəğmələrində

Bir nəqarət deməkdir.

Fikrimdə kaprini də mən belə yer sanırdım,

Lenin - kapri deyəndə

Sərtliklə, çətinliklə üz-üzə dayanırdım.

Lenin - kapri deyəndə

Piter kimi çaxnaşan bir şəhər düşünürdüm,

Səngərlərdə mərdləşən əsgərlər düşünürdüm.

Bu mərdləşən əsgərlər,

Bu çaxnaşan piterlər,

Barrikada, inqilab,

Döyüş, vuruş, dərd, əzab,

Bütün Yer kürəsində kapri rahatlığının

Bərqərarı üçünmüş,

Gələcək nəsillərin xoş rüzgarı üçünmüş.

Lenin barelyefinin dayandığı yerə bax,

Yer deyil, təbiətin yaratdığı şe’rə bax!

Bu -- dənizə açılmış təbii bir pəncərə,

İtaliya xalqının şairanə zövqünə

Baş əyirəm min kərə.

Qızıl qərənfillərdən hörülüb çələngimiz.

Lenin doğma...

Kapri qürbət

Sükuta bürünüb kövrəlirik biz.

Bu, məhkəmə binasıdır

Nəsil-nəsil me’marların ölməz əsəri,

Rəngkarların, nəqqaşların mərmər dastanı.

Şəhərlərin ən ulusu roma şəhəri,

Yalnız elə san petroya bərabər hanı?!

Baxırsan ki, imarətlər imarət deyil,

Əzəmətlə incəliyin vəhdəti aləm!

Daş nağıldır, musiqidir onlar elə bil,

Bu nağılın, musiqinin təməli möhkəm.

İki min il, min beş yüz il, səkkiz yüz, beş yüz...

Tarixə bax, müddətə bax, çaşıb qalırsan,

Möhkəmlik heç, sən rəngləri, naxışları süz!

Təmələ də, əmələ də heyran qalırsan.

Yarıuçuq kolizey də durub “cağbacaq”,

Demə onun daşlarını zaman qoparıb.

Bundan sonra on min il də belə qalacaq,

Kolizeydən nə qoparıb insan qoparıb.

Vatikanın divarları sanki qırx ilin,

Əlli ilin, səksən ilin haq-hesabıdır.

Lakin nuhdan xəbər verir, bir yaxın gəlin,

Roma qədim bir tarixin daş kitabıdır.

Çox davamlı, çox dözümlü bünövrələrin

Sinəsində kaşanələr yuxuya dalır.

Bir daşı da laxlamayıb ulu şəhərin,

Bəli, bu daş salnamələr salamat qalır.

Bu salamat sarayların arasından mən

Bir “sarğılı” saray görüb qaldım məəttəl.

Mərtəbələr şəbəkəyə tutulub eyzən

Dedilər ki, özülündə tapılıb əngəl.

Fikirləşdim, gör nə aləm binadır ki, o,

Bir eranı yola salıb, indi laxlayır.

Gör nə qədim, nə möhtəşəm binadır ki, o,

Əzəmətli görkəmini yenə saxlayır.

Qaçdı bizim bələdçinin dodağı bu an,

Köks ötürdü, -- yox, - söylədi qız gülə-gülə.

Söylədi ki; - həmin bina "uşaqdır" inan,

Bu gün onun səksən yaşı olmayıb hələ.

Niyə erkən zədələnib onda bu "uşaq"?

Gör nə yaman şırımlayıb çat divarları.

Qüllələri, sütunları qopub uçacaq,

Ağırlığa tabsız olub alt divarları.

Bəlkə burda günahı var, yağışın-qarın,

Yeraltı su bünövrəyə oğrun hopubdur.

Memarlıqda misli ki, yox italyanların,

Kim onların nəqşəsində nöqsan tapıbdır?!

Bu, məhkəmə binasıdır - tərəzi-mizan!

Tükü tükdən seçməlidir burda ədalət.

Romalılar deyir: - ancaq, burda hər zaman

Gözgörəsi tapdalanır düzlük, həqiqət...

Bu, məhkəmə binasıdır - ağın qaraya,

Südün suya nisbətini seçən yerdi bu.

Romalılar: - toxunmayın - deyir yaraya,

Doğruluğu tapdalayıb keçən yerdi bu.

Bu, məhkəmə binasıdır - haqqın-nahaqqın

Düyününü düzgünlüklə açmalıdır o.

Açmayırsa, yer tutmağa onun nə haqqı,

Özülündən dağılmalı, uçmalıdır o.

Bu, məhkəmə binasıdır -- harda olsa da,

Gərək yaxın qoymayalar burda rüşvəti.

Romalılar yana-yana deyir ölsə də...

Məzəndəsiz frak geymir hakimlər qəti.

Bu, məhkəmə binasıdır - kimdədirsə haqq,

Haqq zəfərdir - haqq sübuta yetibsə əgər.

Romalılar soyuqqanlı deyir ki: - ancaq,

Dəftərdədir, kitabdadır fəqət bu sözlər.

Göz yaşları bünövrəyə elə sızır ki,

Ovum-ovum ovxalanır, tökülür bu ev.

Romalılar bu söhbəti belə yozur ki:

Haqsızlığa dözə bilmir, sökülür bu ev.

DANTENİN HEYKƏLİ

Dante - cahan şe’rinin tacında dürr, gövhər,

Əsrinin vətəndaşı, vətəninin övladı.

Dolandıqca zəmanə, dolandıqca nəsillər

Xalqının and yerinə dönür şairin adı.

Dünən qiymətli cihaz bu gün qiymətsiz olur,

Bu gün üçün köhnədir dünənin teleskopu.

Dünənin təyyarəsi bu gün vüsətsiz olur,

Köhnəlibdir dünənin bu gün tüfəngi, topu.

Fəqət köhnəlibdir sənət, dəbdən düşməyir əsər,

Xəyyamın, Firdovsinin, Nizaminin dühası.

Dəbdən düşməyir bir an dantelər, petrarkilər...

Dəbdən düşməyir eşqin leylisi, laurası...

Şer yazan maşınlar çıxır sıradan daha,

İtaliya bərk tutur ətəyindən Dantenin.

Balaca bir heykəldə yaşayır böyük düha,

Balaca heykəlinə baş əydim, Dantenin.

Nəhəng abidələrə alışıbdır gözümüz:

Puşkin, Raynis, Füzuli, Mayakovski, Sabir...

Heykəl kiçik də olur, olsun, yoxdur sözümüz,

Nəhənglər bir-birini onsuz da kölgələmir.

Axşamdan xeyli keçir, seyrəlməyir küçələr,

Oğlanlar gedə-gedə qızlardan öpüş alır.

Hər gün Florensiya “kefə baxır” gecələr,

Hippilər cuşa gəlib tinlərdə tam-tam çalır.

Kəlisa meydanında beş-on nəfər tiryəki

Havay gitarasının tellərini yandırır.

Dantenin heykəlinə işıq düşür çəpəki

Bapbalaca heykəli işıq qanadlandırır.

OXŞARLIQ

Dünyada oxşarsız heç nə tapılmaz,

Oxşardı adamlar, oxşardı torpaq.

Neapol Bakıya oxşayır bir az,

Bakı Neapoldan gözəldir ancaq.

Əkiz də əkizə oxşamır əslən,

Xasiyyət oxşamır, rəftar oxşamır.

Neapol Bakıya oxşayır qismən.

Mənzərə bənzəyir, rüzgar oxşamır.

Küləyi Xəzrinin dəcəl qardaşı,

Bizə lap birinci o doğma gəldi.

Neapol körfəzi büllur göz yaşı,

Vezuvi möhtəşəm, Kapri gözəldi.

Nu gün qardaşlaşır Neapol - Bakı,

Qızıl bayraqlarla bəzənib sahil.

Sən şad ol, Neapol, sən sevin Bakı,

Dostlar bu büsatı unudan deyil...

Neapol Bakıya oxşayır, çünki

Dənizi... enişi... yoxuşu... düzü...

Sahilə aypara düşübdü sanki

Bərq vurur, qamaşır adamın gözü.

Burda küçələr var cığırdan ensiz,

Sürtünə-sürtünə keçir bir nəfər.

Burda küçələr var geniş, düppədüz,

Eynən - bayır şəhər, içəri şəhər.

Burda Dağüstü park gəlir xəyala:

Dənizdən şəhərə diqqət eyləsək.

Bu meydan azneftdi... durub az qala

Əgər bakı üçün xiffət eyləsək.

Sahildə gəzirəm, dəniz dumduru,

Paxıllığım gəlir deyim düzünü.

Gəl ataq bir yana saxta qüruru,

Gözümüz önünə gətirək bir an

Bakı çevrəsində suyun üzünü.

Neapol Bakıya oxşayır, ancaq.

Gözlərindən oxşar uşaqlar kimi...

Körfəz asta-asta çalxalanaraq

Bakı bulvarına çəkir fikrimi.

Çırpınır, çırpınır bütün Neapol

Çılğın təbiətli adamlarıyla.

Ayrışır, sayrışır bütün Neapol

Çilçıraq, çal-çağır axşamlarıyla.

Bütün eyvanlarda, mərtəbələrdə

Yaş paltar, ağ paltar... ağ göyərçintək.

Bizə dedilər ki, həmin şəhərdə

Yaş paltar - yaşamaq rəmzidir demək.

Bakı Neapola oxşayır bir az,

Yeri var “bir az” yox, lap yaxşı-yaxşı.

Yalnız mənzərədə axtarmaq olmaz,

Əgər mənə qalsa, bu oxşayışı.

Yuvası oxşardı bütün quşların...

Məskəni oxşardı bütün bəşərin...

Məramı oxşardı yaranmışların,

Sülh şirin, can şirin, yaşamaq şirin!

Bu gün qardaşlaşır neapol - bakı,

Qardaşlıq, yoldaşlıq istəyir cahan.

Yaş paltar... ağ paltar yellənsin təki

Xəzər sahilindən Neapolacan.

Neapol Bakıya oxşayır az-çox,

Bakı Neapoldan gözəldir ancaq.

Ayrı cür deməyə ixtiyarım yox,

Sən ey ana vətən, ey ana torpaq!

POMPEY

Pompey!

Sən ey

Ulu, əzəmətlim viranə,

Tarixdə mədaintək şan-şöhrətli viranə.

Mədaindən də qədim, mədaindən də dəhşət,

Necə qıyıb, ay allah,

Gör necə divan tutub bu şəhərə təbiət.

Vezuvi lap indi də kükrəyir hərdən-hərdən...

Gözlərini çəkməyir.

Üstündən öz əliylə xətt çəkdiyi şəhərdən.

Bizim təzə eramız:

Yetmiş doqquzuncu il.

İyirmi beşi avqust... gündüz on iki tamam...

Vezuvi çaldı təbil,

Bu təbil səslərinə baş qoşmadı çox adam.

Vezuvi od püskürüb dağı-daşı əritdi,

Ərintini qırmızı sellər kimi yeritdi

Üzərinə Pompeyin.

Yanar lava işlədi ürəyinə Pompeyin,

Ciyərinə pompeyin.

Küçələrdən od axdı,

Axdı... yandırdı-yaxdı...

Yandı mehmanxanalar,

Yandı divanxanalar.

Yandı mə’bəd,

Yandı məktəb,

Sirk yandı, bazar yandı,

Karvansaralar yandı,

Yandı açıq havada açıq amfiteatr,

Yandı it, yandı pişik, yandı at, yandı qatır.

Vezuvi tüğyan etdi,

Dəhşətli təndirində -

Bətnindəki canlıdan - yüz yaşlı qocayadək.

Bir ins-cins qoymadı, qapqara büryan etdi.

Sən ey,

Pompey!

Səni yandıran lava bu gün

Üzük qaşında,

Medalyon daşında

Yanır par-par.

Pompeydən xatirə tək onu alır adamlar.

Pompey - dövrünə görə yerli-yataqlı şəhər,

Elə bil nəfəs alır, canlıdır xərabələr.

Hava yaz havasıtək, hər tərəf yaşıl çəmən,

Turistlər deyib-gülür, quşlar oxuyur şən-şən.

Evlərin nömrələri, küçələrin adı da

İki çörəkxananın ocağı da, odu da...

Qalır təkər izləri, qalır nal izləri də,

Qalır hovuz, fəvvarə, qalır göl izləri də.

Qulaq hər gün təzə söz eşitməsə kar olar,

Pompeydə hamıdan çox kimlər ölsə yaxşıdır?

Oğrular və doğrular.

Oğrular qarət üçün tərk etməyib şəhəri

Deyiblər, “Yarı yolda sönər alov selləri,

Biz salamat qalarıq

Camaatın varını-dövlətini talarıq,

Qaçqınların mülkünə sahib olarıq rahat”.

Ancaq ki, heyhat... heyhat...

Doğrularsa düşünüb: “düzə ki, yoxdur zaval.

Od sönər, lava dönər, sovuşar bu qeylü-qal,

Allah da, vezuvi də verər bizlərə nicat!”

Ancaq ki, heyhat... heyhat...

Vezuvinin beyninin qurdu tərpənir hərdən,

Pompey yaman üşənir oğrun hənirtilərdən.

Pompeyə baxa-baxa cahanı düşünürəm.

Bugünkü cahanı mən.

Pompeyə baxa-baxa insanı düşünürəm,

Bugünkü insanı mən.

Vezuviyə baxa-baxa

Kürreyi ərzi Pompeyə döndərə bilən

Neytron vulkanını düşünürəm,

Bütün cavabdehlərin vicdanını düşünürəm.

Maral da, qartal da kül olacaq,

Dünyanın yalnız daş-divarı salamat qalacaq.

Sənə min şükür, Pompey!

Ucsuz-bucaqsız xərabələrində

Quşlar oxuyur, çiçəklər sayrışır,

Turistlər deyib-gülür, Pompey!

SALVADORİ

Neapolda hər gün çörək yediyimiz

Restoran sahibinin on bir yaşlı

Oğlunun adı salvadori idi.

Uşaq elə hər yerdə uşaqdı, salvadori,

Uşaqlar siyasətdən uzaqdı, salvadori.

Xudmani bir restoran sahibinin oğludur,

Allahın bəlasıdır, qoçaqdı salvadori.

Saçı qızıl, gözü göy, yanaqları çəhrayı,

Göz dəyməsin, elə bil çıraqdı salvadori.

Neapol günlərində yaman isindik ona,

Unutdu, bu adamlar qonaqdı salvadori.

Körfəzin içindəki gəmivari restoran,

Yolumuzda hər axşam mayakdı salvadori.

Stollar arasında başımıza fırlanır,

Mehribandı, qırğıdı, qıvraqdı Salvadori.

Ona döş nişanları bağışladıq rəngbərəng,

Köynəyi düzüm-düzüm dəsgahdı Salvadori.

Bu Lenin, bu Nəsimi, bu Sabir, bu Qaqarin...

Heyrətdi, həyəcandı, maraqdı Salvadori...

Səmimi duyğuların dil açdığı bu yerdə

Tərcüməçi varsa da, nahaqdı, Salvadori.

Hamı onu oxşayır, sığallayır telini,

Zəhər tozu qonmamış yarpaqdı Salvadori.

Lap o yaşda, o boyda Mahirim yada düşdü,

Bir də gördüm: gözlərim bulaqdı, Salvadori.

Cəmi-cümləsi evdən on gündür ayrıldığım

Sanırdım qürbətdəyəm haçaqdı, Salvadori.

Böyüdükcə biləcək ən müqəddəs, əziz şey -

Vətəndi, yurddu, eldi, torpaqdı, Salvadori.

Bilmir ayrı-seçkilik, bilmir ögey-doğmalıq...

Yazılmamış ağappaq varaqdı Salvadori.

Yaşlılar arasında ünsiyyət qaranquşu,

Xoşluqdan, yaraşıqdan soraqdı Salvadori.

Bütün diplomatların dəyirmi stolunda

Ağ göyərçin şəkilli bayraqdı Salvadori.

Belə büsat görməyib heç bəlkə bu restoran,

Səhərəcən oxumaq, çalmaqdı, Salvadori.

Ayrılıq ziyafəti... tezdən yola düşürük,

Kövrəlib... baxma üzdən toxtaqdı Salvadori.

Bağrımıza basırıq ötür-ötürlə onu...

İlk dəfə sübhə kimi oyaqdı Salvadori.

Neapol hardan-hara körpüləşir Bakıyla

Bu körpüyə körpəcə dayaqdı Salvadori.

1977-1978

SONUNCU KİBRİT ÇÖPÜ

Sözümüz çəp gəldi şoferlə birdən,

Maşını saxladıb düşdüm yerə mən.

O, sürdü... təkərlər sovurdu qarı,

Cırmaq-cırmaq etdi bəyaz yolları...

Meşə... ağaclarda buz lülə-lülə,

Əsla hiss etmirdim soyuğu hələ,

Üzümdən-gözümdən süzülürdü tər,

Yaxamı, başımı açdım bir qədər.

Hirsim soyuduqca soyudu tərim,

Elə bil açıldı birdən gözlərim.

Qar basmış meşədə gördüm təkəm mən,

Yolda nə bir gələn, nə də bir gedən.

Meşə... nə ucu var, nə də bucağı,

Hara çata billəm bu axşam çağı?

Qarr-qarr...

Qarıldayır qara qarğalar.

Deyəsən ayağım üşüyür bir az!

(Üşüdün, bir yerdə dayanmaq olmaz.)

Gedirəm, qulağım səsdə, gedirəm,

Əvvəl bərk, sonrasa asta gedirəm.

Axırda taqətdən düşürəm tamam

Yolda nə bir maşın, nə də bir adam...

Budur, göy qaralır, meşə ağarır,

Gedirəm, canımı üşütmə sarır.

Ayağım sürüşür beş-altı kərə,

Körpə uşaq kimi dəyirəm yerə.

Qalxıram, gedirəm, meşə uzanır,

Ayazdır, şaxtadan üz-gözüm yanır.

Meşə şaqqıldayır, sınır budaqlar

Gümüş tozu kimi səpələnir qar

Meşə şaqqıldayır, səksənirəm mən

Bu qəhqəhədən.

Cibimdən bir qutu kibrit tapıram,

Deyəsən balaca oluram aram.

Kibrit ürəyimə hərarət verir,

Zehnimə aydınlıq, cəsarət verir,

Sınıq budaqları yığıb bir yerə

Çəkirəm kibriti bir, beş, on kərə.

Hər çöp qaralınca gözüm qaralır,

Sayıram: qutuda beş on çöp qalır,

Saat neçə olar? qoy baxım hələ,

O nədir üstümə yeriyir elə?

Gözləri göz-göz,

Mənə baxır düz...

Çəkirəm kibriti, çəkilir geri,

Kibrit sönən kimi qayıdır bəri.

On addım aralı durur canavar,

Tərpənsə qutuda bir dənə çöp var.

Bir çöl, bir canavar, bir meşə, bir mən.

Tüklərim ürpəşir ucuz ölümdən.

Canavar üstümə yeriyir. bu dəm

Yolda gur işıqlı maşın görürəm.

İşığın içində itir canavar,

Təkərlər altında xışıldayır qar.

Şofer düşən kimi tanıyıram mən,

Görürəm: gözləri dolub qəhərdən

Yoxsa fikirləşdin səni qoyub tək...

Motorda su donar, otur, tərpənək!

Tərpəndik... dinmədi nə o, nə də mən.

Papiros çıxardıb soruşdu birdən:

--kibritin olar?

- var!

Yandı sonuncu çöp, yandı, qaraldı...

Ancaq ürəyimdə həyatım boyu

Bu yaxşı insanın hörməti qaldı.

SUQOVUŞANDA

Gözüm qaldı gözlərinin qarasında,

Ürəyimə bir od düşdü

İki suyun arasında,

Nə Araz söndürdü, nə də Kür məni

Qoyma külə dönüm, gəl söndür məni

Suqovuşanda.

Gecə sakit, hava sərin, göy ulduzlu

Gəl sahilə enək, - dedin

Gülə-gülə, nazlı-nazlı.

Endik lap sahilə, lap yavaş-yavaş,

Qız əlin əlimdən çıxmayaydı kaş

Suqovuşanda.

Gözüm qaldı dodağının qönçəsində...

Sözüm qaldı can evimin

Həsrət dolu guşəsində.

Bir möcüzə göstər, sənə yaraşım,

Gizli yox, aşikar qaynayım-daşım

Suqovuşanda.

O sahildən bu sahilə qayıq üzür

Avarçını səsləyirsən:

Bizi gəzdir!

Sən allah, dayanaq, duraq beləcə

Nağıl tək uzansın bu nağıl gecə

Suqovuşanda.

Meh titrədir telindəki qızıl gülü,

Baxışının xumarından

Oldum dəli...

Zəncir istəmirəm qanad ver mənə,

Bir təzə, sövdalı həyat ver mənə

Suqovuşanda.

Hansı qüdrət çəkib sənin surətini?

Ana südü pak eləyib

İsmətini.

Gəlsin, hanı vaqif, hanı ələsgər?

Səpilsin başına gözəlləmələr

Suqovuşanda.

İnanmıram duymayasan nə haldayam.

Gözüm sənə baxa-baxa

Xəyaldayam.

İlbizlər də sussun ulduzlar kimi...

Təki sən, təki sən eşit qəlbimi

sSuqovuşanda.

Nə yaxşıdır bu saatlar, dəqiqələr.

Nə yamandır

Sənsiz keçib ömrüm hədər.

Bizi innən belə ayırmaq olmaz

Gör necə birləşib kür ilə araz

Suqovuşanda.

1966

GEDƏN YERİM OlAYDI

Yuxum ərşə çəkiləydi.

Dan yeri -

Qızarmış gözlərimdə

Sökküləydi

Təki.

Səhər

Başımda sövdalı fikirlər

Harasa gedən yerim olaydı.

Çətin bir ünvan axtaraydım,

Gəlişimə inanmayan,

Gəlişimi gözləməyən

İnsan axtaraydım,

Raketdən sür’ətli nə var dünyada;

Təki...

Gedən yerim olaydı...

Gedəydim, payi-piyada.

Külək,

Yağış,

Qar

Canımı üzəydi

Büdrəyib yıxılanda

Kötüklər,

Daşlar

Dizimi əzəydi.

Cəhənnəmə ki...

Təki

Gedən yerim olaydı...

Axşam düşəndə

Çataydım

Sıldırımlı dağlara sığınmış bir kəndə

Döyəydim bir qapını

Əllərim əsə-əsə,

İt zəncir gəmirəndə.

Adam çıxaydı səsə.

Bir cüt pərişan gözlə

Göz-gözə,

Bir xoş mehriban üzlə

Üz-üzə

Dayanaydım.

O, heyrət elədikcə

Mən alışıb yanaydım.

Qucaqlayıb boynunu,

Sığallayıb telini,

Qupquru dodağımla

Yandıraydım əlini.

Uşaq kimi ağlayaydım!

Bulaq kimi çağlayaydım!

Gedən yerim olaydı, gedən yerim,

Kiminsə həsrətiylə açılaydı səhərim.

1963

GECƏYARI QAHİRƏNİN

KÜÇƏLƏRİNDƏ

Bilsəydim ki, sən mənimlə barışacaqsan,

Bilsəydim ki, sən mənimlə görüşəcəksən

Kədər məni, qüssə məni çaşdırardımı,

Göz yaşlarım nil çayını daşdırardımı

Gecəyarı, qahirənin küçələrində?!

Bilsəydim ki, ümidimiz üzülməyəcək,

Sənli... mənli... bu hicrana dözülməyəcək,

Vidalaşıb intizarlı günüm, ayımla

Səhraları oyadardım hay-harayımla,

Gecəyarı qahirənin küçələrində.

Bilsəydim ki, saçlarıma qonan həsrəti

Yenə sənin öz əllərin arıdacaqdır...

Bilsəydim ki, ürəyimdə donan möhnəti

Yenə sənin öz əllərin əridəcəkdir.

Qəm ləşkəri heç üstümə yeriyərdimi,

Səmum yeli məni büküb bürüyərdimi

Gecəyarı qahirənin küçələrində.

Bilsəydim ki, sən mənimsən, yenə mənimsən,

Bülbülləri geri dönmüş çöl-çəmənimsən.

Ehramları qaldırardım yeddinci qata,

Fir’onlar da mat qalardı həmin büsata

Gecəyarı qahirənin küçələrində.

Bilsəydim ki, sənsizliyin ömrü gödəkmiş,

Ayrılığın bir ötəri acı küləkmiş

Son baharı calamazdım mən ilk bahara,

Hicranımı tapşırardım qürbət diyara

Gecəyarı qahirənin küçələrində.

QUTQAŞENƏ GEDƏNDƏ...

QAHİRƏYƏ GEDƏNDƏ...

Qutqaşenə gedəndə

Boynuma qol saldı o.

Qahirəyə gedəndə

Ürəyimdən çaldı o.

Kaş ki, yaxın olaydı

Mənə uzaq səfərdə...

Adam yaxın mənzilə

Elə-belə gedər də.

Qutqaşenə gedəndə:

Gəl, görüşək -söylədi.

Qahirəyə gedəndə:

Məndən əl çək - söylədi.

Qutqaşenə gedəndə

Kaş ki, dönəydi üzü

Qahirəyə peşiman

Göndərməyəydi bizi...

Qutqaşenə gedəndə

Mənim qəlbim quş oldu.

Qahirəyə gedəndə

Onun qəlbi daş oldu

O gözlərdə, gözlərdə

Neçin yad oldum belə?

Xoşbəxt o adamdı ki

İstədiyi vaxt ölə...

Qutqaşenə gedəndə

Ruhum ulduzda, ayda

Qahirəyə gedəndə

Ruhsuz bədəndi göydə,

Təyyarə qanadında

Göyə qalxmağa nə var -

Təyyarə ruh qaldırmaz,

Təyyarə yük qaldırar...

Qutqaşenə gedəndə

O qorudu qəlbimi

Ləl kimi, gövhər kimi.

Qahirəyə gedəndə

O sındırdı qəlbimi

Ucuz şüşələr kimi...

Quş sınıq qanadıyla

Yaxına bir cür çatar,

Uzağın qorxusu var

Ay allahsız ovçular!

Qaranlıq boşluqları

Təyyarə yarır gedir.

Türkiyə üzərindən

Misirə varır gedir.

Qutqaşenə gedəndə

Sevinc ilə qoşa mən...

Qahirəyə gedəndə

Qüssəylə baş-başa mən.

Sağ olsun sevinc-kədər

Tək deyiləm müxtəsər

Qutqaşenə gedəndə...

Qahirəyə gedəndə.

1973

DƏNİZ YANDIRDI MƏNİ

Külək üstümə qovdu,

Qovdu dumanı-çəni.

Axı, göydə nə duman,

Nə çən vardı bu səhər.

Ləpələrdə nə isə

Pıçıldadı ləpələr...

Sənsiz dənizə çıxdım,

Dəniz yandırdı məni.

Gəldim maviliklərə

Yox ikən buna lüzum.

Daldım maviliklərə,

Boşaldı, doldu gözüm.

Suların güzgüsündə

Gördüm aşikar səni...

Sənsiz dənizə çıxdım.

Dəniz yandırdı məni.

Məlalıma dözmədi qüssə, kədər özü də.

Bu halıma dözmədi

Tutqun göylər özü də.

Kənardan seyrə daldım

Cəmi deyib güləni.

Sənsiz dənizə çıxdım,

Dəniz yandırdı məni.

Niyə mənim ürəyim

Soyuq deyil sular tək.

Fikrim-zikrim neyləyim

Dağılsın yuxular tək?

Fikrimin dağılmağı

Hədərdi mən biləni...

Sənsiz dənizə çıxdım,

Dəniz yandırdı məni.

Ürək açıq olanda

Dönər cənnətə səhra.

Ürək yanıq olanda

Nə gəzinti, nə dərya?

Necə dar gəldi mənə

Yarımdünya bir gəmi.

Sənsiz dənizə çıxdım,

Dəniz yandırdı məni.

Hər şey əlçatmaz, uzaq,

Hər şey soldu-qurudu.

Başım üstündə ancaq,

Ayrılığın buludu.

Xatirimə gətirdim

Bütün olub keçəni.

Sənsiz dənizə çıxdım

Dəniz yandırdı məni.

1975

İNSAN DÖZÜR

Pozulmayıb təbiətin hələ yaşıl növrağı,

Üzə gülür, mülayimdir hələ sibir torpağı.

Ağcaqayın meşələri hələ bərli-bəzəkli,

Zümrüd tala, məxmər yamac hələ güllü-çiçəkli.

Hələ payız günəşindən şamlıqlara nur yağır.

Hələ payız buludundan sellər-sular gur yağır.

Hələ sibir şahzadəsi mavi gözlü Yenisey

Buz zirehə bürünməyib, çağlayır hey, axır hey...

Hələ qızıl tac gəzdirir bu gün sibir başında,

Hələ inci şeh parlayır kipriyində, qaşında...

Hələ bağrı yarılmayıb dağın-daşın bu yerdə,

Əlaməti bilinməyir hələ qışın bu yerdə.

Alnımızdan tər də axır günortalar arabir,

Mən deyirəm:

Tacik deyir:

Türkmən deyir:

Özəbək deyir:

Gürcü deyir: - nə sibir? bu sibir?!

Bu eyhamı göydə alır sibirlinin qulağı,

Deyir: - bir yol qışda olun siz bu yerin qonağı.

Hər fəsildə yaraşıqlı görünsə də bu diyar,

Ancaq sibir torpağının qışda ayrı hüsnü var:

Şaxta şair, şaxta rəssam, şaxta yalın qılınclı...

Büllur tacla o çıxıbdır taxta, yalın qılınclı,

İmtahana çəkir şaxta iradəni, vüqarı,

İnsanları, heyvanları, dəmirləri, daşları,

Mərtəbədən-mərtəbəyə qalxır şaxta anbaan:

İyirmi heç... otuz da heç... adlayanda o qırxdan..

Qol-budaqlı ağacları çör-çöp kimi qırır, bax,

Əlvan mərmər dağlarının sinəsini yarır, bax!

Yoğun-yoğun çuqun, polad şəbəkələr mum olur,

Dəmir-beton şüşə kimi çilinglənib qum olur.

Məhlul donur, sement donur, qurğu donur, tağ donur,

Fil xortumlu, div gövdəli maşınlarda yağ donur.

Şaxta meşə dərinində atəş açır şaq-şaraq,

Adamlara yaxın gəlir ayı, canavar, vaşaq.

Bəli, sibir soyuğunun hökmü ağır və qəti,

Qırxı ötdü... dayandırır işi-gücü hiddəti.

Lap istəyir şaxta qalxsın əllidən də o yana...

İnsan dözür... iş onda ki, dəmir dözə, dayana.

İnsan dözür... damarında axır qanı həmişə,

İnsan dözür... od kimidir, həyəcanı həmişə.

Ürək dözür... dözə bilmir, paralanır sərt qaya,

Ürək dözür... yerdə qalan təslim olur şaxtaya.

Nəhəng-nəhəng tikintilər

Buz bağlayıb dayanır,

İnsan dözür,

Dəmir dözmür,

Beton dözmür,

Məftil dözmür,

İnsan dözür...

Sibir görür, sibir buna inanır.

1979

KİPR

Kipr, zümrüd sular

Qoynunda-qoynunda,

Kipr, zümrüd bahar

Qoynunda-qoynunda.

Kipr, layiq vüqar

Tacında-tacında

Ay-ulduzlu diyar

Tacında-tacında

Kipr namərd

Dumanında-dumanında.

Yanılsın cəmi namərdlər

Gümanında-gümanında

Kipr millət

Amanında-amanında

Əsl qeyrət

Amanında-amanında

Bir gün türkün

Cəlalında-cəlalında

Sabah ərzin

Vüsalında-vüsalında

Kipr ibrətdi-ibrətdi

Batanlarçın-yatanlarçın

Bu azad Kiprə fikrində

Xəyalında çatanlarçın.

Çatanlarçın.

ATATÜRKÜN HEYKƏLİ

Kiprin ay-ulduzlu torpağında

Dörd fəslin dördündə də

Baharlı-yazlı torpağında

Bu torpağın

Buludlara dirənən

Ən uca dağında

Atatürkün heykəli

İftixarla dayanır

Gecələr gündüzlərin işığına boyanır

Şah vüqarla dayanır

Seyr edir millətinin

Əzmini-qeyrətini

Yenilməz mənliyini,

Qüdsi heysiyyətini

Heykəllərlə doludur

Yer üzü başdan-başa

Atatürkün heykəli

Deyil adi tamaşa.

O hürriyyət rəmzidir

Cümhuriyyət rəmzidir.

Türkün bərabəri yox

Yer üzündə, dünyada

Türk öz vətəndaşının,

Yarının-yoldaşının

Harayına yetişdi

Fövrən çətində-darda

Qoymadı qərq olsun o

Bu aralıq sularda.

Atatürkün heykəli

Ən zirvədə bərqərar

Ayaqları altında

Cənnət misallı diyar.

HACI

Səfər yoldaşımız, ustad

Jurnalistimiz Hacı Hacıyevə

Qaraqabaq, acıdil

Hacı bakıda qaldı.

Kiprdə allah haqqı

Hacı şəkərdi-baldı.

Hamıyla şirin-şirin

Deyib-güləndi hacı

Kiprə bakıdan deyil.

Göydən gələndi hacı.

Kiprin daşı-torpağı

Hacını məlhəm etdi.

Səfər yoldaşlarının

Cəminə məhrəm etdi.

Oylağımız Çatal göy

Otelimiz dədəman

Qardaş olma, yoldaş ol!

Qalıb dədə babadan.

Yeddi gün, yeddi gecə

Yazıldı ömrümüzə

Gülüşlər, zarafatlar

Məzəli əhvalatlar

Mirvari tək, inci tək

Düzüldü ömrümüzə.

Qulluğumda dayandı

Hacı o günlər inan

Ancaq ki, olmasaydı

Başımızın üstündə

Bircə o saxsı güldan.

İstədim restoranda

Toxunam o güldana

Dedi: - qoy oturmuşuq

Salarsan bizi qana.

Aralıq dənizinin

Suları dumdurudur

Belə yerlər insanın

Əhvalını duruldur.

Əlli ildi hacını

Tanıyırdım sən demə

Əlli ildi hacını

Tanımırdım sən demə.

Şad ollam evlərində

Hacını səhv salalar

Bu acıdır? hacıdır

Mat-məəttəl qalalar.

Lap qardaşı qardaşa

Bağlayır ruhu türkün

Kiprdən ayrılırıq

Ovqatımızda eyzən

Çağlayır ruhu türkün.

SALAM , OTELLO!

Salam, Otello, salam!

Hal-əhval?

Ey tunc general!

Həm sadəlövh,

Həm cəsur,

Həm də

Qorxunc general!

* * *

Gəlmişik o yerə ki,

Orda sən qan elədin.

Bir mirvari tapmışdın

Onu nihan elədin.

* * *

Pələng hənirtin gəlir,

Gəlir qulağımıza

Dezdemona yalvarır

Düşür ayağımıza,

Söyləyir günahsızam

O qara əllərinlə

Söndürülür bəyaz şam.

General!

Sənə kar etmir ancaq

Bu yalvarış, bu mələl

* * *

Uydun fitnə-fəsada

Onu da...

Özünü də

Nahaqdan verdin bada.

Düşdün Yaqo toruna

Düşdün yağı toruna

Güc verin qol zoruna

Gözünə qan sağıldı

Eh... bu qədim nağıldı

* * *

Sən Kiprin sərkərdəsi

Səsin zor kişi səsi

Qara ərəb Otello!

Bugünkü yaqolara

Yağdır qəzəb, Otello!

Gəl ki, türkün kiprini

Qətiyyətinlə tanı

Belə qoyub getmişdin

Sən məyər bu adanı,

Sənin qoyub getdiyin

Ada hanı, bəs hanı?!

* * *

litvalılar səsləndi,

Şeypurlar çəksin zilə,

Şanlı hərb gəmiləri

Yan alsınlar sahilə

Dezdemonanı boğmaq

Bu saat hünər deyil

Kafərləri boğmayan

İgid deyil, ər deyil.

* * *

Qəhrəman türk oğlunun

Bu gün Otellolara

Əşhəddi ehtiyacı

Bu gün bir yumruqdadır

Müsəlmanın əlacı.

Bu gün bir vəhdətdədir

Müsəlmanın əlacı.

Bu gün bir qeyrətdədir.

Müsəlmanın əlacı.

* * *

Otello qalasının

Dərinliyində bu dəm.

Həm nərilti

Həm də ki

İnilti eşidirəm.

Dezdemona and içir

Yox... Otello inanmır

Qara əllər içində

Bəyaz şam sönür, yanmır.

PİŞİKLƏR

Kiprdə pişiklərin

Gözü adam gözüdür.

Neçin ki, gördükləri

Elə adam üzüdür.

Adamlarla pişiklər

Dilsiz danışır burda,

Adamlarla pişiklər

Dostdu-tanışdı burda,

Burda pişiklər şərik

Adamın boğazına.

İncitsən gedəcəksən

Caynağın güdazına.

Burda pişiklər dönür

Adamın uşağına

Bir də gördün qəflətən

Atıldı qucağına.

Ətirli xoş havada

Xumarlanır pişiklər.

Sığallanır pişiklər

Tumarlanır pişiklər.

Dədəman otelinin

Pişikləri rəngbərəng.

Dədəman otelinin

Pişikləri şir, pələng.

Adamın baxtı kimi

Pişiyin də bəxti var.

Kiprin pişiklərinə

Bəlkə də qibtə edir,

Bəxtiqara adamlar.

Pişiklər günə verir

Özünü saymazyana.

Bilmirlər ki: əlvida -

Deyirik dədəmana.

YEDƏKDƏ GƏLƏN QAYIQ

Mingəçevir dəryaçasında bizi gəzdirən

Gəminin yedəyində bir qayıq gəlirdi.

Suları sənmi yarırsan

Yoxsa, gəmi yarır qayıq?!.

Sən üzür, sənmi varırsan,

Başına qalxıb tə’nəni

Gəmi dartır yoxsa səni,

Gəmi üzür varır, qayıq?!

Keyfimiz ala ulduzda,

Damağımız çağdı yaman.

Bu kef-damaq, sən qayığın

Sinəsində dağdı yaman.

Kaş dünyaya gəlməyəydin

Ay yedəkdə gələn qayıq.

Nə adam kimi yaşayan,

Nə adam tək ölən qayıq.

Bir talesən küskün, acı

Qayıq şəklindəsən fəqət.

Asudə yelkən möhtacı,

Yedəksiz bir ömrə həsrət.

Sular gömgöy,

Səma mavi.

Ağzı köpüklü-köpüklü

Başı havalı-havalı.

Ədalarla üzür gəmi.

Boynu yedək kəndirində

Üzür qayıq.

İçi bomboş,

Gözü qan-yaş

Dili sözlü,

Bağrı gözlü

Qismətinə dözür qayıq.

Gözüm yedək kəndirində

O dartılıb

Tarım-tarım.

Yetim segah pərdəsində

Dilə gəlir

Könül tarım...

Gəlir qayıq

Gözüm onda,

Fikrim sayıq.

Bir kəndirlik arası var.

Nə irəli

Nə də geri.

Üzülmək də.

Qırılmaq da

Bilmir yedək kəndirləri.

Üzür yedək qayıqları

Qucağında ümmanların.

Allah çatsın imdadına

Yedəkdəki insanların.

18 aprel, 1998

TEYMURLƏNGİN ŞƏRƏFİNƏ

1960-cı ilin yanvarında Özbəkistanda keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə olmuş əhvalat.

Səmərqənddə sağlıq dedim,
Teymurləngin şərəfinə.
O zəhimli sərkərdənin,
O nəhəngin şərəfinə.

Səmərqəndi gəzə-gəzə

Gözlərimə inanmadım.

Bir daşa da soyuqqanlı

Baxa-baxa dayanmadım.

Abidələr əzəmətli,

Abidələr yaraşıqlı.

Səmərqənddə ulduzlar da

Qaranlıqda gur işıqlı.

Kitabələr qədim-qədim,

Minarələr ulu-ulu.

Muzey-şəhər sərgilərlə

Addımbaşı dolu-dolu.

Məscidlərin zümrüd tacı

Göz doymayan bir aləmdi.

Yarıuçuq sarayların

Özləri də möhtəşəmdi.

Teymurləngin şöhrət tacı

Qədim paytaxt... qədim şəhər.

Qılınca bax, həm fəth edib,

Həm yaradıb xarüqələr.

Özbək xalqı teymurləngi

Milli vüqar hesab edir.

Bir vətəndaş, bir tacidar,

Bir iftixar hesab edir.

Mən bir cavan şair idim,

Bir hiss idim, həyəcandım.

Səmərqəndi gəzə-gəzə

Çalxalandım, dalğalandım.

Kişiliyin, əzəmətin

Tarixlərdən gəlir səsi.

Vahiməyə bürünmüşdür,

Teymurləngin məqbərəsi.

İşğalçılıq damğasıyla

Baş-beynimiz zədələndi.

Türkün ulu babaları,

Bax, beləcə ləkələndi.

Səmərqəndi dolandıqca,

Özüm də bir abidəyəm.

Əmir teymurlar yoxdursa,

Bəs mən onda kiməm, nəyəm.

Mən bir cavan şair idim,

Həm sadəlövh, həm də kövrək.

Teymurləngin türbəsinə

Gözüm yaşı axdı sel tək.

Bir gözünə qan sağılıb,

Bir gözündə zövqə bir bax!

Qırıb da o, qurub da o,

Qılınca bax, şövqə bir bax.

Teymurləngin şərəfinə

Səmərqənddə sağlıq dedim.

Həşir qopdu ziyafətdə,

Aman allah, mən nə edim.

Kimi dartı ətəyimi

Yağlı-yağlı əllərivlə.

Kimi sancdı ürəyimi

Hədə-qorxu dillərilə.

Dürtmələdi biri məni

Camaatı dingildətdi...

Kəkələndi bir başqası,

Çəngəl-bıçaq cingildətdi...

Biri dedi - səni nahaq

Gətirmişik bu gün bura.

Nə “Teymurləng” başlamısan

Kommunistlər dura-dura.

Partiyanın rəhbərləri

Özbək xalqı qala-qala...

Yaxşı... bakıya dönəndə

Göstərərik sənə, bala!

Teymurləng kommunistdir ki,

Sağlığına söz deyirsən!?

Mən də verdim cavabını:

Bax, bu sözü düz deyirsən.

O, kommunist olsa idi,

Sağlığına içməz idim.

Lap dirilib gəlsə idi

Sağlığına içməz idim.

24.02.1999

Qabilin qars səfəri...

Ötən il dekabrın 2-də çox balaca bir dəstəylə, Naxçıvana anarın altmış ilini keçirməyə getmişdik. Tədbirdən sonra - ertəsi günü səbəbkarın arzu və təşəbbüsüylə və əlbəttə ki, hamımızın ürəyincə bizi Türkiyənin İqdır və Qars şəhərlərinə gəzməyə apardılar.

əslində xudmani bir yubiley gecəsi Qarsda da oldu.

Dostları çağırdı dimdik pillələr,

Mən qars qalasının dibində qaldım.

Neynim, allah mənə vermədi təpər,

Mən qars qalasının dibində qaldım.

Dostları səslədi sərt pilləkənlər,

Qalxdı fəttah, fikrət, maşallah anar.

Mən qars qalasının dibində qaldım.

Qaldığım yerdəncə göyə ucaldım.

Qayanın dibində bir quş oldum mən,

Gələnə-gedənə yoldaş oldum mən.

Ürəyim söylədi:

Bu da bəsindir.

Bu yaşda nə hünər,

Nə həvəsindir?

Şükr elə mörünün möhlətinə sən,

Şükr elə bəxtinin qismətinə sən,

Şükr elə anarın ad gününə sən,

Şükr elə dostların şad gününə sən.

Eşq olsun anar -

Təşəbbüskara.

Yoxsa ki, yoxsa ki, qaş-göz arası

Xəyala, yuxuya gəlməz qars hara?

Dastanlar şəhəri,

Qanlar şəhəri.

Şərəflər şəhəri, şanlar şəhəri.

Qurbanlar şəhəri,

Fərəhdən, qürurdan köksü qabar qars.

Türkün bayrağında,

Türkün torpağında,

Tarix yarpağında

Vüqar qars!

Yol şərid,

Sağımız-solumuz qardı.

Nağıl: biri yoxdu,

Biri də vardı.

Anardan yadigar bu qars səfəri

Görə bilərdimmi özbaşına mən,

Öz xoşuna mən.

Mənə nağıl kimi gələn yerləri?!

Koroğlu dolanıb gəzən yerləri?!

Qarsın sobaları yanır kömürlə,

Əzəldən sirdaşdır kömür dəmirlə.

Dəmirçi kürəsi kömürsüz yanmaz,

Qars odda bişməsə məğrur dayanmaz.

Beləcə baxanda adicə şəhər,

Adicə adamlar, adicə evlər.

Qadağan deyilən bir səddə görə

Quş da keçə bilməz sərhəddə görə.

Bizlərə

Adı çəkilməyi qadağan olan,

Bizlərçin

Əlçatmaz bir məkan olan.

“Olmaz” əmiriylə

Sehrli hər şey.

“Olmaz” möhürüylə

Möhürlü hər şey

Adicə halında tilsimə dönür.

İnsan xəyalında tilsimə dönür

Qars açıq dünənə baxanda.

Yol açıq dünənə baxanda.

Əl açıq,

Qol açıq,

Dil açıq,

Dünənə baxanda.

Bu açıq məqamın,

Bu açıq zamanın

Şükranla qədrini

Bil açıq,

Dünənə baxanda.

Bayram et,

Gül açıq

Dünənə baxanda...

23.02.1999

TALE

İki təzə gəlin dayanıb qoşa

Biri yaraşıqsız, biri tamaşa.

Çirkinin halına acıyır gözəl,

Yanıb əhvalına acıyır gözəl.

Kifirsə ədayla baxıb gözələ,

Söyləyir:

Sir-sifət şərt deyil hələ.

Məni yazıq-yazıq süzmə çəpəki,

Baxtı göyçək olsun adamın təki!..

Bir ağız çağıraq baxtımızı gəl,

Əvvəlcə baxtını səslədi gözəl;

Ay baxtım, ay baxtım!

Dərd baxtım,

Çor baxtım,

Vay baxtım.

Baxtı acı-acı:

Hə, nə var, - dedi.

Tez ol,

Nə deyirsən, de, qurtar - dedi.

Çirkin də çağırdı baxtını bu dəm

Baxtı gülə-gülə dedi:

Gəlirəm.

Bu saat gəlirəm,

Qadanı alım,

Mənim maralım!

İnsanın taleyi əlindədirmi?!

İnsanın taleyi alnındadırmı?

Gözə görünməyən bir yazı varmı?

Hər kəsin qisməti onu taparmı?

Axtarıb taparmı əli çıraqlı,

Xoşbəxtlik - bədbəxtlik - sirli-soraqlı...

Tale bir doğulur hər bir adamla;

Kimin yar olur gur çilçıraqla,

Kimin çeçələ barmaqca şamla.

Taleyin işindən yoxdur baş açan,

Bəzən üzdə olur nadürüst, nadan;

Daldalardan baxır ağıllı, yaxşı,

Bəli, gətirmir ki, gətirmir naxşı.

Taleyin öz qolu, öz möhürü var,

Sən əlli hökm ver, əlli də qərar.

Qızılı xəzəldən ayır ki, ayır

Fələk saydığını sayır ki, sayır...

Kim inkar edir ki, ağlı-zəhməti,

Fəhmi, dərrakəni, əzmi, qüdrəti.

Kim inkar edir ki, zərurətləri,

Ay kimi, gün kimi həqiqətləri.

Kim inkar edir ki, alın tərini

Bəşər övladının kəşflərini?

Kim inkar edir ki, ülvi məramı.

Qranit inamı, vulkan ilhamı.

Kim başa düşmür ki, nağıl nağıldır,

Bütün mücrülərin,

Xəzinələrin,

Bu əngin səmanın,

Bu zəngin yerin

Bircə açarı var -

O da ağıldır.

Bütün ağıllılar xoşbəxtdirmi bəs?

Ey sözdə-söhbətdə taleyi danıb.

Bərkə düşən kimi “ya baxt!” deyən kəs!..

Tale tilsimini açan olmayıb,

Tale yazısından qaçan olmayıb.

Hamının baxtı var:

Ya xoş,

Ya da bəd.

Bu “xoş”un, bu “bəd”in arasındasa

Fəqət çəkilməyib Çin səddi tək sədd.

Yoxdur qətran kimi baxtı qara da.

İnanma, sərasər bəxtiyara da!

Dayanıb əlində sehrli çubuq

Bizə dirijorluq edir baxtımız.

Günəşə uçuruq, aya uçuruq

Bizdən irəlidə gedir baxtımız.

1984

ÖMRÜN

BİRCƏ GÜNÜNƏ

Axıb dolsun qəlbimə

Fəsillərin havası;

Yazın, yayın, payızın,

Qışın əlvan şüası.

Bir tikinti meydanı,

Bir qaranquş yuvası,

Mənə daha əzizdir

Mərmər məqbərələrdən.

Ömrün bircə gününə

Dəyişmərəm mən qəti,

Təqvimləşən, daşlaşan

Donuq əbədiyyəti.

Görüşümə gələndə

Yanar bir kibrit gətir!

Yandır! başımın üstə

Açılsın qızıl çətir.

Sevincimə şərik ol,

Kədərimə köks ötür,

Qəbrim üstə istəməz...

Ürəyimdə gül bitir.

Ömrün bircə gününə

Dəyişmərəm mən qəti,

Təqvimləşən, daşlaşan

Donuq əbədiyyəti.

Həyatın cəfasına,

Səfasına bağla bel!

Bu vəfasız dünyanın

Vəfasına bağla bel!

Yoxsa ki heykəl olmaq

Sövdasına bağla bel?!

Ömrün bircə gününə

Dəyişmərəm mən qəti,

Təqvimləşən, daşlaşan

Donuq əbədiyyəti.

Qoy toz qonsun, razıyam,

Yamyaşıl yarpaqlara...

Göz yaşı tökülməsin

Saralmış varaqlara.

Gedək payi-piyada

Lap uzaq... uzaqlara,

Çiyinlərdə getməyək

Lap yaxın torpaqlara.

Ömrün bircə gününə

Dəyişmərəm mən qəti,

Təqvimləşən, daşlaşan

Donuq əbədiyyəti.

Əslində əbədiyyət -

Nəfəs almağımızdır.

Bir gözələ gözaltı

Nəzər salmağımızdır.

Xəyala getməyimiz,

Tikrə dalmağımızdır

Nəvəli-nəticəli

Baba olmağımızdır.

Bizim olmağımız yox,

Bizim qalmağımızdır.

Ömrün bircə gününə

Dəyişmərəm mən qəti,

Təqvimləşən, daşlaşan

Donuq əbədiyyəti.

Qəbiristanda baxıram

Ucuz-baha daşlara,

Həm yaxşı nəqqaşlara,

Həm naşı nəqqaşlara,

Baxıram daşlardakı

O gözlərə-qaşlara,

Heç birisi daimi

Köçməyir yaddaşlara.

Ömrün bircə gününə

Dəyişmərəm mən qəti,

Təqvimləşən, daşlaşan

Donuq əbədiyyəti.

Ölməzlik - ölümdü də...

Başa düşək bir kərə!

Axı, nə əbədiyyət?

Çıxmadınsa səhərə.

Sükutla rəhmət oxu

Dünyadan gedənlərə,

Uğur vəsiqəsi ver

Dünyaya gələnlərə.

Gülək, gül dər, kama çat,

Qol qoy kitab-dəftərə.

Bu sözümü qoy nə cür

İstəyir yozsun hərə.

Ömrün bircə gününə

Dəyişmərəm mən qəti,

Təqvimləşən, daşlaşan

Donuq əbədiyyəti.

UZAQ SƏFƏRLƏR KAPİTANI

başdaşıda yazı

Bir başdaşıda bir yazı!

Ötəri görüb dayandım.

Nə nazik söz deyir yazı

Fərqinə varıb dayandım:

Uzaq səfərlər kapitanı.

Bəhriyyəli bir kapitan

Başdaşında donub qalıb,

Yağış döyən, gün yandıran

Medalyona dönüb qalıb

Uzaq səfərlər kapitanı.

Belə zülmət, belə ensiz

Qəbrə necə sığır adam.

Dəniz əngin, səma sonsuz

Gəmi sürür aram-aram

Uzaq səfərlər kapitanı.

Yelkən hara, kəfən hara

Qəbir nədir... qağayı nə?!

Qayaları yara-yara

Başdaşından baxır mənə

Uzaq səfərlər kapitanı.

Çox səfərdən ya tez, ya gec

Əvvəl-axır döndü geri.

Gətirmədi fikrinə heç

Sahillərsiz bu səfəri

Uzaq səfərlər kapitanı.

Bir qulağımda qurğuşun...

Bir qulağımda dalğalar...

Dalğa gəlir qoşun-qoşun,

Dalğalarda üzür məzar, -

Uzaq səfərlər kapitanı.

Ürküsü yox, qorxusu yox,

Yolda nə daş, nə burulğan...

Çox asudə səfərdi... çox!..

Üz sonsuz bir sonluğacan,

Uzaq səfərlər kapitanı.

Soyuqdu torpağın üzü

Səfər... səfər... adi səfər.

Başdaşında həmin sözü

Yerində həkk edibdilər:

Uzaq səfərlər kapitanı.

1977

QARIŞDIRMA

Oğlum Mahirə

Kobudluqla cəsarəti qarışdırma.

Yaltaqlıqla nəzakəti qarışdırma.

Mütiliklə sədaqəti qarışdırma.

Lovğalıqla ləyaqəti qarışdırma.

Tərs damarla dəyanəti qarışdırma.

Dəlibaşla şücaəti qarışdırma.

Tülkülüklə fərasəti qarışdırma.

Düşmənliklə rəqabəti qarışdırma.

Qızğınlıqla hərarəti qarışdırma.

Kef-damaqla səadəti qarışdırma.

Uydurmayla rəvayəti qarışdırma.

Xəsisliklə qənaəti qarışdırma.

Xata ilə cinayəti qarışdırma.

İsraf ilə səxavəti qarışdırma.

Küsü ilə küdurəti qarışdırma.

Zorbalıqla əzəməti qarışdırma.

Girov ilə əmanəti qarışdırma.

Güzəşt ilə bəraəti qarışdırma.

Hikkə ilə qətiyyəti qarışdırma.

Əsarətlə himayəti qarışdırma.

Məzlumluqla nəcabəti qarışdırma.

Yaxınlıqla məhəbbəti qarışdırma.

Yuyunmaqla qüdsiyyəti qarışdırma.

Mərtəbəylə ülviyyəti qarışdırma.

Daha nəyi... daha nəylə qarışdırma.

Tükü-tükdən ayrı sə'ylə, qarışdırma.

Aman... aman!!! qarışdırma!

Heç bir yerdə,

Heç bir zaman

Qarışdırma!

İlahi qisməti

Ömrün səfasından

Qoşa yarımaq,

Ömrün cəfasında

Qoşa qarımaq -

İlahi qisməti

Deyilsə nədir?

İlahi möhləti,

Deyilsə nədir?

* * *

Leyli-Məcnun ömrünə

Ömürü yoldaş olanlar, -

Vəslə macal tapmamış

Hicrə sirdaş olanlar;

Bir addımda əlləri

Bir-birinə çatmayan,

Ayrılığın odundan

Məzarda da yatmayan

Nakamın da taleyi

İlahi qərarıdır,

İlahi payızının

Xəzan yarpaqlarıdır.

* * *

Neçə eşq dastanı

Yazıb ulu şairlər;

Şairlər öz başına

Yazıb onları məyər?!

Füzulilər allaha

Bir addım yaxın olub;

İlahinin oduyla

Bu dağları-daşları

Yandırıb-yaxan olub.

* * *

Ömrün yarı yolunda

Xırda-xırda tökülən;

Mirvaritək qırılıb

Yerə-yurda tökülən:

Yarımçıq arzu-kamlar,

Kövrək, titrək inamlar

İlahinin işidir -

İşinə qarışmayaq!

Sorğu-sual əbəsdir,

Heç bir şey soruşmayaq!

* * *

Dopdolu uzun ömrün

Qoşa-qoşa süqutu;

Kəm ömrün, məhzun ömrün

Qoşa-qoşa tabutu.

Bu təzadlar altında

Çiyinlərin sükutu...

Toy karvanıyla qoşa

Son mənzilin karvanı;

Bir çinar qamətiylə

Əyri belin karvanı -

Qoşa qarımaq üçün

Biri ilk addım atır,

Biri qoşa qarıyıb

Son mənzilə

Bəxtəvər,

Bəxtəvər

Qoşa çatır.

3 fevral 2000

HÖRMƏTİMİZ

Diriyə hörmətimizdir ölüyə hörmətimiz,

Olmasın yasin onun ruhuna qoy minnətimiz.

Dirinin şə’ninədir məclisimiz-ehsanımız,

Dirinin şə’ninədir tapşırılan qur’anımız.

Ölüdən yox, dirilərdən utanır vicdanımız,

Gözümüzdən özümüzçün tökülür leysanımız.

Diriyə hörmətimizdir ölüyə hörmətimiz,

Olmasın yasin onun ruhuna qoy minnətimiz.

Aparıb getdi başın, mərhuma -- rəhmət -- deyirik,

Beş qarış torpağa şükr ilə -- kifayət -- deyirik.

Kişi çiynində gedən tabuta -- qismət -- deyirik,

Dirilərçindir əsl -- həşri-qiyamət -- deyirik.

Diriyə hörmətimizdir ölüyə hörmətimiz,

Olmasın yasin onun ruhuna qoy minnətimiz.

Kim gedir... kim də gəlir fatihənin izni ilə,

Sayılır yas yiyəsi məclisinin vəzni ilə...

Molla da vəznə münasib görünür əzmi ilə,

Bəzi insan elə lap fəxr eləyir hüznü ilə...

Diriyə hörmətimizdir ölüyə hörmətimiz,

Olmasın yasin onun ruhuna qoy minnətimiz.

Gəl qəbiristanlığa heykəllərə bax, daşlara bax,

Qranitlərdə, naxışlarda uçan quşlara bax.

Əksə bax, surətə bax, hər cürə nəqqaşlara bax,

Ölü yoldaşa nə dəxli, diri yoldaşlara bax,

Diriyə hörmətimizdir ölüyə hörmətimiz,

Olmasın yasin onun ruhuna qoy minnətimiz.

Ölüdən hər nə qalıbdırsa, onu sağ aparır,

Onu borc verdi də, öz borcunu torpaq aparır.

Ölü heç bir şey aparmır, azacıq ağ aparır,

Ömrü sonsuzluğa əldən-ələ bayraq aparır.

Diriyə hörmətimizdir ölüyə hörmətimiz,

Olmasın yasin onun ruhuna qoy minnətimiz.

01.08.1993

DEYİLƏM

Uca dağların qarıyam

Əriyib gedən deyiləm.

Vəfalı yarın yarıyam

Çevrilib, dönüb, dəyişib.

Yeriyib gedən deyiləm.

Mən vüs’ətə alışmışam,

Ayaqlarımı dalımca,

Sürüyüb gedən deyiləm.

Sizi,

Bizi,

Yolu-izi,

Ömrümüzün səfasını,

Xalqın abi-havasını

Gözə dolan tozanağa

Bürüyüb gedən deyiləm.

Can çürüyür,

Şan çürümür,

Çürüyüb gedən deyiləm.

28.06.1999

ƏSLİNDƏ

Mənəm əndazəsiz; sonsuz

Sükuta qərq olan dərya.

Sükutum arxayın qoy salmasın

Sahildə məxluqi...

Coşarsa, heç üzün görmə,

Dəli tufandı əslində.

Dərin fikrimdə gizlənmiş,

Kəfən geymiş dərin mə’na.

Əgər şayəd açıqlansa

Bəraətsiz-filansız, keç,

Buyur, zindandı əslində.

Günahkarın cəzasın

Bir günahsız çəkməliykən bəs?!

Deməzlər? gün-günorta

Diqqətə şayandı əslində?!

Nədir insaf, nədir mürvət?

Çaşıb qalmışdır idrakım.

Bütün bunlar qədim söhbət,

Qədim hədyandır əslində.

Səxavət sözdə asandır:

Nə qulluq, hazıram, qardaş -

Bu hap-gopdu, bu, hatəm naminə

Böhtandı əslində.

Gözüm oynaq, xəyalım quş,

Saçım çal, saqqalım çaldır.

Vücudum-ruhum ancaq ki,

Cavan oğlandı əslində.

Güzarandan düşür söhbət,

Gözəllər qeyb olur gözdən.

Könüldə eşqə yer yoxdur,

Könül virandı əslində.

Zəlil haqqın kəsən zalim,

Əlil haqqın kəsən zalim,

Ziyarətgaha can atma,

Can atma, xalqı aldatma!

İnansaq ki, o dünya var,

O cür dəhşətli səhra var.

Həmişə qır qazanında

Canın büryandı əslində.

Nə çox alim, nə çox tacir

Nə çox loğman olub peyda?!

Ay allah bu yarımçıqlar...

Cəmi nadandı əslində.

Nadanlıq azmış kimi

Hələ şeytandı əslində.

Baxıb baş tapmıram heç cür

Bu millət acdı, ya toxdu...

Kimi çöpdü, kimi şişman,

Kimi bütdü...

Kimi lütdü.

Hamı üryandı əslində.

Nə qaçqın, ey gözüm-canım?!

Nə işğal, ey gözüm-canım?!

Nə yardım, ey gözüm-canım?!

Nə “verdim”, ey gözüm-canım

Unutqanlıq-utanmazlıq

Açıq talandı əslində.

Ələkbər Sabirin gülmür üzü,

Gülməz də, gülməz də.

Yağışsız da vətənində

Şiddəti-bacarandı əslində.

Hər gün gördük böyük şair...

Yazıq qan uddu, qan qusdu,

Bu gün sabirlərin bağrı

Həmənki qandı əslində.

Nə leyli var, nə də məcnun,

Nağıl açma uzun-uzun.

Hanı nöfəl cəsarəti,

Zeydin ağlar sədaqəti?

Nə bir könül şişəsi var,

Nə bisütun tişəsi var.

Nə Şirin??? var, nə də Fərhad,

Keyfxanalar çıxardıb ad.

Nə Vaqifin gözəlləri,

Nə Vahidin qəzəlləri.

Bütün bunlar üryan baldır...

Qısa tumandı əslində.

Məhəmməd Hadinin ruhu

Əyandı ruhuma billah;

Onun hali-pərişanı

Calandı ruhuma billah.

Gözüylə baxdım Hadinin

Cahan zindandı əslində.

Dilim: - qurban olum, - söylər

Gözəl yara, əziz dosta.

Bu boş sözdü...

Bu xoş sözdü...

İlahidən --

Qoyun qurbandı əslində.

Cahana gəldiyim gündən

Ölüm xofu mənə aşkar.

Ölüm vəhmində sonsuzluq...

Ölüm bir andı əslində

Yığışdır əl-ayağın

Bu sözün, bu söhbətin, qabil!

Uzatma mətləbi bunca

Sənə nöqsandı əslində.

27 fevral, 1998

SONUNCU MOGİKAN

Ay sonuncu mogikan!

Ay son ümid, son iman.

Hardasan, gəl çıx görək,

Donuq bütləri,

Kirəc kütləri,

Mütrib lütləri

Qır-çat görək,

Yıx görək!

Namərd mərdi öldürür

Qabağını kəs görək.

Mələyi, məlakəni

Lağa qoyan meymunun

Qulağını kəs görək!

Hazırına dadanan

Hazırın nazirinin

Ayağını kəs görək!

Ay sonuncu mogikan,

Yatma, ayıl, ay azman!

Getmə div yuxusuna

Həşəratlar daraşıb

Millətin yaxasına.

Hayqır boğulub getsin,

Üfür, dağılıb getsin.

Yoluq cüllüt göz verib,

İşıq vermir tərlana.

Söz keçmir, güc çatmayır

Qalırıq yana-yana.

Gəl, ayırd et bu işi

Gəl, sonuncu mogikan,

Gəl, ey sonuncu kişi.

Gəl, ey zəhmi ildırım,

Nəfəsi vulkan kişi,

Ey üstü-başı tozlu

Sadəcə dehqan kişi,

Ey qədim karivandan

Ayrılıb qalan kişi.

Köhnə mogikan kişi!..

Son nəfəsdədir abır,

Son nəfəsdədir həya.

Son nəfəsdədir zəka,

Son nəfəsdədir ziya.

Quyruq üstədir zülmət,

Quyruq üstədir riya,

Gəl, ey əli qabarlı,

Kitab-dəftərsiz alim.

Həm cüzi ixtiyarlı,

Həm külli ixtiyarlı

Gəl vətəndaş müəllim!

Halımız yaman olub

Düyünləndikcə tilsim.

Başımıza od yağır

Bu, yaxşıyla yamanın

Qarışdığı bir oddur.

Bu, dudayla dumanın

Qarışdığı bir oddur.

Bu, cins ilə nacinsin,

Bu, xılt ilə xalisin

Qarışığı bir oddur.

Ey adi mogikanım,

Ey ali mogikanım

Ümidsizlik içində

Xəyali mogikanım!

Evini tanıyıram,

Kəndini tanıyıram.

Bərəni tanıyıram,

Bəndini tanıyıram.

Dəbdən düşmüş dəyirmi

Kepkanda saman çöpü

Suda boğulanların

Sonuncu güman çöpü...

Əyər səhv etmirəmsə,

Əlisəhabdır adın.

Dəxli yox, əlisahab

Oldun, ya da olmadın.

Ya hüseyn ol, ya həsən

Mogikansan elə sən!

Yarpaqları tökülmüş

Ağaclar üryan-üryan.

Üryanlar arasınnan

Baxırsan giryan-giryan.

Üryan qaçqınlarına,

Üryan köçkünlərinə,

Üryan balalarının,

Viran obalarının

Ağrısı ürəyində,

Acısı ürəyində,

Neçə şəhid anası,

Bacısı ürəyində.

Sən elə adi fəhlə,

Elə adi daşyonan.

Gəl, sonuncu mogikan!

Gəl, səssiz xanəndəni

Götür, səhnədən apar!

Qələmi, söz bilməyən

Yazar əlinnən qopar!

Qoyma haram, ziyarət

Yolunu ayaqlasın!

Qoyma, qanmaz qur'anı

Götürüb varaqlasın!

Bəlkə sən bu ölkənin

Lap elə baş adamı?!

Bütün vətəndaşlara

Yaxın yoldaş adamı?!

Gəl sonuncu mogikan

Bu sellərin-suların

Önündə məğrur dayan!

Ey sonuncu mogikan,

Gözünün nəmində yox,

Gözünün qəmində yox,

Odunda yansın möhnət

Zülm, əzab, əziyyət.

Xəzri qopur, dalğalar

Şahə qalxır şəst ilə.

Xəzri sınağa çəkir,

Xalqı bu gün qəsd ilə.

Mərdəkan qalasının

Diş-diş bürcləri fəqət

Nə qopur, nə laxlayır.

Tufanlar sınağında

Onu allah saxlayır.

Mogikan da allahın

Kişilik əmanəti.

Böylə bir əmanətə

Xəyanət yoxdur qəti.

Mogikanlar nə ölməz,

Nə də qocala bilməz.

Mogikansız bir millət

Heç vaxt ucala bilməz.

Saymaq olmaz:

Birinci... onuncu mogikanlar

Həmişə birincidir

Sonuncu mogikanlar.

ÜÇ NÖQTƏ

Sözün, fikrin davamıdır üç nöqtə,

Üç sərçədir, telə qonub yellənir.

Kimin kimə eyhamıdır üç nöqtə,

Köks ötürüb ürəyində dillənir.

Arifə bir işarədir üç nöqtə,

Uzun-uzun mətləblərin qisası.

Üzr, ifşa, ibarədir üç nöqtə,

Hissin-ruhun qövr eləyən qisası.

Dayaz fikri dərin etməz üç qöqtə,

Hər üç nöqtə çaşdırmasın sizləri!

Acı şeyi şirin etməz üç nöqtə,

Qaynatmasın, daşdırmasın sizləri!

Aşiqanə məktubların ovqatı,

Üççə damcı həya təri - üç nöqtə.

Qarlı qışın, ilk baharın ovqatı

İsmət-qismət çiçəkləri üç nöqtə.

Söz tapmasan dada yetər üç nöqtə,

Əvəzində o danışar, o dinər.

Yersiz olsa boş şey, hədər üç nöqtə,

Mənalarla kədərlənər, sevinər.

İncə mətləb kodlarıdır üç nöqtə,

Hər biri bir qıfılbənddi, aç görək!

Lal bir məktəb açarıdır üç nöqtə,

Bu məktəbin tə’limindən qaç görək!

Bir him-cimdir, bir qaş-gözdür üç nöqtə,

Qazdan ayıq xəbərdardı, ayıq ol!

Dilə gəlməz elə sözdür üç nöqtə

Atalar də üçdən deyib, sayıq ol!

Ömür yolu göz önündən keçər hey,

Baxıb-baxıb dolan gözdü üç nöqtə.

Xatirələr bulağından içər hey,

Gözü yolda qalan gözdür üç nöqtə.

Mənaların açmasıdır üç nöqtə,

Açıldıqca şərhə qalmaz ehtiyac.

Təxəyyülün uçmasıdır üç nöqtə,

Simurqa da daha olmaz ehtiyac.

Etirafdır, xəyalətdir üç nöqtə.

Üzümüzdə üç şillənin yeridir.

Anlayana kifayətdir üç nöqtə,

Köksümüzdə üç güllənin yeridir.

2 iyun,1997

CÜMƏ AXŞAMI

Kin-küfrət azalır,

Mehri-ülfət çoxalır,

Ürəyimiz yuxalır,

Biganəlik yox olur

Cümə axşamı.

Müdrik, zəkalı olur,

Ağzı dualı olur

Elə bil ki, camaat...

Elə bil bir-birinə

Xalq lütf edir iltifat

Cümə axşamı.

Ölülər elə bil ki,

Boylanıb yola baxır.

Gözlərdə göz yaşına,

Əllərdə gülə baxır.

Bu köhnə qəbristana

Hey təzə axın axır...

Cümə axşamı.

Səslər qulağa gəlir-

Əbədiyyətdən gəlir.

Ruhlar ocağa gəlir-

Əbədiyyətdən gəlir.

Belə təqvim təlqini

Hansı hikmətdən gəlir

Cümə axşamı?!

Hüzr məclislərində

Küsülülər barışır.

Ağızucu salamla

Ürəyində mərhumun

Ruhuna ehtiramla.

Adamlar adam kimi

Dolanırlar adamla...

Cümə axşamı.

Atıb vacib işini,

Atıb gedən yerini

Hüzrə də’vət eləyir

Kişilir bir-birini.

Arada nə olubsa

O gün heç kim anmayır.

Bütün borcu dananlar

Bircə borcu danmayır...

Cümə axşamı.

Mərhumun əzizinin

Gözü dörd olur, gəlin!

Dost-tanışın yoxluğu

Ona dərd olur, gəlin!

Toya gəl də, gəlmə də

Axtarmazlar heç kəsi,

Bitib-tükənməz fəqət

Gileylə umu-küsü

Cümə axşamı.

Tarzən cərrah hacı,

Sonra ustad müəllim.

Müğənni gümrah hacı.

Ana bülbülüm Şövkət,

Ceyran gözlü nəzakət

Rübabə dərdli səslə,

Gülağa xoş nəfəslə

Ekranda qonağımız...

İslanır yanağımız...

Vird edir dodağımız...

Cümə axşamı.

Əbədiyyət soyuqdur

O, üşüdür adamı-

Yandırın çıraqları,

Yandırın ocaqları,

Ruhlar isinsin barı

Cümə axşamı.

19 iyul, 1997

MƏN GÖZ YAŞLARINA

DÖZƏ BİLMİRƏM...

Mən göz yaşlarına dözə bilmirəm.

İllah da qocayla uşaq ağlasın.

Duzlu yağışlarda gəzə bilmirəm

Gözümün içində qaysaq bağlasın.

Mən göz yaşlarına dözə bilmirəm,

Yağanda Şəhidlər xiyabanına.

Bu ağlı-qaralı mərmər dastana

Bu gülləri məş’əl daş gülüstana,

Bu busə dadmayan neçə oğlana

Ağlama, döz görüm, daşsa da qəlbin

Ağla ibrətamiz bir ehtişama.

Mən göz yaşlarına dözə bilmirəm,

Analar saç yola məzar başında.

Yox, daha mərsiyə yaza bilmirəm,

Cavanlar qırılsa nakam yaşında.

Mən göz yaşlarına dözə bilmirəm,

Al-əlvan xonçalar qara boyansa.

Sözü ipə-sapa düzə bilmirəm

Neynim?! ipim-sapım od tutub yansa...

Mən göz yaşlarına dözə bilmirəm,

İlkisin məzara qoyanda gəlin.

Onu sərin-sərin süzə bilmirəm

Ağlar laylasını deyəndə gəlin.

Mən göz yaşlarına dözə bilmirm,

Diriykən dəvəni pay-pay böləndə.

Dəvə duyğusunu yoza bilmirəm

İlahi! mən lalam, susursan sən də...

Mən göz yaşlarına dözə bilmirəm,

Didərgin, - deyəndə, - qaçqın, - deyəndə.

Min çadıra bir nur sezə bilmirəm

Od tuturam xalqa - köçkün - deyəndə.

Mən göz yaşlarına dözə bilmirəm,

Heç pəhləvanın da hıçqırığına.

Fəndgir güləşdə, namərd tutaşda

Onun hönkürtülü qışqırığına.

Mən göz yaşlarına dözə bilmirəm,

Vəfa, əhdi-peyman qayçılananda.

Lap öz ləyaqətim sanıram itir

Ləyaqət, şərəf-şan qamçılananda.

Mən göz yaşlarına dözə bilmirəm,

Əlləri qoynunda ağlasın aciz.

Pünhan qurbanını aşkar basdırıb

Qəbrinin üstündə ağlasa nacins.

Mən göz yaşlarını bağışlayıram,

Yağanda haqsız bir hökmün üstünə.

Mən göz yaşlarını alqışlayıram-

Sel olub gələndə zülmün üstünə.

Mən göz yaşlarına dözə bilmirəm,

Ümidin bir yolluq qırılsa sapı.

Hayana fırlansan, hayana dönsən,

Hər yerdə üzünə bağlansa qapı.

Mən göz yaşlarına dözə bilmirəm,

İnsan ürəyində pünhan ağlasa.

Gözə görünməyən göz yaşlarıyla

Sonu görünməyən hicran ağlasa.

Göz yaşı büllurdu, göz yaşı safdır.

O, bizi ayırır dəmirdən-daşdan.

O, uzun hekayət son e'tirafdır.

Nələr gəlib keçir bəlalı başdan.

Səma bulud-bulud, yer insan-insan,

Yerdə də, göydə də ildırım çaxır.

Dəsmal gəzdirməyir cibində cahan,

Dəsmal gəzdirməyir küllü Yaradan

Bəşərin göz yaşı silinmir, axır.

22 iyun, 1997

SƏHV DÜŞƏNDƏ

YERİMİZ

Duman dağı dolanar,

Qiyamət olar.

Duman yola sallanar,

Müsibət olar.

Müsibət oluruq biz,

Səhv düşəndə yerimiz.

Ümman gəmisi çayda

Oturar, üzməz!

Çay gəmisi, dağ boyda

Dalğaya dözməz!

Dözümsüz oluruq biz,

Səhv düşəndə yerimiz.

Muğan həsrət yağışa,

Buludlar xəsis...

Yağış tökür talışa

Hey-hey gərəksiz...

Gərəksiz oluruq biz,

Səhv düşəndə yerimiz.

Küt bıçaq parıldayıb

Xırçıltı salıb.

Qılınc qında pas atıb

Qında korşalıb...

Heyf... korşalırıq biz,

Səhv düşəndə yerimiz.

Ağ biləklər gül əllər

Tarlada qabar.

Bir qeyrətsiz yekəpər

Qızıl gül satar.

Qeyrətsiz oluruq biz,

Səhv düşəndə yerimiz.

Tarın pərdələrini

Düzənə qurban!

Yerdəyiş et birini,

Xaric vurarsan.

Xaric səslənirik biz,

Səhv düşəndə yerimiz.

1969

İSTƏMİRƏM

Yeyib-içib gəzə-gəzə

Söz qoşuram təzə-təzə.

İstəmirəm çatam yüzə

Uzun ömrüm xalqı üzə.

İstəyirəm yaraşıqla

Yaşamağı dərk eləyim,

İstəmirəm bu dünyanı

Ölə-ölə tərk eləyim.

Yaman gözə inanmıram

Yaxşı gözlər olan yerdə.

Acı sözə inanmıram

Şirin sözlər olan yerdə.

Qaşqabağa inanmıram,

Gülər üzlər olan yerdə.

Qocalmağa inanmıram

Ceyran qızlar olan yerdə.

İstəmirəm ömrü başa

Vurum nəmli kəsafətlə,

İstəyirəm olan-qalan

Günüm keçsin təravətlə.

Vərdişimi dəyişmədim,

Neçə-neçə il içində.

Gərdişimi dəyişmədim

Nə tikan, nə gül içində.

Rəngdən-rəngə girə-girə

Buqələmun! Öl içində!

Nəyə gərək bu xislətin?

Niyə tökülməyir ətin?

Sığalladım sifətimi

Sifətimə şükür olsun.

Özgə sifət istəmirəm.

Qismətimə şükür olsun,

Özgə qismət istəmirəm

Möhlətimə şükür olsun,

Artıq möhlət istəmirəm.

Paxılların, xəbislərin

Vallahi ki, vicdanı yox.

Nakəslərin, nacinslərin

Nə dini, nə imanı yox.

Başqa söz ki, birimizin

Nöqsanı az... nöqsanı çox...

Buyur da... qoy tərəziyə

Kimin yaxşı-yamanı çox...

Düz çək, pərsəng istəmirəm,

Tez eylə, ləng istəmirəm.

Səhralarda karvan gedir,

Axar sular rəvan gedir,

Uman yerə güman gedir

Gümanla bir... zaman gedir.

Hədər güman istəmirəm,

Hədər zaman istəmirəm.

13 mart,1998

GƏTİRMƏ

Onsuz da ömrümün xəzan çağıdır...

Xəzanın üstünə xəzan gətirmə!

Ürəyim mehə bənd gül yarpağıdır...

Onu qoparmağa tufan gətirmə!

Onsuz da heç nədən dolan gözümə

Kəsilmək bilməyən leysan gətirmə!

Onsuz da işığı solan gözümə

Qaranlıq gətirmə, toran gətirmə!

Onsuz da gəncliyin sönübdür odu...

Soyuq sarayıma boran gətirmə!

Tutqun göylərimin yoxdur hüdudu...

Tutqun göylərimə duman gətirmə!

Onsuz da yandırıb-yaxan bir neyəm,

Ney yandıran yerə... kaman gətirmə!

Acı şikayətəm, həzin gileyəm...

Sakit olmağıma güman gətirmə!

Onsuz da gecikən vüsalımıza,

Gəl vaxtsız-və'dəsiz hicran gətirmə!

Qabiləm, rəhm etmə əhvalımıza...

Aman istəmirəm... aman gətirmə!

1972

MƏHƏBBƏT DEYİL

Mən səni görməyə adət etmişəm,

Adət məhəbbət deyil!

Səni görməyəndə xiffət etmişəm,

Xiffət məhəbbət deyil!

Sənə min ehtiram, hörmət etmişəm,

Hörmət məhəbbət deyil!

Gözündə çağlayan mehribanlığa

Heyrət etmişəm,

Heyrət məhəbbət deyil!

Yalvarıram, sən,

Məhəbbət umma məndən.

Hanı iqtidarım,

Məhəbbət tufanına sinə gərən

Gəncliyimi

Sənə qurban vermək üçün

Geri qaytarım?!

Geri qaytarım...

1961

KÜLƏKLİ HAVALARDA,

YAĞIŞLI HAVALARDA

Külək əsir... üşüyür yenə daş-divar,

Səkilərin üstünə düşür damcılar,

Küçələrdən tələsik keçib gedirlər,

Səni xatırlayıram, qəlbimdə kədər-

Biz də belə gedərdik,

Küləkli havalarda, yağışlı havalarda.

Külək əsir, titrəyir qapı-pəncərə,

Yağış yağır... şırhaşır düşür şəhərə,

Dalda yerə çəkilir bir qız, bir oğlan

Qorxub yağışdan.

Biz də belə edərdik,

Küləkli havalarda, yağışlı havalarda.

Külək əsir... sevdiyin mahnını çalır,

Yağış yağır, o vaxtı yadıma salır.

Bir qız keçir sən geyən jaketdən bu dəm,

Duman çökmüş şüşədən onu görürəm,

Səni görmürəm...

Küləkli havalarda, yağışlı havalarda.

Külək əsir közərir odum, yanıram,

Yağış yağır, gözümdən yağır sanıram,

Səni, səni axtarır, səni gəzirəm.

Başqa vaxtı hicrinə bir cür dözürəm,

Ancaq dözə bilmirəm

Küləkli havalarda, yağışlı havalarda.

1961

MƏHƏBBƏTDƏN SAVAYI

Vurçattasın, vurharay,

O xaniman, bu saray,

Bu gəlhagəl, bu dəstgah,

Lap rast, lap Yetim segah

Əfsanədir, yalandır!

Yalnız sevgi-məhəbbət,

Bir şairanə xəlvət-

Eşq aləmi qalandır.

Yaddan çıxmaz səadət

Vüsal dəmi qalandır.

* * *

Ağlına hər nə gəlsə

Məhəbbətdən savayı,

Xoş ünsiyyətdən özgə.

Xoş ülfətdən savayı

Qismətlərin qisməti

O qismətdən savayı,

Adı çılğınlıq olan

Bir dəhşətdən savayı

Yerdə qalan nə varsa,

Yerdə bir şey qalarsa

Hər şey hədər havayı.

* * *

Rütbə, vəzifə, mənsəb,

Xütbə, mədrəsə, məktəb,

Mükafatlar, təltiflər,

Gurultulu alqışlar,

Parıltılı tə’riflər,

Lap şahlıq, lap təxti-tac

Bağında qızıl alma

Gətirən yeddi ağac...

Bir nazın, bir ədanın

Yanında heç nə deyil...

Bir dəlicə sevdanın

Yanında heç nə deyil.

* * *

Hər xatirə əzizdir-

Tarixi var, adı var.

Hər bəhrə-bar ləzizdir

Ayrı-ayrı dadı var.

Məhəbbətin dadına

Cənnətin dadı çatmaz

Leyli-Məcnun oduna

Cəhənnəm odu çatmaz.

* * *

Sevirəm səyahəti

İqlimlər əlvan-əlvan

Eşqin səyahətində

Səyahətlər də yalan.

Güman gəlməz diyarda

İki ürək - iki can

Bir gül camal, gül nəfəs

Mənə dünyalarca bəs...

Sevgisiz dünya qəfəs

Sevgisiz cahan zindan,

Sevgisiz cahan yalan.

* * *

Uyma dava-dərmana,

Uyma, yalandı dərman!

Uyma, lap heç loğmana

Uyma, yalandı loğman!

Min əlacdan irəli

Bir ceyran - dəli ceyran,

Meyli-məzəli ceyran

Bu sözlər milyon ildir

Deyilir zaman-zaman.

Elə hamıya bəsdir

Təkcə füzuli yazan.

Kürrəmiz məhəbbətin

Məhvərindən bərqərar

Məhəbbətdən savayı

Hədər şeydir hər nə var!

24 aprel 2000

ON SƏKKİZ YAŞINDA...

Çatır son mənzilə ömrün karvanı

Əlli il yol gəldik bu səhrada biz.

Baxtımıza düşən əhdi-vəfanı

Əmanət saxladıq bu dünyada biz.

Allahın işidir, mənzil söhbəti...

Allaha min şükür hələ ki, sağıq.

İlk eşqi, ilk andı, ilk məhəbbəti

Yenə isti-isti saxlayacağıq.

Mən tale hökmüylə dağlara gəldim

Sən dağlardan uçub şəhərə qondun.

İlk təbəssümünlə sevindim, güldüm

Gül kimi, tər-təmiz səhərə döndün.

Bu səhər açılır düz əlli ildir.

Bu səhər bənzəmir adi səhərə.

Eşqin atəşində biz, əlli ildir

Yanmaq öyrədirik pərvanələrə!

Deyingən olmuşuq bu gün eybi yox

Təki bizim yaşda deyinsin hamı.

Əlli il axşamı - nə az, nə də çox

Qızıl toy paltarı geyinsin hamı.

Tale sınağa da çəkmədi bizi.

Çəkdi! düz demirəm-övlad həsrəti,

Yetkin yaşımızda ev-eşiyimizi.

Çirağban elədi mahir qisməti...

Haqdan yanan çırağ çətin ki sönə

Qocalır məhəbbət, soyumur ürək.

On səkkiz yaşında görünür mənə

Hacıbəyim xanım - ağ saçlı çiçək...

Xatirə Yarpaqları

Təsəlli tapıram xatirələrdə

Xatirə sözündən üşənirəm həm.

Xatirə şərikdir kədərə, dərdə

Həm də gözümüzdə işıldayan nəm.

Çoxdan yarpaqları tökülüb gedib

Çoxdan gün-günorta lüt-üryan ağac.

Beli xəcalətdən bükülüb gedib

Nə ağac?! əslində bir insan ağac

Bəlkə heç olmayıb onun yarpağı

Bəlkə ilahidən beli göyərib?

Bəlkə heç olmayıb onun növrağı

Tacında nə qönçə, nə gül cücərib.

Quru budağında görür ki, birdən

Üç-dörd qırış-bürüş tənbəki yarpaq

deyir:

-Yox, yarpaqsız olmamışam mən

məndən xatirədir məndəki yarpaq.

Xatirə yarpağı gəzirəm mən də,

Ömrün bu qupquru budaqlarında.

Xatirə yarpağı gəzirəm mən də

Ömrün bu sapsarı varaqlarında

Üç-dörd sarı yarpaq dəyir gözümə

Quru budağımda yaşıldı onlar

Yaxşı ki... deyirəm özüm-özümə

Ömrümə xatirə yazıldı onlar.

14 fevral 2000

TEREK QANLI

FƏRAT OLUB...

İnanmıram sən bu qanı

Yerdə qoyasan.

Millətini lap ümidsiz

Darda qoyasan.

Yurdun-yuvan gözgörəsi

Yer ilə yeksan

Yerlə yeksan cəlalınla

Ay allah, təksən.

Zəlzələlər zəlzələsi

Torpağın - daşın.

Qırılırsan tökülürsən

Əyilmir başın.

Axı sənnən nə istəyir

Sarı əjdaha.

Tarixlərdə əli qanlı

Qarı əjdaha.

Harayına heç kim gəlmir

Bəlalı Çeçen.

Şeyx Şamilin,

Şeyx mansurun

Xəyalı Çeçen.

Soyuqqanlı-soyuqqanlı

Nahaq baxırıq.

Baxa-baxa, işləyirik

Günah - baxırıq.

Arxayın ol, geci-tezi

Bizimçün də var,

Bu mərəkə, bu “toy büsat”,

Bu qanlı mağar...

Qış fəslində imdad dilər

Bu saat Çeçen

Bu saat qan dəryasında

Bathabat Çeçen...

Ümidini bağlayıbdır

Borana-qara,

Etibarlı səngərlərə-

Sirli dağlara.

Məmə deyən, -

Pəpə yeyən

Partizan olur.

Öz qanına boyandıqca

Nəsimi kimi -

Bir ovuc xalq qundağacan

Qəhrəman olur.

Şəhidliyin min səbəbi

Bircə adı var.

Terek çayı fərat çayı

Olubdur bu gün.

Şanlı Çeçen qardaşımın

Şəhidliyində

Bu gün şəhid imam hüseyn

Etiqadı var.

23 oktyabr 1999

BİRCƏ SAQQAL

DARAGIMIZ

Hər şeyimiz qaydasında,

Hər işimiz düz.

Kimin şəkki-şübhəsi var?

Nə söhbət, nə söz?!

Yerbəyerdi, cabəcadı

Hər növrağımız,

Çatışmırdı

Bircə saqqal darağımız

Ölüm hökmü ləğv edildi

Diyarımızda.

Bəli, bircə bu çatmırdı

Rüzgarımızda.

Yetimimiz-yesirimiz

Çadırlarda, vaqonlarda

Əsirdən pis əsrimiz...

Bunun dəxli yox özgəyə

Sözməsəli lap özgəyə...

Bəs necə biz insanpərvər

Millətik canım.

Toyda-vayda,

Sağlıq üstə,

Söz üstündə,

Sifarişli

Rəqs üstündə

Cəhənnəmə tökülsün qanım.

Ölüm hökmü vəhşilikdir

Əlbət ki, əlbət.

Sən özünü ən mədəni

Millətlərə qat.

Lap onunu tikə-tikə

Doğrasın biri

Dəxli yoxdur,

Arxayındır

Nə gülləsi, nə də kəndiri

Avropanın Şurasında

Qərbin ora-burasında

Ucalaq təki,

BMT-nin gözlərində

Ucalaq təki,

Kitabında-dəftərində

Ucalaq təki.

Gör nə qədər ucu itmiş

Kələfimiz var.

Əlil-zəlil, çolma-çocuq

Xələfimiz var...

Gör nə qədər düyünümüz

Hələ açılmır.

Milyon qaçqın ürəyinə

Şəfəq saçılmır.

Aç əlini, aç qolunu

Neçə azğının

Balasına həris oğraş -

Neçə qızğının

Ölüm hökmü nəyə lazım,

Hədərdi hədər.

Ölümsüz də, hökümsüz də

Artır canilər

Ayıb deyil,

Həm də bizə nə deyər bəşər?!

Deməzlər ki:

Əşşi, günün-günorta çağı

Başlayınız:

Güllələyib, kəsib-asmağı!

Bas belinə beş il, on il-

Gedib uyusun,

Gedib yatıb

Beyni-başı bir az soyusun

Buraxılıb çıxsın cövlana,

Əllərini qoy təzədən

Batırsın qana.

Hər şeyimiz qaydasında,

Gözəl, yerbəyer.

Bir o qalıb

Qatillərə sən qol-qanad ver.

Adını qoy insanpərvər-

Kövrək bir ad ver.

25 oktyabr 1999

DƏNİZİN CAZİBƏSİ

Bah atonnan! dənizin sirrinə bax,
sehrinə bax,
Bu qədər məxluq ilə ülfətinə,
mehrinə bax!
Göydən od yağsa çatır imdada
sərin suları.
Baş aparsan... göz ağardır sənə
dərin suları...
Boş deyil nəğməli sahilləri
bir anda belə.
Başqa bir aləmi var, lap dəli
tufanda belə.
Qayğısız, kef-damağa sahilə

cütlər də gəlir,

Avara, cibləri boş, şübhəli

lütlər də gəlir.

Bəzəyib bir dəvəni, ovsarı

dartan da gəlir.

Nə ağrıdım başını, hoqqa

çıxardan da gəlir.

Gəlir ömründə dəniz görməyən

heyrətli qonaq.

Qorxudan qışqırığı ərşə çıxan

körpə uşaq.

Alaçiy qarğıdalı, qapraqa tum,

kola satan -

Çoxdur vallah, bu çimərlikdə

çimənlərdən inan.

Sözümün canı fəqət, heç bu

deyildir qardaş,

Keçmədim mətləbə bəs mən

nə üçün lap birbaş.

Dəb düşüb indi də sahildə

kliplər çəkilir

Hər klipçin nə qədər istəsələr

xərc tökülür.

Operator yazığın çiyni qabar

kameradan

Nə qədər göz yorulur, göz yaşarır

kameradan.

Dirəyib barmağını gicgahına

bir avara

Fikr içində bir əda ilə baxır

göy sulara.

Millətin yox xəbəri bəli, bu da

şair imiş...

Aktyor, rəssam imiş, sair... və

sairimiş.

Kişinin durduğu yer olmalı

hökmən qayalıq

Dağınıq saçlarına, cüssəsinə

tən qayalıq.

Klipi seyr eləyən dahi bilər

onda onu

Bu romantik, bu əsl cazibədar

fonda onu.

Allı-güllü bu məlakə nə gəzir

bəs burada

Oxuyandır... görünür yaxşı çıxır

səs burada.

Alı yoxdur, gülü yoxdur da

yarımlütdü bu qız

Yel qapır sözləri ağzından onun

söz də nə söz.

Hansı sponsorun əl kuklasıdır

kimdi bilən...

İzinə kimdi düşən, kimdi güdən,

kimdi gələn...

Min əda ilə satır da dənizə

naz oxuyur.

Yoxdu səs, yoxdu boğaz, yoxdu heç

avaz oxuyur.

Tanımır xalq arasında inan, heç kəs

bu kəsi

Tanıdan bəlkə onu xalqa dəniz

mənzərəsi.

Operator götürür gah yanakı

gah çəpəki...

Qoy klip min cürə pəstah ilə

dolsun da təki

Operator götürür hər cürə

görkəmdə onu.

Yel vurur quş kimi əynindən

uçur qısa donu

Ləpələr də topuğunda elə bil

yallı gedir.

Bu dəniz gör nə qədər zay-vayı

xanəndə edir.

Burda hökmən kimi şair, kimi də

rəssam olur.

Dənizə aldanaraq ömrü-günü

axşam olur...

Oxuyur nəcməsini bəmdə Xəzər,

zildə Xəzər

Baxır öz çəkdiyi öz klipinə

sahildə Xəzər.

9 sentyabr 2000

BORC

Var əl borcu;

Yüz aldın

Yüz qaytar.

Aldığını

Düz qaytar.

Var əməl borcu;

Əməli salehlərə,

Salehə valehlərə,

Ülvilərə,

Qüdsilərə,

Min oğuldan birinə,

Millətin şairinə

Heykəl borcu.

Var təməl borcu;

Təməlsiz olmusan

Məgər?

Şair kimi

Havayla dolmusan

Məgər?

Havadan asılıb qalmısan

Məgər?

Sənə təməl qoyublar,

Sən də boş-boş dayanma.

Sabahkı xələfinə

Təməl borcunu danma!

Var vəfa borcu;

Yoxdu eyş, işrət

Zövqü səfa borcu,

Var cəfa borcu,

Var sədaqət borcu,

Məhəbbət borcu.

Var dəli sevda borcu,

Ceyran gözlü

Güli-rə'na borcu.

Leyli Məcnun borcu var

Hər gəncin ürəyində,

Arzusu-istəyində.

Xəyanət borcu yoxdur,

Rəzalət borcu yoxdur,

Cinayət borcu yoxdur,

Cəhalət borcu yoxdur,

Xəyanətə xəyanətlə,

Rəzalətə rəzalətlə,

Cinayətə cinayətlə,

Cəhalətə cəhalətlə,

Haçan cavab verilmiş,

Görülübmü böylə iş?!

Borc başqa,

Əvəz başqa.

Qərəzə qərəz başqa.

Borc halallıq söhbəti,

Halallıq haqq-hesabı.

Borc bir kişi sifəti,

Borc bir vicdan əzabı.

Ata-anaya xidmət,

Ana yurda sədaqət.

Borcun açıq qapısı

Sayılmalıdır əlbət.

Yetimə çörək,

Xəstəyə ürək

Əlif-beyidi borcun,

Adi şeyidi borcun.

Bir can borcumuz da var,

Gəlməlidir əzrayıl,

Ayıqsansa da ayıl!

Bəli də, əzrayılı

Heç cür görməmək olmaz.

Beşikdə yatmışıqsa,

Qəbrə girməmək olmaz.

Vicdan borcumuz da var,

Ödənib bitən deyil,

Gözdən yayınan deyil,

Hesabdan itən deyil.

Bəzən elə bilirik

Bu borcdan asudəyik.

Çünki öz-özümüzə

Yamanca aludəyik.

Adicə bir tərpəniş,

Adicə bir davranış,

Adi bir mülahizə

Düşür tərs-avandına,

Dönür vicdan borcuna.

Bir allah şahid olur,

Bax, bu pünhan borcuna.

Asılılıq borcu var,

Hamı onun quludur.

Bu borc içində üzən,

Hara baxsan doludur.

Kürreyi-ərz günəşin

Başına borc dolanır.

Dolandıqca, borcunun

Sonsuzuna inanır.

Ulduzlar aya borclu,

Ay günəşə borcludur.

Atəş suya borcludur,

Su atəşə borcludur.

Hava torpağa borclu,

Torpaq havasız ölü.

Bu vəhdətdə də borc var,

Müşgüldü ki, müşgüldü.

Millətlər qurban kəsir,

Qurban niyyət borcudur.

Dağlar vulkan püskürür,

Vulkan hiddət borcudur.

Borcun qızdırmasında

Alışıb yanırıq biz.

Nə borcu ödəyirik, -

Nə borcu danırıq biz.

11.10.1998

YAXŞI ADAMLARIN

HƏSRƏTİNDƏYİK

Bu sözü Ağdaşda - mötəbər bir məclisdə mərhum dostum Qulu Xəlilov dedi.

Balaca, bəstəboy,

Lap cantaraq çox

Şirin, gülərüz çox,

Qaraqabaq çox

Kifir, yaraşıqlı,

Qara çox, ağ çox

Öküz çox, tülkü çox

Uzunqulaq çox...

Həm ağıl dəryası,

Həm balqabaq çox...

Adam görməmişik? vəhşiyik, nəyik?

Yaxşı adamların həsrətindəyik...

Adamlar qaynaşır

Qarışqalar tək,

Ürək donur buz tək,

Əriyir qar tək,

Kimi qarlı qış tək,

Kimi bahar tək.

Tale ayrı şeydir,

Qismət ayrı şey,

Xasiyyət ayrı şey,

Xislət ayrı şey,

Gəlhagəl ayrı şey,

Şöhrət ayrı şey,

Biz başqa söhbətin hikmətindəyik,

Yaxşı adamların həsrətindəyik.

Nisbidir həm yaxşı,

Nisbidir həm pis.

Ancaq nisbi deyil,

Nə qızıl, nə mis.

Ancaq nisbi deyil,

Cins ilə nacins.

Gəzirik xalisi,

Gəzirik xası.

Nə baş ağrıdım ki,

Sözün qısası,

Biz ayrı sövdanın xiffətindəyik,

Yaxşı adamların həsrətindəyik.

1989.

GÜLHÜSEYN

Həm mənzumdu, həm mənsurdu gülhüseyn.

Həm mə’sumdu, həm məğrurdu gülhüseyn.

Zindanların zülmətini əridən

Al şəfəqdi, qızıl nurdu gülhüseyn.

Müəllimdir alnı açıq, üzü ağ.

Ona yaddır başqa cürə yaşamaq.

Özü qıvraq, qayışbaldır, diribaş,

Şagirdinin saqqalı ağ, saçı ağ...

Mücrü onun mücrüsüdür -- xəbərdar!

Mücrüsünə toxunmayın, lo salar.

Gülhüseynə tay tutmasın özünü

Mücrüsü boş, ürəyi boş olanlar.

İstiqanlı ilk fırtına quşudur,

Onu şahin nəğmələri yaşadır.

Öz canından keçməyinə keçdi o,

Ölmədisə -- bu allahın işidir...

Müşfiq dağı sinəsində əbədi,

Müşfiq şe'ri -- səcdəgahı, mə'bədi.

Əzabkeşin, cəfakeşin qisməti,

Ömür yolu, tale hökmü belədi.

Qəzəblənmə, qəzəbinə, hirsinə,

Gülhüseyn tək məşəqqətə gər sinə!

Ona dəyən dəysəydi qeyrisinə...

Başı-gözü çevrilərdi tərsinə.

Vətən! -- deyib sinəsinə çırpmadı,

Hökm oxundu -- gözünü də qırpmadı.

Sal qranit, gül yarpağı Gülhüseyn.

Mənsur şe’rin bağça-bağı Gülhüseyn.

Nakam müşfiq pasibanı Gülhüseyn,

Mənsur şe’rin bağbanı Gülhüseyn.

Masallıdan o, qucaqda ayrılıb,

Qönçə ikən gül budaqda ayrılıb.

Gülhüseyni bakı çəkib ovxara

O, qınından bura çıxıb sıyrılıb.

Əsəbinin səbəbi də birdimi?

Dirigözlü oda düşüb gəncliyi.

Hörmət elə, səcdə etmə, pirdimi?!

Ömrü uzun, ürəyi pak, gözü tox

İndi tapıb bir az qulaq dincliyi.

Kələyi yox, hiyləsi yox, toru yox.

Coşmağı var, daşmağı var, zoru yox.

Masallıda yırğalanıb beşiyi...

Azərbaycan torpağında yeri çox.

İCLASDAN İCLASA

İclasdan iclasa görürəm səni,

Solğun camalından solur gözlərim.

Könlümün dumanı, könlümün çəni,

Dönür ağ buluda, dolur gözlərim.

Başlanır fikrimin öz “yığıncağı”,

Həmin yığıncaqda bir sən, bir də mən.

Ağzınacan dolu iclas otağı,

Yan keçir xatirə sahillərindən...

Qəlbin əlaməti gözdədi guya,

Gözümdən könlümü oxuyan hanı?

Qəlbin əlaməti üzdədi guya,

Üzümdən könlümü oxuyan hanı?

Tək sənə aydındır, tək sənə aşkar

Saralmış günəşim, tutqun ayım da,

Danışır “dərədən-dağdan” adamlar,

Sən öz aləmində, mən öz hayımda.

Tək sənə əyandır, tək sənə - ancaq

Necə tüstülənir, necə yanıram.

Bilirəm deyirsən: “nahaqdır, nahaq”

Nahaq yanmağımı yaxşı qanıram.

Səndə insafa bax, məndə dözümə!

Məndən lap aralı əyləşmək niyə?

Məgər bilmirsən ki, çaşqın gözümə

Onsuz da bəs elər xırda maneə?!.

Camaat iclasın gur axarında,

Axardan kənarsan sən də mənim tək.

Yaxın bir adamın baxışlarında

Daşdan da bərk olsa, ovular ürək.

Yalandır kimləsə danışmağın da,

Vurhay çıxışlara marağın yalan.

Məni saymamağa çalışmağın da -

Boynuna qoymuram - yalandır, inan!

Səslidir, küylüdür bu iclas zalı,

Hər kəs öz işində, öz sahmanında.

Qərib durna kimi şair xəyalı

Dünyadan aralı - sənin yanında.

İclasdan iclasa görürəm səni,

Həsrətin yandırır-yaxır qəlbimi.

Bu sayaq görməsin sevən sevəni,

İclas da dağılır bir yuxu kimi.

Hələlik

Hələlik dağların

Zirvəsində qar,

Elə ki, yaz gəldi -

Əriyəcəkdir.

Gül kimi, tül kimi

Bəyaz dumanlar

Yerləri-göyləri

Bürüyəcəkdir.

***

Hələlik yay gəldi

Bişəcək aləm

Günəşin

Qırmızı təndirlərində,

Bişib kömbə-kömbə

Şişəcək aləm.

***

Hələlik payızın

Qumral gözləri,

Tökəcək şıdırğı

Yağışlarını.

Bağlara uzanan

Ayaq izləri

Yığacaq allahın

Bəhrə - barını.

***

Görəsən dünyada

Nədir əbədi?!

Məzar ki, deyirik

Məzar hələlik...

Bəzəkli-bəzəksiz

Daşlar hələlik.

Yerlə yeksanın da

Özü hələlik...

Yeddi mö’cüzədən

Qalan-qalmayan

Nami-nişanın da

Özü hələlik...

***

Ömür kitabının

Hər varağına

Tale möhür basıb

İmza atıbdır.

Uyma bu dünyanın

Təmtərağına

Nə nuhun gəmisi?!

Ay evi abad!

Qitələr, millətlər

İtib-batıbdır...

***

hələlik sözünün

Fərqinə varma!

Məni dərinliyə

Çəkib aparma!

Yaman qorxuludur,

Dərin dəryalar.

Yaman qorxuludur,

Dərin mə’nalar.

Yaman qorxuludur,

Dərin meşələr.

Yaman qorxuludur,

Dərin kişilər.

***

Dərin kişilərdən

Soruşsan əgər

Onlar söyləyər:

Bir ağıl, bir kamal

Hələlik deyil.

İntizar,

İstiqbal

Hələlik deyil.

Sonsuz fikir-xəyal

Hələlik deyil.

Zülmətdə nur olub

Doğur - hələlik...

Ümidsizlikləri

Boğur hələlik.

Nəsillər hələlik

Bəşər əbədi.

Bəşər ki...

Hələlik

Yaşar əbədi.

İŞİN DÜŞƏNDƏ

Quzuya dönürsən işin düşəndə,

İşin ki, düzəldi quyruq üstəsən.

Əslində bir günah görmürəm səndə,

Sən də belə zəlil, belə xəstəsən.

Payandaz olursan işin düşəndə

İşin düzələndə tərlan olursan.

İlıq yaz olursan işin düşəndə,

İşin düzələndə tufan olursan.

Quyruğun tələdən çıxdı vəssalam!

Bax ki, bu üz mənim, bu sifət sənin.

İkrahdan, qəzəbdən, nifrətdən lalam,

Dönük sifətinə, ay lə'nət sənin.

Yaxşı, bəs qorxmursan, bir də ilişsən,

Sənə kömək əli uzadan deyil,

Sən ha dil tökübən, sən ha çalışsan,

Halına kimsə də bir yanan deyil.

Zəhər də, şəkər də yanaşı daim.

Hərəsi öz yeri... öz qədərində.

Eyni xasiyyətdə deyil ki, heç kim,

Hərə öz vərdişi, öz şakərində.

Fəqət, ölçüsü yox utanmazlığın,

Axı üz ətdəndir, dəmirdən deyil.

Bu naxələfliyin, bu qanmazlığın,

Silinməz qarası - kömürdən deyil.

Minnət götür bu gün, dal çevir sabah,

Sadəcə belə də adamlıq olar?

Kimə gətirəcək beləsi pənah,

Pənahı - gümanı olsa tarimar?

Qan yox, şərbət axar damarlarında

Duzsuz, şimşit olar dili-dodağı.

Əttökən bu yalvar-yaxarlarında,

Xəcalətdən ölər oğul-uşağı.

Qılığa bir dəfə girə bilərsən,

Bir dəfə üzünə qapı açılar.

Xoş rəftar bir dəfə görə bilərsən,

Bir yol zülmətinə işıq saçılar.

Sənnən yan keçərlər, sən yan keçən tək,

Qalar dikburnunda yumruq möhürü.

Kimə yaxınlaşsan işin düşən tək,

Sinənnən vurarlar, dönərsən geri...

Saman çöpü gəzər dəryada gözün,

Sənnən saymazyana ötər gəmilər...

Səni sayanları saymadın özün -

Gözdən saymazyana itər gəmilər.

9 may 1999

SAAT

Ömrümüzün zəmisini

Xırpaxırpla

Çalır saat.

Dəryazla ot biçinini

Yaman yada salır saat...

Dəryaz ağzı daşa dəyir,

Öz-özünə ya korşalır.

Saatınsa əqrəbləri

Ömrümüzü biçə-biçə,

Ömür billah

İti qalır.

7 may 1999

ƏBƏSDİR

Qanmazı qandırmaq

Əbəsdir.

Yananı yandırmaq

Əbəsdir.

Sönəni söndürmək

Əbəsdir.

Dönəni döndərmək

Əbəsdir.

Güləni güldürmək

Əbəsdir.

Öləni öldürmək

Əbəsdir.

İSTƏYİRƏM

Sinəmin yanğısı var, yay günü

Qar istəyirəm.

Bu hədər istəyimi aləmə

Car istəyirəm.

Süzüb addım başı, əndamı açıq

Huriləri

Payıza qalsada da çox,

Gülöyşə nar istəyirəm.

İstəyirəm əlimi iynələsin

Qara tikan,

Qönçəni hifz eləyən nizəli

Xar istəyirəm.

Az qala gözlərimi cilvələriylə

Kor edən,

Kor edən,

Həm nur edən

Cadu xumar istəyirəm.

Yaş ötüb, baş ağarıb,

Qaş ağarıb,

Huş quş olub...

Nə xəzan? qışdı gələn,

Qışdı kəsən kandarımı

Mən də arsızca durub

Fəsli bahar istəyirəm.

Bir-bir allah nə veribdirsə

Alır.

Almalıdır.

Qəbrəcən almamalı-

Bircə vüqar istəyirəm.

Çeynə ha, çeynədədir

Saqqıza dönmüş qarabağ.

Nə qədər “gün o gün olsun ki,..”

Deyərlər, bəsdir!

Qeyrətə, əqlə, kamala

Bu da bu cür qəsddir.

Vətən uğrunda hücum!

Qəti qərar istəyirəm,

Millətə idrakımın,

Saflığımın rəmzi kimi

Bir anar azdı, canım

Cümlə anar istəyirəm.

Çox da ki, bağlamayıb

Çəkməmin atdım bağını

Bağ yox ey... külli baxımsızlı

Diyar istəyirəm.

Ömrümün yolları yox,

İstəyirəm olsun hamar

Ölkəmin yollarını

Ancaq hamar istəyirəm.

Gəlməsin məclisimə

Ağlıma gəlməz ötəri

Nabələd kəsləri hər yerdə

Kənar istəyirəm.

Nə qədər tə’rif edirsən

Elə hop musiqini

Zövqümə qurban olum-

Rast, qatar istəyirəm.

Hər qüsura dözərəm,

Kütbeyinə yox, qabil!

Xalqımı başdan-ayağa

Huşiyar istəyirəm.

12 iyun 1999

BİLMİRƏM

Başımda bir şıdırğı var,

Toydu-mağardı, bilmirəm.

Gözümdə yer-göy qarışır

Borandı-qardı bilmirəm.

Bir xanıma qonub quşum

Sinə uyardı? bilmirəm.

Bir yol da gəlsin arxa su

Cadar-cadardı. bilmirəm?!

Kim nədə istəyir, çalır

Tardı-dütardı, bilmirəm.

Lap xalqımın da rüzgarı

Nə rüzgardı, bilmirəm.

Qoyun qanı su yerinə

Ax ki axardı. bilmirəm.

Hansı ulduzum parlayıb?

Rəmmal tapardı. bilmirəm!

Satqınlar verdi saranı?

Sellər apardı? bilmirəm!

Sözüm-sovum çoxdu hələ

Ömür qurtardı? bilmirəm!

Taleyim ağlar-güləyən

Qışdı-bahardı, bilmirəm.

Uşaq-muşaq şüar deyir

Bu nə şüardı? bilmirəm.

Bu gün hamı bəydi, soydu

Türkdü, tatardı - bilmirəm!

Yamanın enlidir yolu

Yaxşının dardı?! bilmirəm!

Heç kim eşitmir haqq sözü

Cümləsi kardı?! bilmirəm.

Dərməyə çatmırsa əlim

Heyvadı-nardı, bilmirəm.

Paytaxtımızdırmı bakı

Yoxsa bazardı?! bilmirəm.

Vağzalımız - vay halımız...

Rusca - kaşmardı? bilmirəm.

Fikir doğur qafiyədən

Ya boş axardı? bilmirəm.

Qabil hey-hey yazıb-tökdü

Bir şey başardı?! bilmirəm.

14 iyun 1999

BAYRAĞIMIZ

Bir gün haqdan yanan çıraq,

Nahaqdan da sönə bilər.

Bir dəfə yüksələn bayraq,

Nahaqdan da enə bilər.

Nə sönməyi, nə enməyi

Göstərməsin bizə allah.

Qonşuya şam istəməyə,

Göndərməsin bizi allah.

Bayrağımız qoy qalmasın,

Boş-boş şüar ümidinə.

Enən deyil, əyər qalsa,

Qeyrət, vüqar ümidinə.

Zülmətləri çıraqlarla

Yara-yara gedir millət.

Sabahlara bayraqlarla,

Vara-vara gedir millət.

MÜSTƏQİLLİK

Sən toxuna bilərdin

Leninin heykəlinə?

Moskva dağ basardı

Xalqımızın əlinə.

Dağüstü parkda azca...

Laxladılsaydı Kirov.

Bütün Azərbaycanı

Götürərdilər girov.

Özbaşına hünərin,

Deyildi bu iş, əməl.

Yiyəsinin əliylə

Uçuldu büt-büt heykəl.

Zamanın hökmü açdı,

Əl-qolunu millətin

Çoxları tək nə idi,

Yoxsa sənin cür’ətin!

Qırmızı zəncirləri,

Qırmızı özü qırdı,

Müstəqilliyi bizə,

Tarixin özü verdi.

9 fevral 1999.

QORU ÖZÜNÜ!..

Fələk özü bilər neynəyər sənə,

Hiylədən, kələkdən qoru özünü!

Səndə nə işi var pələngin, şirin,

Hünüdən, milçəkdən qoru özünü!

***

Böyük adamların işi başqadır,

Xırda adamlardan qoru özünü!

Açığın-aşkarın işi başqadır,

Örtülü bazardan qoru özünü!

***

Eybi yox, kükrəsin qasırğa, tufan

Oğrun yeldöyəndən qoru özünü!

Xoşun gəlməsə də qaraqabaqdan

Dili “can” deyəndən qoru özünü!

***

“Qul xətasız olmaz, ağa kərəmsiz”

Xəta heç. günahdan qoru özünü!

Nəfəsin vicdanın qoy salmasın iz

Kəmşirin tamahdan qoru özünü!

***

Elə hey deyirsən: “Şeytana lə’nət!”

Özünə lə’nətdən qoru özünü!

Özünə xəyanət-dəhşət xəyanət

Dəhşət xəyanətdən qoru özünü!

***

Mö’cüzə peyğəmbər şə’ninə şayan

Yerişin itəndə qoru özünü!

Elə ki, sallandın dalay-dalaydan

Söz-sovun bitəndə qoru özünü!

***

Qürurun əl çatmaz zirvəsi aləm.

Sən oxlov udannan qoru özünü!

Qaydadır aşığa dəmkeş tutar dəm.

Şaha dəm tutannan qoru özünü!

***

Ovqatın gülüdür gülüb danışmaq

Şit-şit irişənnən qoru özünü!

Üzdə şapalağı unudan uşaq,

Dalda goreşəndən qoru özünü!

***

Gözəldir aralı, şehli tər çiçək

Dərmanlı çiçəkdən qoru özünü!

Dönüb ruzun olar hər daş, hər kəsək

Minnətli çörəkdən qoru özünü!

***

Səma yeddi rəngdə, yeddi çalarda

Rəngi qarışanda qoru özünü!

Yer-göy bir hamarda, bir ixtiyarda

Üzü qırışanda qoru özünü!

***

Ay hələ... hələ ki, yaşıl yarpağım

Sarı yarpaqlardan qoru özünü!

Qızılbaş köhnəsi-ay qürub çağım,

Qoru! qorxaqlardan qoru özünü!

***

Ehtiyat igidin yaraşığıdır

Sən də yaraşıqla qoru özünü!

Ömür ay işığı, gün işığıdır

Bu qoşa işıqla qoru özünü!

25 iyul 1995

AY ZİYA

Dəmir yolumuzun nazik ürəkli

rəisinə dost sözü:

Darıxmışam bir istəkan

Çayın üçün ay Ziya!

Damağımda dadı qalan

Payın üçün ay Ziya!

Bəxşişlərin-qızıl təsbeh

Bir qiyamət yadigar

Şanlı Çeçen papağına

Hansı papaq tay olar?!

Bəratının bərəkəti

Tükənməyir-halaldır

Var ol, kişi səxavəti!

Yerdə qalan xəyaldır...

Yaddan çıxmaz naxçıvanda

Bostan üstü kef-damağ

Belə olsun qoy hər yanda

Belə olsun ay allah!

Dəmir yolu...

Ömür yolu

Qoşa qanad, qoşa qol.

Sabahların ziyasına

Qoy bürünsün qoşa yol.

28 aprel 2000.

PƏRDƏ

Pərdə lazımdırsa,

Alın pərdəni.

Günəş

Aynabəndə od

Yağdıranda

Salın pərdəni!

Yoxsa ki,

Elə-belə

Pərdə nəyə gərək?

Qoy göz işlədikcə

Hər tərəfi,

Hər yanı,

Bu işıqlı dünyanı

Yaxşı-yaxşı görək.

Evini-eşiyini,

Çox dəlmə-deşiyini

Kənar gözdən, nəzərdən,

Küçələrdən keçənlərdən

Gizlətmək istəyirsənsə

Hökmən pərdə gərəkdir!

Pərdə tut,

Pərdə çəkdir!

Gözümü qamaşdıran işıq

Ziyandır.

Bir də o şey ki

Pünhandır.

Pərdəsini götürmə,

Amandır!

Səhnə pərdəsi də var,

Açılmağını intizarla,

Qapanmağını

Alqışlarla

Qarşılayır

Tamaşaçılar.

Bu məxmər pərdələrlə,

Bu kətan pərdələrlə,

Bu saya pərdələrlə,

Bu əlvan pərdələrlə

Birgə...

Bir pərdə də

Tanıyır hamı.

Tale özü saxlasın

Bu pərdəni tanımayan

Adamı.

Tanımamaq

Dərd yarıdır yenə;

Bu pərdəni

Gözgörəsi

Dartıb,

Yırtıb,

Yığıb,

Büküb-bürmələyib

Bir qırağa

Tullayanda

Deyim sənə.

Üz pərdəsi,

Sifət pərdəsi,

İsmət pərdəsi,

Abır-həya,

Nur-ziya pərdəsi,

Rəftar pərdəsi,

Namus-ar pərdəsi.

Qulağın da pərdəsi var,

Yoxsa karsan.

Gözün də pərdəsi var,

Yoxsa korsan.

Bəs gözdən asılan

Pərdə necə?

Bacarırsansa

Gözdən asılan pərdəni

Alma vecə.

Ləyaqət pərdəsi var,

Yoxsa...

Sarı köpüksən.

Beynimizin hər kürəsi,

Hər kürənin hər zərrəsi

Pərdədədir.

Bütün vücudumuz,

İllah da ki...

Ürəyimiz

Arakəsmə-arakəsmə

Pərdədədir.

Pərdə,

Pərdə,

Pərdə.

Yoxsa...

Aləm bir-birinə

Qarışıb gedər də...

Ana-bala pərdəsi,

Ata-bala pərdəsi.

Bacı-qardaş pərdəsi,

Yaş fərqi,

Yaş pərdəsi.

Tarın pərdələri var-

Zövq-səfa pərdəsi.

Narın pərdələri var-

Ne’mət-qida pərdəsi.

Pərdələrdən ehtiyat!

Çılpaqlaşmasın həyat!

Bu pərdələr

Nazilsə,

Süzülsə,

Üzülsə

Xudahafiz...

Pərdəsiz

Nə insanıq biz?!

Götürülməsin

Xətir-hörmət -

Pərdə.

Mərdi qova-qova

Döndərməyək namərdə.

Üzümüzdə qalmasın.

Dırnaq yeri,

Cırmaq yarası...

Pərdəli olsun

Arasından su

Keçməyənlərin də

Arası.

BİRİNİ ELƏ,

BİRİNİ BELƏ...

Birinin başını deşirik,

Deş ki, deşəsən, deşəsən...

Birinin gorun eşirik,

Eş ki, eşəsən, eşəsən...

Birinə yaxırıq qara,

Yax ki, yaxasan, yaxasan...

Birini sıxırıq divara

Sıx ki, sıxarsan, sıxarsan...

Biri gözümçıxdıdadır,

gözünü ov ki, ovasan...

Birinin bağrın çatdadır,

Atdöşü qov ki, qovasan...

Birinin yaxşı sözünü

Yamana yoz ki, yozasan...

Birinin tamam özünü

Hər yerdən poz ki, pozasan...

Birini də dağ başına

Ha qaldır ki, qaldırasan,

Gövhər deyib çay daşına,

Satdırasan, aldırasan.

Birini də döndəririk

Övliyaya, övliyaya.

Tanımırıq nə mən, nə sən

Onu guya, onu guya?!

Niyə gözə dürtə-dürtə,

Gözdən salırıq birini?!

Tə’riflərlə sürtə-sürtə

Üzdən salırıq birini?!

Birini döndərib şara

Üfürə-üfürə partdadırıq.

Birini salıb azara

Çərrədirik, çatdadırıq.

O da zülm, bu da zülm,

O da ölüm, bu da ölüm.

Tərəzidir ağıl, kamal,

Çəki daşı - insafla, haqq.

Tez-tez özündən xəbər al,

ki... nədir haqq, nədir nahaq?

noyabr, 1996

MƏNİM ÜRƏYİMDƏ SİRLƏR YATIR

Mənim ürəyimdə

Sirrlər yatır...

Sahilə danışsam

Dərya biləcək.

Qabilə danışsam

Dünya biləcək...

Mənim ürəyimdə

Sirrlər yatır...

Şehə pıçıldasam

Çiçək biləcək.

Mehə pıçıldasam

Külək biləcək.

Yaxşı saydığımın

Sirrini açsam

Yaxşı öləcək...

Yaxşı yaman imiş

Hamı biləcək.

Mənim ürəyimdə

Sirrlər yatır.

Necə açım deyim?

Aça bilmirəm.

Açsam-yerim yoxdu

Qaça bilmirəm.

Üzü gülənlərin

İçi qan ağlar.

İçimdə lal olmuş

Bir vicdan ağlar...

Çöldə səxavəti

Göz qamaşdıran,

Çöldə nəcabəti

İz dolaşdıran,

Çöldə hərarəti

Qazan daşdıran,

Evdə rəzaləti,

Xırdaçılığı

Fikir dumanladan,

Ağıl çaşdıran

Xəsisin sirrini,

Nacinsin sirrini

Necə açım mən?

Mənim ürəyimdə

Sirrlər yatır...

Günə pıçıldasam

Gün saralacaq.

Aya pıçıldasam

Ay qaralacaq.

Namussuz namuslu

bilir özünü,

Onun nə cür’ətlə,

Nə ixtiyarla

Nə dəlil - sübutla

Açım gözünü?

Mənim ürəyimdə

sirrlər yatır...

Ərə pıçıldasam

Arvad yanacaq...

Arvada söyləsəm,

Ər odlanacaq.

Müqəddəs sirr də

Düyündür axı...

Müqəddəs bir sirri

Necə açım bəs?

Açsam allah haqqı

İnanmaz heç kəs.

Mənim ürəyimdə

Sirrlər yatır...

Gizli satqınlığa

Bəs necə dözüm?

Bu sirlə nə sayaq

Dolanım - gəzinim.

Mənim ürəyimdə

Sirrlər yatır...

Açsam neçə evdə

Zəlzələ qopar.

Onsuz da ömrün də

Axıra çatır,

Şair, sirrləri

Özünlə apar!..

Mənim ürəyimdə

Sirrlər yatır...

Sısqaca bir çaya

Danışsam əgər-

Çay selə dönər,

Vallah, tab gətirməz

Nəhəng körpülər.

Sirli yaxşılığı,

Sirli pisliyi,

Lap xeyirxahlığı,

Lap xəbisliyi

Neyniyim, heç kimə

Danışmaq olmaz.

Mənim ürəyimdə

Sirrlər yatır...

Qovrul cızhacızla,

Yan, korun-korun.

Aşkar tüstülənib

Alışmaq olmaz.

Mənim ürəyimdə

Sirrlər yatır...

Açarı qırxıncı

Otaqda qalır.

Yox, ordan götürüb

Göyə atmışam.

Kəhkəşan yolunda

Uzaqda qalır.

24 aprel, 1996

MƏN BİR HEYKƏL İSTƏYİRƏM

Mmən bir heykəl istəyirəm xalis qızıldan,

Himalayın zirvəsində göyə ucalsın.

Onu elə yaratsın ki, həməsrim insan

Bu günlərdən min illərə nişanə qalsın.

Brilyantla həkk edilsin bünövrəsinə

Adam boyda hərflərlə "xilaskar" sözü.

Brilyantla həkk edilsin bünövrəsinə

İnsanlardan-insanlara "yadigar" sözü.

Barelyefdə bir sürünən xərçəng görünsün,

Bir də onu tapdalayan qüvvətli ayaq.

Tarixiylə həkk edilsin o müqəddəs gün,

Milyon-milyon ürəkdəki böyük təmtəraq.

Göz görəsi ölümlərə kim çəksə qələm,

Əbədiyyət bəxş eləsin bu əməl ona.

Parıldasın günəş kimi, dursun möhtəşəm

Layiq olsun, halal olsun bu heykəl ona.

NAŞİRLƏR

A naşirlər, insafa, mürvətə
gəliniz bir!
Görün xalqın şairi bu gün
sizə nə deyir:
Cızmaqaraçıların çevrilməyin
quluna!
Şirnikməyin onların halal-haram
puluna.

Boğazından kəsənin qeydinə qalın

barı,

Cəfəngiyat eşqinə ac qalır

uşaqları.

Indiyəcən hardaymış bəs bu yazı

yazanlar?

Həm gülməli, həm də ki ağlamalı

bir azar.

Millət başdan-ayağa kitab yazan

olubdur;

Kitab selləməsiylə, əşşi, aləm

dolubdur.

Cammat düçar olub əcaib bir mərəzə,-

Kitab yazmaq çevrilib qoz-fındığa,

çərəzə.

Hamının yeri-yurdu “övliya”, “ocaq”

imiş,

Hamı “vunderkind” imiş, “vergili”

uşaq imiş,

Cızmaqara kitablar şəkillərlə

doludur,

Müəllifin “əcdadı”, “şəcərəsi”, “uludur”

Kitablar nəfis-nəfis, kitablar

qalın-qalın;

Oxuyun “dərs” götürün, oxuyun

“ləzzət” alın.

Şit-şit avtoqraflar, hay-küylü

təqdimatlar,

Yığılsın qoy bu matah, bağlansın

qoy bu bazar.

Sovetlər ittifaqı yaxşı ki, oldu

bərbad,

Üzə çıxa bilərdi heç bu qədər

“iste’dad”...

Naşirlər! bu milləti, xalqı axmaq

sanmayın.

Qrafoman puluna, siz allah,

aldanmayın!

Əsl yazıçı gəzir qoltuğunda əsəri,

Elə hey sığallayır saralmış

vərəqləri.

Ucdantutma ağlına gələni yazır

hamı,

İçinnən tüstülənir əsl qələm

adamı.

Azadlığın bəhrəsi-barı budur,

yeyiniz...

Əşşi, bu günümüzə hələ şükür deyiniz,

Kitablar yaraşıqlı, kitablar

zərli-zərli,

Söz deməzdim bircəsi əyər olsaydı

fərqli.

Heç nəyimiz yoxsa da, söz ustadlarımız

var;

Vallah, narahat edir bizi narahat

ruhlar.

Amanın bir günüdür, saf-çürüyə

başlayın!

Malı mala qatmağı birdəfəlik

boşlayın!

İnci ilə muncuğu seçməyəndədir günah,

Nəfsini tapdalayıb keçməyəndədir günah.

Kitabın pisi mə’lum, rədd elə

babatını!

Qov getsin, üfür getsin sözün

həşəratını!

Ay naşirlər! insafa-mürvətə

gəliniz bir!

Görün xalqın şairi bu gün sizə

nə deyir.

KƏFƏN

Qalaq-qalaq,

Bəyaz-bəyaz

Kağızlarım;

Varaq-varaq,

Bəyaz-bəyaz

Kağızlarım

Sözə həsrət

Qalıb çoxdan

Qolum sınıb...

Qələm sınıb...

Sözüm ölüb.

Mənim ölü sözlərimə

Bəyaz-bəyaz kağızlarım

Bəyaz kəfən olub çoxdan.

16 fevral 2000

TELEFONUM

Mənim bülbül telefonum -

Cəh-cəhin qiyamətdir,

Mənim könlümü açan

Fərəhin qiyamətdir.

Neçə dost səsi dolur

Otağıma telinlə.

Əzizlərim nə yaxşı

Yadına salır məni?!

Zəng çalır, sükunətin

Əlinnən alır məni.

Telefonda qəlbimə

Kövrək bir həsrət gəlir;

Qayğı-məhəbbət gəlir.

Qayğı deyil də nədir

Xəstənin də dərmanı?!

Sükuta bürünməyir,

Lal-dinməz görünməyir

Telefonumun bir anı.

Mənim canlı telefonum,

Elə sahibi kimi

Həyəcanlı telefonum.

Elə öyrəşmişəm ki,

Tanıyıram zənginnən,

Səsinin ahənginnən,

Bu, nəbi Xəzri olar,

Bu, balasadıqdı var.

Bu Yusif həsənbəydir,

Məsləhətləri aləm.

Bu da fikrət sadıqdır, -

Yox, yanıla bilmərəm.

Hüseyn Abbaszadəyə

O qədər yaxınıq biz

Deyir: - əşşi, nə zəng ey,

Eşidilirik zəngsiz,

Ayaz vəfalı təzə

Şe’rim üçün zəng çalır;

Qolu sınıq şairin

Tez-tez qeydinə qalır.

Telefonum qədimdir,

Yoxdur nömrə yazanı.

- Qabil, - salam! bəs necə?

Anarı göydə tanı.

Hələ qohum-qardaşı

Mən qoyuram bir yana.

Eşq olsun öz səsiylə

Məni yada salana!

Əli səmədli zəng çalır,

Səsi uzaqdan gəlir.

Sanki mərdəkannan yox,

Uzaq qazaxdan gəlir.

Mənim canlı telefonum,

Elə sahibi kimi

Həyəcanlı telefonum

Mənim səs qonaqlarım!

Zəng çalın, zənginizin

Cəh-cəhi kəsilməsin,

Nə tel qırılsın, nə də

Ünsiyyət əskilməsin.

Zəng çalın - zənginizlə

Gülür üz, əriyir don;

Yoxsa nəyimə lazım

Küncdə ölü telefon...

20 fevral 2000

Ağsan - ağ kimi görün,

Qarasan - qara kimi,

Sağsan - sağ kimi görün,

Yarasan - yara kimi.

Ya “yox” söylə, ya da “hə”,

Nəm-nümlə mızıldama.

Gülüb, ya hönkürsənə!

Elə hey sızıldama!

Acizsən, rəhm eyləyək,

Gəlib yanaq halına.

Zalimsən, qəhr eyləyək,

Boyanasan alına.

Pələngsənsə nə’rə çək,

Titrəyək yarpaq kimi.

Pişiksənsə, əylənək

Sənlə uşaq kimi.

alovsan, yandır görüm,

hisə vermə əlimi.

Şaxtasan dondur görüm,

qırovlama telimi.

Nə iynən var, nə ətrin,

Nə gülsən, nə tikansan.

Nə halən var, nə bədrin,

Bomboz alatoransan.

Xəmir oldun, daş olma!

Yoğrulub yapılmazsan.

Daş oldun - yoldaş olma!

Cərgədə tapılmazsan.

Qara da var, ağ da var,

Yerində xoşdur hərə.

Ancaq ki, ay adamlar,

Dözmürəm dürənglərə.

1982

ZARAFAT EYLƏMƏ

Toxucu olmaq istəsən -

Millə zarafat eyləmə,

Millə zarafat eyləmə!

Yazıçı olmaq istəsən,

Dillə zarafat eyləmə,

Dillə zarafat eyləmə!

Əkizlərin oxşarı var -

Oxşarı oxşardan ayır!

Atın cilovu-yüyəni,

Dəvəninsə ovsarı var,

Cilovu ovsardan ayır!

Yumağın şara oxşarı var,

Gəl, yumağı şardan ayır!

Pambıq da ağdı, qar da ağ

Gəl, pambığı qardan ayır!

Sən hər cunaya tül deyib -

Tüllə zarafat eyləmə,

Tüllə zarafat eyləmə!

Zahiri durğunluğu yox,

Batini durğunluğu gör!

Zahiri vurğunluğu yox,

Batini vurğunluğu gör!

Zahiri yorğunluğu yox,

Batini yorğunluğu gör!

Yoğunu da, naziyi də -

Tapançasız nə beldi bel?

Baş aparıb tapançalı

Bellə zarafat eyləmə,

Bellə zarafat eyləmə!

Sözün sözə bənzəri var -

Bənzərə zahir deginən.

Rədd elə ləntəranini,

Mətləbə dair deginən

Rabitəsiz qafiyə fıs...

Zəncirə mahir deginən,

Hər sözün öz gövhəri var.

Sərrafa şair deginən.

Yeldi hədər fülənsə söz...

Yellə zarafat eyləmə,

Yellə zarafat eyləmə!

Bağça-bağın bağbanı var,

Danışmağın loğmanı var.

Sözün-sovun da köntöyü,

Əttökəni, şırdanı var.

Dil dediyin sirri-xuda -

Min sözaltı pünhanı var.

Nitqi də yoldan azdıran

İblisi var, şeytanı var...

Ürək qırıldı, vəssalam!

Nə var ki,.. bircə anı var...

Şeytanı qoyma tel qıra -

Tellə zarafat eyləmə,

Tellə zarafat eyləmə!

Qaynamasa yazar yazan?!

Od üstə qaynayar qazan.

Söz də dodaqda qaynayar,

Gözdə, yanaqda qaynayar.

Əlim qələm tutursa da

Bəyaz varaqda qaynayar,

Haqqına din, gərəkdisə...

Dinmə dilin gödəkdisə...

Yoxsa ki, söndürüb odu

Küllə zarafat eyləmə,

Küllə zarafat eyləmə!

Yoxdu dağın-daşın dili,

Qoçun dili, quşun dili.

Pələnglə aslanın dili,

Bəbirlə qaplanın dili,

Qarışqanın, filin dili.

Şəlalənin, gölün dili

Verilməyib axı hədər

Bu dil sənə cümlə bəşər!

Hər şeyə qadirim mənim!

Ən ali nadirim mənim!

Bülbülü heyran eylə də,

Xalqı canhacan eylə də,

Qan salana qan eylə də.

Körpələrə layla da çal,

Başında kərgədanların

Bir dəli tufan eylə də.

Sıyır sözün qılıncını

Əllə zarafat eyləmə,

Əllə zarafat eyləmə!

Tərəzini taraz eylə,

Haqqa nəzir-niyaz eylə.

Nəfsini də lap az eylə,

Yaşa arzu-muraz ilə.

Səsin yoxsa zora salıb

Azan vermə avaz ilə.

Çıxma dərin dəryalara,

dəlmə-deşik kolaz ilə.

Gücünə bax, yekə daşa

Güc eyləmə, dəmsaz ilə.

Coşa-coşa, daşa-daşa

Qoşuluban alabaşa

Fillə zarafat eyləmə,

Fillə zarafat eyləmə!

Araz kürə qovuşsa da,

Qovuşsa da, qarışsa da,

Damarımda çağlasa da,

Vüqarımda çağlasa da,

Nazik sudur nil yanında

Zümzümədir zil yanında

Nilə baş vurub üzməmiş

Vəsiyyətin bəyan gərək.

Bu, sən görən deyil, baba,

Bu, sən girən deyil, baba,

Timsah üzür şırım açır,

Su qaynayır köpük-köpük,

Hənirtisi ölüm saçır

Timsah üzür kötük-kötük

Nillə zarafat eyləmə!

Nillə zarafat eyləmə!

Allah bilən məsləhətdir:

Ceyranı da o xəlq edir,

Xortdanı da o xəlq edir,

Gözəlliyi o bəxş edir,

Hüsn surət o nəqş edir.

Şikəsti var, zəlili var,

Kor peşiman əlili var.

Çattaq qabı daşa çaxma,

Əlilliyi başa qaxma,

Şillə zarafat eyləmə,

Şillə zarafat eyləmə!

Xanəndə olmaq istəsən

Əlinə alginən dəfi.

Aldatmasın fəqət səni -

Dəfin bəzəkli sədəfi...

İş qalıb barmaqlarına

Çırtmanı vurmaqlarına...

Ancaq səsin yoxsa əgər

Dəf başına nə kül tökər!

Xanəndəlik etmək olmaz

Xırxır boğaz, cır səs ilə.

Meydana çıx çiniləri

Cingildədən zor səs ilə.

Təkcə pəslə baş girriyib

Zillə zarafat eyləmə,

Zillə zarafat eyləmə!

Ədvəcatın sirri dərin

Dərmanıdır çox dərdlərin

Özü təbib, hökmü mütləq

Ürəkdə tab, gözdə şəfəq

Ərdəbilin sarıkökü.

İstiotu alov təki

Kifayətdi... bir çimdik al

Hildən bir tum ağzına sal.

Hillə zarafat eyləmə,

Hillə zarafat eyləmə!

Tezi-geci ölüm gələr

Lap yüzə də çatasan əgər.

Qönçə-qönçə solmaq olmaz...

Cavan-cavan ölmək olmaz!

Fələk eşitmir “olmaz”ı

Alnımızda labüd yazı...

Köçməmişdən axirətə

Bir fayda ver, bu millətə.

Çay aparıb gedir bizi

Bu çay, o çay deyil, baba

Çayla zarafat eyləmə!

Günlə zarafat eyləmə!

Ayla zarafat eyləmə!

İllə zarafat eyləmə!

İllə zarafat eyləmə!

1 avqust 1993

XƏSTƏLİK

Xəstəlik adamı uşaq eyləyir,

Xəstəlik adamı şıltaq eyləyir.

Sözdən söz çıxarıb şübhəyə düşən,

Yelçəkən eləyir, ufaq eləyir.

Aləm qulluğunda dayansın gərək,

Gecəli-gündüzlü nazını çəksin;

Çovğunlu qış günü şehli çiyələk...

Könlün nə istəsə gətirib töksün.

Xəstəlik ürəyi kövrək eləyər,

Titrək yarpaq kimi titrək eləyər;

Yadına düşməyən gərəksizi də

Axtarıb özünə gərək eləyər.

Xəstəlik telefon həsrətindədir,

Neçin çalınmayır qapının zəngi?..

Xəstəlik dost-tanış xiffətindədir,

Dost-tanış görəndə durulur rəngi.

Xəstəlik adamı əldən salsa da,

Qayğılar xəstəyə qınaq olmayır.

Sağlamlıq ən gözəl ne’mət olsa da,

Bərk-boşa çevrilib sınaq olmayır.

Həkim ətəyində xəstənin əli;

Dava da, dərman da demə nahaqdır.

Ancaq həkim dili xoş söz deyəli

Xəstənin gülləri açılacaqdır.

Xəstəlik sınağa çəkir adamı,

Ruhdan düşən də var, düşməyən də var;

Əridib qəlibə tökür adamı,-

Qəlibdə bişən də, bişməyən də var.

Nə qədər yamanlıq, fənalıq ki, var

Yaddaş lövhəsindən silir xəstəlik;

Ağlayır ağlamaq bilməz adamlar,-

Başını bulayır güllü xəstəlik.

Xəstəlik bəladır - canından uzaq,

Ağırı-yüngülü andıra qalsın;

Həm sağlam, həm də ki, təmiz yaşamaq

Qoy elə hamının qisməti olsun.

Qara tikan batsın yaman gözlərə,

Yaxşı adamlara göz dəyməsin qoy.

Ömür möhlətiylə yol gedir hərə,-

Ayağımız daşa tez dəyməsin qoy.

Allah yüngül etsin yorğanımızı,

Üzərrik gözündən keçirsin bizi:

Elə naziltsin ki, vicdanımızı-

İynənin gözündən keçirsin bizi...

25 fevral 2000

VAHİMƏ

Niyə qorxur adamlar

Qəbristandan gecələr?

Sükutu buza dönmüş

Lal məkandan gecələr?!

Lap xəyalən qorxulu

Gecə orda görünmək;

Vahimədən titrəyib

Ruhu xofa bürünmək.

Gül-çiçəkli qəbirlər,

Bər-bəzəkli qəbirlər;

Ehtişamlı qəbirlər,

Ehtiramlı qəbirlər

Zülmətdə qara devdir,

Ay işığında ağ dev.

Hesabsız başdaşları,

Hədər suallarıma

Cavabsız başdaşları

Əyilib düzəlirlər;

Elə bil addım-addım

Üstümüzə gəlirlər...

Burda bir xışıltıdan

Ağlın çıxır başından;

Lap əzizinin belə

Qorxursan baş daşından.

Xəyalında yarılır

Qırmızı, qara mərmər;

Yerlə yeksan qəbirlər,

Unudulan qəbirlər.

Kəfənlər qanad çalır

Bəyaz qağayılar tək;

Dünya dolub-boşalır,

Dolanır çərxi-fələk.

Ayağının altından

Bir daş qaçdı - vahimə.

Qaranlıqda

İşıldaböcək

Uçdu - vahimə.

Yel titrətdi bir kolu,-

Bir ağacı - vahimə.

Əlinə dəfn etdiyin

Qardaş-bacı-vahimə...

Laylayla dəfn etdiyin

Körpə uşaq - vahimə.

Şanlı şəhid - vahimə;

Cəsur, qorxaq - vahimə.

Ölülər gözümüzə

Görsənir diri-diri;

Yox, yox, daş səltənəti

Zənn etmirik bu yeri.

Niyə qorxur adamlar

Axır mənzillərindən?

Burda qorxulu nə var

Düşünsələr dərindən.

Düşündün-düşünmədin

Dəxli yox zərrə qədər;

Qəbristan vahiməli,

Qorxuludur gecələr...

27 fevral 2000

BİZİM OTAQ

Yazıçılar birliyinin məşhur məsləhətçilər otağı

Bura bizim doğma əziz otağımızdır,

Ustadların yadigarı ocağımızdır.

Burda Osman Sarıvəlli məsləhət verib,

Bu otaqda Rahim bizə zəmanət verib.

Mehdi Hüseyn, Səməd Vurğun, Süleyman Rüstəm...

Köks ötürüb... yad edirəm gözlərimdə qəm...

Bu gün bizik bu otağın sakinləri - biz.

Bu gün biz də qocalmışıq, cavan deyiliz.

Bu otağın bir azadlıq ən'ənəsi var...

Mübahisə, hay-küy, şadlıq ən'ənəsi var...

Bura elə çoxdan-çoxdan qaynar qazandır,

Çax-çuxuna öyrəşdiyim bir dəyirmandır.

Bura mühit otağıdır - ədəbi mühit.

Mənə elə gəlir ki, lap əbədi mühit.

Bura bizim hərarətli, isti yuvamız,

Bura abi havamızdır, ovqatımızdı.

Bir-birimizə təzə şe'r sovqatımızdır.

Sözü olan, olmayan da bura baş çəkir,

Üzü olan, olmayan da bura baş çəkir.

Bu otağa azmı girib cızmaqaraçı?

Özünü şair hesab edən sırtıq qaraçı.

Bir köntöydən acı tə’nə yemişik də biz.

Bir qanmaza: - “bas bayıra!” demişik də biz.

Azəroğlu suallara qərq olur burda.

Böyük-kiçik məqamında fərq olur burda.

Bu otaqda sevinc ilə kədər yanaşı.

Bə’zən elə qarışır ki, Efesin başı.

Balasadıq nə soruşur; - bilmirəm! - deyir.

Abbas deyir: “bir bura gəl”, “gəlmirəm!” deyir.

Qasanbekin ədasına burda döz görüm.

1 Fikrət Sadıq.

2 Abbas Abdulla.

3 Yusif Həsənbəy.

Ört qapını, aç şüşəni, yüz-yüz süz görüm!

Umu-küsü bu otaqda qaş-göz arası.

Daha bunun umu-küsü oldu harası?

Allah bizim tərəfdədir, bilir işini,

Çəkir bizə ilişənin çəkir vişini,

Çəkir bizə qıcırdanın çəkir dişini.

Bu otaqda dil söhbəti, əsər söhbəti,

Heç kim burda sala bilməz hədər söhbəti,

İşarədən söz qanırıq - deyilik naşı...

Yox, korşalmaz aqillərin fəhmi-yaddaşı.

Bu otaqda kim daş atsa bostanımıza,

Hünəri var gəlib girsin meydanımıza...

İşiq sönsə, otağımız nurludur yenə,

Otağımız boyanıbdır şe'rin eşqinə.

Şe'rin şamı burda daim yanıb, yanacaq.

Bəli, belə bir otaqdır bizim bu otaq,

Belə idi, həmişə də belə qalacaq!

27.10.1998

FƏRMAN ƏLİNDƏDİR

Sahildə aparmış məni əl boyda bir qayıq,

Sahildə uzaqda qayıq ümman əlindədir.

Əslən, o qayıq taleyimin rəmzidir bu gün,

Rəmzim, həqiqətim dəli tufan əlindədir.

Şayəd bəla yazıbsa mənim alnıma allah,

Zənn etmə əlacım dava-dərman əlindədir.

Ölsəm də və qalsam da vüqardır ki vüqarım,

Şəxsin vüqarı gül kimi vicdan əlindədir.

Şair qocalıb, hay-hayı heç... vay-vayı qalmış

Ancaq yenə doymaz gözü reyhan əlindədir

Yoxdur bu sözümdə şəbədə, məsxərə zad yox,

Xasiyyətin iç aləmi pünhan əlindədir.

Yatsın köpü meydan sulayan hikkəlinin qoy,

İstiqbalımız sanma ki, meydan əlindədir.

Hop-gopla, vur-həşirlə düzəlməz də bu işlər,

Qəti hücumla - bir qana, min qan əlindədir.

Xanəndə gərək dərk eləsin ki, səsi var, yox,

Bəs tar-kamanla, zurna-balaban əlindədir?

Düşdünsə də öldür özünü yolda dumana,

Həşdad fanar as, cümləsi əlvan əlindədir.

Hər aşığın və aşiqin öz dövranı beş gün,

Dövran da oyuncaq kimi fərman əlindədir.

Sabirlərin, füzulilərin yoxdu zamanı,

Möhlətləri göylərdəki sübhan əlindədir.

Qabil, bu yazın da nə qəzəldir, nə qəsidə

Söz qiyməti, söz sərrafı oğlan əlindədir.

08.09.1998

- Şeş-qoşa!

- Pənc-cahar!

Nərd atır qocalar

Bir şəhər bağında

Bir payız çağında.

- Bu du-bir!

- Bu sələr!

Çiskinli bir səhər...

Nərdtaxta yaş olur

Daşları daş olur.

Vururlar səs salmır,

Güman ki həzz almır

Oyundan qocalar...

- Pənc-qoşa.

- Sə-cahar!

- Darıxdım, ağabəy!

- Deyirsən dincələk?

Sükuta daldılar...

Beləcə qaldılar

Bir qədər.

Nurani üzlərdə,

Çeşməkli gözlərdə

Bir həsrət, bir kədər...

Yarpaqlar tökülür

Sapsarı.

Yarpaqlar tökülür

Cəzb edir onları.

- Xəzandır, mirələm!

- Görürəm!

Yenə yaz gələcək.

Çöl-bayır güləcək

- Biz necə?

- Biz çətin,

- Yetişib növbətim,

- Növbətin.

- Yüz şeş at, yüz beş at,

- Burda gəl baş aldat-

Hədərdir, mirələm!

- Bilirəm.

Bir uşaq bu ara

Yanaşdı onlara:

Saatı soruşdu.

Baxdılar, gördülər

Saat da yatıbdır.

Susdular - sükutun

Məqamı çatıbdır...

Yarpaqlar tökülür

Sapsarı,

Yarpaqlar örtürlər

Zərləri, daşları...

PAROVOZ

Gözləri zülmətin bağrını yarır,

Burnundan-başından çıxır tüstüsü.

Qara kəl qatarı dartıb aparır,

Çınqıllı daşları qarsır istisi.

Par-par, qıpqırmızı çarxları iri,

Dirsəkli qolları- fəhlə qolları...

Döyür calaqlarda polad relsləri,

Yığıb-yığışdırır şərid yolları.

Göz qabağındadır hər dəm-dəskahı.

Ocağı aşikar, odu aşikar.

Hiddəti, hikkəsi, naləsi, ahı

Enişin-yoxuşun yadında qalar.

Parovoz həmişə qan-tər içində

Ürəyi alovlu, qazanı qaynar...

Tunellər, meşələr, çöllər içində

Fınxırar, kişnəyər, at kimi oynar.

Nəhəng adamlara bənzər parovoz,

Nəhəngin açıqdı sözü, söhbəti.

Aləmi gur-gurla gəzər parovoz,

Tənha keçiddən də keçməz xəlvəti.

Həzin, həyəcanlı, qırıq-qırıq fit

Bitib-tükənməyən hekayətidir.

Qatardan açılıb qalanda sakit

Sükut ən yanıqlı şikayətidir.

Qatarsız parovoz - kibrit qutusu,

Alıb hara gəldi atar küləklər.

Qatar qabağında sərkərdədir o,

Qoşunlu-ləşkərli, məğrur, müzəffər.

Açıqdır hər yanı, yoxdu pünhanı,

Örtülü bazara sığmır parovoz.

Qaranı-quranı, xıltı-filanı

Püskürür... içinə yığmır parovoz.

1981

TRAMVAY PARKA GEDİR

Gecə saat bir

Tramvay parka gedir.

Cingildəyir şüşələr.

Boş vaqonda bilinir bu cingilti bu qədər.

Gecə saat bir.

Tramvay parka gedir

Ləngərlə.

Bu ləngər bilinməzdi-

Vaqon dolu olsaydı sərnişinlərlə.

Uzundur parkın yolu,

Küçələr sükut dolu.

Relslərin calağında cıqqıldayır təkərlər.

Elə bil bir nəhəngin dişlərini tökürlər.

Gecə saat bir,

Tramvay parka gedir.

Məftillərdən od qopur şimşək çaxan sayağı.

Məftillər fışıldayır qızıl ilan sayağı.

Uzunsov lampoçkalar yanır-sönür arabir,

Konduktor mürgü döyür...

Tramvay parka gedir.

Konduktorun çənəsi

Boynundakı çantanın qayışına toxunur.

Yumulu gözlərindən hər şey açıq oxunur.

Sürücü siqaretin kötüyünü sümürür,

Yandakı pəncərədən-

Qaranlığın üzünə bir parça köz üfürür.

Yolda bir sərxoş durur dünyanın ağasıtək...

- Xox... qorxub qaçacağam, kişidir bassın görək.

Təkərlər xırhaxırla relsdə sürüşüb yanır.

Konduktor məhəccərə çırpılaraq oynayır.

Qaçır sürücüyə sarı:

- Adam basdın?

- Yox, ay qız!

Heç iti-pişiyi də candan etmək yaramaz.

Qorxdun?

- Qolum əzildi yaman.

- Can-can...

Gecə saat bir,

Tramvay parka gedir.

Sürücünün saçından sürüşür qızın əli:

- Baləli!

- Can!

- Yorulmusan?

- Az-maz.

- Eybi yoxdur, münəvvər.

Parka az qalıbdır, az.

Parkacan özümüzü çatdırarıq birtəhər.

- Gecə saat bir,

Tramvay parka gedir.

Gözətçilər bayırda hərdən fışqırıq çalır,

Gözətçilər neyləsin sübhəcən oyaq qalır,

Yuxu qovulsun gərək.

Mürgü sovulsun gərək.

- Baləli!

- Can!

- Gəl sabah ərizə yazaq, gəl çıxaq tramvaydan.

- Bu fikir hardan düşdü ağlına, ay münəvvər?

Necə yə'ni gəl çıxaq, gəl ərizə yazaq səhər?

- Baləli, ayaqlarım tapdağa dözmür, inan.

Səhər-axşam ürəyim hövl edir basabasdan...

Sənə nə var, baləli, bircə yola baxırsan.

Hay-küydən nə xəbərin, relslər üstə axırsan.

- Deyirsən də, münəvvər.

Yoldan fikrim yayınsa yüzünün qanı gedər.

Bu yandakı güzgüdən

Dalı da görürəm mən.

Dala da baxıram mən.

Gedə-gedə minirlər,

Gedə-gedə düşürlər,

Minəndə sürüşürlər,

Düşəndə sürüşürlər,

Hamıya cavabdehəm,

Nə qəm...

Ay dəli!

Ay tramvay gözəli!

Ay mənim konduktorum!

Köhnə bayatılarla neçin özümü yorum?-

Gecə saat bir,

Tramvay parka gedir.

- Deyirsən tramvayın səhər ataq daşını?

Qız oğlanın çiyninə toxundurur başını.

- Bəli.

Balәli!

Hansı işə deyirsən, hara deyirsən gedək.

Lap qızıl mə'dəninə...

Lap kömür mə'dəninə.

Gedək, amma, tən gedək,

Vaqonda işıqlar sönür bu zaman...

- Ay-hay,

- Eh, bu cərəyan da vaxt tapdı yaman.

Susur tramvay.

Bir az gedir-gedir durur tramvay,

“Parka yaxşı gəldik”, “Yaxşıca çatdıq”.

“Yaxşıca dincəldik”, “Yaxşıca yatdıq”.

- Düş, cərəyan gəlincə, gəzək bayırda bir az,

Hava almaq pis olmaz.

Gör bizim tramvaya nə yazılıb, münəvvər,

“Komsomola hədiyyə!” əntiqədir bu sözlər.

Hər vaqonun böyrünə yazılmayır belə şey.

“Komsomola hədiyyə!” böyük şan-şöhrətdir ey!

- Əlbəttə, çox böyükdür, buna nə söz, nə söbhət,

Bu vaqonla işləmək səadətdir, səadət.

Adamla dolu olur tramvay səhər-səhər

İşə gedir camaat, işə gedir fəhlələr.

Bir parası qızarır,

Gözümdən yayınmağa bir künc-bucaq axtarır.

- Bilet alın, - deyirəm, deyirəm, dayanıram.

Bir parası ağarır.

Mən isə ağartmıram - susuram, inanıram...

- Sərnişinlər də var ki... ay münəvvər, axı sən.

Onların barəsində bəs niyə söz demirsən?

Bir biletçin bir onluq ötürür əldən-ələ

Gözünü qırpmır belə...

Bəs niyə söyləmirsən: elə sərnişin də var

Biletsiz düşmür yerə... keçir dayanacaqlar...

Yoxsa sənin sözündən belə çıxır ki, daha

Bir belə camaatın işi qalıb allaha.

Bəlkə biri xəstədir, natəmizdir, cövhəri,

Ömrünün illərindən çox sevir qəpikləri.

Harda olsa qənimət axtaranlar da çoxdur.

Hər bilet almayanın zənn etmə ki, cibində

Üç qəpik pulu yoxdur.

Ölümə göz dikən var - ölüm olsa havayı,

Onların nə vecinə hökumət tramvayı.

Bilirəm inciyirsən səhərdən axşamadək

Əlli min cür adamla çənə-boğaz döyərək.

İxtisara düşəcək onsuz da vəzifəniz

Bütün konduktorları yığıb söyləyəcəklər:

“Başqa işə keçin siz!”

Gün gələcək bizi də yığacaqlar bir yerə,

Deyəcəklər: yaraşmır tramvay bu şəhərə.

- Sürücülər, sizinlə qurtardıq, - deyəcəklər.

- Relslərin hamısını çıxardıq, - deyəcəklər

Onda biz də taparıq ayrı peşə, ayrı iş,

Yol geniş, həyat geniş.

Sənin yaşın iyirmi, mənimki iyirmi bir,

Yelkən təzə açılır, gəmi təzə yellənir.

Parkda bizi tanıyır, parkda bizi sevirlər,

Yaxşı, çıxıb neyləyək, hara gedək münəvvər?

Sən biləni başqa yer burdan rahatdır yə'ni?

Yox, kurort zənn etməyək fabrik ilə mə'dəni.

Üz-üzə gələcəksən insanlarla münəvvər,

Hər yerdə, hər məkanda.

Nə deyim, görəcəksən filan da, bəsməkan da...

Xəttə cərəyan gəlir,

Qaranlıqdan işığa çıxan gözlər qamaşır.

Elektrik motoru elə bil donquldanır.

Kiminləsə savaşır.

Tramvay ağır-ağır öz yoluna düzəlir.

- Yadındamı, baləli, qələm çəkdik hər şeyə.

Göz yumduq hər gileyə.

Eşqə, sədaqətə biz and içərək

Vurğunun, “Komsomol poeması”nın

Ilk sətirlərini xatırladantək:

Ayazlı-şaxtalı bir qış səhəri

Iki yoldaş olub yola düzəldik.

Nabələd-nabələd gəzib şəhəri

Axırda tramvay parkına gəldik.

Bizə yataqxana... bizə iş... hörmət...

İnsanlıq... şirinlik... qayğı... hərarət...

- Yaxşı ki, bunları sayırsan bir-bir...

Ötür dayanacaqlar, tramvay parka gedir,

Maşın tapa bilməyən sürücüyə əl edir,

Tramvay parka gedir...

- Mən bunları sayıram, mən bunları qanıram,

Ancaq öz qərarımı yenə doğru sanıram.

- Park bizə ev verəcək bu gün-sabah, münəvvər!

- Parkda işləməyənlər küçədə yatır məgər?

Tramvay bir dövrənin ətrafında dolanır.

Çıxa bilməz kənara, gedə bilməz uzağa.

Ömrün, həyatın yolu üfüqlərə uzanır.

Bizə qol-qanad gərək üfüqləri... aşmağa,

Üfüqün yolu çətin, üfüqün özü əlvan,

Qoy bu son dövrə olsun, ayrılaq tramvaydan.

Üfüqün bir parçası harda yanır, baləli?

Kəndimizin üstündə, yanırmı?

- Yanır, bəli!

- Bax, o həmin parçada niyə görünməyək biz?

Tinlərin arasında tam sür'əti boğulan

Tramvayda nə üçün keçsin ilk gəncliyimiz?

Sənինlə bağlamışam arzumu-diləyimi.

- Peşimansan?

- Yox?

Duymursan ürəyimi?

Getməsən də, dözərəm.

Boynumda pul çantası, əlimdə bilet topu.

Tramvayda gəzərəm.

- Münəvvər!

Maaş günüdür səhər

Nəqd, halal.

Gedək nə xoşlasan al.

İkimizin qazancı üst-üstə xeyli tutur.

Maaş günüdür səhər.

Ağlayan bir uşağı konfet ovundurantək

Böyük də pul alanda hər ağrını unudur,

Qız başını bulayır:

Çanta yana əyilir, pullar dağılır yerə.

Diksinib cingiltidən geri baxır sürücü.

Gözucu.

Yenə dönür irəli,

- Saxlayım?

- Sür,

Baləli, - sür!

Parkın darvazasının işıqları görünür.

1962

Səni nağıllardan tanıyıram mən,

Silinib getmirsən təsəvvürümdən.

Ağzım açıq qalıb cəsarətinə,

Tilsimlər sındıran məharətinə,

Təsvirdə bir tikə boyun var sənin,

Boyuna uyuşmur ancaq düşmənin.

...Ağ div yeddibaşlı, sən yeddi barmaq.

Qara div gəşt edir, titrəyir torpaq.

O üçbığ kosadır, bu göygöz kosa,

Gəlir küpəgirən əlində əsa.

Bir anda ətrafı bürüyür sükut-

Başının üstündə bir parça bulud-

Nəhəng ifritəyə çevrilir, aman!

Bir mahal qan udur bir əjdahadan...

Sənin gör nə qorxunc düşmənlərin var.

Sənin gör nə gülünc düşmənlərin var.

Aldadıb onları hər addımbaşı-

Boynuna keçirib dəyirman daşı

Divi öz əliylə qəhr eyləmisən.

Cırtdan - acizlikdən, kütlükdən uzaq,

Ağıllı, tədbirli, dəcəl, xeyirxah.

Onu yaratmışdır insan xəyalı,

Zirəklik, çeviklik, cəldlik misalı

Nağıllar dağların dalında qaldı...

Həqiqət çoxaldı, xülya azaldı,

Lap görünməz oldu gözlərə cırtdan.

İstehzalı gəldi bizlərə cırtdan.

Kiçik dövlətlərə cırtdan deyildi,

Kiçik millətlərə cırtdan deyildi,

Boyu çıxmayanlar tə'nəyə dözdü,

"Cırtdan" ləqəbiylə ağrıdı, gəzdi.

Cismani xırdalar cırtdan oldular,

Mə'nəvi xırdalar azman oldular.

Hünər boy-buxunda olsaydı əyər,

Cırtdan yaratmazdı ulu nəsillər.

Dağ boyda adamlar tanıyıram mən

Qorxaqlıq tökülür sir-sifətindən.

Xırdadır, cırtdandır onun vicdanı,

Ona tay etməyək nağıl - "Cırtdan"ı.

Və'dindən çəkilən, sözündən qaçan,

Kölgəsindən qorxan, özündən qaçan,

Zavallı nəhənglər tanıyıram mən.

Min cırtdan asılıb yan-yörəsindən,

Pambıqla baş kəsən, ömür zay edən...

Matəm mitinqində ahu-vay edən...

Qılıncsız cəlladlar tanıyıram mən

Cırtdanlar sürüşür yumşaq əlindən...

Gözü dar, könlü dar, sinəsi taxta

Qınına çəkilib zal-zal otaqda

Öz səsi başına düşənlər ki var -

Bugünkü nağılsız cırtdandır onlar.

“Haralısan” - sözü dilində əzbər

Bir xalqı az qala ev-ev bölünər

Filtək görünsə də cırtdan deyil bəs?

Sübuta-dəlilə dəyməz, gərəkməz.

Haqqı tapdalayıb şöhrət naminə,

Haramla qovuşan arzu-kamına,

Qorxudan təmizə ləkə vuranlar,

İgid oğlanlara tələ quranlar,

Namus oğurlayan, çörək itirən,

Yeddi arxasına lə’nət gətirən

Barmaq hədəsinə torpağın danan,

Əqidəsin danan, bayrağın danan -

Həqiqi... dəhşətli cırtdandır! ancaq

Gəl, nağıl “Cırtdan”a onu qatmayaq!

...Yenə nağılları xatırlayıram:

Cırtdan meşədədir yoldaşlarıyla

Göbələk yığırlar... qaralır axşam.

Sonra? sonra səhv yol... divin mənzili.

Qorxudan hamının tutulur dili:

“Adam-badam iysi gəlir,

Yağlı adam iysi gəlir.”

Ağız marçıldadır div ləzzət ilə,

Uşaqlar quruyub bir dəhşət ilə.

Tək Cırtdan dayanıb divlə üz-üzə:

- Get, çaydan xəlbirlə su gətir bizə,

Sonra bircə-bircə halalıq sənə.

Axmaq div xəlbiri batırır çaya,

Batırır, çıxarır hey dönə-dönə

Cırtdangil ölümdən yaxa qurtarır,

Div döyür başına, tufan qoparır...

Cırtdan vəfalıdır dosta-yoldaşa

Ey nağıl-cırtdanım, əbədi yaşa!

Eh... daşürəklilər tanıyıram ki...

Adamı əzabsız itələr oda.

Yandırıb kül elər - təki, qoy təki

Qaşı ütülməsin bir yol dünyada

Gündə min günaha batar eləsi,

Gecə səksəkəli yatar eləsi.

Qoy ona qoşulsun “Cırtdan” ləqəbi

Qoy yağsın üstünə elin qəzəbi!

Tikanlar on cürdür, çiçəklər min cür,

Onunçün laləzar əlvan görünür...

Gözəllər-göyçəklər dünyanı bəzər.

Spirtdə saxlanır təpəgözlülər...

İlanın zəhəri bir damcıdır - tək.

Sərniclər daşdırır bir qızıl inək.

Axmazlar sahilsiz olsa da bə’zən,

Acizdir, gücsüzdür bircə çeşmədən.

Bir günəş şüası min zülmət yarar.

Bir quş yuvasından soyuqdur-soyuq

Nəfəssiz kahalar, boş mağaralar.

Şikəst tək-bir olur, sağlam minə min

Yaxşı ki, yaxşı ki, bəşəriyyətin

Namərdi, nakəsi, nadanı azdır.

Pasportlu, ünvanlı cırtdanı azdır.

1967

Əlli yaşında mən, on yaşında sən...

Sən - yaşıl tumurcuq, mən - sarı yarpaq.

Əlimdən sürüşən ömürdən-gündən

Əlimdə-ovcumda bir sənsən ancaq.

Quzum, uşaq şe’ri deyil bu şe’r...

Sabaha aparır məni yelkənim.

Bu gün heç sən bilmə atan nə deyir,

Gün gələr bilərsən, mahirim mənim!

Kim öz ayranına turş deyib ki, kim...

Qoy mən də tə’rifi qoyum bir yana.

Başqa duyğularla çırpınır qəlbim,

Yaxın gəl, qulaq as şair atana.

Qorxma, nəsihətlə yormaram səni,

Quru nəsihəti yox görən gözüm.

Ey mənim ömrümün tənha yelkəni,

Başqadı mətləbim, başqadı sözüm.

Görərsən: hər kəsin öz taleyi var,

Heç bir şey talesiz deyil dünyada.

Küləksiz - şəlpətək yelkən sallanar,

Küləkdə qabarar yelkən dəryada.

Yelkənin taleyi küləkdir, külək,

Bu vaxt o qartaldır dor ağacında.

Küləksiz elə bil dara çəkərək,

Yelkəni asıblar dar ağacından.

Küləksiz yelkənə dönərdim sənsiz,

Həsrətlə baxardım dəryaya, oğlum!

Gərəksiz yelkənə dönərdim sənsiz,

İlişib sahildə qayaya, oğlum!

Qara torpaqdadır dənin sabahı,

Nimçələr içində dən çörək olmaz.

Mənim sabahımdır, sənin sabahın,

Daha başqa cürə düşünmək olmaz.

Lalənin taleyi - yaraşığında,

Nərgizin taleyi - ətrində, oğlum!

Gecə - qiyamətdir ay işığında,

Səhər - qızıl fəcrin çətrində, oğlum!

Ətrim yaraşığım, günəşim, ayım,

Qırmızı üfüqüm, yaşıl çəmənim.

Sahilsiz dənizim, hüdudsuz çayım,

Canım-gözüm mənim, taleyim mənim!

Bircə ağac bitsə, səhrada, oğul,

Yer-göy qıyıb ona, soldurmaz heç vaxt...

İnsan olan bəndə dünyada, oğul,

Yeganə ümidi öldürməz heç vaxt...

Mənim arzularım nəhəng okean,

Kiçicik bir salın ümidindəyəm.

Sənsən o kiçik sal... coşsa da tufan,

Uğurlu iqbalın ümidindəyəm.

Ömür sarayımdan hər saat, hər gün

Bir kərpic qopsa da, düşsə də, nə qəm.

Ömrün bu işini bildiyim üçün -

İlləri irəli çəkmək istərəm.

Ey körpə şitilim, fidanım mənim,

Böyük, qol-budaqlı bir aləm ol sən!

Ağıllım, şıltağım, şeytanım mənim,

Gözüm görə-görə abidəm ol sən!

Şan-şöhrət heykəli deyil gərəyim,

Gözütox, könlütox, babat şairəm.

Hər sənə baxanda uçur ürəyim,

Babat olsam belə, xoşbəxt şairəm.

Tək şe’r yazmaqla şair olmağı,

Kifayət bilmirəm, - bəlkə də səhvəm.

Yalnız yazan kimi yadda qalmağı

Özcə taleyimçin kəm sayıram, kəm.

Ata həyəcanım, ata sevincim

Bütün yazdığıma bərabər mənim.

Coşur ürək qanım, axır göz incim

Mehrinə hər axşam, hər səhər mənim.

On ildir aləmin yadındayam mən,

Şirinim, şəkərim, qəndimlə oğlum!

On ildir aləmin yanındayam mən,

Adına içdiyim andımla, oğlum!

Çox da bənd olan yox mənə on ildir;

Təzə yazdığım nə, yazacağım nə.

Hamı soruşur ki... necədir mahir?

Hamı xeyir-dua diləyir sənə.

Mən səni çilçıraq görmək istərəm

Qaranlıq qovuşan asimanımda;

Mən səni min budaq görmək istərəm

Xəzanı başlayan bu ormanımda.

Mən ol, heç olmasa, bəd ayaqda sən...

Yox, əgər bacarsan min dəfə yüksəl!

Başqa söz demirəm, yaşamaqda sən

Ən azı mənə çək, mənə oxşa, gəl!

Bə’zən unuduram, uşaqsan hələ,

Səni böyük kimi dindirirəm mən.

Gəl, bunu zənn etmə sən elə-belə,

Bu “səhvim” bilirsən nədəndir, nədən?

Tükənir, qalmayır səbrim-qərarım,

Sənin gəncliyinə can atır ürək.

Əlvan arzularım, xoş arzularım,

Dolanır başına pərvanələrtək.

Dana bilməsəm də nəsihəti mən,

Xoşuma da gəlmir deyim düzünü;

Həyat vəsiqəni al taleyindən,

Unutma atanın gəl bu sözünü.

“Xüsusi çəki” var, kimyada, bala,

Yox, daş-tərəzilik deyil bu çəki,

Kim ki, onsuz yaşar dünyada, bala,

Vücudu qovuqdur hesab elə ki.

Dəniz qurban istər, qurban, mahirim,

Gövhər ələ gəlməz asan, birtəhər.

Mənim də ürəyim ümman, mahirim!-

Sən də bu ümmanın içində gövhər.

Mənim daşdan çıxıb hər işim, oğlum,

Gəl ki, dumdurudur, daşdan çıxan su.

Dünyaya belə gec gəlişin oğlum,

Görməmiş eləyib məni, doğrusu.

Yox, daşdan çıxmasın sənin qismətin,

Ancaq asana da heç vaxt dadanma.

İsti-soyuq sudur asanla-çətin...

Birində titrəyib... birində yanma!

Dənizdə küləyin işi ikiqat,

İkiqat çətindir, ikiqat, oğlum!

O həm özü üçün açır qol-qanad,

Həm yelkənə verir qol-qanad, oğlum!

Sən də dəryalarda küləklər kimi,

Qanad aç, qanadın qanadım olsun.

Zülmətləri yaran şimşəklər kimi

Qüdrətin, qüvvətin inadım olsun.

“Olsun”u, filanı... qoyaq kənara,

Mənim quzu balam, gül-çiçək balam.

Gedək bağçalara, gedək bağlara,

Əlini mənə ver, gəl gedək, balam!

Əlli yaşında mən, on yaşında sən...

Sən - yaşıl tumurcuq, mən - sarı yarpaq.

Əlimdən sürüşən ömürdən-gündən

Əlimdə-ovcumda bir sənsən, ancaq!

1976

KAPİTAN

Sinəsinin üstündən itələyib yorğanı

Balışa dirsəklənir yorğan-döşək yorğunu.

Çiynində dayanmır bürünc düyməli pencək,

Əriyib getmiş kürək...

Bayır çənli-dumanlı, otaq yarıqaranlıq;

O, ətrafa gəzdirir, gözlərini bir anlıq.

Tavanın ortasında bir lampa yırğalanır,

O gah sönür, gah yanır.

Baxır qoca dənizçi köks ötürə-ötürə.

Çarpayıdan yapışıb bir az qalxır hündürə.

Xatırlayır, dənizin qoynunda gecəyarı

Qorxulu nöqtələrdə göz vuran mayakları.

Kapitan körpüsünün sürahısı sanır o,

Əllərində iz salmış çarpayı dəmirini

Dalğalar da dinləyir kapitanın əmrini.

Sağda acgöz burulğan, solda sualtı qaya,

Girsələr də pusquya...

O aparır gəmini təhlükəsiz, xatasız,

O inanır, mayaklar ola bilməz vəfasız...

Otaq yarıqaranlıq... hansı dəniz, nə mayak...

Tavanda yanıb-sönən kiçik lampadır ancaq-

Onun təsəvvüründə bu lövhəni yaradan,

Başa düşür kapitan, özündədir kapitan.

Ürəyinin telində oynayan mizraba bax,

Gözünün çuxurunda qaynayan əzaba bax!

İstəyir acığından söküb-töksün yatağı

Yorğan-döşək dustağı.

Çiynindən yerə düşüb bürünc düyməli pencək,

Düymələr cingildəyir son əlvida zəngitək.

...Körpüdən ağır-ağır ayrılır gedir gəmi,

Yaylıq yelləyənləri yenə tərk edir gəmi.

Kapitan körpüsündə o, vüqarla dayanıb;

Papaq gözünün üstdə... iftixarla dayanıb,

Dəniz azad, göy azad, ürək açır hər tərəf,

Üfüqlər narıncı tül, buludlar sədəf-sədəf

Gəminin dövrəsində aşır-daşır, ləpələr,

Aşır-daşır, yorulur, uzaqlaşır ləpələr,

Suitilər şütüyür, qağayılar səslənir,

Gəmi üzür, üzdükcə kapitan həvəslənir.

Nə gəmi, nə kapitan... otaq yarıqaranlıq,

Qoca qarşı divara nəzər salır bir anlıq;

Taxta rəf üzərində durur gəmi modeli,

Tən ortadan qırılmış “dor ağacının” beli.

“Göyərtədə”, “bacada” hörümçək tor bağlamış,

Baxımsız evin tozu, “gəmi”ni suvaqlamış.

Səhv edərəm desəm ki, onu oyuncaq sanan,

Nişandır, yadigardır ömründən bir insanın.

Bu balaca modellə xatirələr bağlıdır.

Yarımdünya bir gəmi, bir də Xəzər bağlıdır.

Yarımdünya bir gəmi, yetmiş illik bir həyat.

Bir həyat ki, bir anı ötməmiş sakit, rahat,

Min insan həyatına min kərə girov olmuş,

Od olmuş, alov olmuş.

Dağ boyda, dalğalarla dayanmışdır döş-döşə,

Körpüyə alnıaçıq ayaq basmış həmişə.

Qoca baxıb modelə - anır “yarımdünyanı”.

Bəs “yarımdünya” hanı?

Suları yara-yara

O yenə səfər edir bakıdan uzaqlara.

Kapitan körpüsündə durmuş cavan bir oğlan

Təzə, cavan kapitan.

Təzələnməyən nə var, görəsən bu dünyada?

Qoca təsəlli tapır bunu saldıqca yada.

Payızda sarı yarpaq tökülməsə torpağa,

Yazda nə rövnəq verər maralbuynuz budağa?

Çöldə külək titrədir çarhovuzun suyunu;

Su əsir əsim-əsim bir ipək köynək kimi.

Balacalar oynayır gəmi-gəmi oyunu,

Əl-ayaq su içində, yanaqlar çiçək kimi,

Üzür kağız gəmilər, sayı yox, hesabı yox.

Bə'zisinin xırdaca ləpəyə də tabı yox.

O baxır pəncərədən, baxır gözündə həsrət.

Görəsən, bu həsrəti hiss edirmi təbiət?!

Çöldə təzə başlanan bir ömrün nəfəsi var,

Çarhovuzun suyunu şappıldadır uşaqlar.

1959

- Axı, necə oldu həmin məsələ?

Gözləyin hələ!

- Nə qədər?

- Onu yoldaşlar bilər.

- Kimdir bu yoldaşlar, kim?

Qoyun onların yanına gedim.

İnanmıram -

İncidə yoldaşı yoldaş.

İnanmıram -

Yoldaşın köksündən

Asıla daş.

- Birini bilirsən,

Birini yox.

Yoldaşların işi-gücü,

Dərdi-səri çox.

- Onda siz əncam çəkin,

Siz!

Qolunuz...

Möhrünüz...

Zənginiz...

- Yoldaşlarsız?..

Gedin, gedin,

Darıxmayın.

Gəlin əvvəlində təzə ayın -

O, sakit-sakit

Guya ərk edir.

Məni hövsələ tərk edir.

- Heç olmasa söyləyin

Təxmini rə'yinizi

Düzəlməz? düzələr?

- Yoldaşlar bilər, -

Canımı dişimə tutdum.

Dözdüm,

Bezdim.

Uddum...

Gəldim təzə ayın əvvəlində.

"Yoldaşlar" sözü

Bitmişdi

Zalımın dilində:

- Baş tutmadı,

Düzəlmədi.

Yoldaşlar

Müsbət rə’yə gəlmədi.

Özgə nə qulluğunuz var?

Bəlkə, yoldaşlar...

Güldüm. O, da güldü,

Molla Nəsrəddin kimi

Gülüşümü

Razılıq əlaməti bildi.

Dedim:

- Deyin əsl yoldaşlara

Alsınlar əlinizdən

Sığorta vəsiqənizi...

Dilinizə “yoldaş” sözü

Gətirməyə

Qoymasınlar sizi.

Yoldaşlar hara?

Yolda daşlar hara.

1965

ROYAL

Üzeyir hacıbəyovun ev-muzeyindəki

Royalın önündə düşüncələr

Üşüyür... sahibsiz qalıb bu royal,

İnnabı məxmərə bürünüb bərk-bərk.

Möhtəşəm sükuta dalıb bu royal

Şirmayı dilləri dillənməyəcək...

Dayan! indi-indi xatırlayıram:

O zaman on yaşım olmazdı hələ,

Keçib bu küçədən mən səhər-axşam,

Gedərdim yaxın bir qohumum gilə.

Bakı... Ketsxoveli küçəsi... bu mülk...

Bu mülkü sehrli arqan sanardım.

Uşaq aləminin marağı böyük,

Arqan çalınardı, mən dayanardım.

Bu birmərtəbəli balaca mülkün

Sanardım səslənir daş-divarı da.

Qapı-pəncərələr çalınır bütün,

Gözəgörünməzdir qalanları da.

Evlər cərgəsində sadə bir bina,

Bir böyük Üzeyir, bir adi royal.

Koroğlu gəlirmiş, demə meydana:

Saz, qılınc, kişnərti, od qoparan nal...

Bu evin yanından keçəndə hər gün

Musiqi tilsimə məni salırdı.

Sən demə, içində bu xırda mülkün

Koroğlu zalımdan qisas alırdı.

...Bu evin yanından keçəndə səhər,

Şirmayi dillərdən nur tökülürdü.

Sən demə, döyüşə gedir dəlilər,

Uzaq Çənlibeldə dan sökülürdü.

...Bu evin yanından keçəndə gündüz,

Royal bəstələrdi cəngi dastanı...

Qırata yol verər dərə, təpə, düz,

Misri doğrayardı paşanı, xanı.

...Bu evin yanından keçəndə axşam,

Royal danışardı saz səsləriylə.

Qöncələr açardı sevgi, arzu-kam,

Rövşənin, Nigarın nəfəsləriylə.

...Bu evin yanından keçəndə gecə,

royal zülmətləri yarar, yarardı.

El gücü - sel gücü görünüz necə

Qanlı buxovları qırar, qırardı.

Bu evin yanından ötdükcə illər,

Royal şahinləşər, qartallaşardı.

Onun qanadında bu şanlı əsər,

Ölkələr, dənizlər, dağlar aşardı.

İnnabı məxmərə bürünüb royal,

Qırmızı yapıncı geyib koroğlu.

Xalqın taleyinə gülür istiqbal,

- Hoydu, dəlilərim! - deyir koroğlu.

Köhnə bir küçədə kiçik bir bina...

Dəyib-toxunulmaz bülbül yuvası.

Burda “Koroğlu”nu verdi cahana

Böyük Üzeyirin böyük dühası.

1979

NƏDİR

Nə sən Leyli, nə mən Məcnun...

Bəs bu təzə dastan nədir?

Deyildirsə gözüm Ceyhun,

Bəs bu büllur ümman nədir?

Nə sən uşaq... nə mən uşaq...

Bəs bu dəli sevda nədir?

Mənim dünyam sənsən ancaq,

Səndən özgə dünya nədir?

Nə sən gülsən, nə mən bülbül...

Bəs bu çılğın cəhcəh nədir?

Dönməyibsə qana könül...

Əlində al qədəh nədir?

Nə sən hakim, nə mən məhkum...

Bəs bu zülm-zillət nədir?

Sənə həsrət qalan ruhum

Bilirdi ki, həsrət nədir?!

Nə sən inci... nə mən qəvvas

Bəs bu dərin dərya nədir?

Heç olmasa, bir qulaq as,

Yuxuma gəl!.. rö’ya nədir?

Nə sən yıxdın, nə mən yıxdım,

Bəs viranə qalan nədir?

Yerə batdım, göyə çıxdım,

Sənsiz yer-göy viranədir.

Nə sən o sən... nə mən o mən...

Bəs ömürlük qalan nədir?

Yox, mən, mənəm ölənəcən,

Mən bilmirəm yalan nədir?!

1973

SONUNCU VAQONUN QIRMIZI İŞIĞI

Gecənin zülmətində

İtibdir yollar-izlər,

Çaylar, göllər, dənizlər.

Gecənin zülmətində

Bircə rəng hökmrandır,

Başqa rənglər yalandır.

Gecənin zülmətində

Sönüb ulduz,

Batıb ay...

Gecənin zülmətində

Kömür ütüsüylə ütülənib

Eniş,

Yoxuş,

Dolay.

Fəqət,

Uda bilməyir zülmət

Sonuncu vaqonun qırmızı

Fanarını,

Ömrün gecə qatarını...

Timsah

Günəşi uda bilməyən tək

Səni də

Zülmət uda bilməyəcək,

Ay ürək!

Çaqqıldayır təkərlər

Relslərin calağında

Keçir gecə qatarı,

Yanır qırmızı işıq

Zülmətin qucağında.

Heydən düşür paravoz

İniltili fit çalır,

Gedir ömrün qatarı

Dayanacağa az qalır...

SOLO

Neçə ildir yana-yana o, tar çalır...

“Rondo” çalır, “təsnif” çalır, “qatar” çalır.

Gicgahında dən görünür birəm-birəm,

Baxışında qəm sezilir, gizli bir qəm.

Pencəyinin yaxasında işıltı var -

Sürtmüş onun sinəsində səslənən tar...

Barmaqları pərdələrdən axa-axa,

Başlar üstən dirijora baxa-baxa

O, tar çalır, simdən-simə qonur mizrab,

“...Fantaziya”, “sözsüz mahnı”, “segah”, “rahab”.

Xallar vurur bir-birindən şirin, incə,

Özgənin də, özünün də ürəyincə,

Özgələri duya bilməz bəlkə bunu, -

Tarzənin harda nə xal vurduğunu.

Orkestrdə - min sədalı bu ümmanda

Bir dalğadır adsız-sansız tar çalan da.

O, bir dəfə əl saxladı. dedi: - görək

Bilinəcək?..

Yox, dirijor hiss etmədi əsla bunu,

Bir mizrabın, bircə tarın susduğunu.

O, üzünü çalanlara tutsa belə,

Bu ki, duymaq deyil hələ.

Əl saxlayan tarzənə tək öz qəlbi

Hərarətlə,

Məzəmmətlə

Dedi: - yoxdur ixtiyarın, -

Niyə susur sənin tarın?

Kim yaradır bu ahəngi, bu axarı?

Sənin tarın, onun tarı.

Hər ulduzun adı yoxdur, işığı var,

Bir ulduz da sönsə belə nur azalar.

İşarəylə solo çalır bir tarizən,

Ürək duyur: dinləyirsən hərarətlə sən.

Orkestrə gələn günü lap cavandın,

Onda birgə çalmağı da şərəf sandın.

Dirijor da görünmürdü onda bu cür...

O da sadə bir kişiydi, qəşəng, hündür.

Dinləyərdi, dindirərdi tez-tez səni,

İzləyərdi hər xalını, hər pərdəni.

Söyləyərdi: - sən nə tələs, nə də qəm çək,

Sabah hər kəs sənə qibtə eyləyəcək.

Lap qiyamət çalacaqsan,

Ə'la solist olacaqsan.

O, çoxuyla belə deyib-danışardı,

İnsana da, sənətə də eşqi vardı.

lakin nəsə, tanındıqca, ad aldıqca,

alqışlanıb, tə'riflənib, ucaldıqca,

gicəllənir, itirirdi o, başını,

bir ədayla oynadırdı göz-qaşını.

qürrələndi uyub şana, şöhrətə o,

fərq qoymadı peşə ilə sənətə o.

əlindəki zərif çubuq toxmaq oldu,

incəlikdən uzaq oldu.

O dayandı, o qaraldı kötük kimi,

əl-qol atdı, fısıldadı körük kimi.

O, zamandan aylar ötdü, illər ötdü,

Tarçı demir ömrü-günü hədər ötdü.

Vaqif oldu musiqinin axarına,

Öz tarına

Ürəyinin tellərindən tel caladı.

Ancaq solist çəkilmədi onun adı.

Səslənsə də neçə-neçə nəğməli tar,

Onun tarı eşidildi aydın-aşkar.

Çaldı-çaldı, açılmadı qol-qanadı,

Çaldı... solist çəkilmədi bir yol adı.

Yerlər gəzdi, yerlər gördü bu illərdə,

Onun tarı dilə gəldi yüz şəhərdə.

Alqış səsi titrədəndə salonları

Göylərə də sığışmadı iftixarı.

Coşub-daşsın təki xalqın iste'dadı,

Təki xalqa qurban olsun adsız adı...

Fəqət ürək bir həsrətlə yansa əgər,

Bu yanğını söndürərmi təsəllilər?

Gözlərini bir nöqtəyə zilləyərək

Xəyalında o, çalır tək.

Qulaq asır yaxın ona, uzaq ona,

Qulaq asır oğul ona, uşaq ona,

Sevdalı kür, məhzun araz, ana Xəzər,

Doğma bakı - ruhu incə, fəhlə şəhər.

Sanki bütün kameralar

Çevrilmişdir ona sarı,

Adı gəzir bərbəzəkli e’lanları.

Mikrofonlar yayır onu hər bir yana,

Meşələrdə quşlar gəlir həyəcana,

Qulaq asır, qaynar bulaq,

Nurani dağ

Şərqin müdrik muğamına.

Əhsən - deyir, ana torpaq

Tarzənin ilhamına.

Qulaq asır orkestrin “allahı” da,

Ona qarşı işlətdiyi günahı da

Etirafmı edir yoxsa? Edir, bəli.

Əsir əli.

Uzun çubuq düşür yerə.

Bu çubuqla o, sədd çəkib -

Neçə-neçə arzulara, diləklərə.

Bu çubuqla kökdən salıb neçə tarı,

Vahimədən batır onun qulaqları.

Tarçı çalmır, xəyalında çalır aşkar.

Pıçıltılar eşidilir, pıçıltılar...

Orkestrin üzərindən elə bil ki,

Bahar keçir.

Elə bil ki, şimşək çaxır,

Sellər gəlir, sular keçir.

Baxışlarda sevinc dolu bir iztirab...

Elə bil ki,

Orkestrdə bir orkestr dilləndirir

Zərif mizrab.

Dirijorun gözlərində qəfil heyrət,

Qəzəbindən gömgöy oldu dodaqları.

Bu nə sifət, bu nə hünər, nə cəsarət,

Nə karədir tək səslənə onun tarı?

Pozuldu ritm, batdı ahəng, qırıldı takt,

İcazəsiz, işarəsiz, heç vaxt... heç vaxt.

Necə? sənət - dərəbəylik? Ola bilməz!

Mən icazə verməmişəm, çala bilməz!

Yox, o çalır, heç ahəng də pozulmayır,

Bircə xal da pozulmayır,

Bircə rəng də pozulmayır.

Zərif çubuq dönüb çomaq olmaz, olmaz!

Sənət odu yandırmasa,

Çalmaq olmaz.

Qəlbdən nəğmə ucalırsa -

Əldən mizrab almaq olmaz.

1961

PİŞİK

Sən bir zaman nəhəng idin, ay pişik!

Qorxunc, xallı pələng idin, ay pişik!

Cütcü baba oyun açdı başına:

Hiylə qurub qoşdu səni xışına.

Vıyhavıyla vıyıldadı qamçılar,

Qamçıların uclarında damcılar...

Damcıların nar giləsi hər biri...

Nə qanlıymış o cütçünün tədbiri.

Babam deyir: - boş, havayı sözdü bu.

Cütçü baba itirmişdi ağlını?

İncidəydi əli-qolu bağlını?

Kişi olmuş bizim kişi babalar,

Görməzdilər belə işi babalar.

İgid olub, pələng olub nəslimiz,

Pələnglərə qurmamışıq tələ biz.

Quyruğunu basmamışam bircə yol...

Yerin isti, sür-sümüksüz ətin bol.

Özün üçün gərnəşirsən tox, pişik!

Bir dəyənin dolaşanın yox, pişik!

Ayağıma sürtə-sürtə üzünü,

Gah yumursan, gah açırsan gözünü;

Gah qıvrılıb xorul-xorul yatırsan,

Gah aləmi bir-birinə qatırsan,

Bir zamanlar pələngdinsə əgər sən,

Dönüb pişik olmuşdunsa, zülmdən,

Qayıt yenə pələngə dön, ay məstan!

Nə deyirsən, bir danış, din, a məstan!

- Miauu, miauu...

1980

HEÇ NƏ

Sıldırımdan uçsun şəlalə gərək,

Bəzəkli daşlardan süzüldü - heç nə.

Azad çəmənlərdə bitsin gül-çiçək,

Dibçəkdə eyvana düzüldü - heç nə.

Dərin dəryalarda sultandı balıq,

Büllur qutuların içində heç nə.

Küləkdə yelkəndi əl boyda yaylıq,

Yelkən sakit qalan rüzgarda - heç nə.

Pələngin qüruru, filin siqləti

Sirkdə qamçılarla qırıldı - heç nə.

Tə'limçi əlində bir tikə əti

Güdməkdən gözləri yoruldu - heç nə.

Gün-günorta çağı düşüb axşama

Yolun qaranlığa büründü - heç nə.

Bu əlvan üfüqlər, bu sonsuz səma

Qəfəs millərindən göründü - heç nə.

İslah düşərgəsi adlanan məkan

Dünyanın özüycən olsa da - heç nə.

Əl-qolu hökmlə bağlanmış adam

Ölməsə də heç nə, ölsə də heç nə.

qəlbin səksəkədə, gözün saatda

uzansın görüşün bir ay da- heç nə.

gülüb danışmaq da, lap zarafat da

bir himə bənd isə nə fayda - heç nə.

“Tələsmə”, vaxtın var, nə olub məgər...

Bu sözlər minnətlə səsləndi - heç nə.

Zorla təbəssümə bürünmüş üzlər

İlıq göz yaşıyla islandı - heç nə.

Ürək ağrımamış fikir ver ona,

Çırpındı, başına dolandın - heç nə.

Sən ki azadlığın nə olduğuna

Zindanlar küncündə inandın - heç nə.

1978

XAL

Yarpaqlara xal düşür

Xəzan gələndə.

Üfüqlərə xal düşür

Tufan gələndə.

Meyvələrə xal düşür

Vaxtı ötəndə.

Ürəklərə xal düşür

Səksəkələrdən;

Ehtimaldan,

Şübhədən,

Təhlükələrdən.

E’tiqada xal düşür,

Qol-qanada xal düşür.

Neçə inam sahibi,

Neçə zorlu pəhləvan

Bu xaldan

Bihal düşür.

Sədaqətə xal düşür,

Dəyanətə xal düşür.

Damcıdaşı dələn tək

Polad əzmi dəlir xal,

E’tibara xal düşür,

Arzulara xal düşür.

Nurlu ümid üstünə

Zülmət olub

Gəlir xal.

Uduzmağın öz xalı

Udmağın da yüz xalı...

Xal,

Xal,

Xal.

Birinin heçi-puçu,

Birinin cah-cəlalı.

Xal da söz kimi şeydir:

Öz yerində qiyamət,

Yanaqlarda tamaşa...

Burunlarda xəcalət.

Xal üstündə az qala

Qada düşüb, qan düşüb;

Qılınclar qından çıxıb,

Şahlar taxtından düşüb.

Xal üstündə

Günahsız adamlar

Gedib bada.

Düşüb böhtana,

Oda.

Şairlər

Daşıb-coşub.

Nəğmə qoşub, söz qoşub

Vəsf eləyiblər xalı

Xallı mahi cəmalı.

Xal tələyə qoyulmuş

Dən olanda ayıq ol!

Tələdəki dən ilə...

Tən olanda ayıq ol!

Ömrün,

Bəxtin,

Qismətin,

Ağlın,

Zövqün,

İsmətin

Lövhəsinə düzülmüş

İşarələrdi xallar

Ulduz qədərdi xallar

Xal,

Xal,

Xal...

1985

AXŞAM QƏRİBLİYİ

Yenə axşam çökür yamaca, yala

Sükuta qərq olur bağça da, bağ da.

Adamın gözləri dolur az qala

Elə bu məqamda, elə bu çağda.

Asiman qaralır, üfüq qaralır,

Əl-ayaq çəkilir yoldan, cığırdan.

Adam ixtiyarsız xəyala dalır,

Nəyisə, kimisə anır bu zaman.

Gözün bir nöqtəyə zillənir müdam,

Bir yerə cəm olur fikrin, düşüncən.

Hey köks ötürürsən düşdükcə axşam

Səbəbi namə'lum bir qüssəylə sən.

Örüşdən çəkilib gedir mal-qara,

Çəkilir quşların qəlb açan səsi.

Sakitlik endikcə çıxır aşkara

Çayın dərədəki həzin nəğməsi.

Bulağı tərk edir axırıncı qız,

O, evə tələsir çiynində sənək.

Bulaq doluxsunur qalınca yalqız,

Sən də kövrəlirsən həmin bulaqtək.

Ən acı, ən şirin xatirələrlə

Qovuşub gedirsən, axıb gedirsən.

Səbəbi namə'lum qəmlə, kədərlə,

Qaralan dağlara baxıb gedirsən.

Gedirsən, gedirsən başın aşağı,

Nəyi seyr edəsən, nəyə baxasan?

Elə bil udmuşdur dərəni, dağı

Bir rəngə boyanmış yerlə, asiman.

Gedirsən, deyirsən öz-özünə sən:

Bu səbəbsiz olan qüssəni unut?

Lakin, heç qoyarmı qəlbin ola şən

Axşam qəribliyi, bir də ki, sükut?!

- Hara belə?

- Uzaq sahilə.

- Yə’ni hara?

Lap uzaqlara...

- Məsələn?

- Yaxşı, eləysə

Bunu bir mən bilim,

Bir də sən.

Gedirəm.

- Hind okeanına.

- Hind okeanında

Nə var?

Yazığın gəlsin

Canına.

- Elə canımnan

Bezdiyimə görə,

Əlimi hər şeydən

Üzdüyümə görə,

Bu qədər

Gəl ha gələ,

Gül ha gülə,

Çal ha çala,

Tərif gürşadlarına,

Dünyanın ən fəxri

Adlarına,

Şahənşahlığa-

Nə şahənşahlıq-

Lap allahlığa

Dözdüyümə görə.

Bir sözümün

Heç vaxt,

Heç yerdə

İki olmadığından,

1- rəqəmindən başqa

Ayrı say

Yaddaşımda qalmadığından

Zinhara gəldiyimçün.

Suçuq qəsidələrdən,

Muncuq qəsidələrdən

Lap zara gəldiyimçün

Hələ ki, lap

Bütləşmədiyimçün

Kütləşmədiyimçün

Gedirəm

Hind okeanına.

- Elə isə ora niyə?

Ora nəyə?

-Gedirəm

Özümü öldürməyə.

- Anlamadım.

- Anla!

Gedirəm qovuşmağa

Okeanla.

İstəyirəm

Hind okeanında

Boğulam.

Bəs deyirsiz ki:

Mən nadir oğulam.

Gedirəm

Külü qanqa sovrulmuş

Qandilərin,

Nehrulların

Ruhundan

Külündən

Səməndər kimi

Təzədən doğulam.

İncimə!

Bakılılar demişkən:

-- Xərifləmisən?

Camaatı

Hərifləmisən?

Qulağının dibindəcə,

Öz doğma evindəcə

İxtiyarı əlindəcə

Bu boyda Xəzər

Sənə boy verməz

Məyər?

Get Xəzərə

Atıl də.

Atıl sonsuz xəzinə

Göy sulara

Qatıl də

Mehriban ana Xəzər?

Sənə dayazlıq elər?

Boğulmaq söhbətində

Yarım vanna da bəsdir.

Hind okeanına təşrifin

Gülməlidir,

Əbəsdir

Su ki, boğaza çıxdı

Qurtardı getdi də,

İşin bitdi, də

Hind okeanı...

Yox bir Şimal buzlu...

Baxdı mənə

Güldü acı-acı

Dedi:

- Sən bilmirsən

Nədir şöhrət möhtacı.

Nədir şöhrət mərəzi

Çəpik tiryəki

Urra biuşdarı.

Yoxsa kim atıb gedər

Doğma, şıltaq suları;

Yoxsa kim tutub gedər

Qorxunc, uzaq suları?

Kaş adi balıqçı tək

Qovuşaydım Xəzərə

Barəmdə əlli zurna

Füləməyəydi hərə.

Hind okeanı uzaqdır,

Hind okeanı dərindir.

Dərdim allah əlacı

Başımda şöhrət tacı

Çox səfərlərə çıxdım

Bu da bir səfərimdir.

Min bir səfər içində

Bir nadir səfərimdir.

Hind okeanı vahimə

Burulğanları dəhşət

Bu da bir cürə söhbət...

Cannan şirin nə var ki

Cəhənnəm olsun şöhrət.

29 yanvar 1999

HƏQİQƏT

Mən bir qranitəm - adım həqiqət

Qafil, külüngünü hara çalırsan?!

Yudu qan-tər səni, bu nə sir-sifət!

Özünü bihudə zora salırsan.

Dırnaqca qopara bilməyəcəksən

Məndən yalan tə’rif, məndən yalan söz.

Kimi istəyirsən get üzə sal sən,

Yeri get, köhnənin köhnəsiyik biz.

1975

GÖYLƏRİN ÜRƏYİ

Göylərin ürəyi nə yaman dolub,

Tökür sinəmizə göz yaşlarını.

Fələklər, mələklər uşaqmı olub,

Yoxsa unudublar öz yaşlarını?

Nə yaman kövrəlib ulduzlar-aylar,

Nə yaman yuxalıb ərşin ürəyi.

Yoxsa yerdən qopan bu ahu-vaylar,

Pərişan eləyib çərxi-fələyi?

Allah dərgahına uzanan əllər,

Yağış istəməyir, nicat istəyir,

Başını itirmiş obalar, ellər,

Adicə güzəran, həyat istəmir.

Nə yaman çatılıb göylərin qaşı,

Xalqımın çatılmış qaşına bənzər.

Dərgahın selləmə axan göz yaşı,

Qaçqın gözlərinin yaşına bənzər.

Daşıbdır göylərin səbir kasası,

İstiqlal yolusa deyildir rahat.

Ruhumla həmahəng yağış havası,

Yağış gözümnən də yağır bu saat.

20 noyabr 1998

Qayalara dəyən dalğa

Toza dönüb sovrulur.

Qayaların oyuğunda

Sular yanıb-qovrulur.

Tufan coşur, dəniz coşur,

Təslim olmur heç biri.

Çopur-çopur qayalıqdan

Seyr edirik Xəzəri.

Biz sükutla dayanmışıq,

O qaynayır, o daşır.

Külək vurur, saçlarımız

Bir-birinə dolaşır.

Üstümüzə əjdahalar,

Divlər gəlir elə bil.

Hər dalğada ayrı görkəm,

Hər dalğada bir şəkil,

Dəniz səpir üstümüzə

Milyon almaz zərrəsi.

Qəlbdə sükut, çöldə tufan,

Yerin, göyün nə’rəsi.

Gözlərimi gözlərindən

Çəkməyirəm bircə an.

Sənə baxan gözlərimi

Qırpmaz nə yel, nə tufan.

Nə sən mənə, nə mən sənə

Bir kəlmə söz demirik,

Yox, yox, biz ki, danışırıq

Nə sükut? düz demirik.

Nə tez gəldi-getdi bir il,

Sanki ötdü saat, an...

İlk görüşə çıxanda da

Gurlayırdı bu tufan.

Onda biz də coşğun idik

Bu havatək, bu sutək;

Baxışımız atəş dolu,

Gülüşümüz gül-çiçək.

Yox, yox, onda qapılmırdıq,

Xəyala biz, fikrə biz.

İlk vüsalın ilk odundan

Od tuturdu qəlbimiz.

Tufan yenə gurlayacaq,

Dəniz yenə coşacaq.

O, dənizə, dəniz ona

Sonsuz mahnı qoşacaq.

Lakin bizim həvəsimiz

Soyuyacaq, sönəcək.

Tələtümlü ürəyimiz

Durğun gölə dönəcək.

Bəlkə bir də bu sahildə

Ayanmadıq birgə biz,

Yuxuda da görüşməyə

Həsrət qaldı qəlbimiz.

Səndən ayrı günlərimdə

Bura sənsiz gələrəm.

Qulağımda tufan səsi

Ağlayaram, gülərəm.

1961

BİRCƏ YER

Silindi gözlərimin aynasından surətin,

Çəkildi xəyalımın səmasından həsrətin,

Gördüm daha görmürəm ayağının izini...

Dilimə gətirmirəm söhbətini, sözünü.

Biraz-biraz itirdim saçlarının rəngini,

Qulaqlarım unutdu səsinin ahəngini.

Yuxu da xəbər tutdu həqiqətdən elə bil,

Həqiqətin əksidir - yuxu başqa şey deyil...

Onda ki, başa düşdüm qalmayıb ümid yeri,

Bütün xatiratımı dəfn etdim diri-diri...

Od vursa da bu itki mənim yeddi qatıma,

Heyranam iradəmə, heyranam sabatıma!

Fəqət, bircə yerdə ki... qalmasın indiyədək

Bax, o yerə varmır əl, o yerə gəlmir ürək...

O yer - ürəyim mənim! Ürəyimi özün yar,

Özün özünü qopar, özün özünü apar!

1975

Çalın-çarpaz sümüklə, kəllə şəklinə bax sən,

O, bizə: - qorun, - deyir təhlükədən, ölümdən;

Xəbərdar! toxunmayın cərəyanlı tellərə,

Uğultuyla səslənən həyəcanlı tellərə.

Əsəb kimi gərilmiş naqillərdən ehtiyat!

Göydə göydən ehtiyat, yerdə yerdən ehtiyat!

Çalın-çarpaz sümüklə kələyə şükür, hələ

Toxunsanız naqilə külünüz gəlməz ələ.

Qəlbimizin telləri nədir bəs, necədir bəs?

Kəllə şəkli gəzdirsin döşündə yoxsa hər kəs?

Özümüz özümüzə necə deyək: amandır!

Ürək tellərindəki ən yüksək cərəyandır..

Özümüz özümüzə necə deyək: xəbərdar!

İnsan əsəblərindən gərgin naqil harda var?!

Özümüz özümüzə necə deyək, niyə də:

Bu tellərə toxunsaq çəkməz bir saniyə də...

Ürək dözər xəncərə, aşkar boyanar ala,

Dilimizin ucundan düşər pünhan zavala.

Elektrik telinə toxundurma əlini,

Fəlakətdir, fəlakət!

Ürəyimin telinə toxundurma dilini...

Cinayətdir, cinayət!..

1975

AĞLI- QARALI

Ağlı-qaralıdır dünyamız bizim,

Ağsız da kəm olar, qarasız da kəm.

Gözün qarası da, ağı da lazım,

Kor olluq ağsız da, qarasız da həm.

Sən də dünya kimi, sən də göz kimi-

Hicranın qaradır, vüsalın ağdır.

Bir yandan donacaq qəlbim buz kimi,

Bir yandan közərib alışacaqdır.

Günəş tək sönərəm, günəş tək yannam,

Bir şö’ləm sevincdir, bir şö’ləm kədər.

Qaraya bürünnəm, ağa boyannam,

Ağlı-qaralıdır dünya - deyirlər.

1975

Gündə bir saat

Barmaqlıqdan görünən

Fəzaya,

Ömürlük cəzaya

Dözərəm.

Ey ulu qüdrət,

Fəqət,

Məni sakındır

Bir cinayətdən

Bu cinayət-

Xəcalətdir

Məni qoru

Ömürlük xəcalətdən.

Ürəyim qübar eləsə,

Gücüm heç nəyə çatmasa

Sözüm heç ağıla batmasa

Qan udaram,

Qan qusaram.

Haqq önündə

Dilim qısa

Lal oluban

Mən susuram.

Sözüm olsa onu üzə

Mərd deyərəm.

Yox, kobud yox,

Sərt deyərəm.

Fəqət,

Ulu qüdrət,

Qoyma məni

Zəhər tuluğu olam

Onnan da pis

Şərbət qılığı olam.

Qoru məni

Yan-yörəmi

Gicitkan tək dalamaqdan,

Daladığım sir-sifəti

Sonra gedib

Sulu-sulu yalamaqdan...

***

Bir gün yağlı yeyərəm,

Bir gün yavana qallam.

Bir gün tava kababa,

Bir gün hava kababa,

Bir gün də

Ağzımı göyə açıb

Gümana qallam...

Ey ulu qüdrət,

Fəqət,

Məni qoru

Dost-düşmən yanında acı-acı

Ağlamaqdan,

Lap gül kimi,

İpək kimi ürəkləri də,

Lap daş kimi,

Kəsək kimi ürəkləri də

Ağı-ağı dağlamaqdan.

***

Yaxşılığı itirmək

Günahdır.

Öz-özünü qətlə yetirmək

Allah üzünə ağdır.

Ey ulu qüdrət,

Fəqət,

Qoru məni

Qaxıncdan,

Dalı da,

Qabağı da

Kəsən qılıncdan.

Qoru məni

Yersiz qol-qanaddan,

Qoru məni

Yersiz ehtiyatdan.

Qoru məni

Unutqanlıqdan.

Qudurğanlıqdan.

***

Beşindən qorxmasam da

İkisindən qorxaram,

Günəş altında mən

Daş deyiləm ki,

Qaram.

Günahımı boynuma

Kişi kimi alaram

Bu millətin önündə

Ey ulu qüdrət,

Fəqət,

Qoyma sınam, yalvaram

Müxənnətin önündə.

***

Hər məqamda

Zərif olmaq olmaz.

Heç məqamda

Hərif olmaq olmaz.

İnsan

Nəzakətlə qəbahətin

Arasındadır hər an.

Ey ulu qüdrət,

Fəqət,

Məni qoru

Boynu dönə bilməyən

Kərgədannan,

Nəzakət qrimli

Nadannan.

Qorxmuram

Məyus annan

Məni qoru

Ümidsiz,

Məlum annan.

Bir də,

Bir də

Ömürlük hicrannan.

6 mart 1998

AĞAR, SAÇLARIM, AĞAR

Ağar, saçlarım, razıyam, ağar!

Ağar ki, desinlər mən də müdrikəm.

Üstəlik dincəlsin bə’zi adamlar

Onsuz da mən səni, axı neynirəm.

Ağar ağırlığım bilinsin bir az,

Qara çör-çöp kimi yatma sahilə.

Dayazdakı dürrə heç kim inanmaz,

Onu dərinlikdən atma sahilə.

Ağar ki, mənim də fərqimə varsın,

Sorğulu baxışlar, suallı gözlər.

Uzaq heç... yaxşını fikir aparsın!-

Yol çəksin fikirli-xəyallı gözlər.

Mənim yaşadığım min-min həyəcan,

Döyüntü, çırpıntı çoxuna yetmir.

Ay qara saçlarım, inan ki, inan,

Şəvən bu bazarda qiymətə getmir...

Gəlin, çaşdırmayın gözləri əbəs

Axım-axım axan ilğımlar kimi.

Qorxmayın yanılmaz onsuz da o kəs-

O kəs ki, qəlbiylə görür qəlbimi.

Ağarın, saçlarım, ağarın görək,

Nə lazım yandıra çölüm özgəni.

Qurtarın, saçlarım, qurtarın görək

Nə cürəm o cür də göstərin məni.

Necə yersizsiniz, yersizsiniz, ah,

Qara bulud kimi mavi səmada.

Özgə heç... özümüz deyilmi agah,

Qışın qar nəfəsi gəzir havada.

Bəli, ömrün-günün soyuq havası!

Qara saçlarımın xeyri yox sənə.

Vaxtında nə verdi, onun cəfası

İndi də səfası nə versin mənə.

Baxıram irəli, baxıram geri,

Baxıram dövrəmə həsrət içində.

Alnıma tökülən qara telləri

Özgə də seyr edir həsrət içində...

Sinnin də, yaşın da öz yaraşığı;

Məni yaraşıqdan salma saçlarım!

Yazın da, qışın da öz yaraşığı

Qarala-qarala qalma saçlarım!..

AVTOPORTRET

Qibləgahım - həqiqət.

Səcdəgahım - sədaqət.

Daş-tərəzim - ədalət.

Qətiyyətim - cəsarət.

Riyadan - xəyanətdən

Uzağam yeddi iqlim,

Əyilləm haqq önündə,

Bilsəm ki, nahaqam mən.

Gücüm çatmayan daşı

Heç və'də götürmədim.

Yalan satıb, sonradan

Özümü itirmədim.

Dost əhdi-peymanına

Bir xətər yetirmədim.

Udub köntöy bir sözü-

Köksümü ötürmədim.

Söz yarasından şükür,

Şükür ki, uzağam mən.

Bilirəm ki, uyuşmur

Xasiyyətim yaşımla,

Barışmır ki, barışmır.

Yazım qarlı qışımla...

Qiyamət ərmağandır

Baxtımın ərmağanı:

Qəzəbim yaz şimşəyi,

Kinim bahar leysanı.

Sadəyəm-sanma fəqət,

Sadəlövh uşağam mən.

Ovqat pərdələrim var

Tarın pərdələri tək.

Nə əhvalım bozumtul,

Nə təranəm yeknəsəq.

Ancaq, bir vurğudadır,

Bir ahəngdədir ürək.

Qabağına qatmayıb

Məni hərcayi külək...

Nə ilahi qismətmiş

Cövhərən dəyişməmək!

Bax ki, yeddi cilvəli

Əlvan təmtərağam mən.

Ürəyimlə dilimin

Arasında çəpər yox.

Bə’zən sözüm ağıdır-

Ağısında zəhər yox.

Lap o tərs damarımda

Bir kimsəyə zərər yox,

Lap elə hay-küyümlə

Dostlara toxdağam mən.

Nə tamarzı qalmışam,

Nə harın boy atmışam,

Yeddi dəryanı üzüb...

Yetmiş yaşa çatmışam.

Nə irəli can atıb,

Nə qəflətdə yatmışam.

Şeir qılınclarının

Şimşək parıltısında

Mən də öz qılıncımı

Götürüb oynatmışam.

Parıltılar içində

Nuram mən, çırağam mən.

01.02.1996